ISSN: 2664-4975

# GEOSTRATEGİYA

**2020**
**№2 (56)**

**BAKI-2020**

**Baş redaktor:**
**Əli Həsənov**

**Redaktor:**
**İbrahim Əliyev**

**Məsul katib:**
**İsmayıl Qasımov**

**Redaksiya heyəti:**
**Prof.Dr. Александр Пухкал (Ukrayna)**
**Prof.Dr. Arif Quliyev (Ukrayna)**
**Prof.Dr. Aygün Attar (Türkiyə)**
**Prof.Dr. Babaxan Şərifov (Özbəkistan)**
**Prof.Dr. Cəfər Cəfərov (Azərbaycan)**
**Prof.Dr. Durxan Kıdırıli (Qazaxıstan)**
**Prof.Dr. Efim Pivovar (Rusiya)**
**Prof.Dr. Elçin Əhmədov (Azərbaycan)**
**Prof.Dr. Elman Nəsirov (Azərbaycan)**
**Prof.Dr. Ədalət Muradov (Azərbaycan)**
**Prof.Dr. Əli Həsənov (Azərbaycan)**
**Prof.Dr. Heydərbəy Bababekov (Özbəkistan)**
**Prof.Dr. Hikmət Məmmədov (Azərbaycan)**
**Prof.Dr. Xəqani Məmmədov (Azərbaycan)**
**Prof.Dr. İsa Həbibbəyli (Azərbaycan)**
**Prof.Dr. Kemal Çiçek (Türkiyə)**
**Prof.Dr. Quram Marxuliya (Gürcüstan)**
**Prof.Dr. Musa Qasımlı (Azərbaycan)**
**Prof.Dr. Sergey Pirojkov (Ukrayna)**
**Prof.Dr. Səlahəddin Xəlilov (Azərbaycan)**
**Prof.Dr. Ziyad Səmədzadə (Azərbaycan)**
**Dos.Dr. Akkan Suver (Türkiyə)**
**Dos.Dr. Aleksandr Quşşin (Rusiya)**
**Dos.Dr. Ərəstun Mehdiyev (Azərbaycan)**
**Dos.Dr. Firdovsiyyə Əhmədova (Azərbaycan)**
**Dos.Dr. İbrahim Əliyev (Azərbaycan)**
**Dos.Dr. Mübariz Qurbanlı (Azərbaycan)**
**Dos.Dr. Oleq Kuznetsov (Rusiya)**

***"GEOSTRATEGİYA"*** jurnalı Azərbaycan Respublikasının
Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan
Respublikasının dissertasiyaların
***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər***
üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.
İctimai-siyasi, elmi-nəzəri jurnal ildə altı dəfə nəşr olunur.

ISSN: 2664-4975

# GEOSTRATEGY

2020
№2 (56)

BAKU-2020

**Editor-in-Chief:**
**Ali Hasanov**

**Editor:**
**Ibrahim Aliyev**

**Executive Secretary:**
**Ismayil Gasimov**

**Editorial Board:**
**Prof. Dr. Alexandr Pukhkal (Ukraine)**
**Prof. Dr. Arif Guliyev (Ukraine)**
**Prof. Dr. Aygun Attar (Turkey)**
**Prof. Dr. Babakhan Sharifov (Uzbekistan)**
**Prof. Dr. Jafar Jafarov (Azerbaijan)**
**Prof. Dr. Durkhan Kidirili (Kazakhstan)**
**Prof. Dr. Efim Pivovar (Russia)**
**Prof. Dr. Elchin Ahmadov (Azerbaijan)**
**Prof. Dr. Elman Nasirov (Azerbaijan)**
**Prof. Dr. Adalat Muradov (Azerbaijan)**
**Prof. Dr. Ali Hasanov (Azerbaijan)**
**Prof. Dr. Haydarbay Bababekov (Uzbekistan)**
**Prof. Dr. Hikmat Mammadov (Azerbaijan)**
**Prof. Dr. Khagani Mammadov (Azerbaijan)**
**Prof. Dr. Isa Habibbayli (Azerbaijan)**
**Prof. Dr. Kemal Chichek (Turkey)**
**Prof. Dr. Guram Markhulia (Georgia)**
**Prof. Dr. Musa Gasimli (Azerbaijan)**
**Prof. Dr. Sergei Pirozhkov (Ukraine)**
**Prof. Dr. Salahaddin Khalilov (Azerbaijan)**
**Prof. Dr. Ziyad Samadzadah (Azerbaijan)**
**Assoc. Prof. Dr. Akkan Suver (Turkey)**
**Assoc. Prof. Dr. Alexandr Gushshin (Russia)**
**Assoc. Prof. Dr. Arastun Mehdiyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Firdovsiyya Ahmadova (Azerbaijan)**
**Assoc. Prof. Dr. Ibrahim Aliyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Mubariz Gurbanli (Azerbaijan)**
**Assoc. Prof. Dr. Oleg Kuznetsov (Russia)**

***"GEOSTRATEGY"*** journal is included in the list of periodicals recommended by the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan to publish the main results of the dissertations of the Republic of Azerbaijan on ***History, Anthropology, Political Science, Philosophy, Sociology and Economic Sciences.***
The socio-political, scientific-theoretical journal is published six times a year.

UOT 327
341, 24

Siyasi elmlər

# MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ LİBERALİZMİN XARAKTERİK ƏLAMƏTLƏRİ

**XƏYYAM İSMAYILZADƏ**
*Bakı Dövlət Universiteti,*
*Siyasi elmlər üzrə fəlsəfə doktoru,*
*dosent əvəzi*

*E-mail: ekonika22@yahoo.com*

Liberalizm əsasən məntiq və praktik cəhətdən bir-birinə bağlı dörd prinsipdən- fərdiyyətçilik, azadlıq, təbii nizam-kortəbii nizam və məhdud-liberal dövlətdən ibarətdir ki, onlar da bir sıra ortaq və ümumi cəhətlərə malikdirlər.

Renesans dövründə kilsənin kütləvilik meyllərinə cavab olaraq yaradılmış fərdiyyətçilik prinsipi - fərdin hüququnu cəmiyyətin hüququndan üstün hesab olunmasıdır. Liberalizm fərdin siyasi azadlığını müdafiə edir və onu hər şeydən üstün görür. Fərd əsasdır, o cəmiyyətin bütün sinif və qurumlarından irəlidədir. Liberalizmə görə fərdin maraqları cəmiyyətin maraqlarından öndə gəlir və yalnız fərd xöşbəxt olduğu halda cəmiyyətin xöşbəxtliyindən söhbət gedə bilər.

Bir sözlə fərd hər hansı cəmiyyətin, toplumun, qurumun məqsədlərinin həyata keçirilməsi üçün vasitə ola bilməz. Fərd özü məqsəddir, vasitə yox. Liberalizm "cəmiyyətin yaxşılığı", "toplumun mənfəəti" kimi fikirləri rədd edir, çünki fərdi toplumun mənfəəti üçün istifadə onu vasitə kimi görmək anlamına gəlir.

Azadlıq - liberalizmin ən əsas, təməl prinsipi olub dözümlülük, tolerantlıq, şəxsi həyat kimi dəyərlərin qaynağıdır. Fərd davranışlarına müdaxilə edilmədiyi müddətdə azaddır və müdaxiləsiz sahə nə qədər genişdirsə azadlığın sərhədləri də bir o qədər əhatəlidir.

Sosial və siyasi mənada azadlıq fərdin heç bir təsir altında qalmadan istədiyini etməsidir. İnsan azadlığı fərdin azadlığının, fəaliyyətinin əsassız olaraq məhdudlaşdırılmaması, inanc azadlığı fərdin istədiyi dini düşüncəyə sahib olması və heç bir dini görüşə məcbur edilməməsi, sərbəst düşüncə fikirlərini sərbəst ifadə etmə və yayma azadlığıdır.

Liberalizm insanın sadəcə ağıl və həqiqət tərəfindən idarə edildiyini qəbul edir. Azadlıq həqiqətə gedən bütün yolların açarı, ağıl isə azadlığın mahiyyətidir. Beləlikə, liberalizmə görə insan ağlını təsir altda qoyan hər şey istibdaddır. Dövlətin məqsədi isə insan azadlığını təmin etməkdir və ancaq bunu təmin etdiyi müddətcə qəbul edilə bilər.

Təbii nizam - yazılı qanunların müdaxilə etməməli olduğu ümumi qanunlar sistemidir. Bu insanların harmoniya içində öz azadlıqlarını yaşamasıdır və dövlətin əsas vəzifəsi bu mühiti qorumaqdır. Təbii nizam özü isə daim inkişafdadır.

Liberalizmin yaradıcısı hesab olunan Con Lokkun təbii nizam haqqında nəzəriyyəsində kortəbii nizam və bazar iqtisadiyyatı haqqında təməl fikirlər öz əksini tapmışdır. O hesab edirdi ki, dövlət və fərd heç bir halda digər fərdin şəxsi sahəsinə, həyatına müdaxilə etməyə ixtiyarı yoxdur.

Kortəbii nizam - müxtəlif, hətta bir birinə zidd məqsədlərin ümumi mənfəət üçün uzlaşdırılmasıdır. İqtisadi azadlığın olmadığı yerdə isə azadlıqdan söz belə gedə bilməz. Bazar iqtisadiyyatının yaratdığı rəqabət işçiyə istədiyi yerdə işləməyə, sahibkara məhsulunu istədiyi yerdə satmağa imkan verir. İnsanların bir-birindən qorxmadığı və heç nə ummadığı şəraitdə isə azadlıq özünü tam formada göstərir. Hər kəs öz məqsədlərinə uyğun davranır, lakin eyni zamanda digərlərinə də xidmət edir. Bazar iqtisadiyyatının ən özəl cəhəti isə bu sistem iştirakçılarının könüllü olmasıdır. Hər kəs istədiyi insanla öz mənfəətinə, çıxarına uyğun əməkdaşlıq edə bilər.

Liberal– sərhədli dövlət fərdiyyətçidir. Onun dayağı, məqsədi fərddir. Fərd dövlət və cəmiyyətdən irəlidədir.

Azadlıq və təbii haqlar fərdin doğuşdan sahib

olduğu hüquqlardır. Fərdin öz ağlı və iradəsi ilə öz yolunu seçmək, öz dünyasını yaratmaq haqqı var və burda liberal dövlətin əsas vəzifəsi fərdin kiçik dünyasını müdaxilə etmədən qorumaqdır.

Liberalizm üçün ən ideal şərait azadlıq və könüllü əməkdaşlıq fonunda azad müzakirə şəraitinin olmasıdır. Eləcə də hər kəsin çoxluğa boyun əymədən öz fikrini ifadə etmək azadlığı olmalıdır. Lakin fikir mübadiləsi zamanı yaranacaq fikir ayrılıqlarını həll etmək üçün qanunlar bəs etmir və hakimə ehtiyac duyulur. Burda hakim rolunu isə dövlət oynayır, deyə Freidman bildirir.

İnsanların təməl hüquqlarını təhlükə altına qoyacaq iki səbəb mövcuddur. Onlardan biri digərinin şəxsi həyatına müdaxilə edən, güc işlədən fərd, digər daha təhlükəlisi isə qeyri məhdud dövlətdir.

Beləliklə, qeyri məhdud qanunlarla bağlanmamış dövlət insan hüquqları üçün ən böyük təhlükədir. Liberalizmdə dövlətin məhdudlaşdırılması adətən hüquqi dövlət, qanun dövləti anlayışları ilə göstərilir. Təbii hüquq dövlətdən öncə də mövcud idi və fərdlər arasında münasibət öz-özünə tənzimlənirdi. Ona görə bu münasibətləri qaydasına salmaq üçün dövlətin güc işlətməsinə ehtiyac yoxdur.

Liberalizm nümayəndələrinin fikrinə görə dövlətin, həmçinin iqtisadi sahəyə müdaxiləsi də yolverilməzdir. Dövlətin bazar iqtisadiyyatına güvənməyib iqtisadiyyatı tam idarə etməsi fərdin hüquq, mənfəət və həyatına ən böyük müdaxilədir. Eləcə də iqtisadi sahəyə müdaxiləsi artan dövlətlərdə azadlıq yoxa çıxır və təbii olaraq diktaturalar doğulur.

Ümumiyyətlə, liberalizmin özünə məxsus tarixi və fəlsəfəsi vardır. O bir adamın nəzəriyyələri əsasında deyil, bir çox mütəfəkkirlərin fikir və düşüncələri ilə daim dəyişmiş və özünü inkişaf etdirmişdir. Ona görə də liberalizm hər hansı dəyər bağlarına ilişib qalmamış, dəyərləri özünə qanun kimi qəbul etmədən azad olmuşdur. Onun üçün ən böyük dəyər azadlıq və fərdiyyətçilikdir. Bu dəyərlərdən kənar heç nə liberalizmə yaxın ola bilməz. Liberalizm olmadan demokatiya, demokratiya olmadan isə liberalizmi təsəvvür etmək mümkünsüzdür.

Onu da xüsusi vurğulamaq yeinə düşər ki, liberalizm, siyasi ədəbiyyatda istifadə etdiyimiz digər terminlərə nisbətən olduqca yenidir. Avropa qaynaqlı, İspan dilindən törənmiş bir söz olmaqla yanaşı, əsli latıncadır. İspan dilindən ingiliscəyə keçmiş və ilk dəfə XIX əsrin əvvəllərində siyasi ədəbiyyata daxil olmuşdur. Bu söz əvvəllər milli olmayan siyasəti ifadə etmək məqsədi ilə pisləyici - ittihamedici bir mənada ifadə edilmişdir. Maraqlı şəkildə, daha sonrakı illərdə ispanlar “liberal” sifətini ingilis mənşəli siyasəti ifadə etmək məqsədi ilə istifadə etməyə başlamış və Lokçu Konstitusiyalı monarxiya və parlament sisteminin əsaslarını müdafiə edən millət vəkillərini “liberales” olaraq adlandırmışlar. Başqa bir fikrə görə, Adam Smit “Xalqların Sərvətin”dəki “Liberal ixracat və idxalat sistemi” ifadəsi ilə liberal qavramını ilk istifadə edən yazıçı olmuşdur. Vaxt keçdikcə istifadəsi yayılan qavram, əsrin ortalarına və sonlarına doğru siyasət lüğətinə yerləşərək, “laissez faire”, “laissez passer” (buraxın etsinlər, buraxın keçsinlər) ifadəsinin yerini almış və fikir azadlığını, ifadə azadlığını və sərbəst ticarəti müdafiə edənlərin adlandırılmasında istifadə olunan etiket halına gəlmişdir. Ancaq daha sonra liberalizm bir qavram olaraq getdikcə elastikləşmişdir. Gündəlik dildə, liberalizm özündən bəhs etdirən, amma doğru bir tərifi verilmədən üstəlik mənası və önəmi yetəri qədər vurğulanmadan istifadə olunan bir qavram xüsusiyyətini almışdır. Etimoloji olaraq, “liberalizm” və “liberty (azadlıq)” sözləri arasında əlaqə və birləşmə vardır.

Bütün bu və buna bənzər fikirlər əsas götürülərək aşağıdakı nəticələrə gəlmək mümkündür: klassik liberalizmdə fərdçilik, azadlıq, öz-özünə yaranan nizam və bazar iqtisadiyyatı, hüququn aliliyi və məhdud səlahiyyətli dövlət təməl ünsürlərdir.

Modern liberalizmdən danışılırsa, o zaman sual yaranır: Adam Smitin klassik liberalizminə nə oldu? Şotland iqtisadçı Adam Smit “millətlərin həqiqi zənginliyi yığdıqları qızıl və gümüş miqdarında deyil, onların istehsal etdiyi malların və xidmətlərin miqdarındadır” deyirdi. Dövlət müdaxiləsinin iqtisadi böyüməni azaltdığını düşünürdü. Amerikanın qurulmasının başlanğıc illərində ABŞ-ın 3-cü prezidenti olmuş Tomas Cefferson Smitin fikirlərindən yararlandı. Bu baxışa görə, dövlət dinə, mətbuata, fikir azadlığına qarışmamalı idi. Klassik liberalizmin bu ünsürlərinin amerikalılar tərəfindən mühafizəkarlıq adlandırıldığı məfhumdur.

Klassik liberalizm dövləti bazardan qovdu, modern liberalizm isə onu geri qaytardı: bu dəfə insanları ədalətli olmayan iqtisadi sistemdən qorumaq üçün. Bu gün modern dünyada saf klassik liberal ideologiyaya əsaslanan dövlət yoxdur. Amerikadakı libertarian düşüncə modern klassik liberalizm də adlandırıla bilər. Ancaq bəzi yeni

anlayışlar da əlavə edilmişdir. Klassik liberalizmin makro səviyyədə, yəni dünya səviyyəsində ideyadan real həqiqətə, rifah dövlətlərinin də "minimal dövlətə" çevrilməsinin qarşısında iki ciddi maneə vardır. Birincisi, ölkənin müdafiə ehtiyaclarının hələ də dövlətə bu və buna bənzər vacib funksiyalar yükləməsi, ikincisi liberal olanlarla liberal olmayan ölkələr arasında iqtisadi inkişaf səviyyəsinin ciddi fərqlənməsi liberal ölkələri iqtisadi əsaslandırmalarla insanların sərbəst səyahətini məhdudlaşdırmaq kimi liberal olmayan siyasi qərarlar almağa məcbur etməsidir. Bu maneələr aradan qaldırılmadığı müddətdə dünyanın heç bir yerində klassik liberalizm ideyasının real həyata tətbiq edilməsi mümkün olmayacaqdır.

### ƏDƏBİYYAT SİYAHISI:

*1. Morgentau H. Y. Dövlətlər arasında siyasət: güc və sülh uğrunda mübarizə. Bakı 2017,səh. 871.*

*2. Ələkbərova N. Siyasi elmin müasir problemləri. Bakı 2013,səh.347.*

*3. Cumming, R. D., 1971, Human Nature and History, a Study of the Development of Liberal Thought, Chicago, p. 298.*

*4. https://bakuresearchinstitute.org*

*5. Vincent, John, 1966, The Formation of the Liberal Party 18571868, London, p. 285.*

*6. Selinger, M., 1968, The Liberal Politics of John Locke, London, p. 164.*

*7. Адамшин А. На пути к мировому правительству. Москва, 2002,стр184.*

*8. Vincent, John, 1966, The Formation of the Liberal Party 18571868, London, p. 285.*

*9. Cəfərov M.F. Fəlsəfənin əsasları. Bakı Maarif, 1996,səh. 357.*

*10. İsmayılov D. Liberalizm. Bakı 2013. səh.246.*

**Açar sözlər:** *liberalizm, demokratiya, sülh, severen, klassik, anarxiya, fərdiyyətçilik, azadlıq, təbii nizam, məhdud liberal dövlət.*

### Характеристика либерализма в современных международных отношениях
### РЕЗЮМЕ

В статье рассматриваются индивидуализм, свобода, естественный порядок и ограниченное либеральное государство, которые являются отличительными признаками либерализма в нашем современном мире. Понятия и их общие черты, а также тот факт, что либерализм как политическая идеология является продуктом просвещения, либерализм сначала появился как реакция на просвещение, но позже действовал как его логическое продолжение, особенно в течение более двух столетий. Несмотря на то, что он претерпел изменения, вопросы сохранения его основной идеи до наших дней широко освещались.

**Ключевые слова:** *либерализм, демократия, мир, суверенный, классика, анархия, индивидуализм, свобода, естественный порядок, ограниченное либеральное государство.*

### Characteristics of liberalism in modern international relations
### SUMMARY

The article discusses individualism, freedom, natural order and limited liberal state, which are the hallmarks of liberalism in our modern world, concepts and their commonalities, as well as the fact that liberalism as a political ideology is a product of enlightenment, liberalism first appeared as a reaction to enlightenment, but later acted as a logical continuation of it, especially for more than two centuries. Although it has undergone changes, the issues of preserving its main idea to this day have been widely covered.

**Keywords:** *liberalism, democracy, peace, sovereign, classical, anarchy, individualism, freedom, natural order, limited liberal state.*

UOT 327:140.8

# ВАЖНОСТЬ ИСЛАМСКОГО ПРОСВЕЩЕНИЯ В АЗЕРБАЙДЖАНЕ В КОНТЕКСТЕ ВНУТРЕННИХ И ВНЕШНИХ ИДЕОЛОГИЧЕСКИХ УГРОЗ РЕЛИГИОЗНОГО ХАРАКТЕРА: НАСЛЕДИЕ И РЕАЛИИ СОВРЕМЕННОСТИ (К ВОПРОСУ ИДЕОЛОГИЧЕСКОЙ БЕЗОПАСНОСТИ)

**ЭЛЬДАР АМИРОВ**
*Доктор философии по политическим наукам, доцент (Азербайджанский университет языков )*

*E-mail: eldar.ado.85@mail.ru*

К счастью, исторически Азербайджан славился своими традициями толерантности, терпимости, и взаимного диалога культур и цивилизаций. И сегодня Азербайджан достойным образом продолжает традиции наших предков. Недаром в современном мире Азербайджан считается площадкой межцивилизационного диалога, прекрасным примером толерантного сосуществования различных народов и конфессий. Это, безусловно, наше богатство, наше достижение, которым, мы вправе гордиться. В современном мире, где полно ненависти, неприязни и где религиозный диалог загнан в тупик, Азербайджан во всех отношениях подает прекрасный пример мира, взаимопонимания и добра. В этом, конечно же, в этом есть большая и неоценимая заслуга Президента Азербайджанской республики Ильхама Алиева, который в каждом своем выступлении подчеркивает важность сохранения и укрепления культуры толерантности, мультикультурализма и диалога.

Однако и в Азербайджане, как и в большинстве стран мира имеется, определенная социальная почва благоприятствующая проявлению радикальных учений и наблюдаются определенные подводные течения, которые когда-то, при первой же возможности всплывут наружу. Вне всякого сомнения активизация этой почвы тесно связана с внешними катализаторами, как региональными, так и глобальными. Сам факт, того, что после образования на территории Ирака и Сирии, террористической организации, так называемого Исламского государства (ИГИЛ) в его рядах появилось известное количество азербайджанских граждан, а также кровавые события ноября 2015 года, имеющие места в селе Нардаран показали, что религиозное невежество и фанатизм имеют в Азербайджане определенную благоприятную почву. [4]. Поддержка, высказанная лидерам нардаранских протестов рядом влиятельных представителей иранского духовенства и парламентариев, по праву вызвало у азербайджанской стороны некоторые вопросы относительно внешних катализаторов этих событий. [5].

Но как я уже отметил выше, вопреки всем стараниям государства негативные и опасные проявления в этом направлении периодически дают о себе знать. Корни и истинные причины таких проявлений необходимо искать в двух основных факторах – неудовлетворительном религиозном просвещении и некомпетентной работе социальных служб, которые в первую очередь должны работать с наиболее уязвимой частью общества, которая постоянно находится в фокусе радикальных групп и иностранных разведок. Постараемся разобраться с этими аспектами по порядку.

Религиозное просвещение – это процесс очень сложный и многосторонней. С одной стороны под религиозным просвещением мы понимаем работу, проводимую определенными государственными структурами совместно с образовательными структурами, с целью ознакомить общество с основополагающими принципами религий, в случае Азербайджана – азами Ислама. С другой стороны религиозное просвещение – это процесс, который происходит на индивидуальном уровне, по желанию самого индивида, желающего глубже, во всех подробностях ознакомиться с положениями

веры, соблюдать его запреты и жить по законам Аллаха. Однако как в первом, так и втором случае требуется наличие хорошо подготовленных, профессиональных богословов, четко разбирающихся как в сущности самого Ислама, так и в реалиях современного мира. К сожалению, за последние два столетия в Азербайджане образ духовенства и богословов ассоциируется муллами, которые присутствуют на похоронах, либо при исполнении определенных религиозных обрядов.

Но ведь традиционный мулла не соответствуют тем требованиям, которые Ислам выдвигает для истинных мусульманских ученых – улемов, обязанных просвещать мусульман, помогать им, находить наиболее правильные решения в самых сложных жизненных ситуациях, защищать умму от идеологических провокаций, путаниц и целенаправленных искажений. Для этого истинный мусульманский ученый должен быть всесторонне подготовленным, уметь правильно и своевременно доносить и комментировать веления Корана, приводить четкие и достоверные примеры из сунны пророка, прекрасно разбираться в воззрениях выдающихся исламских богословов различных времен, а также уметь смотреть в корень традиционных угроз, исходящих против единства и покоя мусульман. Настоящий исламский ученый, богослов должен на мировом опыте и на убедительных примерах из Корана и сунны пророка Мухаммада (с.а.с.) неустанно напоминать умме, что сегодня наиболее важным фронтом джихада является наука, технологии и экономика. Именно в этих сферах необходимо сосредоточить свои усилия, талант и ресурсы. Убивать мирных людей, изливать ненависть и проявлять агрессию никогда не считалось джихадом, и считаться не может. Умме необходимо вспомнить о том, что Всевышний Аллах в Коране высоко оценил знающих, образованных и мыслящих людей, и призвал их всячески избегать безграмотности и невежества:

*«Скажи: Неужели равны, те, которые знают и те, которые не знают? Воистину, понимают назидание только обладающие разумом». [4, 39;9].*

*«Посему не будь одним из невежд». [4, 6:9].*

*«Не уподобляйся тем, которые говорят: «Мы слышали», - а сами не слушают. Воистину, наихудшим из живых существ перед Аллахом являются глухие и немые, которые неспособны понимать». [4, 8;21-22].*

Увы, нынешнее состояние исламской уммы, позволяет нам с уверенностью делать выводы о том, что мусульмане в большинстве своем не только не вдумываются в веления Корана, но и не соблюдают сунны своего пророка. Они забыли о том, пророк Мухаммад после Бадрского сражения приказал освободить пленных язычников, не имеющих материальной возможности оплатить предусмотренный выкуп, взамен на обучение ими письму неграмотных мусульманин. Источники сообщают, что после того как каждый из них обучил письму десять мусульман, пророк велел отпустить их и разрешил им беспрепятственно вернуться к родным в Мекку. [3, səh.19]. Интересно, насколько часто мусульманские улемы в своих проповедях разъясняют мусульманам значение науки и образования и вносят свою лепту в устранения безграмотности и невежества?

В своих речах и проповедях большинство наших богословов предпочитают акцентировать внимание на вопросы морали, правильного поведения, соблюдения запретов и т.д. Это, несомненно, очень важно, с точки зрения сохранения основных столпов традиционной морально-этической системы взглядов, и поведения азербайджанского общества. Однако давайте на минутку задумаемся, достаточно ли этого для достижения полной глубины? Я думаю, что нет. В Ислам заложен огромной заряд добродетели и отзывчивости, человечности и милосердия к окружающим. Его необходимо правильно использовать и направить. А для этого мусульманам необходимо объяснить, что Всевышний Аллах согласно Корану устранил все препятствия между собой и им, ни церковь, ни священники не могут быть посредниками между Творцом и сотворенным. Аллах не признает такого права даже за своими пророками. Каждый человек наделен разумом и в соответствии с ним и со своей совестью несет индивидуальную ответственность перед Всевышним. Поэтому, чтобы заработать довольство Аллаха, и сделать что-либо полезное для общества и людей он не должен надеется на других и ждать от них каких-то действий. Инициатива должна исходить от самого индивида, вот основная сущность исламской морали. В большинстве случаев именно безынициативность, безразличие и упование

на других приводит к негативному исходу, к порождению и распространению зла, агрессии, нищеты и т.д. Кстати, говоря, философия зеката, налога, который мусульманин должен отдавать в пользу бедных и неимущих от своего заработка также подтверждает важность индивидуальный ответственности, которую Ислам возлагает на своих последователей. Азербайджанским богословом необходимо задуматься над тем, как воспитать в азербайджанском обществе индивидуальную инициативность и победить чувство пассивности, упования на государства, либо на более состоятельных людей. Ислам – эта религия динамики, ответственности, жизненной энергии и целеустремленности в будущее, тем самым он и отличается от других небесных религий. Наше общество очень сильно нуждается в подъеме этого чувства. Не важно, какую, малую либо большую лепту ты внесешь в решение той или иной проблемы, главное то, что ты готов это сделать, готов отдать, поделиться и разделить!

Говоря о роли Ислама в правильном формировании азербайджанского общества и его защите от внешних проявлений экстремизма и невежества, нельзя обойти стороной общественно-политическую составляющую этой религии. Да, сегодня Азербайджан является светским государством, и этот выбор носит бесповоротный характер. Наши стратегические цели неразрывно связаны со светскими, демократическими и правовыми идеалами западной цивилизации, и мы как наследники АДР последние 25 лет уверенно развиваемся в этом направлении. В Азербайджане государство отделено от религии и оно не вмешивается в духовную жизнь своих граждан, а также в не создает никаких препятствий для законной деятельности представителей духовенства. Однако при всем этом мы не можем отрицать существенной роли религии на образ жизни, мышления и поведения определенных слоев населения. Пользуясь этим фактором, очень многие внешние силы, заинтересованные в дестабилизации обстановки и усиления своего влияния в Азербайджане могут попытаться, как это не раз происходило прежде, использовать данную категорию граждан для реализации своих разрушительных планов. И в таких случаях, как правило, пропаганда пытается ввести людей в заблуждения путем манипулирования их религиозных чувств по самым различным вопросам, в основном по общественно-политическим и экономическим. Именно поэтому, государство вместе с местными богословами обязано периодически осуществлять просветительскую деятельность среди верующих. Верующий человек должен узнавать не от миссионеров и проповедников, а от профессиональных богословов отношение Ислама к политике, к государственному управлению, к экономике, получать достоверную информацию о политической истории Ислама и исламском праве, чтобы избегать сетей экстремистов и радикалов. К примеру, он должен понимать, что его религия запрещает принимать поспешные решения, и руководствоваться волей одного человека, она призывает к совместным обсуждениям, к культуре совещаться и принимать выгодные для всего общества решения. Ведь священный Коран гласит: «А то, что есть у Аллаха, будет лучше и долговечнее для тех, которые уверовали и уповают на своего Господа, которые избегают великих грехов и мерзостей и прощают, когда гневаются, которые отвечают своему Господу, совершают намаз, совещаются между собой о делах и расходуют из того, чем Мы их наделили». [4, 42;37-38].

Диву даёшься, наблюдая то с какой легкостью современные мусульмане, будучи знакомые с этой установкой Корана без каких-либо раздумий обсуждений идут на поводу отдельных авантюристов, не имеющих никакого отношения к религии, рискуя как своей жизнью, так жизнью остальных невинных людей. Они не только не пытаются осмыслить запретное и дозволенное, но и даже не считаются нужным посоветоваться с богословами, с людьми знающими и понимающими. Отсутствие культуры обсуждения имеет негативное воздействие не только на индивидуальном уровне, оно имеет гораздо большие разрушительные последствия на политической плоскости. Стремление к доминированию и единовластию и абсолютной гегемонии не позволяют крупным мусульманским странам сесть за стол переговоров, посоветоваться и обсудить проблемы и угрозы, и наконец, объединить свои усилия против общего врага. В результате мы не видим того взаимодействия, в котором перед лицом общего врага нуждается весь исламский мир. Нередки случаи, когда одно мусульманское государство вступает в союзы против другого, взирая на него как на злейшего врага.

Учитывая сказанное, нам необходимо сформировать среди верующих граждан культуру обсуждения, обмена мнениями и пространство для просвещения. Я уверен, что если бы такая культуру имела бы в нашем обществе прочные корни и опору, количество азербайджанских граждан оказавшихся в сетях ИГИЛ, было бы гораздо меньше. Согласно, опубликованной в прессе статистике в рядах ИГИЛ воевали в общей сложности более 900 граждан Азербайджана. [6].

В таком случае обязательно нашлись бы люди, которые, напомнили бы о запрете пророка на счет сомнительных вождей, течений и идей.

Очень сложно рассуждать и делать выводы относительно религии, будучи не религиоведом, но одна правда уж точно не подлежит сомнению – кризис исламского мира и мышления неразрывно связан с изоляцией верующих от общественно-политических, культурных и социально-экономических процессов, современного мира. Этот процесс, к сожалению, наблюдается и среди азербайджанских верующих. Анализируя их образ жизни, невольно появляется такое ощущение, что они живут и трудятся в каком-то отдельном от всего общества пространстве, где царят свои нормы и правила, и которое как будто бы во временном измерении тяготеют назад, нежели прогрессируют вперед. Я не желаю своими словами обидеть кого-то, а тем более вторгаться в чей-то духовный мир. Ни в коем случае, у меня нет таких намерений! Единственная мысль, которую я желаю донести до сведения большинства наших верующих граждан, да и впрочем, всех мусульман мира заключается в том, что миссия Ислама не заключается в том, чтобы научить вас правилам намаза, оруджа и паломничества. Достаточно более внимательно изучить Коран и сунну пророка, и познакомиться с трудами видных востоковедов посвященных доисламской истории Аравии, чтобы убедиться в том, что арабы-язычники также совершали намаз и паломничество вокруг Каабы, и не отрицали могущего Аллаха. Эту истину неопровержимым образом подтверждают следующие аяты, из священного Корана:

*«Если ты спросишь их: «Кто сотворил небеса и землю? – они непременно скажут: «Аллах». [4, 31; 25].*

*«Скажи: Кому принадлежит земля, и те, кто на ней если только вы знаете? Они скажут: «Аллаху». [4, 23; 84-85].*

*«Если ты спросишь у них, кто сотворил их, они непременно скажут: «Аллах». [4, 43;87].*

*«Но как же Аллаху не подвергнуть их мучениям, если они не допускают мусульман к Заповедной мечети, не будучи его угодниками? Его угодниками являются только богобоязненные, но большинство из них не ведает об этом. Их молитва возле мечети была всего лишь свистом и хлопаньем в ладоши. Вкусите же мучения, за то, что вы были неверующими». [4, 8; 34-35].*

Соответственно, причиной глубокого морального и социального упадка арабского общества, а также ниспослания пророка Мухаммада (с.а.с.) не было связано с намазом и хаджем. Истинные корни этих причин восходили к тому, что арабы язычники соблюдали только лишь обрядовую, внешнюю сторону религии, и их вера к моменту появления Ислама имела настолько формальный характер, что Коран не придавал этому никакого значения. Доисламское общество отличалось своими дикими законами, жестким социальным разделением, упадком нравов, постоянными кланово-племенными войнами, грабежами и убийствами, язычеством, господством права сильного, и экономической эксплуатацией правящей элиты. Естественно, что при таких условиях никакой намаз, или хадж не мог исправить столь плачевную ситуацию, и задача Ислама в таких условиях не могла ограничиваться усовершенствованием форм намаза и паломничества. Для коренного поворота в сторону прогресса требовалось изменить философию общественных и социально-экономических отношений на Аравийском полуострове, сменить прежнюю систему этико-правовых норм, новой, более гуманной и справедливой, чего в принципе и добился пророк Мухаммад (с.а.с.) в результате своей 22 летней борьбы. Учитывая исторический опыт и истинную миссию своей веры, современные мусульмане должны осознавать, что не изменив своего мышления, своего подхода к жизни, изолируясь в духе средневековых норм, они никогда не смогут внести лепту ни в свое личное, ни в общественное развитие. Лишь путем просвещения, образования, благотворительности и милосердия они могут стать примерными мусульманами, чьи действия будут вызывать у окружающих восхищение и уважение.

Ислам, как я уже отмечал в самом начале, составляет фундамент, ядро наших духовных ценностей, нашей морали и традиционного поведения, поэтому для благополучия и развития азербайджанского общество чрезвычайно важно сохранить прогрессивные ценности этой религии и не допустить их искажения и радикализмами под воздействием внешних факторов. Духовный мир и традиционные ценности отличают нас от других, они являются тем естественным защитным механизмом не позволяющим разрушить бытность нашей культуры, нашего самосознания. К этим ценностям необходимо относится бережно. И эта бережность должна исходить не только от государства, но и от самого общества, должно понимать, что источником Ислама является, прежде всего, Коран и достоверная сунна пророка, а ни учения и доктрины отдельных философов, богословов, мистиков и аскетов. К истинному исламу и к искренним чувствам верующих азербайджанское государство всегда относилось с глубоким уважением и это будет всегда так. Но одновременно азербайджанское государство, как и все остальные светские страны мира, сохраняет за собой противодействовать разрушительным идеям, продвигаемым под видом религии и религиозных чувств. В этом контексте очень важно понимать несостоятельность о якобы существовании различных моделей Ислама – мягкого, либерального, политического и т.д. На примере последних событий в Турции мы прекрасно может увидеть к чему может привести так называемый мягкий Ислам, который на самом деле ничего общего с истинным исламом не имеет. Существует один, единственный Ислам, основы которого изложены в Коране и практическая сторона, которого находит свое отражение в сунне пророка Мухаммада и в деятельности его ближайших сподвижников. Этими мерками необходимо руководствоваться, чтобы отличить ложное от действительного. Иначе, нам будет очень сложно противостоять идеологическим провокациям извне, которые временами почти незаметно проникают в страны и также незаметно распространяются в них. В большинстве случаев страны оказываются уязвимыми по отношению к такому рода угроз, что делает неизбежным и обязательным принятия превентивных мер, как в законодательном, так и в просветительском направлении.

У современного мира есть свои реалии и в нынешних условиях невозможно закрыться или изолироваться от всего остального мира. Процессы культурного и цивилизационного характера, также не составляются исключения. В современном цивилизованном мире происходит постоянный процесс взаимовлияния культур. И само общество, при таких условиях должно быть подготовленным, бдительным и рациональным, у него должен четко работать свой духовный фильтр, позволяющий пропускать прогрессивные, полезные начинания и идеи, и защищаться от разрушительных воздействий. Неумение отбирать и внедрять полезное и необходимое до сих пор оборачивается для мусульманского мира тяжелыми последствиями. Радикальное, и враждебное отношение ко всему новому без разбора и анализа, за очень короткий срок превратило такое могущественное мусульманское государство средневековья как Османская Турция в полуколонию и способствовало ее скорейшему распаду. В этом отношении исторический опыт очень полезен и его необходимо изучать и делать из него соответствующие выводы.

Обобщая свои размышления относительно духовно-ценностного аспекта азербайджанской национальной идеи, я бы хотел еще раз подчеркнуть необходимость выработки наиболее правильных методов и формул модернизации с учетом сохранения прогрессивных начал прошлого. Проще говоря, современной творческой элите в интересах сохранения традиционной азербайджанской самобытности необходимо найти наиболее приемлемый консенсус между прошлым и настоящим. Наши просветители в прошлом столетии смогли найти ту золотую середину, благодаря чему были созданы многочисленные шедевры азербайджанской культуры, которыми мы сегодня гордимся. Вспомним бессмертные произведения великого азербайджанского композитора и просветителя, основоположника оперного искусства на всем мусульманском Востоке Узеира Гаджибекова (1885-1948). Его музыкальные комедии и оперы по своей форме созвучны с современной музыкальной культурой Запада, однако по духу, содержанию и мотивам они неразрывно связаны с азербайджанской культурой и литературой. Разве это не есть тот самый синтез национального

и общечеловеческого, традиционного и современного?

Или же возьмем пример комедий Мирзы Фатали Ахундзаде, благодаря которым была заложена основа азербайджанской драматургии. Разве эти литературные шедевры не отражали в себе одновременно дух западной драматургии, азербайджанские мотивы и самые наболевшие проблемы тогдашнего мусульманского общества? Ведь комедии, Мирза Фатали также могут считаться симбиозом традиций, современности и актуальности. Эффект этих произведений был настолько велик, что нанес серьезный урон делу фанатиков и мракобесов, которые яростно мстили Мирза Фатали везде, где только это оказывалось возможным. Неслучайно, что представители духовенство не оставили своей вражды и во время похорон Мирзы Фатали. Известный азербайджанский писатель и общественный деятель А.Ахвердов пишет: *«Шейх-уль-ислам Мулла Ахмад узнав о кончине Мирзы Фатали сказал: «Я имел достаточное общение с Мирзой Фатали, чтобы четко понять его убеждения. Это понимание заставляет меня отказать от совершения джаназа-намаза (похоронной молитвы)». Услышав эти слова, остальные муллы также отказались совершать похоронную молитву. Мирза Фатали вовсе не нуждался в этой молитве. Но это очень расстроило его родных и близких. И только лишь после уговоров некий мужчина по имени Мулла Хусейн совершил похоронную молитву. Мирза Фатали до последнего вздоха боролся с мраком и мракобесием, затмившим его народ, однако эти люди отказались даже хоронить его, заклеймив эту борьбу как ересь. После того как труп Мирзы Фатали 3 дня пролежал дома, сотрудники канцелярии наместника забрали его на кладбище. «Правоверные» не посчитали нужным даже проводить его в последний путь. И лишь несколько человек согласились предать его земле с условием оплаты в 3 рубля». [2, səh. 336].*

Неслучайно, что гибкость азербайджанской культуры, ее открытость к обогащению и новым достижениям делала ее передовой в темпах восприятия прогрессивных начал среди всех мусульманских народов Востока. Ю.В.Чеминземинли неспроста называл азербайджанскую культуру революционной, так как именно мы - азербайджанцы из всех мусульманских народов Российской империи смогли первыми учредить прессу на национальном языке, именно мы осуществили первый перевод «Корана» на родной язык и начали читать его понимая смысл прочитанного, именно поставили на сцену первую оперу во всем мусульманском мире, именно нами – азербайджанцами была создана первая демократическая республика во всем Исламском мире. [1, səh.276]. То есть исторически, наша культура умела находить золотую середину между историческим наследием и современными тенденциями развития. В конце XIX - начале XX веков благодаря таланту и приверженности наших просветителей родному народу, его традициям азербайджанской культуре даже в самых сложных политических условиях удалось взять на себя роль локомотива в процессе национального пробуждения.

Сегодня как бы странно не звучала моя мысль, на плечах азербайджанской интеллектуальной элиты лежит задача такой же сложности. В состоянии ли она справиться с данной задачей или нет, это совсем другой вопрос, но она существует, и каждый день еще больше дает о себе знать. Да, безусловно сегодня не XIX столетие и слава Богу, что Азербайджан в отличие от того периода является суверенным, самодостаточным государством, но это не снимает с нас исторической ответственности. Если перед азербайджанскими просветителями стояла цель духовно и культурно возродить азербайджанский народ, и подготовить его к реализации последующих политических задач, то на нас, на нынешнее поколение азербайджанцев историей возложена миссия укрепления молодого азербайджанского государства, посредством политического и культурного усовершенствования общества. История в какой-то мере повторяется, и нам сегодня, приходится решать те же самые задачи для культурного строительства, что и наши деды, но с одной принципиальной задачей – они строили все с нуля, а нам приходится работать с уже готовой, однако довольно неудобной конструкцией, что гораздо увеличивает объем работы. Ведь, строить с нуля намного проще, нежели менять или форматировать уже готовое. Но как бы там ни было мы обязаны найти формулу решения. Культура не способная обеспечивать взаимосвязь между многовековыми традициями народа и современным развитием,

не может называться национальной, и по сути такая культура в конце концов окажется не в состоянии стоять на стороже национальной памяти, традиций и духовного наследия народа. И религиозное просвещение в этом процессе играет роль весьма важного звена, соединяющего духовное наследие прошлого с актуальными вызовами современности.

**Ключевые слова:** *Азербайджан, идеологические угрозы, религиозное просвещение, радикализм, толерантность, невежество.*

### СПИСОК ЛИТЕРАТУРЫ:

*Çəmənzəminli Y.V. Milli və mədəni işlərimiz // Əsərləri (3 cilddə). III cild. Bakı, 2005.*

1. *Haqverdiyev Ə. Mirzə Fətəlinin faciəsi // Seçilmiş əsərləri (2 cilddə). II cild. Bakı, 2005.*
2. *İbn Sad. Tabakat. Çeviri: Yrd. Doç.Dr. Mahmut Polat. (X ciltte). II cilt. İstanbul, 2014.*
3. *Коран. Перевод и комментарии И.Ю.Крачковского. Издание 2-е. Москва, 1986.*
4. *BBC News (Azərbaycanca). 26. 11.2015. https://www.bbc.com/azeri/azerbaijan/2015/11/151126_nardaran_clashes*
5. *BBC News (Azərbaycanca). 10.12.2015.https:// www.bbc.com/azeri/azerbaijan/2015/12/151210_tabriz_nardaran_protests*
6. *Strateq (İnformasiya Agentliyi). 23.03.2017. https://strateq.az/manshet/153397/isid-in-az%C9%99rbaycanli-doyuscul%C9%99ri.html*

### XÜLASƏ

Məqalədə Azərbaycanın müasir təhlükəsizliyinin başlıca komponentlərindən biri – ideoloji təhlükəsizlik amili təhlil predmeti kimi tədqiqata cəlb edilmişdir. Məqalə müəllifi ideoloji təhdidin başlıca qaynaqlarından biri kimi dini maarifçiliyə və onun əhəmiyyətinə işarə edir. Dini maarifçilik ənənələrinin tarixinə nəzər salan müəllif qeyd edir ki, XIX əsr Azərbaycan müəlliflərinin bu sahədəki fəaliyyəti və irsi ciddi şəkildə öyrənilməli və müasir dövrün çağırışları kontekstində dəyərləndirilməlidir. Tarixi təcrübənin təhlili göstərir ki, bu irslə müasirlik arasında olduqca ciddi bağlılıqlar və ortaq nöqtələr mövcuddur. Bu mənada müəllifin fikrincə yeganə fərq dövrün məqsəd və çağırışlarından qaynaqlanır. Belə ki, əgər maarifçilərin məqsədi Azərbaycan xalqını dini cəhalətin və geriliyin məngənəsindən xilas edərək müasir mədəni xalqlar sırasına çıxarmaqdan və onu gələcəkdə böyük hədəflərə hazırlamaqdan ibarətdirsə, müasir dövrün başlıca məqsədi müstəqil dövlətimizi qorumaqdan, onu müxtəlif xarici və daxili ideoloji təhdidlərdən sığortalamaqdan keçir. Dini maarifçilik xalqımızın mənəviyyatının təməlini təşkil edən dəyərlərin düzgün şəkildə dərkindən və gələcək nəsillərə sağlam bir şəkildə ötürülməsindən keçir. Bu amil praqmatik milli ideyanın formalaşdırılması baxımından da olduqca zəruridir. Milli ideyada müasirlik irsi bir-birinə sağlam şəkildə bağlayan zəncirin ən mühüm halqalarından biri isə dindir. Bu mənada dini maarifçilik prosesinin düzgün şəkildə qurulması birbaşa milli təhlükəsizliyimizin mühüm ictimai-siyasi prioritetidir.

**Açar sözlər:** *Azərbaycan, ideoloji təhdidlər, dini maarifçilik, radikallıq, dözümlülük, cəhalət.*

### SUMMARY

In this article, the author considers one of the main aspects of modern security in Azerbaijan - the problem of an ideological threat of a religious nature emanating from outside. İn this article, the author considers one of the main aspects of modern security in Azerbaijan - the problem of an ideological threat of a religious nature emanating from outside. Pointing to one of the main causes of religious radicalization in society - religious ignorance, the author gives a parallel analysis of historical heritage and modern realities. The article notes that if the Azerbaijani enlighteners of the last century had the goal of spiritual and cultural revival of the Azerbaijani people, and preparing them for the implementation of subsequent political tasks, then the mission of strengthening the young Azerbaijani state through the political and cultural improvement of society has been entrusted with the history of the current generation of Azerbaijanis. The story repeats to some extent, and today we have to solve the same tasks for cultural construction as our grandfathers, but with one fundamental task - they built everything from scratch, and we have to work with the finished, but rather inconvenient construction, which greatly increases the amount of work. Indeed, building from scratch is much easier than changing or formatting the finished one. But, be that as it may, we must find a formula for a solution between the religious feelings and interests of the modern state.

**Keywords:** *Azerbaijan, ideological threats, religious education, radicalism, tolerance, ignorance.*

UOT 327; 339.9

# AVROPA İTTİFAQI VƏ AZƏRBAYCAN RESPUBLİKASI MÜNASİBƏTLƏRİNDƏ ENERJİ AMİLİNİN YERİ VƏ ROLU

**ŞƏBNƏM HƏSƏNOVA**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının doktorantı*

*E-mail: shabnam.hasanova@gmail.com*

## Giriş

Enerji təhlükəsizliyi dövlətlərin milli təhlükəsizliyinin struktur elementlərindən biri olaraq həlledici yerə və rola malikdir. Əgər Samuel Hantinqton yaşadığımız XXI əsri dünya sivilizasiyalarının toqquşması əsri kimi xarakterizə edirdisə, müasir siyasi reallıqlar kontekstində bir sıra siyasi ekspertlər dünya siyasətinin aparıcı amili kimi dövlətlərin enerji ehtiyatlarına malik olub-olmaması ilə səciyyələndirirlər. Enerji təhlükəsizliyinin siyasi məfhum kimi meydana çıxmasının tarixi başlanğıcı vardır. Belə ki, Birinci Dünya müharibəsi ərəfəsində Böyük Britaniyanın baş naziri və dünyanın bugünkü siyasi mənzərəsini müəyyənləşdirən əsas şəxslərdən biri olan Uinston Çörçill ingilis donanmasının gəmilərinin enerji qaynağını kömürdən neftə keçirtmək haqqında tarixi bir qərar qəbul etdi. Çörçill ingilis donanmasını alman donanmasından daha sürətli etmək niyyətində idi. Lakin bu keçid Kral Dəniz Qüvvələrinin təkcə Uelsdəki kömürə deyil, eyni zamanda, o dövrdə Fars körfəzindən gələcək neft tədarükünə olan ehtiyacın vacibliyini də ifadə edirdi. Beləliklə, enerji təhlükəsizliyi milli strategiyanın əsas məsələsinə çevrildi.

Enerji təhlükəsizliyi bu gün də dünya dövlətlərinin bir nömrəli gündəm mövzusu olmaqda davam edir. Enerji təhlükəsizliyinə olan diqqət artan yüksək neft qiymətləri ilə əlaqələndirilir. Bununla yanaşı, terror təhlükəsi, bəzi ixracatçı ölkələrdəki qeyri-sabitlik, geosiyasi rəqabət, həmçinin ölkələrin iqtisadi genişlənməsini təmin etmək üçün enerjiyə olan ehtiyacı daha da artırır. Çox uzaq gələcəkdə deyil, qarşıdan gələn onilliklərdə dünyanın enerji tələbatını ödəmək üçün kifayət qədər mənbələrin olub-olmayacağına dair narahatlıq artmaqda davam edir.

Enerji təhlükəsizliyinin hər kəs tərəfindən qəbul olunmuş vahid tərifi yoxdur. Əgər inkişaf etmiş ölkələr üçün bu, əlverişli qiymətlərlə kifayət qədər tədarükün olmasıdırsa, ayrı-ayrı ölkələr bu konsepsiyanı fərqli şəkildə izah edirlər. Belə ki, enerji ixrac edən ölkələr öz ixracatlarında "tələbat təhlükəsizliyini" qorumağa çalışırlar ki, bu da hökumət gəlirlərinin böyük hissəsini meydana gətirir. [4]

Beynəlxalq enerji agentliyinə istinadən desək enerji təhlükəsizliyi əlverişli qiymətə enerji ehtiyatlarının davamlı təmin olunmasıdır (IEA). Qısacası, enerji təhlükəsizliyi mənbələrin, idxalın və ixracın mövcudluğu ilə əlaqədardır. [6]

Son bir neçə onillikdə Avropa İttifaqında təbii qaz kimi təbii ehtiyatların istehlakı və idxalı xeyli artmışdır. Bu dinamika, xüsusilə Avropa İttifaqı ölkələrində tələbin artmasını müşahidə edərkən özünü göstərir. Əsasən, aşağıdakı paradiqma Avropada təbii qaz istehsalının azalmasından və bu prosesin nəticəsində qitənin alternativ enerji mənbələrini nəzərdən keçirməsindən irəli gəlir. Nəticədə, Avropa İttifaqı Şimali Afrika, Rusiya Federasiyası və Şimali Avropa kimi digər ölkələrdən təbii qaz ehtiyatlarının idxalından çox asılı vəziyyətə gəldi. Qeyd etmək vacibdir ki, Avropa qlobal kontekstdə üstünlük təşkil edən enerji istehlakçısını təmsil edir və bu reallıq bu mənbənin mövcudluğunu təmin edən canlı bir satınalma sisteminin mövcudluğunu tələb edir.

Avropanın enerji mənbələrinə olan geniş

tələbini nəzərə alaraq, ittifaqın alternativ mənbə tədarükçülərini axtarmaq qərarını başa düşmək məntiqli olur. Bu vəziyyətdə Rusiya Federasiyası əvəzolunmaz ticarət tərəfdaşı olduğunu sübut etdi, lakin bu tərəfdaşlığın müstəsna olaraq müsbət olduğunu güman etmək də düzgün deyil.

Azərbaycanın Avropa İttifaqını müəyyən miqdarda təbii qazla təmin edə bilməsi qitənin Rusiyadan asılılığını minimuma endirə bilər. Eyni zamanda, bu məsələ Xəzəryanı ölkələri səmərəli şəkildə Avropa enerji siyasətinin mərkəzinə qoydu. Alternativ təbii qaz tədarükçüsü olaraq Azərbaycan Respublikası Avropa İttifaqının enerji təhlükəsizliyinin dayanıqlığının təmin edilməsində əsas tərəfdaşa çevrildi və nəticə olaraq da Avropa İttifaqına üzv ölkələrin milli təhlükəsizliyində enerji təhlükəsizliyini qorumaq baxımından onlara yardım göstərmək üçün mühüm rol oynayır.

Qlobal enerji bazarında Azərbaycanın mövqeyinin nəticəsi olaraq, Avropa İttifaqı Azərbaycanla münasibətlərini tərəfdaşlıq kontekstində davam etməsinə şərait yaradılmasını təmin etmək üçün çox səy göstərmişdir. Bu tərəfdaşlığın qarşılıqlı surətdə faydalı olması Avropa bazarının enerji ixracı strategiyasında Azərbaycanı əsas tərəfdaşı kimi qəbul olunduğunu nəzərə alması açıq aydın olur. Avropa İttifaqı ilə Azərbaycan arasındakı ticarət tərəfdaşlığı 2006-cı ilin iyul ayında Bakı-Tbilisi-Ceyhan boru kəmərinin yaradılmasından qaynaqlandı. Bu çərçivədə 2006-cı il noyabrın 7-də Azərbaycan prezidenti İlham Əliyevin Brüsselə səfəri zamanı imzalanmış "Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumu" tərəflər arasında enerji dialoqunun genişləndirilməsi istiqamətində yeni imkanlar yaratdı. Əslində, bu Memorandum müvafiq dövlətlərin enerji təchizatının birindən digərinə ötürülməsi ilə bağlı strateji münasibət qurmaq öhdəliyini əhatə edirdi. [2]

Enerji təhlükəsizliyi bugünkü siyasətdə də Avropa İttifaqının əsas və uzunmüddətli strategiyasıdır. Aİ istehlak etdiyi enerjinin 50%-dən çoxunu idxal edir. Beləliklə, də idxaldan asılılıq çox yüksəkdir ki bu da tədarükün pozulmasının potensial risklərinin mövcudluğundan xəbər verir. Enerji idxalından asılılıq xam neft üzrə (90%), təbii qaz üzrə (66%) və bərk yanacaq üzrə (42%), həmçinin nüvə yanacağı üzrə (40%) təşkil edir. Bu asılılıq bəzən müxtəlif risklərlə daha da pik səviyyəyə çatmış olur. Belə ki, 2009-cu ildə Rusiya ilə Ukrayna arasındakı münaqişə Aİ-nın qaz təminatının kəsilməsinə səbəb oldu. Buna görə Aİ gələcəkdə belə risklərin azaldılması üçün tədbirlər həyata keçirdi ki, onlardan biri də tədarükü təmin etmək üçün qanunvericilik aktlarının hazırlanmısıdır. Beləliklə, Aİ-nin enerji təhlükəsizliyi məqsədləri yeni qaz mənbələri və Rusiyadan kənar mənbələrdən daha çox qaz gətirmək üçün alternativ mənbələr tapmaq, üstəlik, enerji sektoruna çox sərmayə yatırmaq və bölgədəki enerjinin sabit təmin edilməsidir. [5]

Məsələyə mövcud nümunələr kontekstindən yanaşdıqda Avropanın enerji təhlükəsizliyində Azərbaycan yeni, yeganə, alternativ eneji mənbəyi funksiyasına malikdir. ABŞ-ın Azərbaycandakı keçmiş səfiri və həmin ölkənin Avrasiya enerji məsələləri üzrə xüsusi elçisi Riçard Morninqstarın təbirincə desək, "Azərbaycan təbii qazı Cənub dəhlizinin genişləndirilməsi üçün mütləq vacibdir". [3]

Cənub Qaz Dəhlizi Gürcüstan və Türkiyə vasitəsilə Azərbaycan qazının Avropaya ötürülməsini hədəfləyən və 3500 kilometr uzunluğunda qaz boru kəməri olan qlobal enerji infrastrukturu layihəsidir. Bu layihə bir-birinə bağlı dörd fərqli seqmentdən ibarət 38 milyard dollara başa gələn böyük bir infrastrukturdur.

Cənub Qaz Dəhlizi layihəsinin əsas seqmentləri ibarətdir: "Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi, Türkiyə ərazisində inşa olunan Trans-Anadolu Boru Kəməri (TANAP), Yunanıstan Albaniya və Adriatik dənizin dibi ilə cənubi İtaliyaya qədər uzanacaq Trans-Adriatik Boru Kəməri (TAP).

Bu mənada Cənub Qaz Dəhlizi layihəsi Orta Asiya və Xəzər bölgəsindən Avropaya təbii qazın nəql edilməsi üçün enerji təhlükəsizliyinin alternativ və etibarlı yollarındandır. Buna görə də Avropa İttifaqı marağındadır ki, Cənub Qaz Dəhlizinin reallaşdırılması ilə Azərbaycan qazı Qərb dövlətlərinə tezliklə nəql edilsin. Bu hədəfə Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi, Trans–

Anadolu Boru Kəməri və Trans–Adriatik Boru Kəmərinin inkişafı ilə nail olmaq mümkündür.

Bu məqsədlə 2011-ci ildə Bakıda Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub Qaz Dəhlizi haqqında Birgə Bəyannamə imzalanmışdır. Nəticə etibarilə Azərbaycanla Avropa İttifaqı arasında olan münasibətlərdə əhəmiyyətli dərəcədə irəliləyiş əldə olunmuşdur. Əgər əvvəllər Azərbaycan bir vasitəçi ölkə kimi görünürdüsə, hazırda ölkəmiz Cənub Dəhlizinin formasını və gələcəyini təyin edən əsas iştirakçıya çevrilmişdir. Bu, həm də o deməkdir ki, boru kəmərləri Azərbaycana Avropa İttifaqı ilə münasibətlərində daha geniş səlahiyyətlər verəcəkdir. Bundan əlavə, Azərbaycan Respublikası zəngin enerji ehtiyatlarına, inkişaf etmiş yanacaq və enerji infrastrukturuna və enerji sisteminə malikdir. Azərbaycanın dünyanın enerji sistemində artan əhəmiyyətli rolu, transmilli enerji bazarlarında özünəməxsus yeri və Avropanın enerji təhlükəsizliyində fəal iştirakı qlobal, regional, geosiyasi və geoiqtisadi mövqeyinə mühüm təsir göstərir. Bütün bu amilləri nəzərə alaraq Avropa İttifaqı Azərbaycanla münasibətlərinə xüsusi diqqət yetirir. Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun 2019-cu il iyulun 9-da Azərbaycana səfəri bu münasibətin əsas göstəricilərindən biridir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Donald Tuskla görüşdən sonra dedi: “Cənub Qaz Dəhlizi layihəsi uğurla icra olunur. Şərq-Qərb və Şimal-Cənub dəhlizləri ölkəmizin ərazisindən keçməkdədir”. Donald Tusk da öz növbəsində bəyan etdi: “Avropa İttifaqı ilə Azərbaycan hər il bir-birinə daha da yaxınlaşır. Münasibətlərimiz daha da güclənir və Cənub Qaz Dəhlizi layihəsi bizi birləşdirir. Bu müsbət məqam tərəfdaşlığımızı daha yüksək səviyyəyə qaldırmalı, xalqlarımıza fayda gətirməli və Azərbaycanın öz islahat proseslərini və iqtisadi şaxələndirilməsini müşayiət etməlidir”. [7]

Son dörd ildə Azərbaycan və Avropa İttifaqının təşəbbüsü ilə hər il Bakıda Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının iclasları keçirilmişdir. 2015-ci ildən bəri Avropa İttifaqı bu tədbirlərdə ən yüksək səviyyədə təmsil olunur.

Bu məqamda xüsusilə vurğulamaq lazımdır ki, Azərbaycanın bütün uğurlu enerji layihələrinin təməlində bilavasitə Ümummilli lider Heydər Əliyevin şəxsi keyfiyyətləri və siyasi uzaqgörənliyi nəticəsində baş tutan “Əsrin müqaviləsi” dayanır. Bu, Azərbaycanın enerji siyasətinin əsas özəyini təşkil edir. Müqavilə imzalandığı dövrdə–1994-cü ildə Azərbaycan praktiki olaraq siyasi və iqtisadi blokada vəziyyətində idi. Bu çətin vəziyyətdə Ümummilli lider Heydər Əliyev yeddi ölkədən on bir xarici neft şirkətini inandırmağa müvəffəq oldu ki, yenicə müstəqillik əldə etmiş gənc bir dövlətə sərmayə qoysunlar. Tarixdə ilk dəfə olaraq xarici şirkətlər Xəzərdəki neft və qaz yataqlarının işlənilməsində iştirak etməyə başladılar. “Əsrin müqaviləsi” Azərbaycanın dünyaya açıq ölkə olduğunu nümayiş etdirdi. Bu müddətdə Azərbaycanın yeni neft strategiyası və onun doktrinası uğurla başladı. Azərbaycan Heydər Əliyevin cəsarəti və müdrikliyi sayəsində dünyada özünü təsdiq edə bildi. [1]

Qeyd olunduğu kimi, Cənub Qaz Dəhlizi layihəsinin təşəbbüskarı Azərbaycan Respublikası olmuşdur. Hazırda sözügedən layihənin reallaşması istiqamətində son tamamlanma işləri başa çatmaqdadır və Azərbaycan Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verməyə hazırdır. Cənub Qaz Dəhlizinin əsas hissəsi olan ¬Trans–Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) 1 iyul 2019-cu il tarixindən etibarən Azərbaycan qazını birbaşa Avropaya çatdırmağa hazırdır. TANAP həm Türkiyənin, həm də Orta Şərqin ən uzun və ən böyük təbii qaz kəməri hesab olunur. [9]

Nəticə etibarilə Cənub Qaz Dəhlizi layihəsi Avropa İttifaqının əsas enerji və geosiyasi təşəbbüsü olaraq qalacaq və Azərbaycan öz qazını Avropa İttifaqına ixrac etməkdə maraqlıdır. Cənub Qaz Dəhlizi layihəsinin sonuncu seqmenti olan Trans-Adriatik Boru Kəməri (TAP) tamamlandıqdan sonra Azərbaycan Şahdəniz -2 yatağından çıxarılan təbii qazı TANAP və TAP vasitəsilə Avropaya ötürəcəkdir. Onu da qeyd etmək lazımdır ki, Trans-Adriatik Boru Kəməri (TAP) layihəsi üzrə işlərin 95.1 faizdən çoxu tamamlanmışdır. [10]

Qeyd olunduğu kimi əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Azərbaycanın enerji təhlükəsizliyi siyasəti bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla icra olunur. Cənub Qaz Dəhlizi layihəsi də bu uğurlu enerji təhlükəsizliyi siyasətinin mühüm tərkib hissəsidir.

Bütövlükdə, Cənub Qaz Dəhlizi nəhəng infrastruktur layihəsi olmaqla yanaşı, eyni zamanda enerji təhlükəsizliyi layihəsidir. Enerji təhlükəsizliyi isə hər bir ölkənin milli təhlükəsizliyi məsələsidir. Cənub Qaz Dəhlizinin əsas önəmi ondadır ki, o sözün əsl mənasında, enerji təhlükəsizliyi və enerji şaxələndirilməsi məsələsinə xidmət göstərir. Cənub Qaz Dəhlizi vasitəsilə Azərbaycan qazı yeni yollarla Türkiyəyə və Avropa bazarlarına çıxarılacaqdır. Bu məqamda xüsusilə vurğulamaq lazımdır ki, Cənub Qaz Dəhlizi layihəsinin təşəbbüskarı məhz Azərbaycan Respublikası olmuşdur. Hazırda sözügedən layihənin reallaşması istiqamətində son tamamlanma işləri başa çatmaqdadır və Azərbaycan Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verməyə hazırdır.

Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VI toplantısı da elə məhz Azərbaycanda keçirilir. Bu faktın özü də ölkəmizin layihədə aparıcı rolunu təsdiqləyən əsas amillərdən biridir. Məşvərət Şurası meqa layihə hesab olunan Cənub Qaz Dəhlizi layihəsinin icrasında tərəfdaş ölkələrin səylərini möhkəmləndirən faydalı və effektiv işçi mexanizminə malikdir.

Bütün bu amilləri sadaladıqdan sonra belə bir sual ortaya çıxır: "Dünyada Azərbaycandan da çox enerji resursları olan dövlətlərin olmasına baxmayaraq niyə məhz Azərbaycan bu qədər nəhəng bir layihənin həyata keçirilməsində uğurludur? Bu uğur düsturunun sirri nədən ibarətdir?"

Heç şübhəsiz ki, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən görülmüş bütün işlər, o cümlədən beynəlxalq arenadakı mövqelərimiz, bir çox ölkələrlə, habelə Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliyaya kimi ölkələrlə dostluq münasibətlərimizin mövcudluğu, ölkəmizdə hökm sürən sabitlik və əmin-amanlıq - bütün bunlar enerji təhlükəsizliyi məsələsinin uğurla həyata keçirilməsinə böyük təkan vermişdir. Bu ölkələr Azərbaycana çox yaxın ölkələrdir, bu yaxınlığı təsdiqləyən amil isə ölkə başçımızın sözügedən ölkələrə səfəri və onların dövlət və hökumət başçıları ilə olan görüşləridir. Bütövlükdə, Cənub Qaz Dəhlizi layihəsinin uğurla icra olunması ona cəlb olunan tərəfdaş ölkələrin tək bir məqsəd ətrafında birləşməsidir. [8]

Bir sözlə, bu gün Aİ və ABŞ tərəfindən dəstəklənən Cənub Qaz Dəhlizi layihəsi Rusiyanın enerji layihələrini Avropaya yönəltməyə məcbur etdi.

## NƏTİCƏ

Mürəkkəb geosiyasi məkanda yerləşməsinə baxmayaraq cənab Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən xarici siyasət kursu Azərbaycanı regionda və dünyada etibarlı tərəfdaş kimi tanıdır. Azərbaycanın dünyanın enerji sistemində artan əhəmiyyətli rolu, transmilli enerji bazarlarında özünəməxsus yeri və Avropanın enerji təhlükəsizliyində fəal iştirakı qlobal, regional, geosiyasi və geoiqtisadi mövqeyinə mühüm təsir göstərir. Elə bu səbəbdəndir ki, dünya dövlətləri irimiqyaslı və əhəmiyyətli layihələrdə Azərbaycanla əməkdaşlıq etməkdə maraqlıdırlar. Nəticə etibarilə, Cənub Qaz Dəhlizi layihəsi Avropa İttifaqının əsas enerji və geosiyasi təşəbbüsü olaraq qalmaqdadır və Azərbaycan öz qazını Avropa İttifaqına ixrac etməkdə maraqlıdır.

**Açar sözlər:** *Avropa İttifaqı, Azərbaycan, enerji, əməkdaşlıq, Cənub Qaz Dəhlizi*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Həsənov Ə.M. Xəzər-Qara Dəniz hövzəsi və Cənubi Qafqazın Geoiqtisadiyyatı: Azərbaycanın Enerji Siyasəti*

*2. Jamalov R., Alizada T., "Energy security and energy union perspectives from Azerbaijan" 2015. Retrieved from: http://cesd.az/new/wp-content/uploads/2015/11/Energy_security_and_Energy_union_perspectives_for_Azerbaijan_CESD_Policy_Paper.pdf*

*3. Ratner M., et al, "U.S. Natural Gas Exports: New Opportunities, Uncertain Outcomes" CRS Report R42074*

*4. Yergin D., "Ensuring Energy Security", 2006, p. 69-82*

*5. European Commission, (2014). Communication from the Commission to the European Parliament and the Council, European Energy Security Strategy. Retrieved from https://eur-lex.europa.eu/legal-content/EN/TXT/HTML/?uri=CELEX:52014DC0330&from=EN*

*6. IEA (International Energy Agency). Retrieved*

*from https://www.iea.org/topics/energysecurity/whatisenergysecurity/*

*7. https://en.president.az/articles/28797*

*8. https://az.trend.az/azerbaijan/politics/3199993.html*

*9. https://azertag.az/xeber/TANAP_iyulun_1_den_Avropaya_tebii_qaz_neqli_uchun_tam_hazirdir-1301009 10. https://azertag.az/xeber/TAP_layihesinin_951_faizi_tamamlanib-1487629*

**Shabnam Hasanova**
**Ph.D. candidate, Department of International Relations and Foreign Affairs, Academy of Public Administration under the President of the Republic of Azerbaijan**

## THE ROLE OF ENERGY FACTOR IN RELATIONS BETWEEN EUROPEAN UNION AND THE REPUBLIC OF AZERBAIJAN

**SUMMARY**

As an alternative supplier of natural gas, Azerbaijan has become a key partner in ensuring European Union's energy security and, as a result, plays an important role in assisting European Union member states to protect energy security. For this purpose, a Joint Declaration on the Southern Gas Corridor was signed between the European Union and Azerbaijan in Baku back in 2011. As a result, significant progress has been made in relations between Azerbaijan and the European Union. If earlier Azerbaijan was seen as a mediating country, now our country has become a key player in determining the form and future of the Southern Corridor. It also means that the pipelines will give Azerbaijan greater powers in its relations with the European Union.

**Keywords:** *EU, Azerbaijan, energy, cooperation, Southern Gas Corridor*

**Шабнам Гасанова**
**Докторант кафедры международных отношений и внешней политики Академии Государственного Управления при Президенте Азербайджанской Республики**

## РОЛЬ ЭНЕРГЕТИЧЕСКОГО ФАКТОРА В ОТНОШЕНИЯХ МЕЖДУ ЕВРОПЕЙСКИМ СОЮЗОМ И АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ

**РЕЗЮМЕ**

Как альтернативный поставщик природного газа, Азербайджан стал ключевым партнером в обеспечении энергетической безопасности Европейского Союза и, как следствие, играет важную роль в оказании помощи государствам-членам Европейского Союза в защите энергетической безопасности. С этой целью в 2011 году в Баку между Европейским союзом и Азербайджаном была подписана Совместная декларация о Южном газовом коридоре.
В результате был достигнут значительный прогресс в отношениях между Азербайджаном и Европейским союзом. Если раньше Азербайджан считался страной-посредником, то теперь наша страна стала ключевым игроком в определении формы и будущего Южного коридора. Это также означает, что эти трубопроводы дадут Азербайджану больше полномочий в отношениях с Евросоюзом.

**Ключевые слова:** *Европейский союз, Азербайджан, энергетика, сотрудничество, Южный газовый коридор*

UOT 355; 32; 32:355

# STRATEGİYA ANLAYIŞI

**RAMİL ALLAHVERDİYEV**
*AMEA-nın Fəlsəfə İnstitutunun Müasir Siyasətin Fəlsəfəsi şöbəsinin dissertantı*

*E-mail: allahverdiyev-77@mail.ru*

Strategiya hərb sənətinin tərkib hissəsi, onun ən mühüm sahəsi olmaqla, ölkənin və silahlı qüvvələrin müharibəyə hazırlığı, müharibənin planlaşdırılması və nəzəriyyəsi, həmçinin praktikası məsələlərini əhatə edir. Müharibənin qanunauyğunluqlarını tədqiq edir, strateji əməliyyatların hazırlığı və aparılması üsul və formalarını işləyib hazırlayır; cəbhələrin ordu və donanmaların hərbi məqsəd və vəzifələrini müəyyən edir, qüvvələri hərbi əməliyyat meydanları və strateji istiqamətlər üzrə bölüşdürür. Strategiya dövlətin siyasəti ilə sıx bağlıdır və onun vəzifələrinin yerinə yetirilməsini təmin edir. Strategiya iqtisadiyyatdan, cəmiyyətin iqtisadi quruluşundan, istehsalın vəziyyətindən, xalqın mənəvi imkanlarından asılıdır. Əməliyyat sənətinə və taktikaya münasibətdə strategiya müəyyənedici rol oynayıb, eyni zamanda onların imkanlarını da nəzərə alır[1.s,623]. “Strategiya ictimai-siyasi mübarizəyə rəhbərlik sənəti” kimi də qiymətləndirilmişdir[2.s.44-45].

Strategiya, məqsədəuyğunluq, ümumi plan və düşmənə qarşıya qoyulan tədbirlərin mütəmadi olaraq həyata keçirilməsi yolu ilə müharibədə qələbə qazanmaq yoludur.

Strategiya müharibəyə hazırlıq və silahlı qüvvələrin (qoşunların) müharibə məqsədinə nail olmaq üçün ardıcıl əməliyyatları birləşdirmək sənətini əhatə edir. Strategiya həm silahlı qüvvələrin, həm də ölkənin bütün ehtiyatlarının düşməni məğlub etməsi ilə bağlı məsələləri həll edir. Bəzi xarici ölkələrdə böyük strategiya (ümumiyyətlə müharibə strategiyası) və kiçik strategiyaya (müxtəlif miqyaslı işlərin planlaşdırılması, hazırlanması və aparılması) ayrılır.

Hərbi elm olaraq, strategiya müəyyən hallarda strateji hərəkətləri bildirir. Amma hərəkətlərin həyata keçirilməsi strateji biliklərindən başqa strateqdə şəxsi (komandan, siyasətçi) keyfiyyətləri tələb edir. Sadəcə strategiya haqqında kitab oxumaqla strateq olmaq mümkün deyil və akademik şəkildə strategiya ilə məşğul olmaq mümkün deyil. Strategiya praktiki fəaliyyət sahəsinə aiddir və yalnız praktik fəaliyyətlərdə özünü göstərir. Buna görə də, strategiya bilik kimi bir alət rolunda və yaradıcı rolundan bəhs edilir. Strategiyada şəxsiyyətin və sənətin özü bəzən strategiyanın əsas elementləri kimi vacibdir.

Hərbi strategiya dövlət siyasəti ilə sıx bağlıdır və ona birbaşa asılıdır. Hərbi strategiya və siyasətin qarşılıqlı əlaqəsi, ilk növbədə, strategiyanın məzmununun şiddətli vasitələrlə siyasətin davamı olan müharibənin mahiyyəti ilə müəyyənləşdirilməsidir. Siyasət ölkələrin (koalisiyaların) gücünün, ehtimal olunan təhdidlərin və müharibənin nəticələrinin balansını nəzərə alır; hərbi-strateji vəzifələri həll etmək üçün əlverişli şərait yaradır; qoşunların hazırlığı və döyüş qabiliyyəti üçün resursları səfərbər edir. Hərbi strategiya isə dövlətin müharibəyə hazırlığının bütün aspektlərinə təsir göstərir, hərbi quruculuq məsələlərini həll etmək, müharibə məqsədlərini, onun davranış üsullarını və metodlarını, qoşunların hazırlıq səviyyəsini, onların strateji yerləşdirilməsinin vaxtını təyin etmək üçün siyasətə təsir göstərir. Ciddi hərbi strategiya müharibə zamanı siyasətə təsir göstərir. Bəzi hallarda isə “aparılan xarici siyasət strategiyası böyük müharibələrə səbəb olur. Məsələn ABŞ-ın, Qərbin, Almaniyanın və Yapon militarizminin, faşist blokuna qoşulmuş ölkələrin SSRİ-yə qarşı yönəldilmiş

təcavüzkar hərəkətlərinin genişləndirilməsi niyyəti ilə birləşməsi buna tarixi misaldır [23.s.66]. Silahlı qüvvələrin əldə etdiyi uğurlar hökumət tərəfindən hazırlanan siyasətin həyata keçirilməsi üçün əlverişli şərait yaradır. Hərbi məğlubiyyətlər isə əksinə hərbi-strateji planların uğursuzluqları siyasi rəhbərliyin hərəkət etməsi vəziyyətini çətinləşdirir və həddini aşdığı hallarda siyasi kursun dağılmasına gətirib çıxarır. Beləliklə, nəticəyə gəlmək olar ki, ölkələr və koalisiyalar arasında hərbi-siyasi əlaqələrin inkişaf prosesində hərbi strategiyanın əhatə dairəsi genişlənir və onun hərbi nəzəriyyə və praktikada rolu və yeri artır. Hərbi strategiyanın xarakteri və məzmunu əsasən iqtisadiyyat tərəfindən müəyyən edilir, silahlı qüvvələrin yaradılması üçün əsas yaradır, onların kəmiyyət və keyfiyyət tərkibini müəyyənləşdirir, müharibə üçün dövlət hazırlığının dərəcəsinə təsir edir, strategiyanın inkişafı üçün şərait yaradır [18.s 345]. İstehsal səviyyəsi, elm və texnologiyanın nailiyyətləri müasir tipli silah və hərbi texnikanın yaranmasına kömək edən mühüm amillərdir və nəticədə hərbi strategiya nəzəriyyəsinin və təcrübəsinin inkişafını sürətləndirir. Böyük Britaniya hərb tarixçisi Lidel Hartın fikrincə “strategiya” silahlı qüvvələri siyasi məqsədlər üçün istifadə etmək qabiliyyətidir. “Strategiya” konsepsiyası çox sahəli və geniş miqyaslıdır. İlk vaxtlar hərb sənətinin bir hissəsini əhatə edən strategiya anlayışı sonralar hazırlıq və müharibə məsələlərini də əhatə edərək xüsusi elmi yanaşmada “sərkərdə olmaq” sənəti kimi qəbul edilmişdir. İngilis ensklopediyasında strategiya “hərbi məqsədlərin həyata keçirilməsi üçün bütün milli qaynaqlardan və ya resurslardan istifadə etmək üçün elm və ya bacarıq” kimi başa düşülür. Strategiya barədə çox tez-tez aparılan şərhlərdə onun siyasətlə birbaşa əlaqəsini vurğulayırlar. Sovet dövrünün lüğətlərində bu əlaqə daha da diqqətəlayiqdir.” Siyasət strategiya üçün hədəflər qoyur və strategiya onların həyata keçirilməsini təmin edir”. Strategiya ilə bağlı düşüncə və fikrlər miladdan öncə IV əsrdə yaşayan və “Müharibə sənəti” kitabının müəllifi Sun Tszının açıqlamaları ilə bağlıdır. Onun fikirlərinə görə strategiya açıq münaqişələrin qarşısını almaqla dəyişən şəraitdən istifadə etmək, vəziyyət dəyişikliyini nəzərə almaq qabiliyyətidir. Strategiya müharibə nəzəriyyəsinin ayrılmaz tərkib hissəsi kimi yaranmış, müasir şəraitdə, praktiki olaraq, ictimai həyatın bütün sahələrində tətbiq edilməyə başlamışdır. Strategiyanı anlamadan və tətbiq edilməsini bacarmadan, bir ölkənin və ya bölgənin strateji inkişaf planlaşdırmasından, iqtisadi və siyasi qurumların fəaliyyətlərini təşkil etmək mümkün deyil. Bir çox Universitet və tədqiqat mərkəzlərində strategiya artıq ayrıca bir elmi intizam kimi qəbul edilir və təqdim olunur. Burada əsas məqsəd hədəfləri, hərəkətləri və resursları bütöv birləşdirmək üçün planlaşdırma prosesinin vacibliyi vurğulanır. Silahlı qüvvələri müharibə, planlaşdırma və davranışa hazırlamaq nəzəriyyəsi və praktikası məsələlərini əhatə edir. Hərbi strategiya dövlət siyasəti ilə sıx bağlıdır, doğrudan da ondan asılıdır və hərbi doktrina tələblərinə cavab verir. Müasir şəraitdə siyasətlə strategiya qarşılıqlı əlaqəlidir. Dövlətin siyasi rəhbərliyi müharibənin ümumi siyasi və strateji hədəflərini silahlı qüvvələrin və onun davranışının lazımi vasitələrini hazırlamaq vəzifələrini müəyyənləşdirir. Qədim dövrlərdə yaranmış hərbi strategiya və istehsalın inkişaf səviyyəsinə, sosial sistemin təbiətinə, yeni silahların və hərbi texnikanın yaranması, müharibələrin tətbiqinə uyğun olaraq tədricən inkişaf etmişdir. Sosial-iqtisadi və ictimai siyasi formasiyaların dəyişməsi də hərbi strategiyaya zaman-zaman təsirini göstərmişdir [25]. Hərbi strategiya Qədim Şərq, Hindistan, Çin, Qədim Yunanıstan və Qədim Roma kimi dövlətlərdə əvvəlcə nisbətən qısa məsafələr üçün qısamüddətli müharibələr aparmaqla məhdudlaşdırılırdı, ancaq sonralar böyük miqyasda nailiyyətlər (Böyük İskəndərin, Yuli Sezarın, imperiya dövrünün Roma işğalları, Hunların yürüşləri və.s.) əldə etdilər. Tədricən hərbi nəzəriyyə ortaya çıxmağa başladı. Bir çox sərkərdələr artıq müharibə bölgəsində strateji suallar ətrafında düşünürdülər. Feodalizm dövründə, hərbi strategiyada müəyyən bir durğunluq yaşandı. X-XV-ci əsrlərdə hərbi strategiya, əsasən ağır və yüngül silahlanan cəngavər dəstələrindən ibarət qoşunun tərəfindən aparılan müharibələrdə sezilirdi. Bu müharibələrə Səlib müharibələrini, Səlcuqların müharibələrini, Avropada gedən Yüzillik, Güllər və Otuzillik müharibələri misal göstərmək olar [26.s.77,83,112,113,116.]. Qərbi Avropanın feodal dövlətlərinin arasında olan müharibələrdə mərkəzləşdirilmiş strateji

rəhbərliyin və planlaşdırmanın olmaması adi hal hesab olunurdu. Uzun sürən qala istehkam mühasirəsindən çox istifadə edilirdi. Nadir hallarda böyük döyüşlər olurdu. Cin hərb nəzəriyyəçisi və strateqi Sun Szı (E.ə. 544 - E.ə. 496) tərəfindən yazılmış traktat. [16.s. 131] "Müharibə sənəti" hərbi strategiyaya və siyasətə aid məlum çin traktatları arasında ən qədimdir. Əsər on üç fəsildən ibarətdir. Amma Polonius və Vegetius kimi ilkin orta əsr Avropa müəllifləri də öz yazılarında strategiya məsələləri kimi başa düşülən "strategikon", "strategologiya" ifadələrini göstərmişlər. Erkən orta əsrlərdə Bizans imperiyasında sərkərdələri stratelat adlandırırdılar[29.s,133].Troya müharibələri, Herodot tərəfindən qələmə alınan Yunan-İran müharibələrində(e.ə.484-425), Makedoniyalı İskəndərin yürüşləri (e.ə.334-323-cü illər), Romaya qarşı Hannibalın (e.ə.247-183-cü illər) yürüşləri, Qallara qarşı Yuli Sezarın (e.ə. 100-44-cü illər) yürüşləri və bir çox digər müharibələr ilk dəfə olaraq düşmən ərazilərinin qəflətən işğalı, qalaların mühasirə və zəbti, dəniz mühasirəsi, strateji müharibələr barədə məlumatları əhatə edir. Antik dövrdə belə müharibələrdə müvəffəqiyyət gücün üstünlüyündə deyil, hərbi əməliyyatlar planlarının düzgün hazırlanmasında, hərbi sənət prinsiplərini bilmək və həyata keçirmək imkanlarına malik olmaqda, mövcud güc və vasitələrdən ən yaxşı fayda əldə etməyə imkan verən bacarıqdan istifadə etməkdə görülürdü. Strategiya sənətinin vəzifəsi düşməni cüzi səy və az məsrəfdən istifadə etməklə çox zərərlə məğlub etmək bacarığı idi. İqtisadi potensialın, texniki və texnoloji yeniliklərin yığılması, hərbi sənətin bütün aspektlərinin inkişafı, getdikcə hərbi strategiya müddəalarında əks olunmağa başladı.

Nəzəri olaraq strategiya yalnız XVIII əsrin ikinci yarısında xüsusi bir hərbi elm sahəsi olaraq inkişaf etdməyə başlamışdır, baxmayaraq ki, XV və XVI əsrlərdə müharibənin hazırlanması və keçirilməsi nəzəriyyəsini təqdim etməyə cəhd göstərmişdir. Florensiyalı Nikola Makiavelli (1469 - 1527) "Müharibə sənəti haqqında" adlı əsərində Hərbi strategiya nəzəriyyəsinin inkişafına mühüm töhfə vermişdir. Makiavelli əsərində qeyd edir ki, "Ağıllı heç vaxt birinci yer tutmayıb. O öz yerini hərbi qüvvə sahibinə verir. Ona görə də dövlətdə birinci hərbi xadimlər, sonra isə filosoflar gəlir" [13.s.20]

1762-ci ildə "Taktika və strategiya, ya da hərbi elmlərin əsli prinsipləri haqqında təfsirlər" adlı əsərini nəşr edən Sardinyalı Marquis de Silva, Hollandiyanın, Fransanın, Avstriyanın, Rusiyanın və Prussiya qoşunlarının xidmətində olan Yeddiillik Müharibənin tarixi (1756-1763) strategiyasına əsaslanan general Henri Lloyd (1720-1783) XVIII əsrdə 1789-1794-cü illərdə Fransanın burjua inqilabından meydana gələn dövlətlərin hərbi sistemində qarşıda baş verəcək əhəmiyyətli dəyişiklikləri öncədən təhlil edən Prussiya hərbi yazıçısı Henrix fon Bulo (1757-1807) strategiya haqqında fikirlərini təqdirəlayiq hesab etmək olar.

Rusiyada Strategiya 16-cı əsrin ikinci yarısında IV İvan Qroznının Kazan və Həştərxan xanlıqlarına növbəti hücumları və sonra Baltikyanı ölkələrlə Baltik dənizinə çıxmaq üçün 1558-83-cü illərdə apardığı Livoniya müharibəsi ilə xarakterizə edilir. 1700-21-ci illərdə Şimal müharibəsi dövründə I Pyotr, Baltikyanı ölkələr uğrunda mübarizəni davam etdirərək, hücum və müdafiədən məharətlə istifadə etməklə düşmən üzərində qətiyyətli üstünlük əldə etmişdir, I Pyotr quruda və dənizdə bütün müharibə vasitələrindən istifadə edərək, Baltik dənizinə çıxmaqla qarşısına qoyduğu strateji vəzifəni müvəffəqiyyətlə yerinə yetirmişdir.

XVII-XVIII əsrlərdə bütün Avropa dövlətlərində hərbi pərakəndəlik dövrü kimi qəbul edilir. Kordon strategiyası yəni feodal cəngavər ordularının, kim necə bacardısa manevr edərək döyüşü qazanmaq üçün, mühasirədən və qala-istehkamları ələ keçirmək bacarığı ilə xarakterizə olunur.

Rusiyada Strategiya XVIII əsrin ikinci yarısında sərkərdələr P. A. Rumyantsev A.V. Suvorov və kordon strategiyasının prinsiplərini rədd edən dəniz komandiri Uşakov strategiyanı siyasətin prioriteti kimi tanımışlar. Onun hərəkətləri yalnız düşmən ərazilərinin işğalı deyil, həm də onun işçi qüvvəsini məğlub etmək idi. Fransız strateji düşüncəsi bir ümumi döyüşdə düşmən üzərində qələbə qazanmaq istəyi ilə xarakterizə olunurdu və bu yanaşma I Napoleonun qəsblərində özünü biruzə vermişdir. Napoleon, düşmən qüvvələrini məğlub etmək üçün böyük silahlı qüvvələrdən necə doğru istifadə etmək strategiyasını tapsa da, lakin onun bu strategiyasını da alt üst edənlər tapıldı. Bu XIX əsrin əvvəllərində

Rusiyanın hərbi akademiyasının böyük inkişafı ilə bağlı olan və 1812-ci il Vətən müharibəsinin qəhrəmanı M.İ. Kutuzov idi. Bu strategiyanın (geri çəkilmək, inadkar müdafiə, əks-hücum və təcavüz zamanı düşmənin zəif salınması), iri qoşun hissələrinin idarəedilməsi və partizan hərəkatının qoşunlarla birgə əməliyyatlarını yaratmaq və strateji ehtiyatlarının vaxtında istifadə sənətini əks etdirir. [1] Ktuzovu buna görə alqışlayanlar çox olsa da sonradan Napoleona qalan qoşunu ilə Rusiyadan xilas olmağa görə ona “qızıl körpü” nü yaratmaqda haqlı tənqid edənlər də az olmamışdır. [2int] Kutuzov srtategiyası İkinci Dünya Müharibəsində Sovet İttifaqında vətənlərini müdafiə edən insanların maraqlarına tam cavab vermiş, bu strategiyadan istifadə məlum hərbi nəticələrə gətirib çıxarmışdır. 1812-ci ildə Vətən müharibəsi təcrübəsi, eləcə də XIX əsrin bir sıra digər müharibələri strategiyanın daha da inkişaf etdirilməsi üçün əsas olmuşdur. XVIII və XIX əsrin əvvəllərində. K. Clausevitz, A. Jomini və digərləri Hərbi nəzəriyyəni yazılarına müəyyən dərəcədə Qərbi Avropanın kütləvi burjua orduları barədə fikirlər mövcuddur. Clausevitz, “Müharibə haqqında” əsas əsərində müharibə ilə siyasət arasındakı əlaqə haqqında bir bəyanat hazırlamışdır: “... Müharibə siyasətin bir vasitəsidir; qaçılmaz olaraq sonuncunun xarakterinə malik olmalıdır; bir siyasət tədbiri ilə ölçülməlidir. Buna görə müharibənin başlıca təməlində aparılması, qələmin qılıncın əvəzi olan siyasətin özüdür. [5.s,383]

Qələbəyə nail olmaq üçün müəllif strategiyanın lazımi prinsiplərini müəyyən etmişdir. Eyni zamanda, strategiyada əsas rolun ümumi döyüşün təşkili üçün strateji rəhbərlikdə sərkərdənin istedad və məharətinin əsas olduğuna inanırdı. XIX əsrin hərb yazarı əvvəlcə fransız ordusunda sonralar rus ordusunda xidmət edən Henrix Jomini “Hərb sənətinin strategiya və taktikası”əsərində Kordon strategiyasına qarşı çıxan böyük hərbi əməliyyatlar və hərbi sənət nümunələri haqqında mübahisələrində düşmən ordusunu parçalamaq və həlledici bir döyüşdə məhv etməyin vacibliyini vurğulayırdı. Eyni zamanda o, strategiyanın əbədi və dəyişməz prinsiplərinin o mövcud olduğunu sübut etməyə çalışmışdı. Müharibə təcrübəsinin döyüş meydanlarında olan bütün aspektlərini və nəzəriyyələrinə baxış edərək hücum, geri çəkilmə, müdafiə, xüsusi əməliyyatlar, gözlənilməz manevrlərin aparılması barədə, xüsusən kəşfiyyat, arxa təchizatın təşkili, mühəndis istehkamının və diplomatiyanın hadisələrin gedişinə təsiri barədə mükəmməl klassik tarixi yanaşma etmişdir. [3]. Strategiyanın həmin dövrlər üçün bu dəyişilməz prinsipləri 1861-1865-ci illərdə ABŞ-da, 1866-cı ildə Avstriya-Prussiya müharibəsində, 1870-1871-ci illərdə Fransa Prussiya müharibəsindən və 1877-1878-ci illər Rus-Türk müharibələrində istifadə olunurdu. Böyük orduların hərəkətini sürətləndirmək, müəyyən sahələrdə onların tədarükü və konsentrasiyasını təmin etmək məsələləri həyata keçirilirdi. Sürətlə atəş açan silahlar qoşunların döyüş gücünü və qabiliyyətlərini artırırdı. Telefon və teleqrafın istifadəsi bir neçə istiqamətdə fəaliyyət göstərən silahlı qüvvələrin nəzarətinə imkan yaradıb. Bütün bunlar yeni şəraitə cavab verən strateji baxışlarda özünü büruzə verirdi. Bu sahədə Alman generalı, strateji baxışları ilə böyük iz buraxan Alman Baş qərargah komandanı Qraf Alfred fon Şliffen idi. O, güclü birliklərlə ildırımsürətli ilk zərbə ilə düşməni məğlub etmək kimi bir strategiya təklif edirdi. Şliffen Almaniya üçün iki cəbhədə - Qərbdə və Şərqdə müharibə aparmağı planlaşdırmış və bunu müvəffəqiyyətlə sona çatdıra bilmişdir. [5] Fransız strateji düşüncəsinin üstünlüyü, Müharibə prinsipləri (1903) və Müharibə İdarəetmə (1904) əsərlərində “əbədi”, “dəyişməz” müharibə prinsiplərini tərtib edən F. Foş idi. O, hücumu strateji fəaliyyətin əsas forması kimi tanıyıb və ən mühüm düşmən qruplaşmalarını məğlub etmək üçün daxili əməliyyat xəttləri boyunca qüvvələrin konsentrasiyasını tələb edirdi. Birinci Dünya müharibəsindən əvvəl Avropa ölkələrinin əksəriyyətinin strateji konsepsiyalarında (1914-18) qısa müharibənin vacibliyindən bəh olunur. Ancaq bu anlayışlar, sarsılmaz ildırımsürətli zəfər planları uğursuz oldu. Uzunmüddətli davamlı strateji mövqelər cəbhəsinin formalaşması ilə həm koalisiyalar, həm də “mövqelərdən çıxma” yolu nəticəsində öz dayanıqlığını tapa bilmədi. Qeyd etmək yerinə düşərdi ki, F. Foş 1920-ci ilin yanvarında Paris sülh konfransı (1919-1920) Ali Şurasının iclaslarında Cənubi Qafqaz respublikaları problemlərinin müzakirəsində iştirak etmişdir. Antantanın Ali

Hərbi Şurasının sədri olan Foş məruzə ilə çıxış edərək Qafqaza bir neçə diviziya göndərməyi zəruri saymışdı. O, hesab edirdi ki, yalnız hərbi qüvvə göndərməklə Qafqazı bolşevik işğalından xilas etmək olar [7]. Müharibə zamanı siyasi liderlik rolu, siyasətin strategiyaya təsiri, koalisiya ölkələrinin müharibənin koordinasiyasında rolunu artırmışdır. Strategiya əvvəllər olduğu kimi, düşmən işğalını məhv etmək, ərazini ələ keçirmək və ya tutmaq üçün tətbiq olunurdu. Yeni döyüş vasitələri (təyyarələr, tanklar, sualtı qayıqlar) və artilleriyanın yaxşılaşması ilə tərəflərin strateji imkanları artırdı. Sadalanan bu yeni texniki imkanlarla əməliyyatlar və döyüşlər aparmaqla strateji məqsədlərə nail olunurdu. Yeni strateji ittifaqlar formalaşdıqda - cəbhələr (ordu qrupları), qoşunların strateji komandası və nəzarət daha mürəkkəbləşdi və strateji ehtiyatların rolu artmağa başladı. Koalisiyanın problemləri, birləşmiş planın, vahid komandanlığın yaradılmasının, siyasi və strateji rəhbərliyin birliyi, qarşılıqlı strateji fəaliyyətin təşkili və digərlər prioritet məsələlərin inkişafına təkan yaratdı.

XX əsrin 30-cu illərində faşist diktaturanın qurulması ilə Almaniyanın imperialist dairələri dünya hökmranlığı uğrunda müharibəyə hazırlıqlarını davam etdirməyə başladılar. Faşist Almaniyasının strategiyası müharibə elan etmədən sürpriz bir hücum, bir sıra Qərb və Şərqi Avropa ölkələrinin hava qüvvələrinin, tank birləşmələrinin və havadan hücum güclərinin kütləvi istifadəsi ilə qarşı tərəfin ardıcıl və sürətli məğlub edilməsini nəzərdə tuturdu. Müharibəyə hazırlığın mərkəzi planında qələbənin qısa müddətdə əldə edilməsi nəzəriyyəsindən ifadə olunmasına xüsusi əhəmiyyət verilirdi.

Böyük Britaniyanın ikinci dünya müharibəsi başlanması ərəfəsində hərbi strateji hazırlığını, Hərbi Dəniz Qüvvələrinin yaradılması və hərbi əməliyyatların quruda müharibə hazırlığına və keçirilməsinə kifayət qədər diqqət yetirməməsi, əsas diqqətin hava qüvvələrinin yaradılmasına yönəldməsində görmək olar. Avropada materikdə müharibə, əsasən, müttəfiq qoşunlarının qüvvələri tərəfindən kiçik bir ekspedisiya tərəfindən aparılması nəzərdə tutulurdu. Bu, Britanıya ilə faşist təcavüzkarlarının təşviq siyasətinə əsaslanan siyasi strategiya faşist Almaniya ilə SSRİ arasında müharibəyə səbəb olmuşdur. Böyük Britaniya kimi Amerika Birləşmiş Ştatlarının hərbi strtegiyası, donanmanın və aviasiyanın inkişafına yönəldilmişdir. Dəniz donanması dəniz sərhədlərinin təhlükəsizliyini təmin etdi və Hərbi strategiya müharibələrin aparılması təcrübəsini ümumiləşdirmək əsasında tədricən inkişaf etmişdir. Strategiya nəzəriyyəsinin inkişafı müharibə kimi bir ictimai-siyasi fenomenin təkamülünün müəyyən edilməsi, nəzəri əsaslandırılması və proqnozlaşdırılması üçün yeni, elmi əsaslı üsullar açır. Bu, sülh dövründə, savaş vasitələrindən istifadə etməklə və ya istifadə etmədən dövlətlər tərəfindən aparılan hərbi əməliyyatları daha dərindən öyrənməyə imkan verir. Hərbi elmlər qanununa görə hərbi strategiya hərbi sənətin tərkib hissəsidir, ən yüksək sahəsini təmsil edir. Hərbi sənətin digər komponentləri - əməliyyat sənəti və taktikası ilə əlaqədar olaraq - strategiya dominant mövqe tutur və bütün silahlı qüvvələr üçün eynidır. “Görkəmli rus və sovet hərbi teatrçısı A.A.Svecin hərbi strategiyanı “sehrli qələbə” “komandirin ulduzu”, adlandırmışdır. [22] Bunun nəticəsi olaraq, strategiya keçmiş dünya təcrübəsi və müasir müharibələr, silahlı münaqişələr, əməliyyat və döyüş təlimləri sintezinə əsaslanmalı və bu sahədə biliklərin gələcək inkişafı ilə əlaqədar təcrübələrdən və dərslərdən nəticə çıxarmalıdır. Ancaq “hərbi strategiya” kateqoriyasındakı “qoşunların idarəetmə bacarığı” kimi bu qədər dar bir şərh ilə razılaşmaq olmaz. O, obyektiv şəkildə genişlənir və dövlətin hərbi fəaliyyətinin əhəmiyyətli bir hissəsini əhatə edir. Bu, hərbi strategiyanın, dövlətin hərbi fəaliyyətinin əsasıdır. Hərbi strategiyanın məzmunu bir nəzəriyyə və praktik fəaliyyət sahəsi kimi qalıcı, dondurulmuş, heç bir şərt üçün uyğun deyildir. Həm dövlət, həm də müxaliflər arasında müxtəlif sahələrdə baş verən dəyişikliklər ilə yanaşı, bir sıra amillərdən asılı ola bilər. Əsaslar bunlardır:

- “Xarici siayasətdə geosiyasət və geostrateji mövqeyində dəyişikliklər, regionda və dünya mərhələsində hərbi-siyasi qüvvələrin uyğunlaşdırılması. Rəqiblərin konsepsiyaları və doktrinalarına yenidən baxılması (dəyişdirilməsi); [25.s,582].”
- Hərbi qüvvənin təhlükəsi və birbaşa istifadəsi zamanı aparılan siyasi məqsədlər;
- Dövlətin hərbi doktrinasının müddəalarının aydınlaşdırılması;

- Dövlətin və onun hərbi gücünün iqtisadi imkanlarının nəzərə alınması;

- Tərkibi, silahlı qüvvələrin vəziyyəti, silah və hərbi texnikanın inkişaf səviyyəsi;

-Silahlı qüvvələrin hərbi əməliyyatların baş verməsində vəzifələrinin dəyişdirilməsi (aydınlaşdırılması).

Hərbi strategiyanın idrak və praktik fəaliyyətinin məqsədi müharibədir. Lakin müharibə yalnız hərbi elm çərçivəsində tədqiq edilə bilməyən kompleks və çoxtərəfli sosial və siyasi bir fenomendir. Elmin bəzi sosial və texniki sahələri onun digər aspektlərini araşdırır. Hərbi strategiyanın bilik və fəaliyyəti mövzusu müharibənin əsas və xüsusi tərəfi - silahlı mübarizə və onun ən yüksək səviyyəsi strateji səviyyəsidir. Hərbi strategiyanın müəyyən mövzusu öz vəzifələrini müəyyənləşdirir. Onların ən vacibi bunlardır:

-Dövləti mümkün müharibəyə hazırlamaq;

- Sülh dövründə və müharibə dövründə silahlı qüvvələrin rəhbərliyi;

- Müharibələrin təbiəti və strateji məzmununu öyrənmək, hərbi vasitələrlə onların qarşısının alınması yolları;

- Hava qüvvələrinin hazırlanması üçün tələblərin formalaşdırılması;

- Müharibənin inkişafı və strateji fəaliyyət formaları;

- Təyyarələrin istifadəsinin strateji planlaşdırılması;

- Silahlı qüvvələrin tam təmin edilməsi üçün tələblərin formalaşdırılması.

Ümumilikdə müharibələri planlaşdırma və keçirmək və strateji ölçülü hərbi əməliyyatlardan əlavə, ölkəni və onun silahlı qüvvələrini müharibəyə hazırlamaq nəzəriyyəsini və tətbiqini əhatə edir.

ən strateji xüsusiyyətləri:

- Müharibə məqsədləri;

- Müharibə edən tərəflərin mümkün tərkibi;

- Müharibələrin və onların müxtəlif davranış vasitələrindən istifadə etmələrinə yol açmaq vasitələri;

- Silahlı qüvvələrin strateji fəaliyyətinin formaları;

- Gərginlik və məkan çərçivəsi;

Hərbi strategiya nəzəriyyəsi müasir müharibələrin təbiəti və onların hərbi vasitələrlə qarşısının alınması yolları, ölkəni və Silahlı Qüvvələri təcavüzə, döyüş üsullarına və formalarına yönəltmək üçün hazırlanan bilik sistemidir.

Strategiya nəzəriyyəsi müharibələrin təsnifatını ölçmə, müddət, vasitələr və aparma metodlarına uyğun müəyyənləşdirir. Bir müharibənin xarakterik xüsusiyyətlərini müəyyən edən amillər, məzmunu və qarşılıqlı əlaqələrini ortaya qoyur, onları haqlı edir.

- müharibələrin mümkün müddəti və onların nəticələri.

Praktik fəaliyyət sahəsi olaraq hərbi strategiya hərbi-siyasi əlaqələrin monitorinqi və nəhəng düşmənlərin hərbi-iqtisadi imkanlarını, qoşunlarının döyüş qabiliyyətini və müharibə üsullarını təhlil etməklə məşğuldur; silahlı qüvvələrin, əməliyyat teatrının, ölkənin iqtisadiyyatının və əhalisinin müharibə üçün hazırlanması tədbirlərini müəyyənləşdirir; qoşunların yerləşdirilməsinin həcmi və vaxtı, hərbi əməliyyatlarda liderlik prosedurunu planlaşdırır. Nəticədə, hərbi strategiya yalnız dövlətin silahlı müdafiəsi məsələlərini deyil, sülh dövründə hərbi fəaliyyətin bir sıra digər aspektlərini, o cümlədən silahların sökülməsinin, müharibələrin qarşısının alınması və dayandırılmasının aktual məsələlərini də nəzərdən keçirməlidir. Bu da onun inkişafının digər vacib bir tendensiyasıdır. Hərbi strategiyanın nümunələri strateji vəzifələri həll etməyə yönəlmiş dövlət və yüksək hərbi rəhbərliyin fəaliyyətini tənzimləyən obyektiv olaraq (təkrarlanan) əsas əlaqə və proseslərdir. Ümumi müharibə, müharibə qanunları və strategiyaların ümumi qanunlarına əsasən, onun həyata keçirilməsi üçün prinsiplər hazırlanır ölkənin və silahlı qüvvələrin müharibə üçün hazırlanmasında dövlət və yüksək hərbi rəhbərliyin praktik fəaliyyəti üçün ümumi, elmi əsaslı müddəalar, qaydalar, tövsiyələr, strateji ölçüsünün hərbi hərəkətləri aparılır. Sülh zamanı və müharibə zamanı silahlı qüvvələrin rəhbərliyi formalaşdıqda təhlükə dövründə hərbi əməliyyatlar aparmaq üçün yığılmış təcrübəyə xüsusi diqqət yetirilməlidir. Prinsiplər hərbi qanunvericilik aktlarının tələblərini, hərbi doktrinanın müddəalarını və müdafiə sahəsində digər normativ hüquqi sənədlərin tələblərini əks etdirir.

Hərbi əməliyyatların hazırlanmasında hərbi strategiyanın əsas prinsipləri aşağıdakılardır:

-Hərbi-siyasi və strateji vəziyyətdəki

dəyişiklikləri təxmin etmək lazımdır;

- Strateji məqsədlərin və məqsədlərin müharibənin siyasi məqsədlərinə uyğunluğu;

-Dövlətin müharibə üçün əvvəlcədən hazırlanması, strateji ehtiyatlar və ehtiyatların yaradılması;

-Müdafiə məsələləri üzrə bütün təhlükəsizlik strukturlarının hərəkətlərinin əlaqələndirilməsi;

- Silahlı Qüvvələrin yüksək döyüş və səfərbərlik hazırlığına;

- Qoşun qruplarının (qüvvələrin) döyüş hazırlığını təmin etmək.

Hərbi əməliyyatlar zamanı hərbi strategiyanın ən mühüm prinsipləri aşağıdakılardır:

- Strateji tədbirlərin sürpriz, həlledici və davamlılığı;

- Silahlı Qüvvələrin növləri, qoşun növləri və qüvvələrdən razılaşdırılmış istifadə;

- Silahlı qüvvələrin möhkəm və davamlı rəhbərliyi;

- Silahlı Qüvvələrin strateji fəaliyyətinə hərtərəfli dəstək;

- Strateji təşəbbüslərin ələ keçirilməsi və saxlanılması;

- Qoşun, qüvvələr və manevr:

Müharibənin təbiətindəki dəyişiklik, hazırlıq və davranış şərtləri ilə strategiyanın köhnəlmiş və yeni prinsipləri yox olur. Keçmişin müharibələri nəticəsində yaranan zamanauyğun prinsiplər istifadə edilmir. Digərləri ifadə formalarını qoruyarkən və ifadə formasında dəyişməz olaraq qalan vacib prinsiplər, xüsusi məzmunlarla zənginləşir.

"XIX-cu əsrin sonlarından başlayaraq Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz həm də transkontinental enerji Nəqliyyat kommunikasiya əlaqələndiricisi və beynəlxalq enerji təhlükəsizliyi sisteminin təsiredici mərkəzlərindən birinə çevrilmişdir. Bütün bunlar bu ərazinin ümumi geosiyasi vəziyyətinə, həm də yerli ölkələrin beynəlxalq, regional və milli siyasətinə mühüm təsir göstərmişdir"[28,s.14].

Hərbi strategiyanın dövlətin milli təhlükəsizliyi və geosiyasi maraqları baxımından vacibliyi məsələsində bugün Azərbaycan Respublikasını bariz misal göstərmək olar. Dövlətin hərbi strategiyasının əsasını təşkil edən prinsiplərin onun hərbi çəhətdən qüdrətlənməsinin təşkil etməsinin, ərazi-milli təhlükəsizlik, regional geosiyasi təhlükəsizlik məsələləri ilə sinxron olmasındadır. Daxildən konstitusion hüquqla, xaricdən isə beynəlxalq hüququn hamılıqla qəbul olunmuş norma və prinsipləri ilə heç bir ziddiyyət təşkil etməyən hərbi cəhətdən güclənmə məqsədi, NATO alyansı ilə yaxınlaşma Azərbaycan Respublikasının hərbi strategiyasının əsas siyasi məqsədini təşkil edir. Lakin "Genişlənmə strategiyasında Avro atlantik məkandan kənara çıxan NATO təşkilata üzv subyektlərindən fərqli olaraq Azərbaycana münasibətləri, yalnız tərəfdaşlıq, əməkdaşlıq, təlimat, və məsləhətləşmələr xarakterli olduğundan bu alyansın Yeni Qafqaz siyasəti "Ehtiyatlı strategiya" adlandırılmışdır. [10.s 96-97, 21.s,3]". "İlk növbədə Dağlıq Qarabağ münaqişəsinin həllində kömək məsələsində NATO kimi böyük bir arenanı əhatə edən hərbi-siyasi qurum Azərbaycan üçün milli təhlükəsizliyin təmin olunmasında böyük əhəmiyyət kəsb edə bilər. [20, s.485]. Daha sonra qeyd etmək lazımdır ki, Azərbaycanın hərbi strategiyasında güclənməsinin məqsdləri NATO-nun Cənubi Qafqazda olan əsas maraqları ilə üst-üstə düşür. Bunlar aşağıdakılardır.

-Regionun coğrafi və strateji mövqeyi;

-Avropa təhlükəsizliyində Cənubi Qafqazın rolu;

-Kütləvi qırğın silahlarının yayılması təhlükəsinin olması;

-Bir dövlətin hegemonluğuna yol verməmək". [19, s.14]

Ən vacib olan sonuncu məsələ Qafqazın, xüsusən Azərbaycanın kommunikasiya potensialının əhəmiyyətinin Mərkəzi Asiya və Xəzəryanı regionun hüdudlarından kənara çıxmasının nəzərə alınmasıdır. Bu potensial, geosiyasi və geoiqtisadi aspektdən nəzərə alınıb qiymətləndirilməlidir." [11.s,216]. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin silahlı Qüvvələrə göstərdiyi qayğının nəticəsində Azərbaycanın hərbi cəhətdən güclənməsi strategiyasının mühüm prinsiplərinə görə NATO maraqları ilə uyğunluğuna diqqət yetirək:

Azərbaycanın hərbi cəhətdən qüdrətlənməsinin ilk növbədə Ermənistan tərəfindən onun torpaqlarının 20 faizinin işğal edilməsi faktının nəticəsinə görə:

Cənubi Qafqaz regionunun təhlükəsizliyi konfiqurasiyasında hərbi cəhətdən güclü olan Azərbaycanın yeri və rolu faktının vacibliyinə görə:

Azərbaycan Respublikasının hərbi doktrinasında nəzərdə tutulduğu kimi Azərbaycan Respublikasının yerləşdiyi regionun təhlükəsizlik mühitinə aşağıdakılar təsir edir: "regiondakı münaqişələrin iqtisadi maraqlara mənfi təsirinin artması, o cümlədən region dövlətlərinin ərazisindən keçən enerji və nəqliyyat infrastrukturunu təhlükə altına qoyması" [27.13-cü bənd] müddəasından irəli gələn hərbi cəhətdən güclü olan Azərbaycan Respublikasının öz üstün geostrateji imkanlarından istifadə edərək müəllifi və vasitəçisi olduğu beynəlxalq tranzit və transmilli enerji layihələrinin infrastrukturunun təhlükəsizliyində rolu faktının vacibliyinə görə.

Hərbi strategiyada güc amilinə müasir dövrdə əhəmiyyət verilməsi barədə səslənən fikirlərə, Prezident İlham Əliyev Bakıda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində kursantaların qarşısında 2012-ci ildə çıxışı zamanı vurğuladığı: "... əfsuslar olsun ki, müasir dünyada beynəlxalq hüquq normaları pozulur. Biz bu mənzərəni görürük. Bu pozuntular getdikcə daha da geniş vüsət alır. Belə olan halda, əlbəttə biz də görürük ki, güclü olmasan, sənin hüquqların tapdanacaqdır." ifadəsinə Beynəlxalq baxışdan yanaşdıqda, bütün sadalananların və dövlət başçısının bu istiqamətdə yürütdüyü tədbirlərin fonunda Azərbaycanın hərbi cəhətdən güclənməsi strategiyasının qanunauyğun, siyasi və nəzəri əsaslarala tam məntiqəuyğun olduğu öz təsdiqini tapır. Bu da hazırda Beynəlxalq müstəvidə Müstəqil Azərbaycan Respublikasının hərbi strategiyasının, regional və geosiyasi sülhün təminatçısı rolunu yerinə yetirməsi anlamında qiymətləndirilməsi vacib olan məsələlərdən hesab olunmaqdadır.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. ASE IX cild Bakı 1986 .*

*2. Лиддел Гарт Б.Х. Стратегия непрямых действий. перевод с английского.1957.*

*3. https://histerl.ru/periudi_istorii/otechestvennaia_voina/obhodnie_manevr_kutuzova.htm*

*4. https://ru.w Отечественная история: энциклопедия. / Под ред. В. Л. Янина. Т. 3. -М. БРЭ, 2000. — С. 247vikipedia.*

*5. Clausewitz, On War, cild 2, M., 1937*

*6. https://www.labirint.ru/books/194784/*

*7. https://ru.wikipedia.org/wiki/ Шлиффен,_ Альфред_фон*

*8. Фош Фердинанд // Большая советская энциклопедия*

*9. Azərbaycan Xalq Cümhuriyyətinin Ensklopediyası. İki clddə. I cild. Bakı.Lider nəşriy. 2004.S.379*

*10. Elşən Nəsibov. Avroasiya geosiyasi mühiti. Bakı 2013.*

*11. Novruz Məmmədov. Geosiyasətə giriş. Bakı, 2011.*

*12. Prezident İlham Əliyevin Heydər Əliyev adına Ali Hərbi Məktəbdə çıxışı. 2018-ci il.*

*13. Макиавелли Н. О военном искусстве. Пер. с итальянского. Государственное военное издательство наркомата обороны союза ССР. Москва , 1939*

*14. Hərbi Bilik Jurnalı. Müdafiə Nairliyi. 2016. 2.*

*15. Tarix və onun problemləri. Elmi əsərlər bülleteni. BDU, Bakı 2019. I.*

*16. Cabbar Məmmədov Diplomatik Psixologiya Seattle, Washington, United States. https://books,google.az/books?isbn=9952821794*

*17. Prezident, Ali Baş Komandan İlham Əliyevin nitqi, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin 2012-ci il buraxılışına həsr olunmuş mərasim, 25 iyun 2012-ci il, Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, http://www.president.az/articles/5252*

*18 .http://svom.info/entry/220-voennaya-strategiya-v-mezhdunarodnyh-otnosheniyah/ 15.12.2018.*

*19. Frederik Kune. НАТО "Южный Кавказ" Кавказский институт мира, демократии и развития. Тбилиси. 2003*

*20. Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. B., XXI-Yeni nəşrlər evi, 2005,*

*21. Azərbaycan Respublikası XİN arxivi, Azərbaycan- NATO əlaqələrinə dair arayış.1994,*

*22. A.A. Свечин. http://militera.lib.ru/science/svechin1/about.html*

*23. R.F. İvanov. Duayt Eyzenhauer. Tərcümə "İşıq" Bakı 1985.*

*24. Henry Kissinger. Diplomatiya. Tərcümə Yaşar Əsədov. Qanun Nəşriyyatı. Bakı, 2015*

*25. https://ru.wikipedia.org/wiki/Военное_дело*

*26. E.M.Əsədov.Qədim və yeni müharibələrin*

*müqayisəli siyasi təhlili. Bakı.2015.*

*27. http://anl.az/down/meqale/azerbaycan/2010/iyun/124735.htmAzərbaycan Respublikasının Hərbi doktrinası. Azərbaycan Respublikası Milli Məclisinin 2010-cu il 8 iyun tarixli 1029-IIIQR nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

*28. Həsənov Ə.M. Azərbaycanın geosiyasəti. Dərslik, Bakı, "Zərdabi LTD" MMC, 2015, 1056 s.*

*29. M. Kalankatuklu Albaniya tarixi, Alban salnaməsi Mxitar Qoş. Bakı 2006.*

**Açar sözlər:** *Hərb sənəti, müharibə, sərkərdə, əməliyyat, dövlət siyasəti, strateji fəaliyyət, silahlı müdafiə, ərazi bütövlüyü, beynəlxalq aləm, hərbi münaqişə, işğalçı qüvvələr.*

## РЕЗЮМЕ

**Концепция стратегии**

**Рамиль Ариф оглы Аллахвердиев**

Стратегия охватывает компоненты боевых искусств, их наиболее важные области, подготовку страны и вооруженных сил к войне, планирование и теорию войны, а также практику. Исследует закономерности войны, разрабатывает методы и формы подготовки и проведения стратегических операций; Определяет цели и задачи армии и флота фронтов, определяет военные цели и задачи сил, непосредственно связанных с политикой. Различные формы и методы экономического, технического и политического развития общества появляются в разные периоды истории, и неизбежно, что они будут созданы в будущем.

**Ключевые слова:** *военное искусство, война, командир, операция, государственная политика, стратегическая деятельность, вооруженная защита, территориальная целостность, международное сообщество, военный конфликт, оккупационные силы.*

## SUMMARY

**The concept of strategy**

**Ramil Arif oglu Allahverdiyev**

The strategy covers the components of martial arts, its most important area, the preparation of the country and its armed forces for war, the planning and theory of war, as well as practice. Researches the regularities of the war, develops methods and forms of preparation and conduct of strategic operations;

Defines the goals and objectives of the army and navy of the fronts, defines the military goals and objectives of the forces, is directly related to politics. Different forms and methods of economic, technical and political development of society appear in different periods of history, and it is inevitable that they will be created in the future.

**Key words:** *Military art, war, military commander, operation, public policy, strategic activities, Armed defense. territorial integrity, the international community, military conflict, the occupation forces.*

УДК-327.8

# ИНФОРМАЦИОННОЕ ПРОТИВОБОРСТВО КАК ЦЕЛЬ ДОСТИЖЕНИЯ ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКИ

**ЭЛЬВИН ТАЛЫШИНСКИЙ**
*Заведующий кафедрой «Общественные науки» Бакинского Исламского Университета, доктор философии по политическим наукам,*

*E-mail: e.talishinski@inbox.ru*

Информационное противоборство направлено на достижение целей государственной политики страны, как в мирное, так и в военное время. Оно является закономерным, объективным процессом, который всегда был и будет актуальным в отношениях между государствами независимо от развития сотрудничества между ними.

Информационное противоборство стало аксиомой современных международных отношений, сегодня все больше сил и средств привлекаются к информационной борьбе, все более масштабными становятся ее последствия. Современная идеология информационной борьбы базируется на символическом восприятии мира, поэтому информация очень быстро с виртуальной субстанции превращается в материальную. Достаточно любое событие, даже выдуманную (дезинформацию) смоделировать, передать в СМИ, и информация, материализуясь, начинает оказывать влияние, то есть действовать. Информационные войны позволяют очень эффективно, с привлечением малых финансовых и человеческих ресурсов добиваться целей: все зависит от степени профессионализма реализаторов информационных операций.

Однако утверждать, что информационная борьба - то новое, что появилось только с приходом глобализации цивилизационных процессов является ошибочным. Поскольку само понятие «цивилизации» имеет в себе значительную информационную составляющую, то любой конфликт обществ с разными цивилизационными (или более низкого уровня) ценностями непременно включал элементы информационной войны. Но на началах цивилизаций и до окончания средневековья, общества на покоренных территориях (или те, которых планировали покорить) рассматривались как возобновляемый ресурс территории, а не как информационная среда. Информационные столкновения обществ, конечно же, происходили всегда, но процесс информационной борьбы был стихийный, неосознанный сторонами.

В настоящее время исследование информационной борьбы, процесса ее зарождения и развития, форм проявления и методов реализации имеет очень большую актуальность. Исследование многочисленных средств и методов информационной войны, которая является формой информационного противостояния, становится сегодня очень важным инструментом достижения геополитического доминирования на международной арене и одновременно являются определенным гарантом построения эффективной системы информационной безопасности. Наряду с этим, ускоренное развитие в мире информационно-коммуникационных технологий ставит сегодня перед странами также актуальность информационной безопасности как

неотъемлемого компонента национальной безопасности любого высокоразвитого государства.

Информационное противоборство (в политической сфере) включает три составные части.

Первая – стратегический политический анализ.

Вторая – информационное воздействие.

Третья – информационное противодействие.

Стратегический политический анализ – это комплекс мероприятий по добыванию информации о противнике (конкуренте) и условиях информационного противоборства; сбору информации о своих союзниках; обработке информации и обмену ею между членами своего политического содружества в целях организации и ведения действий. Информация должна быть актуальной, достоверной и полной.

Второй составной частью информационного противоборства является информационное воздействие. Оно включает и мероприятия по блокированию добывания, обработки и обмена информацией, внедрению дезинформации.

Третью часть составляют мероприятия информационного противодействия (защиты), включающие действия по деблокированию информации, необходимой для решения задач управления политическими процессами, и блокирования дезинформации, распространяемой и внедряемой в систему формирования мирового и российского общественного мнения конкурентами (противниками). [2]

Информационное противоборство сегодня с уверенностью можно считать продуктом развития общества. Так как, оно является результатом научно-технического прогресса и информационной интеграции мирового сообщества, и став самостоятельным видом осуществления внешней политики возникла на определенной стадии развитии общества. Мощные в информационно-техническом, военном и разведывательном планах государства сегодня получили новые возможности реализовать свои задуманные планы: навязывать собственную волю другим народам и государствам; допускать несанкционированное вмешательство в работу информационной инфраструктуры государств; анонимно поражать противостоящие электронные вооружения стороны. Поэтому не случайно, что в XX веке английские, немецкие, русские и исследователи из других стран начали активно исследовать и формулировать определение информационной войны.

Информационное противоборство - соперничество социальных систем в информационно-психологической сфере за стремления влиять на те или иные сферы социальных отношений и введение контроля над источниками стратегических ресурсов, в результате которого одни участники соперничества получают преимущества, необходимые для дальнейшего развития, а другие их теряют. По интенсивности, масштабам и средствам, которые используются, выделяют следующие степени информационного противоборства: информационная экспансия, информационная агрессия, информационная война. [1, 213]

Современная научно-техническая революция вызвала настоящий переворот в информационной борьбе. Более активно и глобально начали проводиться психологические операции, интенсивно внедряться новые информационные технологии.

Наглядной иллюстрацией этому является войны и военные конфликты последних десятилетий XX века и начала XXI века. Их анализ со всей очевидностью свидетельствует о том, что ход и конец военных действий любого масштаба в современном мире определяется искусством ведения информационной борьбы. [4, 13]

Сегодня в мире большое количество средств привлекаются для развития национальной инфраструктуры. А столь стремительное развитие новых информационных технологий сам по себе способствует усилению информационной борьбы между государствами. На данный момент во многих развитых странах мира пристальное внимание уделяется изучению информации, которая по праву считается одним из главных факторов владения современным миром.

«Глобальный масштаб и радикальность изменений, которые происходят в наши дни

в политической, экономической, духовной сферах жизни мирового сообщества, в сфере военной безопасности, позволяют выдвинуть предположение о формировании новой системы международных отношений, отличающаяся от тех, что функционировали в течение заключительного века, даже начиная с классической Вестфальской системы». [3, 24]

Целью же информационной борьбы является завоевание и получение информационного превосходства над противником при подготовке и ведении информационных операций (боевых действий). Это предполагает обеспеченность более полной, точной, достоверной и своевременной информации об обстановке и возможности системы управления реализовать это преимущество при проведении информационных операций.

Благодаря своей специфике информационная борьба является как самостоятельным видом, так и составным элементом любого другого вида борьбы (вооруженной, идеологической, экономической и т.д.). Она ведется постоянно - как в мирное, так и в военное время. Масштабы информационной борьбы такие грандиозные, что ее подготовка и организация не могут быть спонтанными. Она должна иметь плановый, систематический характер, который опирается на глубокие научные исследования.

Рассматривая содержание информационной борьбы в военных конфликтах конца XX в. можно заметить, что она имеет свои особенности в зависимости от стадии развития конфликтной ситуации.

В мирное время информационная борьба имеет скрытный характер. Основным ее содержанием является ведение разведывательных и политико-психологических действий против противника, а также осуществление мер по обеспечению своей информационной безопасности. Возрастающую роль на этом этапе играют средства специального программно-математического воздействия на информационные ресурсы технических систем противника. В этот период могут также решаться вопросы создания, развития, поддержания нужной степени боевой готовности и отработки планов эффективного боевого использования информационных ресурсов своих войск, а также своевременного и достоверного разоблачения и нейтрализации информационного влияния противодействующей стороны.

К особенностям ведения информационной борьбы относятся: крайняя ограниченность в использовании сил, средств и способов информационного воздействия на противника; соблюдения существующих норм международного права (например, запрет радиоэлектронного глушения определенных частот и систем, предусмотренных Уставом Международного союза электросвязи и Регламентом радиосвязи); тесное взаимодействие различных силовых ведомств и государственных структур при проведении мероприятий информационной борьбы.

С началом военных действий силы и средства информационной борьбы выполняют следующие основные задачи:

-массовое влияние на информационные ресурсы противника;

- предотвращение снижения боевых возможностей своих войск и эффективного применения ими вооружений, военной техники;

- проведение мероприятий по снижению уровня морально-психологической устойчивости войск противника и обеспечение нейтрализации информации, влияющей на морально-психологическое состояние своего состава;

- ведение информационно-разведывательной деятельности и обеспечение скрытности важных мероприятий своих войск в ходе подготовки и проведения информационных операций. При проведении мероприятий информационной борьбы чрезвычайно важным является недопущение случайного негативного влияния собственных средств на объекты своей информационной инфраструктуры.

В контексте рассматриваемых проблем под информацией понимается воплощенные в определенной форме сведения, которые отражают сущность объектов и явлений абстрактного или реального мира. Она составляет неразрывное единство содержания и формы и не существует без носителя информации. Итак, объектами непосредственного влияния, а соответственно - и защиты при ведении информационной борьбы

является непосредственно информация (ее форма и содержание), носители информации и информационные процессы в социотехническом и техническом средах.

Информационное воздействие в информационной борьбе имеет разносторонний характер и меняется в зависимости от выполняемых задач и обстановки. Он может осуществлять следующие функции:

- Выявлять военный, экономический, политический и культурный потенциал;
- Противодействовать любым видам разведки противника;
- Искажать, разрушать, нейтрализовать, уничтожать или защищать информацию;
- Обеспечивать компьютерное воспроизведение реальной или виртуальной неадекватной обстановки и визуализации поля боя;
- Осуществлять информационно-психологическое, легальное или нелегальное физическое воздействие на личный состав, объекты, боевую технику, оружие, линии связи и управления;
- Концентрироваться на демонстративных действиях и введении в заблуждение;
- Выполнять радиоэлектронное подавление;
- Снижать заметность объектов, боевой техники и оружия;
- Защищать личный состав, объекты, боевую технику, оружие, органы управления и различные радиоэлектронные средства от воздействия на них электромагнитной или иной направленной энергии;
- Отводить самонаводящуюся оружие от наиболее важных целей и др.

Следовательно, информационная борьба имеет комплексный характер. В ее состав должны входить: разведка; маскировка; радиоэлектронная борьба; информационно-психологическая борьба и морально-психологическое обеспечение; а также борьба в компьютерно-телекоммуникационной среде.

Компьютерно-телекоммуникационная борьба действует не только на психику человека, но и на информационные ресурсы и процессы в автоматизированных системах управления. Эта борьба выводит из строя информационные системы и компьютерные сети противодействующей стороны. При этом становится важным одновременная защита функционирования собственных систем, защита сознания и подсознания своих граждан от аналогичного воздействия со стороны противника.

Эффективность реализации технологий информационного воздействия в значительной степени способствуют особенности информационной инфраструктуры, а именно:

- Легкий доступ к ней;
- Размытость границ, межконтинентальный характер и, как следствие, практическая невозможность четкого разграничения внутренних и внешних источников угрозы для безопасности страны;
- Возможность манипуляции информацией и управления ее восприятием Internet может выступать как средство распространения пропагандистских материалов различной направленности для политической поддержки своей деятельности, дезинформации, влияния на общественное мнение, подрыв доверия граждан к правительству и т.д.);
- Недостаточность информации о реальных и потенциальных угрозах национальным интересам и каналов их реализации;
- Чрезвычайная сложность оперативного предотвращения информационного влияния и оценки реального и предполагаемого ущерба и т.д.

На сегодняшний день информационная борьба имеет дискуссионный и неоднозначный характер. Ученые из разных стран трактуют его по-разному - в зависимости от того, какие аспекты проявлений и содержания они исследуют. Понятие информационной борьбы является многогранным, так и дать ему полное и исчерпывающее определение трудно, о чем пишет М. Либики из американского университета национальной обороны: «Попытки полной мере осознать все грани понятия информационной войны напоминают усилия слепых, пытающихся понять природу вещей не видя их ...». [5]

Однако учитывая различные подходы к пониманию информационной борьбы и ее сущности, можно с помощью комплексного подхода вывести синтетическое понятие:

информационная борьба - это комплексное открытое или скрытое целенаправленное информационное воздействие одной стороны, или взаимное влияние сторон друг на друга для достижения информационного превосходства. В этом процессе участвуют системы средств и методов, которые воздействуют на психику и поведение людей, а также на информационные ресурсы и информационные системы, обеспечивающие национальные стратегии и способные привести к принятию благоприятных решений или наоборот, повредить информационную инфраструктуру противника с одновременным укреплением и защитой собственной информации и информационных систем.

Главной аксиомой XXI века стала давно известная истина: «кто владеет информацией - владеет миром». Информационное противоборство - это не болезнь, не парадокс, которого следовало бы избавляться, - это новая ступень в развитии международных отношений, политики и общества, который требует управления и целеустремленности.

**Ключевые слова:** *информация, информационное противоборство, информационная борьба, государственная политика, стратегия.*

## СПИСОК ЛИТЕРАТУРЫ:

*1. Манойло А. В. Государственная информационная политика в условиях информационно-психологической войны / А. В. Манойло, А. И.Петренко, Д. П. Фролов. — 2-е изд., стереотип. — М.: Горячая линия—Телеком, 2009. — 541 с.*

*2. Новгородцев П.И. Об общественном идеале. М., Изд-во «Наука», 1991.*

*3. Тоффлер Элвин. Третья волна. М. ООО "Фирма "Издатетьство АСТ", 1999 - 261с.*

*4. Яновский Р.Г. Глобальные изменения и социальная безопасность. М.,1999. – 358 с.*

*5. Libiki M. What is information warfare? / M. Libiki — Доступно из URL: http: //www.ndu/inss/ actpubs/act003/a003.html*

## XÜLASƏ

**Elvin Talışınski**
**İnformasiya qarşıdurması dövlət siyasətinin məqsədi kimi**

Məqalədə qeyd olunur ki, informasiya siyasəti, aralarındakı əməkdaşlığın inkişafından asılı olmayaraq dövlətlər arasında münasibətlərdə həmişə mövcud olan məntiqi, obyektiv bir prosesdir. Başqa sözlə desək, informasiya qarşıdurması həm sülh, həm də müharibə dövründə ölkənin dövlət siyasətinin məqsədlərinə çatmaq üçün bir vasitədir. Məqalədə müəllif informasiya qarşıdurmasının üç əsas komponentini açır və onların hər birinə bir konsepsiya kimi yanaşır. Bununla yanaşı olaraq, elmi-texniki tərəqqinin və dünya birliyinin məlumat inteqrasiyasının nəticəsi olan informasiya mübarizəsinin də geniş anlayışı verilir.

**Açar sözlər:** *informasiya, informasiya qarşıdurması, informasiya mübarizəsi, dövlət siyasəti, strategiya.*

## SUMMARY

**Elvin Talishinski**
**Information confrontation as the goal of achieving public policy**

The article notes that the information policy is a logical, objective process that has always been and will be relevant in relations between states, regardless of the development of cooperation between them. In other words, the informational confrontation is aimed at achieving the goals of the state policy of the country, both in peacetime and in wartime. In the article, the author reveals the three main components of the information confrontation and gives a concept to each of them. Along with this, the concept of information struggle is also given, which is the result of scientific and technological progress and information integration of the world community.

**Key words:** *information, informational confrontation, information struggle, state policy, strategy.*

UOT 327

**NİHAD YAQUBLU**
*Bakı Dövlət Universiteti, doktorant*

*E-mail: nihad.yaqublu@gmail.com*

# YAXIN ŞƏRQDƏ DEMOKRATİYA NİYƏ UĞURSUZLUQLA NƏTİCƏLƏNİR?: SƏBƏBLƏR VƏ AMİLLƏR

## Giriş

Müasir dövrdə Yaxın Şərq regionunda demokratik prinsiplərin və liberal dəyərlərin tətbiqi zamanı müxtəlif cür çətinliklərin və problemlərin meydana gəlməsi heç kimə sirr deyil. Buna monarxik və avtoritar quruluşlardan daha sekulyar sistemlərə keçid zamanı yaranan maneələrdə, söz azadlığı, azad seçki kimi demokratiyanın əsas bünövrəsi sayılan haqların müntəzəm pozulması hallarında və çox yaxın keçmişə nəzər salındığında ifadə azadlığı və siyasi tolerantlıq baxımından daha açıq olmuş cəmiyyətlərin avtoritarlaşması tendensiyalarında müşahidə etmək mümkündür. Bu həqiqət demokratiya və insan hüquqlarının müdafiəsi ilə məşğul olan müxtəlif beynəlxalq təşkilatların həmin region üzrə tədqiqat və hesabatlarında da öz əksini tapır.

Demokratiyanın ən mühüm xüsusiyyəti hakimiyyətin mənbəyinin xalq olmasıdır. Bu yanaşma özü ilə birlikdə digər hüquqlar və hürriyyətlər doğurur – deməli, xalq dövlət işlərinin həllində seçərək və seçilərək iştirak edə bilər, verilən qərarlarla razı olmasa tənqid və etiraz edə bilər. Toplaşma və yığıncaq azadlığı, ifadə azadlığı, səs vermə hüququ, siyasi mübarizə haqqı – hamısı demokratiyanın məhz bu fundamentinin məntiqi nəticəsi kimi əmələ gəlib.

Ancaq Yaxın Şərqdə gedən proseslərə baxıldığında, oradakı əksər hökumətlərin seçki yolu ilə cəmiyyət tərəfindən seçilməməsi və yerli əhalinin idarə etməyə birbaşa təsir edə bilməməsi məlumdur. Region avtoritar hakimiyyətlərlə, teokratiya və monarxiyalarla zəngindir. Məsələn, Səudiyyə Ərəbistanı və İran teokratiya olaraq dini azlıqların hüquqlarını məhdudlaşdırıb – müsəlman olmayan heç bir şəxs hökuməti idarə edə bilməz; bundan da əlavə, aşkar şəkildə dini mənsubiyyətini (İslamı) dəyişdiyini dilə gətirmək bu ölkələrdə ölüm ilə cəzalandırılır (4). Regionda çox az sekulyar dövlət olsa da, yenə də mütləq əksəriyyəti repressivdir: güc bir qrup səlahiyyətli şəxslərin, klanların əlində cəmləşib.

Yeni dövrdə Yaxın Şərqdə demokratik dövlət quruculuğuna müxtəlif cəhdlər olsa da, bunların çoxu ya güc yolu ilə yatırılıb, ya da baş tutmuş kütləvi etirazlar dövlətlə fiziki-hərbi qarşıdurmalara və iğtişaşlara gətirib çıxarıb. Xüsusilə, "Ərəb baharı" adlanan böyük inqilab dalğası müsbət bir başlanğıc əvəzinə qanlı, böyük miqdarda insan ölümü ilə səciyyələnən xaos və qeyri-stabillik yaratdı. Daxildəki cəhdlərdən də əlavə, birbaşa xaricdən də dünyəvi və daha liberal dövlət strukturu yaradılmasına səylər oldu. İraq və Əfqanıstanın işğalından sonra ABŞ-ın bu torpaqlarda daha demokratik hökumətlər qurmaq istəməsi iflasa uğradı. Halbuki ABŞ İkinci Dünya müharibəsindən sonra məğlub etdiyi faşist İtaliya, Almaniya və Yaponiyada istədiyini edə bilmişdi; indi bu dövlətlərdə dünyanın ən güclü demokratik sistemləri formalaşıb.

Bəs o zaman Yaxın Şərqdə bu səylər niyə puça çıxır? Niyə bu regionda sabitlik qorunmaq şərti ilə siyasi plüralism, insan hüquqları, dünyəvilik və azad seçki kimi prinsipləri inşa etmək uğursuzluqla nəticələnir?

## I. Ənənə və mədəniyyət fərqləri

Demokratiyanin və müxtəlif liberal prinsiplərin Yaxın Şərqdə mənfi sonluqla bitməsinin əsas

səbəblərindən biri tətbiq edilməyə çalışılan dəyərlərin və sistemin bu region üçün tarixən yad və öyrəşilməmiş olmasıdır. Yerli xalq üçün hələ yeni olan quruluşlar və fikirlər məhz alışılmamış olduğuna görə əhalinin əksəriyyəti tərəfindən şübhə ilə baxılır – bu insan təbiətinin təzahürü olaraq normaldır. Ancaq əhalinin əksəriyyətinin tam səmimi olaraq haqqında danışılan quruluşları istəməməsi həmin dəyişiklikləri reallaşdırmağı daha çətin və əziyyətli edir.

Empirik təcrübəyə əsaslandıqda bir müşahidə vurğulanmalıdır: səthi olaraq, zahirdən sistemi dəyişmək, zorla qəbul etdirmək hələ heç nəyi həll etmir. Əsaslı dəyişikliklərin uzunömürlü olması və əlverişli inkişafı vəd etməsi üçün, ilk növbədə, təşəbbüs daxildə kök atmalıdır. Bundan əlavə, insanların bunu başa düşməsi, mənimsəməsi və yarana biləcək neqativ halların qarşısının alınması üçün dəyişiklik yavaş, mərhələli şəkildə həyata keçirilməlidir. Müasir konservatizmin banisi hesab edilən Edmund Börk Fransa inqilabını tənqid edərkən haqqında bəhs edilən kontekstə bənzər fikirlər irəli sürmüşdür. Onun qənaətincə bu inqilab fəlakətli şəkildə sona çatacaqdı, çünki onun fundamentləri insan təbiətinin və cəmiyyətin mürəkkəbliyini nəzərə almayıb və bunlara məhəl qoymur (3, s. 48-49). E. Börkin fikrincə, cəmiyyət yaşayan orqanizm kimi başa düşülməli və qavranılmalıdır. Keçmiş tarixə nəzər saldıqda onun fikirlərinin geniş miqyasda özünü doğrultduğunun şahidi olarıq: Fransa inqilabı minlərlə insanın ölümünə, edam edilməsinə gətirib çıxartdı. Fransada monarxiya ləğv olunsa da, xalq bu dəfə Napoleonun diktatorluğu altına düşdü.

Məşhur ingilis filosofu və intellektualı Maykl Oukşot qəfil radikal dəyişikliklər dalğasınn əvəzinə, ilk öncə hansı sahələrdə dəyişimlərin olmasının müəyyən edilməsi, sonra da o sahələrdə tədricən reformlar aparılmasının daha müsbət nəticələr verəcəyinə işarə etmişdir. O hər xalqın ictimai həyatının insanların böyük bir zaman ərzində ərsəyə gətirdikləri quruluşlarla dolu olduğunu bildirmişdir. Oukşota görə, bu quruluşlar qəsdən, şüurlu və düşünülmüş şəkildə yaranmayıb, əksinə, tədricən, təbii şəkildə formalaşıb. Və əgər bu quruluşlar birdən-birə tamam başqa bir mədəniyyəti və tarixi olan cəmmiyyətə aşılanarsa, görünüş aldadıcı olacaq. Kənardan, sistem kağız üzərində dəyişmiş kimi görünsə də, daxildə o köhnə quruluşlar qalacaq və davam edəcək. Yenilik sadəcə çox kiçik bir proporsiyanı əhatə edəcək. Həm də vurğulanmalıdır ki, bu yeni quruluşlar bir-birinə bağlı cəmiyyətdə zamanın sınağından keçərək təkamül edib (11, s.148-149). Bəlkə də başqa bir cəmiyyətdə bu proses tamam fərqli şəkildə inkişaf edə bilərdi (necə ki İngiltərə parlamentli, konstitusional monarxiya kimi, Fransa yarı-prezident respublikası kimi qərarlaşıb).

Həm idealizm, həm də rasionalizm istibdadda boğulan, avtoritar sistemlerdən şikayətlənən xalqlar və toplumlar üçün çıxış yolunu mütləq demokratiya və azadlıqlarda görə bilər. Ancaq cəmiyyətin mürəkkəbliyini, düşüncə tərzini, ənənələrini nəzərə almadan qəfildən, tamam fərqli dəyərlər toplumunu gətirmək – bu halda tam liberal siyasi sistem inşa etmək öz-özlüyündə çox böyük risklər yaradır. Yeni sistemlər və dəyərlər insanların dünyabaxışına və mədəniyyətinə tam əks olarsa, o zaman disharmoniya yaranacaq, təzadlar doğacaq. Dəyişikliklər tam oturuşmayacaq, siyasi struktur bir vaxtdan sonra “axsamağa” başlayacaq. Çünki demokratiya sadəcə bir siyasi sistem deyil, həm də bir mədəniyyət, ənənə və düşüncə tərzidir.

Haqqında sözü gedən risklərə və axsayan siyasi strukturlara kifayət qədər misal çəkmək olar. Suriyada və Liviyada “Ərəb baharı” adlanan hadisələrdən sonra vətəndaş müharibələrinin başlanması, Misirdə diktator Mübarəkin devrilməsindən sonra yaranan siyasi qarışıqlıq və s. kimi. Sadalanan siyasi hadisələrin nəticəsində yüzminlərlə insan həlak olub və daha neçə milyonlar müxtəlif səbəblərdən əziyyət çəkib. Bu sadəcə bir neçə nümunədir: misalların sayını istənilən qədər artırmaq olar. Türkiyə Atatürkün sekulyar islahatlarından və yeni dövlət quruculuğu səylərindən sonra dünya tərəfindən ən öndə gedən demokratik müsəlman ölkəsi olaraq qəbul olunsa da, son dövrlərdə burada da avtoritarlaşma tendensiyaları müşahidə olunur. Tunis Ərəb baharının ən uğurlu nümunəsi olaraq ad qazansa da, İŞİD-ə qoşulan əcnəbi terroristlərin sayına görə bu ölkə ən irəli sıralardadır (2, s. 1-2).

Son dövrlərdə demokratiya bir universal dəyər kimi təqdim olunsa da, əslində Qərb mədəniyyətinin

bir məhsuludur. Bu məfhum hələ eramızdan əvvəl Qədim Yunanıstanda yaranmışdır. Qərb sivilizasiyasında Renesans, Reformasiyalar, Maarifçilik dövrü kimi özünü və dünyanı dərketmə, qavrama baxımından hərakatlar, Sənaye inqilabı kimi transformativ epizodlar olub. Hələ XIII əsrdə kralın hüquqlarını məhdudlaşdıran, sonrakı dövrlər üçün çox mühüm Maqna Karta xartiyası hazırlanıb. Şübhəsiz ki, Avropanın tarixində də qanlı müharibələr, monarxiyalar, cəhalət, qəddarlıq çox böyük dərəcədə olub, lakin sadalanan özünüqavrayış və təkamül epoxaları qərbin indiki liberal siyasi quruluşunun və dünyagörüşünün formalaşmasına əhəmiyyətli dərəcədə təsir edib, müsbətə doğru dəyişib. Qanunun aliliyi, individualizm və siyasi plüralizm kimi dəyərlər də tarixin müxtəlif mərhələlərindən kök atıb. Yaxın Şərqdə isə belə dövrlər, xüsusilə Maarifçilik dövrü kimi kütləvi intellektual və fəlsəfi dönüş nöqtələri olmayıb. Buna əsaslanıb qərbin dialektik, şərqin isə əsasən metafizik[1] durumda olduğunu demək olar. Yaxın Şərq mədəniyyətində doqmatizm, böyüyə və güc sahibinə şərtsiz hörmət bariz və aşkardır, ancaq qərbdə hər şeyi sorğulamaq kimi yanaşmalar uzun müddətdən bəri mövcuddur. Bu sorğulamaq ənənəsi Qədim Yunan mədəniyyətini irəliyə aparmış və beləliklə, çox böyük elmi, fəlsəfi, mədəni bir irs qoymuşdur. Elə həmin ənənə Qərbdə reformasiyalara gətirib çıxarmış, din və dövlətin ayrılmasına səbəb olmuşdur.

Əlbəttə, Yaxın Şərqdə də “İslamın qızıl çağı” adlanan çox mühüm bir dövr baş vermişdir. Bu dövrdə elmin müxtəlif sahələrində böyük irəliləyişlər əldə edilmişdi. Ancaq bu mərhələnin Qərbin Maarifçilik dövrü, Reformasiyalar kimi çağlarından bir neçə əsaslı fərqi var. İlk olaraq, bu qızıl çağ yuxarıdan birbaşa təşəbbüs ilə – o zamankı xilafətin göstərişləri və təbliği ilə baş vermişdir. Xilafət yeni torpaqlar ələ keçirdikcə oradakı kitabları, elmi materialları tərcümə etdirir, mənimsəyirdi. Bunun geniş miqyasda yerinə yetirilməsi üçün isə xidmət müqabilində önəmli miqdarda pul ödənilirdi. Ancaq Avropadakı mühüm dönüş nöqtəsi hesab olunan əlamətdar dövrlərin çoxu isə dövlət tərəfindən təşfiqlə yox, dissident fikirlərin və ya individual səylərin nəticəsi olaraq doğmuşdu. Bu dövrlər “oyanış” xarakteri daşıyırdı.

Demokratiyadakı individual azadlıqlar, fərdin istədiyini edə bilmək (qanun çərçivəsində) konsepsiyası Yaxın Şərqdə cəmiyyətin razılığı və rəyinin önəmli olduğu kollektivisit, icmaçı mentaliteti ilə toqquşur. Qanunun yaşından, kimliyindən asılı olmayaraq hər kəsdən üstün olması fikri və istənilən şəxsi tənqid edə bilmə haqqı isə Şərqdəki böyüyə hörmət, onlara əks getməmək, səlahiyyətli şəxslərə imtiyazlar kimi yanaşmalarla ziddir. Bütün bunların hamsı Yaxın Şərqdə hakim olan despotizmi, avtoritar və repressiv sistemləri açıqlamağa kömək edir, çünki dövlət strukturu insanlar tərəfindən idarə olunan və yönləndirilən bir mexanizmdir.

Ancaq şübhəsiz ki, insan dəyişən bir məxluqdur və elə biolojik olaraq da təkamül insanın yeni mühitə uyğunlaşması və buna öyrəşməsi deməkdir. İnsanlar ölür və yeni nəsillər dünyaya gəlir; köhnə adətləri və düşüncələri daşıyanlar yeni, daha proqressiv dünyagörüşü olanlarla əvəz oldunduqda isə dəyişim labüd olur. Ancaq bu onilliklər və hətta yüzilliklər tələb edə bilir. Ona görə də informasiya müharibəsinin aparılmasının, daha əlverişli fikirlərin yerli xalqın nümayəndələrinə ötürülməsinin böyük əhəmiyyəti vardır. Xüsusilə, inkişaf etmiş ölkələr və beynəlxalq təşkilatlar bu regionda sekulyarizmin, liberal dəyərlərin və modernizmin yayılmasında bilavasitə maraqlı olmalıdırlar. Tarix göstərir ki, güc işlədərək hərbi yolla rejim dəyişikliklərinin arxasınca qaçmaq çox geniş təhlükələr və böyük sayda insan ölümü ehtimalı yaradır. Ancaq demoqrafik dəyişimə, nəsil dəyişikliyinə və insanların dünyagörüşünün müsbət mənada təkamülünə maraqlı olmaq, bu həqiqətlərə arxalanmaq regionda daha müsbət nəticələr verəcək. Bu, əlbəttə, zaman alacaq, amma cəmiyyətlərin əmin-amanlığı qorunacaq, dəyişiklik daha möhkəm bünövrə üzərində qurulacaq.

## II. Geopolitika və Qərbin xarici siyasəti

Yaxın Şərq əslində dünyanın ən qarışıq, dini və etnik tərkib baxımından ən mürəkkəb

*1. Metafizika və dialektika fəlsəfənin bölmələridir. Dialektika ümumi olaraq dünyanın ziddiyyət, hərəkət, qarşılıqlı münasibət və mübarizə ilə inkişaf etdiyini deyir. Metafizika dialektikanın əksi olub mövcudluq, obyektlər və onların xüsusiyyətləri, dünyanın və varlığın ilkin təbiətini öyrənir.*

bölgələrindən biridir. Regionda müxtəlif xalqların sıxlıqla məskunlaşması, aralarındakı fərqlər və öz dövlətlərini qurmaq arzuları hərbi konfliktləri qaçılmaz edir. Sünnilik, şiəlik, ələvilik, xristianlıq, yəhudilik, ibadilik kim dini məzhəblərin nümayəndələri, ərəb, fars, kürd, türkmən kimi xalqların mənsubları burada məskunlaşıblar. Belə müxtəlifliyi vaxtilə bu torpaqlarda mövcud olmuş Osmanlı imperiyasının dövlət siyasəti ilə birbaşa əlaqələndirmək olar. Osmanlı hökuməti qeyri-müsəlman xalqlara dövlətə qarşı çıxmamaq şərtilə, əlavə vergilər alaraq müəyyən hüquqlar və avtonomiya vermişdi. Dini azlıqların nümayəndələri, beləliklə, öz məhkəmələrinin təşkilində, təhsil, evlilik və sair sahələrdə səlahiyyətlər qazanmışdılar və müəyyən dərəcədə azad idilər (8). Ancaq XX əsrin əvvəllərində – Osmanlı dövlətinin ən zəiflədiyi ərəfələrdə yerli xalqların güclənən müstəqillik ambisiyaları və Antanta ölkələrinin Osmanlını parçalamaq istəkləri regionun ahəngini birdəfəlik dəyişdi.

Britaniya İmperiyası və Fransa başda olmaqla bir neçə dünya gücü Osmanlını bölmək məqsədilə müxtəlif sazişlər bağlamışdılar. Bu sazişlərdən, xüsusilə, Sayks-Piko razılaşması çox önəmlidir. 1916-ci ildə bağlanmış bu gizli saziş keçmiş Osmanlı ərazisinin cənub-şərqinin ingilis və fransız gücləri tərəfindən xəritədə bir düz xətt ilə bölüşdürülməsi haqqındadır (9, s. 678). Ancaq bu torpaq bölgüsü regionun reallıqlarını, yerli xalqlar arasındakı siyasi çəkişmələri və onların maraqlarını nəzərə almadan aparılmışdır. Xüsusilə, ərəbləri Osmanlıya qarşı qiyama çağıran və bunun qarşılığında isə onlara öz müqəddəratlarını təyinetmə haqqı verməyi vəd edən Britaniya bu sazişi onlardan gizli şəkildə yerinə yetirmişdi. Britaniya mövcud neft resurslarına və Hindistana yol baxımından əlverişli coğrafi mövqeyə sahib olduğu üçün indiki cənubi İraqı, həmçinin Fələstinlə İordaniya torpaqlarını ələ keçirdi. Fransa isə indiki İraqın şimalını, Suriya və Livan ərazilərini götürdü. Əlavə olaraq, ingilislər daha bir gizli saziş – Balfur sazişi ilə yəhudi xalqına öz dövlətlərini qurmaq imkanı yaratdı. Halbuki, ərəblərə tam əksini söz vermişdilər (6, s. 65).

Nəticədə, regionda İraq, Suriya, Fələstin, İsrail, İordaniya və Livan kimi sərhədləri tamamı ilə "idarə et və parçala" prinsipi ilə, imperial maraqlarla çəkilmiş müxtəlif süni ölkələr yaradıldı. Sərhədləri qondarma xətlərlə çəkildiyindən və regionun dinamikası hesaba alınmadığından bu günə qədər həmin torpaqlarda dövlətlərarası konfliktlər və ölkədaxili gərginliklər səciyyəvi xarakter daşıyır. Belə bir qeyri-stabil və mürəkkəb geosiyasi mühitdə demokratik dəyərlərə tutunmaq daha da çətinləşir. Əsas məsələ həyatda qalmaq, suverenliyi və ölkənin torpaq bütövlüyünü qorumaq olduqdan sonra haqlar və azadlıqlar təbii olaraq ikinci plana keçir.

Şübhəsiz ki, qonşuluqdakı dövlətlərin inkişaf etmiş, demokratik və sabit olması ölkənin daxili siyasətinə də təsir göstərir. Avropadakı dinc sərhədlər, ətrafda inkişaf etmiş və liberal dəyərləri mənimsəmiş toplumların mövcudluğu və ümumi olaraq regionun firavan və zəngin olması oradakı siyasi proseslərin müsbət yöndə istiqamətlənməsinə təkan verir. Belə geopolitik düzülüş dünyanın ən böyük demokratiyalarından hesab olunan ABŞ üçün də tarix boyu köməkçi olub – digər qitələrdən aralı, izolyasiyada yerləşməsi, birbaşa quru sərhədlərində də özündən daha zəif iki dövlətlə qonşu olması onu işğal olunma riskindən, demək olar ki, immun edir. Və bu immunluq sadalanan faktorlarla birlikdə ölkənin öz daxilində çox liberal bir siyasi xət aparmağı daha da asanlaşdırır.

İmperialist qərb dövlətlərinin öz maraqlarına əsasən bu regionda diktə elədiyi qərarlar, təbii resursları, xüsusilə, nefti mənimsəmək, öz geosiyasi təsirini artırmaq üçün təşkil etdiyi dövlət çevrilişləri, Qərbin təşəbbüsü ilə İraq və Əfqanıstanda aparılan müharibələr, yenə də Qərbin dəstəklədiyi "Ərəb baharı" hadisələrində bir çox ölkələrdə totalitar rejimlərin devrilməsi ilə başlanan vətəndaş müharibələri, xaos və böyük sayda insan ölümü – bütün bunlar qərbə güvəni sarsıdır. Bu neqativ nəticələrin meydana gəlməsində Qərbin xarici siyasətinin böyük rolu olmasına görə onun təbliğ etdiyi quruluşlara və ideyalara – bu halda demokratiyaya inam azalır. Yerli xalqlar, təbii olaraq, aşılanmağa çalışılan sistemlərin və düşüncə tərzinin altında gizlin, məkrli niyyətlər axtarırlar.

ABŞ və Birləşmiş Krallıq 1953-cü ildə İranda demokratik seçilmiş Məhəmməd Mussadığa qarşı

dövlət çevrilişi hazırlayaraq şah Məhəmməd Rza Pəhləvinin hakimiyyətini qüvvətləndirdi və beləliklə də İranda avtoritar, monarxiya rejimi böyük güc qazandı. Bunun əsas səbəbi Məhəmməd Mussadığın İranın neft sənayəsini milliləşdirmək səyləri ilə bağlı idi. O vaxtkı Anqlo-İran Neft Şirkətinin İranın neft resurslarının əksəriyyətini mənimsəməsi ölkədə ciddi narazılıq doğurmuşdu. Buna son qoyacağını vəd edən sekulyar demokrat Məhəmməd Mussadıq xalq tərəfindən böyük rəğbətlə qarşılanıb demokratik proseslə hakimiyyətə gəlsə də, Qərb öz iqtisadi və enerji maraqları naminə onu devirdi və xalqın seçiminə hörmət etmədi. Çünki geosiyasi və geoiqtisadi üstünlük, güc maraqları əksər zaman ABŞ və Birləşmiş Krallıq üçün birinci planda durub.

Qərb tərəfindən dəstəklənmiş, qeyri-sivil yolla təşkil olunmuş hakimiyyət dəyişikliklərinə və Qərbin avtoritar rejimləri müdafiəsinə bir çox misallar gətirmək olar. Lakin həqiqət gözlə görünəndir – Qərb öz daxilində demokratik ənənələrə və quruluşlara önəm verib qorusa da, çox hallarda xarici siyasətində “demokratiya” məfhumundan öz şəxsi maraqlarına görə sui-istifadə edir. Məsələn, elə buna görə də ABŞ Suriya və İran kimi avtoritar rejimlərə qarşı azadlıqların pozulması hallarını dilə gətirib onları hər zaman pisləsə də, totalitar-monarxik siyasi sistem ilə idarə olunan Səudiyyə Ərəbistanı ilə çox yaxın müttəfiqlik münasibətlərinə malikdir; bu ölkə çox nadir hallarda ABŞ dövlət rəsmiləri tərəfindən tənqidlərə tuş gəlir. Bu cür riyakarlıqlar, ikili standardlar və tarixi reallıqlar Yaxın Şərqdəki toplumlara Qərbin tərənnüm etdiyi liberal dəyərləri qəbul etməyi çətinləşdirir.

XX əsrə qədər heç vaxt “fələstinli” və ya “iraqlı” adlanan milliyyət olmayıb. İordaniya dövlətinin adı imperial güclər tərəfindən paylaşılan torpaq hissəsinə ad tapmaq xatirinə yaxınlıqdakı İordan çayının adından götürülüb. Livan dövlətinin adı da eyni motivlərlə regiondakı Livan sıra dağlarının adından götürülüb (5). Beləliklə, sözsüz ki, bu regionun toplumlarında bir milli kimlik krizisi yaranır. Bu milli kimlik axtarışları bəzən yanlış yerlərdə, zərərli məntəqələrdə sonlanır. Yaranmış bu çaşqınlıqdan müxtəlif populist milliyyətçi və radikal dindar qruplar öz məqsədləri üçün məharətlə istifadə edirlər: regionda gənc, azyaşlı demoqrafiyanın böyük sayda olması ilə təhsilin və təhsilliliyin səviyyəsinin aşağı olması faktorları onların manipulyasiya və propaqandalarını daha effektiv edir. Bu səbəbdən İŞİD, Əl-Qaidə, Əl-Nüsrə kimi radikal dini təşkilatlar öz sıralarına böyük sayda insan cəlb edə bilir. Ancaq bu həm də regionda hakim olan İslam dinində proqressiv və liberal islahatların olmaması ilə bağlıdır.

**III. Regionun hakim dinində liberal yöndə reformasiyaların olmaması**

Hər toplumun kütləvi şüurunun, mədəniyyətinin və dünyagörüşünün formalaşmasında sitayiş etdiyi dinin rolu mühümdür. Şəxslərin müqəddəs hesab etdiyi dəyərlər və qaydalar onların həm özəl həyatında verdiyi qərarlara, həm də digər sferalarda atdığı addımlara önəmli yön verir. Bu dəyərlər individual və ümumi-kütləvi müstəvidə kimliyin formalaşmasını, dünyanı qavramağı, həyatdakı məqsəd, necə davranmaq, necə bir insan olmaq, necə düşünməyin gərəkli olduğunu insanlara aşılayır. Bu dəyərlər və motivlər mənimsənildikdən sonra isə fərdin və toplumun həm şüurlü şəkildə verdiyi böyük əhəmiyyətli qərarlarında, həm də şüuraltı şəkildə, kiçik əhəməmiyyətli olaylara reaksiyasında və onları dərk prosesində özünü əks etdirir.

Vurğulamaq lazımdır ki, din “reliqiya” mənasında - kainatı və yaradılışı izah edən, güman edilən hər hansısa ilahi varlığa sitayiş etməyi, ruhi ehtiyacları və fövqəltəbii elementləri əhatə edən inanclar və düşüncə sistemi kimi ayrıca bir konsepsiya olaraq XVI əsrdən qəbul olunmağa başlamışdır. İndiki “din” olaraq bilinən məfhum buna qədər müxtəlif mənalarda, əsasən isə “qanun” mənasında başa düşülürdü. Elə ərəb dilində də din sözünün mənası “qanun, hökm və adət” kimi tərcümə olunur. O zaman Xristianlıq qanunu, İslam qanunu, Yəhudilik qanunu və s. düşünülürdü. Uzaq Şərqi Asiya və Amerika kontinentinə dünya səyahətləri və ümumi olaraq artan əlaqələrin sayəsində o regionların yerli xalqlarının tarixində də “reliqiya” mənasını verən ayrıca bir konsepsiyanın heç vaxt mövcud olmadığı aşkarlandı. İnsanların neçə əsrlər boyu bəlli qanunların hansısa bir fövqəltəbii, ilahi varlıq tərəfindən göndərilməsini sanması onların bu qanunlara daha ciddi yanaşıb qəbul etməsi və

həyatının əksər sahələrində bu dəyərlərə əsaslanıb davrandığı mülahizəsini daha etibarlı edir.

Regionda müxtəlif dinin nümayəndələri məskunlaşsa da, hakim din İslamdır. Fəqət qeyd etmək lazımdır ki, dinə hər ölkədə, hər cəmiyyətdə eyni şəkildə sitayiş edilmir; onun necə olduğu, hansı tələb və qaydaları qoyduğu hər toplumda fərqli cürə interpretasiya edilir. Məsələn, Azərbaycanda qəbul edilmiş İslamla Səudiyyə Ərəbistanındakı İslam arasında çox böyük fərq var. Və ya Qazaxıstandakı İslamla Yəməndəki İslam arasında. Azərbaycanda və Qazaxıstanda tarixən Rusiyanın təsirinə və xüsusilə də 71 illik sovet-kommunist keçmişinə görə din fundamentalist hal almayıb. Xalqın ümumi dünyagörüşü dünyəvilik və sekulyarlıq kimi dəyərləri mənimsədiyindən radikalizmə meyllər çox azdır. Amma Səudiyyə Ərəbistanında, Yəməndə və Yaxın Şərq ölkələrinin əksəriyyətində vəziyyət tam başqadır.

Bu səbəbdən dinin əsas mənbəyi olan Quran kitabına müraciət etmək mütləqdir. O zaman bəzi demokratik və liberal dəyərlərin dindəki qaydalarla toqquşduğunun şahidi olarıq. Qadın-kişi bərabərliyinin pozulması və köləlik (Bəqərə 282, Nisa 3; 34, Nur 32; 33, Əhzab 55 və s.), digər dinin nümayəndələrinə qarşı tolerantsızlıq və diskriminasiya (Bəqərə 39; 221, İmran 28; 86; 87, Nisa 144 və s.), azad tənqid və ifadə azadlığının əsas elementlərindən olan dini tənqidə mənfi yanaşma (İmran 60, Zumər 25 və s.) kimi bu dində mövcud olan çoxsaylı müddəa liberal prinsiplərlə ziddiyyət təşkil edir. Məsələn, yuxarıda göstərilən mənbəyə əsaslanaraq (Bəqərə 282) bir çox müsəlman toplumu qadının məhkəmədə şahidliyini kişininki ilə bərabər tutmur; bir kişinin şəhadəti iki qadının şəhadətinə bərabərdir. Elə bunun da məntiqi nəticəsidir ki, Səudiyyə Ərəbistanı, İran, Bəhreyn və Qətər kimi müsəlman ölkələrində çox hallarda qadının şəhadəti rəsmi olaraq kişinin şəhadətinin yarısına bərabərdir. Əlavə olaraq, yenə də tamamilə dindən qaynaqlanan səbəblərdən İran və Səudiyyə Ərəbistanı kimi ölkələrdə qadınlar başlarını bağlamağa məcbur edilir, qaydaları pozanlar da ciddi şəkildə cəzalandırılır. Bu tərz məcburiyyətlər və təzyiqlər demokratik-sivil cəmiyyətin prinsiplərinə tamamilə əksdir.

Lakin müqayisə etsək, üç böyük İbrahimi dindən həm Xristianlığın, həm də Yəhudiliyin müqəddəs kitablarında zorakılıq və qəddarlıq dolu hissələr kifayət qədər çoxdur; xüsusilə “Tövrat”dakı qəddar hissələr əhəmiyyətli dərəcədədir. Orta əsrlərdə Qərbdə elmdə geriliyin, qırğınların və çoxsaylı insan ölümünün əsas səbəblərindən biri Xristianlıq olmuşdur. O zamankı Katolik kilsəsi elmdə, xüsusilə astronomiyada kəşflər edən, “Bibliya” da yazılmış fikirlərə tərs tezislər irəli sürən insanların “küfr” etdiklərini deyir və onları müxtəlif yollarla cəzalandırırdılar. Avropada İnkvizisiyalar və “cadu ovları” zamanı böyük sayda insan amansızca öldürülmüşdü. Ancaq indi vəziyyət tamam fərqlidir. O zaman belə bir sual ortaya çıxır : niyə indiki Xristian dünyası dindən qaynaqlanan bu tərz qəddarlıqları artıq uyğulamır ? Müasir dövrdə niyə və necə Yəhudilik və Xristianlıq təkamül edə bildi?

Bunun əsas səbəbi hər iki dinin daxildə özünü müxtəlif islahatlarla reform etməsidir. Xristianlıqda reformasiyalar Martin Lüterin başçılığı ilə kilsənin ədalətsiz siyasətinə qarşı etirazlar ilə başlamışdı. Kilsə və adi camaat arasındakı çəkişmələr çox keçmədən böyük insan itkisi ilə nəticələnəcək qanlı müharibələrə apardı. Bu dini motivli savaşlar da əsasən Vestfaliya sülhü ilə bitdi (1, s. 131). Bundan sonra da kilsə zaman irəlilədikcə, dövr dəyişdikcə öz baxışlarını dəyişməyə məcbur oldu. Xüsusilə, XVIII əsr Maarifçilik dövrünün gətirdiyi əsas dəyərlərdən olan “dinlə dövlətin ayrılması, dinin insanların azad, könüllü şəkildə qərar verib ibadət etdikləri bir inanc sisteminə dönüşməsi” prinsipi cəmiyyətin dini etiqad məsələsinə daha liberal yanaşmasına səbəb oldu. Xristianlıqdakı bu reformasiyalar həm dinin strukturu baxımından İslamla fərqli olması, həm də proseslərin ümumi gedişatının böyük miqyasda insan ölümü ilə sonlanması səbəbindən İslam dinində aparılması mümkün olan reformasiyalar modelinə o qədər də əlverişli nümunə deyil. Ancaq Yəhudilikdəki reformasiyalarda islahatlar prosesinin qansız, döyüşsüz, əsasən, intellektual müstəvidə getməsi bu tərz praktikanı daha cəlbedici edir.

XVIII-XIX əsrlərə qədər Avropadakı yəhudilər digər xalqlardan ayrı, izolyasiya şəraitində yaşayırdılar. Avropadakı elmi-sosial inkişafı görən dövrün öndə gedən yəhudi ziyalılarının öz xalqını cəmiyyətə inteqrasiya etmək və dünyanın hərtərəfli

dəyişən dinamikası ilə ayaqlaşdırmaq cəhdləri daxildə Haskala olaraq bilinən intellektual hərəkatın başlanmasına səbəb oldu. Yəhudi Maarifçiliyi olaraq da adlanan bu islahatlar dalğası yəhudilərin ayrı, özünəməxsus bir icma olaraq qorunması ilə bərabər müasirləşmək, modern sekulyar dəyərləri mənimsəmək və iqtisadi rifahı artırmaq kimi amalları hədəf bilmişdi. Haskala rasionalizm, liberalizm, sorğulamaq və fikir azadlığı kimi ideyaları təbliğ edirdi (10, s. 475).

Bu hərakatın məntiqi nəticəsidir ki, yəhudillər öz dinlərində islahatlar edə bildilər: din sonrakı dövrlərdə Rekonstruktiv yəhudilik, Reformist yəhudilik, Konservativ yəhudilik və Ortodoks yəhudilik adlı bir çox qollara ayrıldı. Reformist yəhudilik dinin daimi olaraq zamanla təkamül edən bir sistem olduğunu deyir. Dinin hərfiyən, nöqtəbənöqtə uyğulanmasının önəmli olmadığını, oradakı əsas etik dəyərlərin və mənanın başa düşülüb real həyatda tətbiq edilməsini tərənnüm edir. Bu prinsiplərlə şəxs tam azad olaraq dini istədiyi kimi qavrayıb ibadət edə bilər.

Konservativ yəhudilik də İuadizmin müasir çağa uyğunlaşdırmaq cəhdlərindən biridir; din qanunlarının önəmli olduğunu, ancaq dövr dəyişdikcə onların da interpretasiyasının dəyişib dövrə adaptasiya edilə biləcəyini deyir.

Ortodoks iuadizm yəhudiliyin tarixi ənənələrinə, dini qanunlara sıx bağlı olsa da, Rekonstruktiv yəhudilik tamamilə bir növ yeni cığır açır. Rekonstruktiv iuadizm yəhudilərin tanrının "seçilmiş xalqı" olmadığını, "Tövrat" daxil müqəddəs hesab edilən kitabların tanrının vəhyi deyil, onların tarix boyunca ərsəyə gətirdikləri bir xalq yaradıcılığı olduğu fikrindədir. Rekonstruktiv iuadizm yəhudiliyi yalnız bir din olaraq görmür, onu inkişaf edən, təkamül edən bir sivilizasiya olaraq görür (7, s. 86-87).

İslam dini yeganə böyük İbrahimi dindir ki, özünün proqressiv reformasiya çağını hələ keçirməyib. Yaxın Şərqin elmdə və inkişafda dünyanın digər regionlarından geri qalmasının, demokratik, liberal dəyərlərin bu torpaqlarda kök ata bilməməsinin əsas səbəblərindən biri də elə budur. Xristianlıqdakı islahatların müvəffəqiyyətlə bitməsinin əsas səbəblərindən biri Kilsə kimi oturuşmuş, topluma yol göstərən və öndərlik edən mərkəzi bir mənbənin olmasıdır: əgər Kilsə fikrini dəyişərsə, yeni müddəaları məqbul hesab edərsə, insanlar da bunu daha asan və tez qəbul edəcək. İslam aləmində Xristianlıqdakı Katolik kilsəsi kimi vahid, birləşmiş səlahiyyətli bir qurum yoxdur, ancaq dövlətin rolu genişdir. Qərbdə və inkişaf etmiş dünyada individual azadlıqların çiçəklənməsi üçün dövlətin rolunu azaltmağın məqsədyönlülüyü çoxluqla qəbul olunsa da, Yaxın Şərqdə dövlətin əlində böyük səlahiyyətlərin olması, əslində, mümkün islahatlar və reformasiyalar yolunda katalizator rolunu oynaya bilər. Dövlətin fəal təbliği ilə birlikdə cəmiyyətin ziyalılarının və öndə gedən din adamlarının da bu işə aktiv cəlb olunması prosesi daha da sürətləndirə bilər. Tarixdə də müsəlman dünyasında dövlətin müsbət yöndə dəyişimlərə effektiv bir vasitə olmasına nümunələr vardır. "İslamın qızıl çağı" adlanan qısa bir dönəmdə əsas impulsu dövlət vermişdi, Türkiyə Cümhuriyyəti yaranandan sonra Osmanlı kimi dinin önəmli olduğu böyük imperiyadan tədricən sekulyar və demokratik idarə sisteminə keçid də dövlət kimi vahid, böyük səlahiyətlərə malik bir strukturun hesabına gerçəkləşmişdi.

**Nəticə**

Yaxın Şərqdə demokratiyaya cəhdlərin, insanların gündəlik həyatlarında və fərqli situasiyalara münasibətində liberal yanaşmaların tətbiqi zamanı yaranan çətinliklərin səbəbləri müxtəlif və çoxtərəflidir. Bu vəziyyət imperializmin mirası, qərbin xarici siyasətinin fəsadları ilə birlikdə, əsasən, daxildə yerli xalqın adət-ənənələrindən və onların proqressiv reformasiyalar keçirməmiş dini görüşlərindən qaynaqlanır.

Həm daxili, həm də xarici qüvvələr Yaxın Şərqin qeyri-demokratik hökumətlərini devirərək vəziyyətə çözüm gətirə biləcəklərini sansalar da, yaxın tarixin bir çox nümunələri belə cəhdlərin xeyirdən çox zərər verə biləcəyini göstərir. Bu cür zərərli rejim dəyişimi ambisiyaları qeyri-stabillik, xaos və vətəndaş müharibəsi ilə sonlanaraq həm regionda əhəmiyyətli dərəcədə problem yaradıb, həm də artan beynəlxalq terrorizm hallarına və məcburi köçkün böhranına görə qlobal müstəvidə təhlükəni tətikləyib.
Bütün bu faktorları nəzərə alaraq, Yaxın Şərqdə

demokratiyanın reallaşdırılmasındansa, stabilliyin qorunması, inkişaf etmiş demokratik ölkələrin oradakı mövcud dövlət quruluşları ilə əməkdaşlıq edərək toplumlarda sekulyarizmi, modernizmi yayması, dinin liberal yöndə reform edilməsi və təhsilin səviyyəsinin artırılması uzun vadədə həm o toplumlar üçün, həm də bütün dünya üçün daha müsbət nəticə verəcək. Həmin sahələr üzrə aktiv və effektiv əməkdaşlıq sivilizasiya maraqlarını əsas tutur, təkamülə hərəkət verir. Bu halda həmin xalqların zamanla demokratik idarə rejiminə keçməsi və liberal prinsipləri mənimsəməsi daha real görünür, çünki dəyişim xaricdən zorla yeridilməz, daxildən kök atıb təbii bir proses olaraq inkişaf edər.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Phillips A. (2011). War, Religion and Empire: The Transformation of International Orders. New York: Cambridge University Press.*

*2. Zelin A. Y. (2018). Tunisian foreign fighters in Iraq and Syria. [pdf] The Washington Institute For Near East Policy. https://www.washingtoninstitute.org /uploads/Documents/pubs/PolicyNote55-Zelin.pdf (giriş tarixi 12.04.2020).*

*3. Burke E. Reflections on The Revolution in France. [pdf] McMaster University. https://socialsciences.mcmaster.ca/~econ/ugcm/3ll3/burke/revfrance.pdf (giriş tarixi 11.04.2020).*

*4. The library of Congress (2014). Laws Criminalizing Apostasy. https://www.loc.gov/law/help/apostasy/index.php (giriş tarixi 15.04.2020).*

*5. Friedman M. (2016). The Middle East: The Way It Is and Why. Mauldin Economics. https://www.mauldineconomics.com/this-week-in-geopolitics/the-middle-east-the-way-it-is-and-why (giriş tarixi 10.04.2020).*

*6. Cohen. M. J. (1987). The Origins and Evolution of the Arab-Zionist Conflict. Los Angeles.: University of California Press.*

*7. Stefon M. (2012). Judaism: History, Belief, and Practice. New York.: Britannica Educational Publishing.*

*8. HISTORY. Ottoman Empire. https://www.history.com/topics/middle-east/ottoman-empire (giriş tarixi 16.04.20).*

*9. Tucker S. C. (2013). The European Powers in the First World War: An Encyclopedia. New York.: Routledge.*

*10. Endelman T. M., Gitelman Z., Moore D. D. (2020). The Posen Library of Jewish Culture and Civilization. Yale University Press.*

*11. V. V. Dyke. (1995). Ideology and Political Choice: The Search for Freedom, Justice, and Virtue. New Jersey.: Chatham House Publishers.*


**Açar sözlər:** *demokratiya, reformasiya, din, mədəniyyət, rasionalizm, Yaxın Şərq.*

## РЕЗЮМЕ


**Нихад Ягублу**

**Почему демократия завершается с неудачей на Ближнем Востоке?: причины и факторы**

Причины, объясняющие, почему демократические структуры так малочисленные на Ближневосточном регионе и либеральные принципы не укоренились тут у существующих обществ, различны. Данная научная статья, всесторонне исследуя существующую обстановку, анализирует и освещает этот серьёзный вопрос с разных точек зрения. Она не ограничивается рассмотрением каких-либо поверхностных моментов, а раскрывает вопрос глубже.

Одной из проблем, обсуждаемой в этом исследовании, является то, что внедряемые либеральные ценности исторически чужды этим народам: они противоречат взглядам, традициям и культуре локального населения. Неудачные примеры недавнего прошлого и другие реалии этого сложного региона указывают на недопустимость искусственного силового свержения власти, что может привести к большим катаклизмам.

Другой фактор в том, что данный регион населён различными этническими и религиозными группами. Не все из них приобрели самостоятельность, что свидетельствует об усилении амбиций к созданию собственных государств. Это приводит к возникновению межэтнических, религиозных и территориальных конфликтов. Существующая

внутренняя рознь и общая напряжённость также является результатом действий Западных сил: после развала Османской империи, они не учитывав социально-политическую динамику региона поделили территорию, исходя из своих интересов. Отсутствие прогрессивных реформ в истории доминирующей религии региона, существующий догматизм в религиозных убеждениях местного населения, тоже является препятствием при формировании демократических государственных структур и освоении либеральных ценностей на Ближнем Востоке.

**Ключевые слова:** *демократия, реформация, религия, культура, рационализм, Ближный Восток.*

## SUMMARY

**Nihad Yagublu**

**Why democracy results in failure in the Middle East?: reasons and factors**

There are many different reasons why democratic governmental structures in the Middle East region are so few, and why liberal principles haven't taken root in those societies. This scientific article comprehensively examines the political-social situation there through analyzing the issue from variuos different angles and not limiting itself to the superficial level.

One of the main reasons explaining the current situation is the new, liberal values which are tried to be imposed on are historically alien to these nations, and they contradict the views, traditons and culture of the local people. Unsuccessful examples of the recent past and the other realities of the region hint overthrowing the governments there through the use of force can backfire and lead to big catastrophes.

The fact that the Middle East is inhabited by many diverse ethnic and religous groups also contribute to this challenging situation. Not all of them were able to establish their own states, and it directly leads to ambitions to create one. And such ambitions often bring physical confrontations, wars and overall unstability. These ethnic-religious tensions and hostility are also the by-product of the actions of the Western powers — they after the fall of the Ottoman Empire irresponsibly, without taking into account the internal dynamics of the region divided it according to their own self-interests. Lack of progressive reforms in the history of the region's dominant religion and the overwhelming dogmatism in religious beliefs of the local people are also some of the important reasons why liberal values are not deeply ingrained in those societies and obstacles emerge while trying to build democratic government institutions.

**Key words:** *democracy, reformation, religion, culture, rasionalism, Middle East.*

UOT: 321:330.342.22; 321(1-773) ; 94 (560)

# QLOBALLAŞMANIN TÜRKİYƏDƏ MİLLİ DÖVLƏTƏ TƏSİRİ

**ZÜRİYƏ QARAYEVA**
*Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının doktorantı*

*E-mail: zuriye.babayeva@hotmail.com*

**Giriş:**

Qloballaşmanın siyasi təsirlərinin mərkəzində dövlət dayanır. Milli dövlətin bütün sferalarda əsas söz sahibi olması qloballaşma ilə aradan götürülmüşdür. Bu vəziyyətə qloballaşmanın dövlətdən üst, onun sərhədlərini aşan xüsusiyyətləri səbəb olmuşdur. Qloballaşma dövlətin mahiyyətini kiçildən neoliberal ideologiyanı özüylə bərabər gətirmişdir. 1980-ci illərdə başlayıb, 90-cı illərdə sürətlənən qloballaşmanın təsiri nəticəsində dövlət, siyasi quruluş, siyasi mədəniyyət kimi sferalarda yeni müzakirələr ortaya çıxmışdır. Müvafiq anlayışlar Türkiyə kontekstində bir çox araşdırmalara mövzu olsa da, proseslərin siyasi-iqtisadi-mədəni aspektləri diqqətə alınmamış, idarəçilik sistemində dəyişikliklər təhlildən kənarda qalmışdır. Məqalədə müasir siyasi təcrübəyə əsaslanaraq ənənəvi dövlətdən milli dövlətə keçid, siyasi mədəniyyət, əsas hüquq və azadlıqların qorunması, idarəçilikdə transformasiya və icraedici hakimiyyətin gücləndirilməsi kimi faktorlar nəzərə alınaraq qloballaşmanın Türkiyədə milli dövlətə təsirinin nəticələri müəyyən olunmağa çalışılacaqdır.

**1. Qloballaşma və milli dövlət anlayışları**

Ənənəvi dövlətlərdə siyasi iqtidarın qaynağı Tanrı olmuşdur. Bu sxolastikaya görə, dövlət Tanrı tərəfindən yaradılmış təbii varlıq olduğu üçün o, kilsə qaydalarıyla idarə edilməlidir.[12, 226] Orta Əsrlərin sonlarında Avropada feodalizm dağılmış və kilsə hakimiyyətinin aradan qalxması ilə mütləq monarxiyalar ortaya çıxmışdır. Bu mərhələdə hakimiyyət şəxsiləşdirilmiş, suverenlik bütünlüklə krala verilmişdir. Bununla da ənənəvi dövlətdən müasir dövlətə keçid baş vermişdir.[7, 61-63] Hakimiyyətin mütləq və bölünməz sayıldığı bu mərhələ 1789-cu il Fransa burjua inqilabına qədər mövcud olmuşdur. İnsan Haqqları Bəyannaməsinin qəbul edilməsindən sonra krala aid olan ali hakimiyyət ondan alınaraq cəmiyyətə verilmiş milli dövlətlər yaranmış və o vaxtdan bu günədək müasir dövlətin ikinci mərhələsi davam etmişdir.[9, 191] Milli dövlətin yaranma prosesini sürətləndirən hadisə isə 1648-ci ildə imzalanmış Vesfaliya sülhü olmuşdur. 1945-ci ilədək qüvvədə qalan bu sülhün əsas prinsipləri olan bərabər hüquqlu dövlətlər, problemlərin sülh yolu ilə həll edilməsi öhdəlikləri, birgə asayişi saxlamaq ideyası, suverenlik anlayışının meydana gəlməsi müasir beynəlxalq hüququn əsasını qoymuşdur.

XX əsrin ortalarından etibarən milli dövlətin legitimliyini zəiflədən əsas faktor qloballaşma olmuşdur. Bu termin aktiv elmi dövriyyəyə 1983-cü ildə Harvard professoru Teodor Levit tərəfindən gətirilsə də, ilk dəfə 1944-cü ildə işlədilmişdir. [2] Qloballaşma prosesi nəticəsində dünya vahid məkana çevrilir və bu məkanda informasiya, məhsul və xidmətlər, kapital, ideyalar və onların daşıyıcıları hərəkət edir. Bu proses dövlətin siyasi, iqtisadi və mədəni sferalarına təsir edir.[14, s]

Siyasətdə qloballaşmanın əsas təsir obyekti milli dövlətlərdir. Milli dövlətin mərkəz, tək qüvvə olması, bütün iqtisadi, siyasi və ictimai əlaqələrdə tutduğu legitim mövqe qloballaşma ilə dəyişmişdir. O, milli dövləti zəiflədir və onları öz prinsiplərinə uyğunlaşdırmağa çalışır. Milli dövlətə təsir iki səviyyədədir: 1. Millətin mahiyyətinin dəyişməsi, 2. Dövlətin mahiyyətinin dəyişməsi. Bu baxımdan qloballaşma milli dövlətin bütünlüyünü pozaraq, siyasi iqtidarın funksiyalarını dəyişikliyə məruz qoyur.[4,30] Bu təsirlər çərçivəsində milli dövlətlərin postmodern dövlətlərə transformasiyası baş verir.

Transformasiya prosesində sosial, siyasi və xüsusilə iqtisadi sahədə izləri olan liberalizm və yeni sağçılıq hakim ideologiyaya çevrilir. Sekulyar dövlət, ifadə azadlığı, mülkiyyət hüququ, inanc

azadlığı, ticarət azadlığı kimi fikirləri dəstəkləyən liberalizm fərdi azadlıqları və haqları müdafiə edən ideologiyadır. Siyasi sahədə dövlətin rolunun azaldılması, iqtidarın yalnız qanun hakimiyyəti səviyyəsində məhdudlaşdırılması şəklində ifadə olunur. Liberalizmə görə, vətəndaşın azadlığına başlıca təhlükə dövlətdir. Yeni sağ ideologiya isə neoliberalizm və neokonservatizmin sintezindən yaranan fikir axınıdır. 1980-ci illərdə ortaya çıxan bu ideologiyaya görə, vətəndaşların rifahı, azadlığı və hüquqlarının müdafiəsi üçün dövlətin müdaxiləsi gücləndirilməlidir. [3, 352]

Milli dövlətlərin yaranmasında əsas təkanverici amil olan sərmayə hazırda onu sarsıdır. Qloballaşmanın təsir mexanizmləri milli dövlətdə iqtisadi sahədəki səlahiyyətlərini dövlətüstü qurumlara həvalə etməsi və yerli idarəçiliyin inkişaf etməsində büruzə verir. Öncədən milli iqtisadiyyat dövlət sərhədləri içində yer alırdısa, artıq dövlət özü dünya bazarının içərisində yerləşir. İnkişaf etməkdə olan ölkələr xarici sərmayəyə arxalanır. Beynəlxalq sərmayə milli dövlətin sərhədlərini aşaraq dünya bazarına çatmışdır. Bununla da, güclünün daha güclü olduğu, gəlir əldə etmənin tək hədəf olduğu beynəlxalq iqtisadiyyat ortaya çıxmışdır. Bu vəziyyət ictimai səviyyədə qeyri-bərabərliyin, təbəqələr arasında uçurumun yaranmasına səbəb olmuşdur. İqtisadi böhranlar zamanı da iqtisadiyyatı inkişaf etmiş ölkələr canını qurtara bilmişdir. [4, 31]

Milli dövlətin zəifləməsi üç səviyyədə özünü büruzə verir: dövlətin nəzarətetmə qabiliyyətinin zəifləməsi, qərar qəbuletmə prosesində təsir mexanizmlərinin zəifləməsi, dövlətin idarəetmə imkanlarının zəifləməsi.[16, 550] Qloballaşmanın milli dövlətə təsirlərini J.Habermas bu cür izah edir: ``Milli dövlətin imkanları get-gedə azalır. Bu imkanlardan xüsusən ikisi tamamilə aradan qalxmışdır. Bunlar - himayəçilik və tələb üzərində qurulan iqtisadi siyasətə qayıdışdır. İqtisadi qloballaşma nəticəsində milli siyasət kifayət etmir. Bu vəziyyət üçün Habermas milli strukturu qlobal rəqabətə uyğunlaşdıracaq islahatlar təklif etmiş, milli dövlətin legitimliyini və suverenliyini itirəcəyini bildirmişdir. “Bu vəziyyətdə milli dövlətin özünü izolyasiya etməsi xilas yolu deyil”. Lakin yapon professor Keniçi Ohmae qloballaşmanın milli dövləti aradan qaldırmasını qənaətbəxş qiymətləndirmişdir. Onun fikrincə, “milli dövlət iqtisadi təşkilatlanma zamanı əngələ çevrilir. Çünki, milli dövlət iqtisadiyyata təsir edə bilmək üçün lazımi iradəyə, bacarığa və siyasi bazaya sahib deyil. Ona görə də, milli dövlət qlobal proseslərə qucaq açmalıdır, onların yolunu açan katalizator olmalıdır.” [4, 32]

Lakin milli dövlətin qloballaşma nəticəsində gücünü, legitimliyini tamamilə itirdiyi düşünülsə də, əslində hələ də varlığını qoruyur. Həm iqtisadi, həm siyasi sferada milli dövlətin təsir mexanizmləri mövcuddur. Milli dövlətin aradan qalxaraq yerini dövlətüstü quruluşlara verməsi mümkün deyil. İspan hüquqşünası Manuel Castells də milli dövlətin zəifləmiş kimi görünməsinə baxmayaraq, qurduğu strateji planlarla bütün böhranlara cavab verə biləcək gücə çevrildiyini düşünür. Bu strategiya ilə milli dövlət şəbəkə dövlətə çevrilərək içərisində dövlət, dövlətüstü təşkilatlar, milli dövlət ittifaqları, regional və lokal hökumətlər və qeyri-hökumət qurumlarından ibarətdir. [4, 33]. Burada milli dövlət baxımından dəyişən şey iqtidarın zəifləməsi, tək suveren güc olmağını itirməsidir. Milli dövlət gücünü paylaşmaq məcburiyyətindədir, lakin strateji rolunu da oynamağa davam edir.

Qloballaşmanın siyasi iqtidar miqyasında təsiri özünü həm də idarəçilik sistemlərində baş verən transformasiya və icraedici hakimiyyətin gücləndirilməsi ilə büruzə verir. Son dövrlərin həm təcrübə, həm də nəzəri baxımdan aktual mövzularından biri də prezident idarəçiliyinə keçiddir. 1980-ci ildən əvvəl parlament idarəçiliyinə daha çox üstünlük verilmiş, sonradan isə bu tendensiya prezident idarəçiliyi istiqamətində dəyişmişdir. Bu prosesdə ABŞ sistemi presedent rolunu oynasa da, Amerika idarəçiliyini uğurlu edən faktorların mövcud olmadığı ölkələrdə nəticə ürəkaçan olmamış və icraedici hakimiyyətin avtoritarlığı ortaya çıxmışdır. Hantinqtonun “Demokratikləşmənin üçüncü dalğası” əsərində irəli sürdüyü III dalğada – qloballaşmanın sürətləndiyi periodda prezident respublikalarının sayı artmışdır. Sovet İttifaqından ayrılan dövlətlərdən yalnız üçü (Macarıstan, Çexiya, Slovakiya) parlament sistemini mənimsəmişdir. Bu tendensiyaya 1950-1990-cı illərdə daha çox rast gəlinmişdir.[1, 122] Brazilya 1960-cı ildə yarı-prezident idarəçiliyinə keçsə də, 1963-cü ildə təkrar prezident sisteminə döndü. Zimbabve 1987-ci ildə, Qana 1960-cı ildə, Malavi 1966-cı ildə prezident idarəçiliyinə keçmişdir. [13, 88]

**2. Türkiyədə milli dövlət: qloballaşma kontekstində**

İkinci Dünya Müharibəsindən sonra 1946-cı ildən başlayan dövr dünyada yeni periodun başlanğıcı oldu. SSRİ-nin dağılması və soyuq müharibənin başa çatması yeni dönəmin başlanğıcı oldu. Beynəlxalq sərmaye qloballaşmanı önə çıxardı. Türkiyə siyasəti və iqtisadiyyatı qloballaşmanın təsiri altına düşdü. Bu tarixdən etibarən Türkiyə Avropa ilə əlaqələrinin yönünü dəyişdi və qərbyönlü siyasət tətbiq edilməyə başlandı. İqtisadi siyasətdə liberallaşma, dünya siyasətində ABŞ-la əlaqələr əsas yer tutdu. ABŞ, Almaniya, Yaponiya liderliyində üçqütblü dünya nizamı yarandı. Bu dövrdə İngiltərədə Tetçer, ABŞ-da Reyqanın izlədiyi neoliberal siyasət Türkiyədə Turqut Özal tərəfindən həyata keçirilmişdir.[3, 353] 1983-cü il seçkiləri ilə iqtidara gələn, Yeni sağ qanadı təmsil edən Özal hakimiyyəti neoliberalizmi mənimsəyən 24 Yanvar 1980-ci il proqramını qəbul etmişdir. Bu proqram sərbəst faiz, valyuta və aşağı məvacib siyasətləri ilə ixracatın artırılmasını, xüsusən dövlət xərclərinin azaldılmasını, özəlləşdirməni, dövlətin iqtisadiyyata müdaxiləsini azaltmağı və dünya bazarına inteqrasiyanı hədəfləmişdir. Neoliberal siyasətin tətbiq edildiyi 1980-ci illərdə Turqut Özal liberal siyasət və iqtisadiyyatı mühafizəkar dəyərlər ilə sintez edərək dövlətçilik siyasətini tərk etmişdir. Nəticədə, milli dövlət zəifləmiş, dövlətin fəaliyyət sferaları daralmağa başlamışdır.[11, 32-33]

1980-ci illərdə başlayıb, 90-cı illərdə sürətlənən qloballaşmanın təsiri nəticəsində Türkiyədə dövlət, siyasi quruluş, siyasi mədəniyyət kimi sferalarda yeni müzakirələr ortaya çıxmışdır. 1989-cu ildən sonra siyasi qadağaların da aradan qalxması ilə vətəndaş cəmiyyəti və siyasi partiyalar baxımından sərbəstləşmə dövrü başladı. Bu dövrdə dövlət liderləri iki funksiyanı yerinə yetirməyə çalışırdı: birincisi, dövlətin bütövlüyü, ikincisi, milli-mənəvi dəyərlərin qorunması. Demokratiyaya keçidi ifadə edən “ikinci Respublika”nın yaradılması, milliyətçiliyin təsirli faktor olması, vətəndaş cəmiyyəti, dini qurumlar, kimlik siyasəti kimi mövzular gündəmə gəldi. Kimlik siyasətinin nəticəsi olaraq milli azlıqlar, multikulturalizm, vətəndaşlıq, Kəmalizmin fərqli tərəfləri, milli dövlət istiqamətində addımlar atılmışdır.

1980-90-cı illərdən bütün dünyada sürətlənən qloballaşma milliyətçiliyi zəifləďə bilməmişdir. Qloballaşmanın dövləti zəifləđən təsirini tənqid edənlər üçün milliyətçilik bir sığınacaq yeri olmuşdur. Türkiyədə milliyətçilik Respublikanın qurulmasından etibarən başlıca siyasi-mədəni ünsürə çevrilmişdir. Siyasi sferada Türk-İslam sintezi ilə Atatürkçülük birləşmiş, Atatürkçülük milliyətçi əsaslı “neo-Kemalizm” adlandırılmışdır. Tanıl Bora Türkiyədə dörd fərqli milliyətçilik növünü ayırmışdır: birincisi, Kamalist milliyətçilik, ikincisi sol milliyətçilik, üçüncüsü, liberal milliyətçilik, dördüncüsü isə irqçi-türk milliyətçiliyidir.[4, 167] Beləliklə, 1990-cı illərdən iki cəbhə arasında iqtidar mübarizəsi ortaya çıxmışdır. Birinci cəbhə milliyətçiliyi əsas tutaraq Kamalizmi siyasətin mərkəzinə yerləşdirməyə çalışmış, ikinci cəbhə isə liberallaşma, Avropaya inteqrasiyanı vacib saymışdır. Bu iki cəbhənin öz prinsiplərini tətbiqetmə və qarşı tərəfi gerilətməyə çalışması sonradan siyasi böhranlara gətirib çıxarmışdır.

Kürd məsələsi də regional və qlobal proseslər fonunda 1960-cı illərdən etibarən gündəmə gəlmişdir. 27 May 1960-cı il çevrilişindən sonra güclənən solçu ideyalar içərisində kürdlərin iqtisadi inkişafı məsələsi və mədəni fərqləri dilə gətirilmişdir. 70-ci illərdə kürdçülük solçu hərəkatdan ayrılmış, 1974-cü il əhf fərmanından sonra isə təşkilatlanmağa başlamışdır.[10] 90-cı illərdən etibarən kürdlər Avropa İttifaqı kimi beynəlxalq təşkilatların etnik qrupların insan haqqlarının qorunmasına dəstəyinə arxalanaraq haqqlarını tələb etməyə başlayıblar. Beləcə, Türkiyənin regionda lider dövlətə çevrilməyini qəbul edə bilməyən super dövlətlərin də təkanı ilə Kürd məsələsi həll edilməsi çətin olan və terrorla iç-içə girən, milliyətçiliyi gücləndirən problemə çevrilmişdir. Problem Avropa İttifaqına qatılmaq istəyən Türkiyənin qarşısında mane olmağa davam edir. Çünki, Avropa İttifaqı kürdləri etnik azlıq olaraq qəbul edir. Ancaq bu təklif qəbul olunmamış, nə kürdlər, nə də dövlət azlıq statusunu qəbul etməmişdir.

Türkiyədə neoliberal qloballaşmanın milli dövlətə təsirlərindən biri də icraedici hakimiyyətin gücləndirilməsinə əsaslanan idarəçilik sisteminin transformasiyasıdır. 1961-ci il konstitusiyası hakimiyyət birliyi sistemindən tamamilə uzaqlaşaraq, yumşaq hakimiyyət bölgüsünə əsaslanan ‘Westminister’ tipli parlament idarəçilik sistemini irəli sürmüş, məhkəmənin müstəqilliyini mənimsəmişdir. Lakin konstitusiyanın icra olunduğu dövrdə

fərqli nəticələr ortaya çıxmışdır. Türkiyənin siyasi tarixində koalisiya hökumətlərinin başlanğıcı qoyulmuşdur. Koalisiya hökumətləri Süleyman Dəmirəlin sayca üçüncü hökumətindən sonra hərbi çevrilişlə nəticələnmişdir. 12 Mart 1971-ci ildə həyata keçirilən hərbi çevrilişdən sonra icraedici hakimiyyət daha da gücləndirilmiş, Nazirlər Kabinetinə qanun hökmündə qərarnamə qəbul etmək səlahiyyəti verilmişdir.[6, 84-85] Beləliklə, parlament idarəçiliyi xalis prinsiplərdən uzaqlaşmışdır. 70-ci illərin ikinci yarısından etibarən sabitliyi qorumaq daha da çətinləşmişdir. Siyasi böhran Türkiyə Silahlı Qüvvələrinin baş qərargah rəisi Kənan Evrənin başçılığı ilə 12 sentyabr 1980-ci ildə növbəti hərbi çevrilişin baş verməsi ilə nəticələnmişdir. Çevrilişin ardınca 1982-ci ildə konstitusiya üçün xalq səsverməsi həm də prezidenti müəyyənləşdirmiş və Kənan Evrən dövlət başçısı seçilmişdir.[5, 145-146]

Ancaq bu konstitusiya ilə də məclis və hökumətin səlahiyyətləri prezident səlahiyyətlərindən daha az olmuşdur. Qanunvericilik qarşısında icraedici hakimiyyət, icraedici hakimiyyət içərisində isə prezident güclü olmşdur. Belə ki, konstitusiyanın hazırlanmasında Təhlükəsizlik Şurasının təsirinin güclü olması və prezident seçiləcək Kənan Evrənin çevrilişin başında dayanması güclü prezidentin var olmasına səbəb olmuşdur.[5, 149-150] Nəticədə idarəçilik forması 1961-ci ildəki saf parlament idarəçiliyindən uzaqlaşmışdır. Prezidentin qanunvericiliklə bağlı səlahiyyətlərinin əvvəlki konstitusiyadakından tək fərqi, konstitusiya dəyişikliyi ilə bağlı qanunları lazım bilərsə, xalqın səsverməsinə təqdim edə bilməsi idi. Məhkəmə ilə bağlı səlahiyyətləri isə öncəki konstitusiyadan daha çoxdur. Prezidentin icraedici hakimiyyət olaraq səlahiyyətləri də əvvəlki dövrdən daha çox olmuşdur.

İcraedici hakimiyyətin gücləndirilməsi tendensiyası 2002-ci ildən hakimiyyətə gələn Ədalət və İnkişaf Partiyasının prezident idarəçiliyinə keçid müzakirələri ilə davam etmişdir. 2007-ci ildə keçirilən referendum prezidentin xalq tərəfindən seçilməsi ilə nəticələnmiş və prezidentin məclis içərisindən təyin olunduğu parlament idarəçiliyi yönünü dəyişmişdir. Ona görə də, idarəçilik sistemi prezidentin səlahiyyətlərinin çox olması və seçki üsulu baxımından yarı-prezident idarəçiliyini xatırlatmışdır. Lakin Juan Linz, Sartori, Duverje, Shugart və Careyin tədqiqatlarında ortaq olan yarı-prezident sisteminin üç vacib xüsusiyyəti bu idarəçiliyin fərqli sistem olduğunu göstərir. Həmin xüsusiyyətlər bunlardır: 1. Dövlət başçısının xalq tərəfindən birbaşa və ya bilavasitə seçilməsi. 2. Parlamentin etimadına ehtiyacı olan hökumətin prezident tərəfindən təyin edilməsi. 3. Prezidentin parlamenti buraxa bilməsi.[15, 97-102]

Bu cür adı qoyula bilməyən sistem qarışıqlığı 2017-ci ildə keçirilən referendumla həllini tapmış və idarəçilik sistemi öz həqiqi statusunu qazanmışdır. Baş nazir vəzifəsi aradan qalxmış, icraedici hakimiyyət - başçısı prezident olmaqla parlament xaricində qurulmuşdur. Əvvəllər baş naziri təyin edən prezident, artıq vitse-prezidentləri və nazirləri, eləcə də, yüksək vəzifəli məmurları vəzifəyə təyin və vəzifədən azad edə bilər. Prezident bəzi məsələlərlə bağlı qərarnamə qəbul edə bilər. O, parlamentdə qəbul olunan qanunlar əleyhinə Konstitusiya Məhkəməsinə müraciət edə bilər. [17] ABŞ nümunəsi əsasında yaradılan yeni sistemdə bir çox fərqlər olduğu üçün "Türkiyə prezident idarəçiliyi" adını almışdır.

**Nəticə:**

Qloballaşma ilə bağlı yanaşmaların dünyanı birləşdirən, eyniləşdirən, eyni zamanda da fəqliləşdirən təsirləri Türkiyədə də siyasi mədəniyyət, siyasi struktur, dövlət və bir çox sahələri dəyişikliyə məruz qoymuşdur. 1980-ci illərdən etibarən iqtisadiyyatda liberalizm və sağçılıq, siyasi sferada dövlətin əsas qərarverici orqan olmasının aradan qalxması, dövlətüstü quruluşların iqtisadiyyatda və siyasətdə əsas rol oynaması müşahidə edilmişdir. Ədalət və İnkişaf Partiyası hakimiyyətə gəldikdən sonra etnik, dini, siyasi problemlərin həlli fonunda prezidentin səlahiyyətləri artırılmışdır. Qloballaşma Türkiyədə neoliberal və konservativ ideyalar, multikulturalizm və milliyətçilik, dünyəvilik və İslamçılıq, çəkindirmə və tarazlaşdırma prinsipinə əsaslanan ABŞ idarəçilik nümunəsinin qəbul edilməsi və paralel olaraq icraedici hakimiyyətin gücləndirilməsi kimi paradoksal tendensiyalara da yol açmışdır. Etnik-dini qarşıdurmalar, kürd problemi, terror, Avropa İttifaqı ilə əlaqələr, demokratik idarəetmə həllini tam tapmamış nüanslar arasındadır. Bütün bunlar ictimai səviyyədə də özünü göstərmiş, cəmiyyət içərisində siyasi, milli, dini fərqlər qabarmışdır.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Aktaş M., Bayram C. Başkanlık Sistemi. Ankara: Liberte, 2015. S.122*

*2. Axundi F., Səfərova A. Qloballaşma və insan inkişafı. https://dejure.az/az/article/qloballasma-v-insan-inkisafi-axundi-fidan-v-sfrova-aygun*

*3. Çolak Ç. "Yeni sağ'ı oluşturan bileşenlerin birbiri ile çelişen kavramları üzerine bir değerlendirme". International Journal of Social Science, Number: 44 , p. 351-361, Spring II 2016. s.352*

*4. Durdu Z. "Türkiye'de küreselleşmenin siyasal-kültürel etkileri: çokkültürcülük-ulusal kültür". Doktorantura dissertasiyası, 2009. S. 30*

*5. Erdoğan M. Türkiyede anayasalar ve siyaset. İstanbul:Liberte, 2012. S. 145-146*

*6. Gözler K. Türk Anayasa Hukuku. Bursa:Ekin, 2000, s. 84-85*

*7. Hakyemez, Y.Ş. Mutlak Monarşilerden Günümüze Egemenlik Kavramı. Ankara: Seçkin, 2004. S.61-63*

*8. Haydaroğlu C., Tatlısu S. "Turgut Özal dönemi yeni sağ devlet ve ekonomik liberalizm: devlet ve piyasa ilişkisinin politik ekonomisi" // Bilecik Şeyh Edebali Üniversitesi Sosyal Bilimler Enstitüsü jurnalı (27-41), N 1, Aralık 2016 s., s.32*

*9. Kaboğlu İ. Anayasa hukuku dersleri. 12-ci nəşr. İstanbul:Legal, 2017. S. 191*

*10. Kurubaş E. "Kürt sorunu:doğuşu, gelişimi ve niteliği", https://www.beyaztarih.com/turkiye-tarihi/kurt-sorunu-dogusu-gelisimi-niteligi*

*11. Örgün F. Dar gelen gömlek: başkanlık sistemi. İstanbul: Bilge, 1999. S. 32-33*

*12. Piriyev A.M., Əfəndiyeva X.B. Sosiologiya və Politologiya fənnindən mühazirə mətnləri. Bakı:"Təhsil" NPM, 2009, səh. 226*

*13. Tosun G.E., Tosun T. Türkiyenin siyasal istikrar arayışı: Başkanlık ve Yarı Başkanlık Sistemleri. Alfa:İstanbul, 1999. S.88*

*14. Yalçınkaya H., Çılbant C., Yalçınkaya N. "Küreselleşme ile yenidn şekillenen ulus-devlet anlayışı" // Uluslararası İktisadi ve İdari İncelemeler jurnalı, Cild 4, N 8, 2012.*

*15. Yazıcı S. Başkanlık ve yarı-başkanlık sistemleri: Türkiye için bir dğerlendirme. İstanbul:Bilgi Üniversitesi, 2002. 97-102*

*16. Zabunoğlu G. "Günümüzde ulus-devlet" // ERÜHFD(535-559), Cild 13, N 1, 2018. s. 550*

*17. "Cumhurbaşkanının görev ve yetkileri", https://www.tccb.gov.tr/cumhurbaskanligi/gorev_yetki/*



## SUMMARY

The article focuses on the impact of globalization on factors such as nation state, governance and political culture in Turkey. The aim of the research is to explain the political effects of globalization and its consequences in national context, to analyze the relationships of recent decades in Turkey with globalization, taking into account modern practices. In this context, the state, national state and globalization concepts were first described and political, economic and cultural spheres were examined in Turkey, and transformation in government system was analyzed in this context. This analysis was conducted with the study of the sources related to the subject, the analysis of the results obtained, the analysis and synthesis of the arguments, and also the comparative analysis method.


**Key words:** *nation state, globalization, Turkey, government system, presidential government system.*


## РЕЗЮМЕ

Статья посвящена влиянию глобализации на такие факторы, как национальное государство, государственное управление и политическая культура в Турции. Цель исследования - объяснить политические последствия глобализации и ее последствия в национальном контексте, проанализировать связи последних десятилетий в Турции с глобализацией с учетом современных практик. В этом контексте впервые были описаны концепции государства, национального государства и глобализации, а также были рассмотрены политические, экономические и культурные сферы в Турции, и в этом контексте был проанализирован процесс трансформации государственной системы. Этот анализ проводился с изучением источников, связанных с предметом, анализом полученных результатов, анализом и синтезом аргументов, а также методом сравнительного анализа.


**Ключевые слова:** *национальное государство, глобализация, Турция, формы государственного управления, президентская управления.*

UOT 327.5

# YENİ NƏSİL MÜHARİBƏLƏRƏ NƏZƏRİ-KONSEPTUAL BAXIŞ VƏ RUSİYA YANAŞMASI

**CEYHUN ƏHMƏDLİ**
*Bakı Dövlət Universiteti, doktorant*

*E-mail: jeyhun.ahmadli9204@gmail.com*

Son 200 ildə müharibələrin təbiəti, xarakteri və həyata keçirilmə texnologiyaları əhəmiyyətli dərəcədə dəyişmişdir. Hələ 1901-ci ildə Mehen və Makinderin irəli sürdüyü yanaşmaya görə, dünya strateji baxımdan quru və dəniz olmaqla iki mühitə sahib idi. II Dünya Müharibəsi ilə hava məkanı da strateji element olmağa başladı. "Soyuq müharibə" dövründə hərbi potensialın təməlini hava, dəniz və quru qücü təşkil edirdi. 90-cı illərin əvvəllərində media da strateji gücün mühüm həlqəsini təşkil etməyə başladı. XXI əsrdən isə kosmosun və kiber fəzanın savaş məkanına çevrilməsi ilə dünya strateji baxımdan 5 ölçülü formaya sahib oldu. Təsadüfi deyil ki, 2009-cu ilin ortalarında ilk dəfə ABŞ-da müdafiə və hücum təyinatlı Kiber Komandanlığın (USCYBERCOM) yaradılması yeni nəsil savaşlarına hazırlıq məqsədi daşıyırdı.

Göründüyü kimi, bəşəriyyətin inkişafı və elmi-texnoloji müstəvidə inqilabi dəyişikliklərin baş verməsi müharibələrə də təsirsiz ötüşməyib. Məşhur alman hərb nəzəriyyəçisi Karl fon Klauzevetsin "hər dövrün özünə məxsus müharibə qaydaları olur" tezisi bu baxımdan klassik yanaşma olaraq öz aktuallığını qoruyur. Amma bəzi tədqiqatçıların qənaətinə görə, Klauzevitsin elmi paradiqmaları mövcud dünya reallığını tamamilə əks etdirə bilmir. Klauzevitsin nəzəriyyəsinin ən böyük tənqidçilərindən olan İsrailli alim Martin van Kreveld hələ 1991-ci ildə yazırdı ki, artıq savaşların dövlətlər və xalqlar arasında yox, etnik və dini qruplar arasında baş verdiyi bir çağa daxil oluruq. Kreveld bildirir ki, yeni nəsil savaşların əsas aktorları terrorçu təşkilatlar, partizan, quldur dəstələri və digər tanınmayan qruplar olacaq. Klassik institutlardan fərqli olaraq xarizmatik şəxsiyyətlər üzərində qurulacaq bu qanunsuz təşkilatların fəaliyytində peşəkarlıqdan daha çox fanatizm elementləri üstünlük təşkil edəcək və ideoloji təbliğata söykənmiş sədaqət prinsipi əsas birləşdirici funksiyanı yerinə yetirəcək. (1, s. 197, 207.) Lakin müasir beynəlxalq münasibətlərin xarakterinə diqqətlə nəzər yetirsək, Klevendin irəli sürdüyü tezisin də bugünkü reallığı tamamilə əks etdirmədiyini deyə bilərik. Çünki qüvvələr tarazlığı və milli maraq kateqoriyasına söykənən beynəlxalq mühitin əsas tənzimləyici aktoru qismində hələ də dövlət çıxış edir. Transmilli korporasiyalar, ayrı-ayrı beynəlxalq əhəmiyyətli qeyri-hökumət təşkilatları, habelə müxtəlif təyinatlı özəl hərbi birliklərin yaradılması və fəaliyyəti də dövlətin maraqlarına tabe tutulur. Hər nə qədər konspiroloji səslənsə də, terrorçu təşkilatların da ayrı-ayrı ölkələr tərəfindən müxtəlif resurslarla təminatını da bu kateqoriyaya daxil edə bilərik. Bir sözlə, müasir münaqişələrdə dövlətin iradəsindən kənar heç bir fəaliyyət həyata keçirilmir və dövlət həlledici aktor qismində öz əhəmiyyətli rolunu qoruyub saxlayır.

İngilis generalı Rubert Smit Balkanlardakı təcrübəsinə söykənərək 2005-ci ildə yazdığı "Gücün faydası" ("Utility of force") kitabında açıq şəkildə etiraf edir ki, artıq hərbi gücə arxalanaraq mürəkkəb siyasi hədəflərə çatmaq mümkünsüzdür. R.Smitin qənaətinə görə, müharibələr artıq dövlətlər və qeyri-dövlət aktorları arasında sonu görünməyən, mürəkkəb və qarışıq hərbi toqquşmalara çevrilib. Onun fikrincə, qanunsuz silahlı birləşmələr dövlət olmağa can atır və beləliklə, qarışıq bir sistem ortaya çıxır. Onun fikrincə, müasir dövrdə dövlətlərin gücdən istifadəsi qısa şəkildə belə özətlənə bilər: İnandırmaq, çəkindirmək, zor tətbiq etmək və rəqibi çıxılmaz vəziyyətdə qoymaq. Diqqət yetirsək, Ukrayna böhranında bu nəzəri yanaşmanın praktikada öz əksini tapdığını görə bilərik. Həmin ölkədə aparılan müharibə heç bir tərəf üçün zəfərlə yekunlaşmayıb, amma rəqib çətin və çıxılmaz bir duruma düşdü və belə bir həqiqət təlqin olundu ki, özbaşına davranışlar və ya hansısa siyasi kurs davam etsə, həmin dövlətə (hədəf ölkə) baha başa

gələcək və ya yox olmaq təhlükəsi ilə üzləşəcək.

General Rubert Smit hibrid müharibələrdə dövlət, əsgər və xalq arasında çox sıx kommunikasiya əlaqələrinin olduğunu hesab etməklə Klauzevitsin klassik nəzəriyyəsinin hələ də keçərli olduğunu irəli sürür. İngilis general bildirir ki, hər bir siyasi hədəfin arxasında xalqın (toplumun) dəstəyi dayanmalıdır. Dövlət hədəf ölkədə hərbi aksiyalarını xalqı inandıraraq həyata keçirməlidir ki, nəticə etibarilə qurulacaq yeni sistem xalqın maraq və niyyətini ifadə etsin. ABŞ-ın Orta Şərq strategiyasının ən zəif nöqtəsi də bu amil oldu. Diqqət yetirsək, görərik ki, hərbi əməliyyatların uğurla başa çatdırılmasına baxmayaraq, ABŞ heç bir ölkədə özünə və yerli xalqa dayaq hesab olunacaq hökumət qura bilmədi. Belə deyək, ABŞ müharibələri qazandı, amma sülh və istiqrarı təmin edə bilmədi. Çünki bunun üçün ilk olaraq dəyər və institutların yenidən qurulması lazımdır. Bu, siyasi hədəfə çatmağın ən mürəkkəb mərhələsidir. ABŞ İraq və Əfqanıstanda bunu bacarmadı. İnkluziv iqtisadi-siyasi institutlar yarada bilmədi və hərbi əməliyyatların yekununda qurulan dövlət əvvəlkilərdən heç nəyi ilə fərqlənmədiyi üçün kövrək sabitlik yerini tezliklə xaosa verdi.

“Hibrid” sözü hərfi mənada iki fərqli ünsürün bir araya gətirilməsini ifadə edir. Müharibə texnologiyasi kimi istifadə edildikdə ənənəvi hərbi qüvvələrlə (konvensional) qeyri-ənənəvi hərbi qüvvələrin (qeyri-konvensional), daha konkret ifadə etsək, hərbçilərlə sivillərin, hərbi vasitələrlə qeyri-hərbi imkanların (siyasi, iqtisadi, ideoloji, sosial və s.), qaynar hərbi toqquşmalarla şiddət ehtiva etməyən metodların birlikdə tətbiq edilməsi mənasını ifadə edir. Frank R.Hoffman hibrid təhdidləri düşmənin konvensional hərbi vasitələri, qeyri-ənənəvi müharibə taktikalarını, terrorizm və digər illeqal fəaliyyətləri vahid məqsəd uğrunda eyni hərəkat ortamında və eyni zaman çərçivəsində istifadə etməsi kimi xarakterizə edir. (2) ABŞ-ın İraqda həyata keçirdiyi hərbi əməliyyatlarda əsas ssenari müəlliflərindən biri, hərb tarixçisi Peter Mansoor hibrid müharibəyə ortaq siyasi hədəfə çatmaq üçün konvensional hərbi güclərlə qeyri-nizami vasitələrin (partizan, terrorçu və üsyançı) birlikdə tətbiq olunması kimi tərif verir. (3. s.2)

Hibrid müharibə ifadəsi əsasən 2006-cı ildə “Hizbullah”ın İsrailə qarşı tətbiq etdiyi savaş texnologiyasına tərif vermək üçün istifadə edilməyə başlanılıb. Bu müharibədə “Hizbullah” partizan müharibələri və ənənəvi müharibə vasitələrini birlikdə istifadə edərək özündən qat-qat güclü olan rəqibini təəccübləndirə bilmişdir. Müasir dövrün müharibə nəzəriyyəçiləri hesab edirlər ki, yeni nəsil savaşlardakı dəyişikliklər müharibənin təbiətini dəyişdirəcək səviyyədə deyil. Mansoor da müharibələrin təbiətinin deyil, güclərin onu aparma qaydasının dəyişdirdiyini irəli sürür. Keçmiş tarixi hadisələrə nəzər yetirsək, bu tezisin özünü qismən doğrultduğunu deyə bilərik. Məsələn, Birinci Dünya Müharibəsi illərində ingilislərin Osmanlı dövlətinə qarşı həyata keçirdiyi sistemli fəaliyyətlər hibrid müharibə elementi kimi qəbul oluna bilər. Eramızdan əvvəl V əsrdə baş vermiş Pelopponnes müharibələri, Roma ordusunun German qəbilələrini yox etmək üçün həyata keçirdiyi fəaliyyətlər, Amerika inqilabı illərində koloniyaların fəaliyyəti və inqilabdan sonra ABŞ koloniyalarının öz aralarındakı savaşları, Napoleon müharibəsində İngilis, Fransız və İspanların, Fransa-Prussiya müharibəsində isə Prussiyanın istifadə etdiyi metodlar, habelə Yaponiyanın İkinci Dünya Müharibəsindən öncə Çində fəaliyyətləri və bu qəbildən olan digər faktlar onu deməyə əsas verir ki, dəyişən müharibənin təbiəti yox, üsul və metodlarıdır. (3, s. 3-10) Daha müasir nümunələrə isə yuxarıda qeyd etdiyimiz “Hizbullah”-İsrail savaşını, ABŞ-ın İraq və Əfqanıstandakı fəaliyyətlərini, habelə Ukrayna böhranında müşahidə olunan hadisələri daxil edə bilərik. Bu kimi örnəklər hibrid təhdidlərin tarixdə heç də az rastlanan olmadığını deməyə əsas verməklə həm də onu göstərir ki, elm və texnologiyanın inkişafı ilə müharibələrin aparılma qaydaları, metod və texnologiyaları da dəyişir. Burada qeyd olunmalı vacib bir xüsus var. Müharibələrin xarakteri dəyişməsə də, müasir dövrdə müharibə tenologiyalarının transformasiya tarixdə heç vaxt bənzərinə rastlanmadığı qədər sürətlə gedir. Bəli, keçmişdə hibrid müharibə elementlərinin mövcud olduğu müharibələr olub. Amma müasir dövrdə aparılan müharibələrin əsas xarakteriktikası ondan ibarətdir ki, yeni nəsil müharibələr ənənəvi (konvensional) müharibə qaydalarını tanımır. Müharibələrdə “üçüncü” tərəf anlayışı artıq siyasi leksikonun ayrılmaz bir parçasıdır. Suriya və digər Orta Şərq ölkələrində hazırda cərəyan edən münaqişələr dövlətlərin bir-biri ilə bilavasitə toqquşmasını tamamilə istisna edir. Bu baxımdan, adı çəkilən ölkələrdəki münaqişələr “vəkalət savaşı” termini ilə izah oluna bilər. Həmçinin, keçmiş dövrlərdə müşahidə olunan hibrid müharibə

elementləri müharibənin ümumi nəticələrinə əsaslı təsir göstərmirdi, müasir dövrdə isə müharibələr əsasən hibrid müstəvidə aparılır və qələbəni təmin edən əsas faktor hibrid müharibə texnologiyasının düzgün tətbiq edilməsidir. Bu baxımdan müharibələrin xarakter və təbiətinin dəyişdiyi fikrini irəli sürə bilərik.

"Hibrid müharibə" yaxud da "hibrid təhdid" terminlərinin məhz indiki dövrdə siyasi leksikona daxil edilməsi də təsadüf deyil. 2011-ci ildə NATO komandanlığının hazırladığı hesabatda hibrid təhdid "terrorizm, miqrasiya, piratçılıq, korrupsiya, etnik toqquşma və digər düşməncə fəaliyyətləri əhatə edən termin" kimi xarakterize olunmuşdur. (4, s.77-98) Həmin hesabatda vurğulanır ki, hibrid müharibə elementləri keçmişdə olduğu kimi epizodik deyil, sistemli və çoxşaxəli formada həyata keçirilən strategiyadır. Hesabatın müvafiq hissəsində bu cümlə olduğu kimi öz əksini tapır: "Hibrid təhdidlər düşmənlər tərəfindən uzun vədəli siyasi hədəfləri gerçəkləşdirmək üçün istifadə olunur". Ukrayna böhranından sonra bu anlayış daha geniş istifadə olunmağa başlandı. NATO-nun keçmiş baş katibi Andres Foq Rasmussen Rusiyanın Ukraynada həyata keçirdiyi kampaniyanı açıq hibrid müharibə kimi dəyərləndirmiş və baş verən prosesləri belə özətləmişdir: Rusiya Ukraynadakı yeni hökuməti zəiflətmək və Şərqi Ukraynada Rusiyanın siyasi təsirini davam etdirmək məqsədilə hərbi əməliyyatlara paralel olaraq, müxtəlif gizli fəaliyyətlər və geniş dezinformasiya kampaniyasını eyni anda aparır. (5) ABŞ Müdafiə Nazirliyinin 2006 v 2010-cu illərdə yayımladığı 4 illik hesabatda keçmiş müdafiə naziri Robert Geitsin çıxışlarında hibrid təhdidlərdən bəhs olunmuşdur.

Hibrid müharibə fenomeninə Rusiya yanaşması Rusiya dövlətinin XXI əsrdə geosiyasi hədəflərinə çatmasına yönəlik strategiyası ilə bağlı ilk siqnallar 25 yanvar 2013-cü ildə Rusiya Hərbi Elmlər Akademiyasının illik toplantısında baş qərargah rəisi Valeri Gerasimovun səsləndirdiyi konseptual nitqdə ortaya çıxmışdır. (6) Gerasimov çıxışında xüsusilə Orta Şərqdəki hərbi toqquşmalarda müharibə ilə sülh, yaxud da uniformalı personal ilə gizli əməliyyatlar arasındakı fərqin qapandığına dair önəmli örnəklər vermiş, hərbi və qeyri-hərbi vasitələrin paralel istifadə olunduğu təqdirdə daha effektiv nəticələr əldə etməyin mümkünlüyünü irəli sürmüş və qeyri-hərbi vasitələrə siyasi, iqtisadi təzyiq rıçaqlarını, habelə müxtəlif növ kommunikasiya vasitələrini, sivil insanları və digər sahələri aid etmişdir. Gerasimov bu fəaliyyətlərin gizli, yaxud da dolayı yolla inkar olunan hərbi əməliyyatlarla dəstəklənə biləcəyini, hətta sülhü dəstəkləmək adı altında icra edilə biləcəyini vurğulamışdır. Müasir kommunikasiya kanallarından istifadə edilməsinin zəruriliyini özəlliklə diqqət çəkən Gerasimov qeyd edir ki, yerli xalqları peşəkar, lakin gizli hərbi ünsürlərin köməyi ilə ayaqlandırılması hibrid müharibənin vacib xüsusiyyətlərindəndir.

Gerasimov yeni doktrinasının təfsilatını 27 fevral 2013-cü ildə yayımlanan "Ценность науки в предвидении" başlıqlı məqalədə açıqlamışdır. (7) Məqalədə yer alan və Rusiya dövlətinin müasir müharibələri necə təsəvvür etdiyinə dair təməl xüsusiyyətlər aşağıdakı kimi sıralana bilər:

1. Gerasimov hər şeydən əvvəl müharibə ilə sülh arasındakı cizginin kiçildiyini, hətta aradan qalxdığını, müharibələrin artıq elan edilmədən başladıldığını və qeyri-ənənəvi vasitələrlə aparıldığını irəli sürür;

2. Digər önəmli xüsus isə şiddət ehtiva etməyən bəzi yöntəmlərin arzuolunan nəticəyə çatmaqda daha təsirli və effektiv olmasıdır. Buradan hiss olunur ki, Rusiya doktrinası Ərəb baharından ciddi şəkildə etkilənib. Belə ki, hər şeyin normal davam etdiyi düşünülən Ərəb ölkələri bir anda vətəndaş müharibəsinin eşiyinə gəlib çıxmışdı. "Ərəb baharı" hadisələri onu göstərdi ki, strateji hədəflərin gerçəkləşməsində qeyri-hərbi vasitələr daha təsirli olmağa başlamış, hətta hərbi yöntəmlərin önünə keçmişdir;

3. Gerasimov qeyri-hərbi vasitələr qismində siyasi, iqtisadi, bilgi-kommunikasiya, sivil və digər vasitələri sayaraq bildirir ki, bütün bunların hədəf ölkədəki xalqın etiraz gücü ilə paralel istifadə edilməsi faydalı nəticələr doğura bilər. Gerasimov xüsusi olaraq vurğulayır ki, bütün bunların gizli şəkildə real hərbi güclə dəstəklənməsi vacibdir. Lakin hərbi gücə əl atılması yalnız böhranın son fazasında, yekun nəticə əldə etmək məqsədilə (sülhü təmin etmək, yaxud da böhranı aradan qaldırmaq) gerçəkləşdirilə bilər;

4. Bütün güclərin (hərbi, qeyri-hərbi, informasiya-təbliğat, kəşfiyyat və s.) vahid mərkəzdən effektiv şəkildə koordinasiya edilməsi hibrid müharibənin nəticələrini şərtləndirən ən mühüm amillərin başında gəlir. Özəlliklə informasiya sferasında düzgün koordinasiyanın nəticəyə bilavasitə təsir göstərdiyi bəllidir.

Rusiyanın müasir dövrdə müharibə doktrinasının

formalaşmasında təsiri olan şəxslərdən biri olan general Aleksandr Vladimirov “Müharibənin ümumi nəzəriyyəsi” adlı kitabında müharibəni “sosial fenomen” və “milli mövcudluğun vacib bir parçası” kimi dəyərləndirir. Beləliklə, Vladimirov müharibə ilə sülh arasındakı sərhədin ortadan qalxdığını bildirməklə müharibənin milli varlığın davamlı olmasında ən vacib şərtlərindən biri olduğu qənaətini bölüşür. Müharibə və sülh arasındakı çizgi “güvənsizlik” və “müharibə qorxusu” ilə zəngin proseslə xarakterizə olunur. Vladimirovun elmi araşdırmalarını tədqiq edən İsveçli alim Peter Mattsona görə, savaşda hərbi vasitələrdən istifadə ən son zərbənin vurulduğu mərhələdir. Bu mərhələdən əvvəl düşmən ölkənin xalqına, siyasi liderlərinə və sivil toplum quruluşlarına yönəlik informasiya savaş aparılmalı, psixoloji amillər üzərindən təxribatçı hücumlar təşkil olunmalıdır. Əslində müharibə əvvəlki əsrlərdə olduğu kimi heç də vurub-dağıdaraq hansısa bir bölgənin hakimiyyətini ələ keçirmək deyil. Müasir dövrdə müharibə hədəf ölkəni siyasi, iqtisadi və mədəni təsir dairəsinə daxil etmək məqsədini həyata keçirir. Belə olan təqdirdə hərbi güc arzu edilən hədəflərə nail olmaqda ən təsirli vasitə kimi çıxış edə bilmir. Bunun yerinə hədəf ölkədə süni yollarla idarə olunan xaos ortamının təşkilinə daha çox üstünlük verilir. Dolayı və gizli yöntəmlərlə tətbiq olunan siyasi, iqtisadi və mədəni təsir yaratmaq cəhdləri arzu edilən formada cərəyan etdiyi təqdirdə birbaşa hərbi müdaxilələrin də həyata keçirilməsi effektiv ola bilər. Əslində qeyri-ənənəvi müharibə taktikalarından istifadə təcrübəsi Rus akademik dairələrinə çoxdan bəllidir. Yevgeni Mesner (1891–1974) özünün “Müasir müharibənin üzü” (Лик современной войны, 1959), “Üsyan – Üçüncü Dünya Müharibəsinin adı” (Мятеж — имя третьей всемирной, 1960), “Üsyan savaşı” (Мятежевойна, 1971) əsərlərində hələ 50 il əvvəl qeyri-konvensional müharibə texnologiyalarının əhəmiyyətindən bəhs etmişdir. Müharibənin psixoloji effektlərinə vurğu edən Messner düşmən ölkədə sivillərin köməyindən istifadəni strateji məqam kimi dəyərləndirmişdir.

Beləliklə, yuxarıda qeyd olunan fundamental tezislərə söykənərək 26 dekabr 2014-cü ildə Rusiyanın Təhlükəsizlik Şurasının hazırladığı, Prezident Vladimir Putinin təsdiqlədiyi yeni hərbi doktrina qəbul edilmişdir. Doktrinada müasir müharibə ortamı hərbi güclə yanaşı, siyasi-iqtisadi fəaliyyətlər, effektiv informasiya təbliğatı, habelə özəl hərbi qüvvələr, hədəf ölkədəki xalqın cəlb olunduğu qarışıq bir şərait kimi xarakterizə olunur. (9) Rusiyanın yeni hərbi doktrinasında iki təməl müddəa var: Müharibə hər yerdə var və müharibənin məqsədi haranısa işğal etmək yox, arzu edilən effekti əldə etməkdir.

| Əvvəlki doktrina | Yeni doktrina |
|---|---|
| Birbaşa hücum | Birbaşa təsir |
| Düşmənin məhv edilməsi | Düşmənin içəridən çökdürülməsi |
| Silahlarla savaş | Kültürəl savaş |
| Konvensional güclər | Özəl güclər və hədəf ölkə daxilindəki müxalif qrupların istifadə olunması |
| Birbaşa təmas | Təmassız savaş |
| Seqmentli müharibə | Düşmənin bütün sistemlərinin hədəf seçilməsi |
| Fiziki mühitdə savaş | Fiziki ortama əlavə olaraq insan zehninin və kiber mühitin hədəf alınması |
| Simmetrik təsirlərə üstünlük verilməsi | İqtisadi, siyasi, informasiya, texnoloji müstəvidə assimmetrik təsirlərdən istifadə olunması |
| Müəyyən bir zaman kəsiyində davam edən savaş | Bir ölkənin həyatında davamlı olaraq gedən və təbii bir hala çevrilmiş müharibə |

Rusiya dövlətinin yeni və əvvəlki hərbi doktrinasındakı fərqləri aşağıdakı kimi təsnifləndirə bilərik:

Rus məşhur hərb nəzəriyyəçiləri Tçenikov və Boqdanov Rusiya Müdafiə Nazirliyinin yaydığı sənədləri və digər müvafiq sənədləri tədqiq edərək yeni nəsil müharibələrin nələri ehtiva etdiyini və necə icra ediləcəyini ortaya qoymuşdur. Onların tədqiqat işlərinə əsasən, Rusiyanın perspektivində hibrid müharibənin aşağıdakı aşağıdakı 8 fazadan ibarət olduğu göstərilir:

1. Müasir müharibələr münaqişənin həlledici məqamından ən azı bir ay əvvəl start götürməlidir. (Bu müddət bir neçə ay, hətta bir neçə il də götürülə bilər) İlkin mərhələdə psixoloji, ideoloji, diplomatik və iqtisadi sferaları əhatə edən qeyri-hərbi assimmetrik vasitələrdən istifadə olunur. Bu mərhələ hərbi əməliyyatlara başlamaq üçün əlverişli şərait formalaşdırır;

2. Hədəf ölkənin siyasi və hərbi rəhbərliyinin diqqətini real məqsəddən yayındırmaq üçün xüsusi əməliyyatlar həyata keçirilir. Diplomatik kanallar, media və ayrı-ayrı dövlət strukturları tərəfindən yüksək səviyyəli koordinasiya həyata keçirilir. Bu mərhələdə kiber hücumların təşkili də mümkündür. Hədəf ölkənin əhalisi və hərbi qüvvələrinə yönəlik çirkli informasiya təbliğatı aparılır. Burada məqsəd ölkədə xaotik vəziyyət yaratmaq, cəmiyyəti ruh

düşkünlüyünə sövq etmək və hakimiyyətin situasiyaya nəzarəti itirməsinə nail olmaqdır. Hücum edən tərəf həmşinin genetik mühəndislik nümunəsi olan bioloji silahlardan da istifadə edə bilər;

3. Hücum edən tərəf düşməni qorutmağa və aldatmağa çalışır. Hədəf ölkənin rəhbərliyi şantaj və rüşvət yolu ilə xidməti vəzifələrindən imtina etməyə məcbur edilir. Cəmiyyəti manipulyasiya etməklə onun davranışlarını dəyişdirir. Cəmiyyətin narazı, qane olmayan təbəqəsi isə izolyasiya edilir;

4. Gizli xüsusi xidmət orqanları vasitəsilə cəmiyyətdə istiqrarsızlıq yaradılması istiqamətində təbliğat aparılır. Burada məqsəd insanlar arasında narazılığı artırmaq, onları qanunsuz addımlar atmağa sövq etmək, xaos, panika yaratmaq və cəmiyyətdə itaətsizlik şəraitini formalaşdırmaqdır. Həmin agentlər təşkilatçı ölkələr tərəfindən maddi, hərbi və digər maddi resurslarla təmin olunurlar;

5. Özəl (ödənişli) hərbi qüvvələrdən və hədəf ölkədəki silahlı müxalif qruplaşmalardan istifadə edərək uçuşa yasaq zona, dəniz və qurudan blokada şəraiti yaradılır;

6. Hərbi əməliyyatların başlanğıcında informasiya müstəvisində kəşfiyyat və diversiya fəaliyyəti həyata keçirilir. Zərbələrin hədəfini dəqiq müəyyən etmək üçün casuslardan, aerokosmik imkanlardan istifadə olunur;

7. Raket zərbələri düşmənin açar əhəmiyyətli obyektlərinə, o cümlədən strateji sənaye müəssisələrinə, kommunikasiya mərkəzlərinə və hərbi obyektlərə endirilir. Su, enerji və ərzaq təchizatının ciddi zədə görməsi düşməni təslim olmağa vadar edir. Hərbi əməliyyatların dəqiqliklə icra olunmasına dəstək olmaq məqsədilə yeni nəsil robotlardan geniş istifadə olunur;

8. Yekun fazada düşmənin ən son müqavimət nöqtələri zərərsizləşdirilir. (10)

Əlbəttə, bu strategiyanın bütün müasir müharibələrdə qeyd olunan ardıcıllıqla davam etməsi şübhəlidir. Amma hədəf ölkələrə münasibətdə tətbiq olunan hibrid müharibə texnologiyalarının əsasən yuxarıdakı ardıcıllıqlara söykəndiyini deyə bilərik. Xüsusən Ukraynada baş verən hadisələrin sinxronluğu yuxarıdakı konseptual ardıcıllığa söykənirdi. Tçenikov və Boqdanov hesab edirlər ki, yerüstü komponentlər olmasa, yeni nəsil müharibələrdə nailiyyət əldə etmək olduqca çətinləşir. Həmçinin hərbi birləşmələr ən yüksək dəqiqlikli raketlər və radio-elektron silahlarla təchiz olunmalıdır. Adı çəkilən hərb nəzəriyyəçiləri hesab edirlər ki, hərbi əməliyyatlar arzuolunan nəticələri vermədikdə Rusiya Federasiyası düşmən ölkənin ərazisində nüvə silahından istifadə edə bilər. (10)

Rusiya hərb nəzəriyyəçilərinin tezislərində ana xətt ondan ibarətdir ki, müasir münaqişələrdə tərəflərdən biri o biri üzərində informasiya üstünlüyü əldə edə bilmədiyi təqdirdə müharibəni qələbə ilə yekunlaşdıra bilməz. Əsasən "Ərəb baharı" prosesindən təsirlənən Rusiyanın hərbi ekspertləri yaşadığımız çağı yüksək texnologiyalar əsaslı müharibə əsri kimi xarakterizə edirlər. Onların fikrincə, 1990-cı illərin əvvəllərində İraqa qarşı aparılan Körfəz müharibəsi yüksək texnologiyalar əsrinin ilk müharibəsi hesab oluna bilər. Yarım milyon şəxsi heyəti və kifayət qədər inkişaf etmiş hərbi hava qüvvələrinə malik İraq ordusunun iki həftə ərzində pərən-pərən düşərək rüsvayçı məğlubiyyətə uğraması ənənəvi müharibə strategiyalarının artıq işləmədiyini göstərirdi.

Nəzəri-fundamental yanaşmalar onu ortaya qoyur ki, hibrid müharibə Rusiya dövlətinin perspektivindən hədəf ölkədə dövlət orqanlarının fəaliyyətinin iflic edilməsinə və daxili sabitliyin pozulmasına hədəflənmiş çox səviyyəli cəhdlərin məcmusudur. Konvensional müharibələrdən fərqli olaraq yeni nəsil müharibələrin əsas ağırlıq mərkəzi əsasən cəmiyyətlə üzərində fokuslanmışdır. Beləliklə, Rusiyanın hibrid müharibə təsəvvürü ən müxtəlif vasitələrlə insanların beyninə təsir etmək mexanizminə söykənir. Nəticə etibarilə hibrid müharibələrin yekun hədəfi düşmənin strateji əhəmiyyət daşıyan həm sivil, həm də hərbi təsisatlarının psixoloji faktorlardan istifadə edərək qeyri-ilək vəziyyətə gətirilməsidir. Ənənəvi hərbi vasitələr isə müharibə ən son fazasında tətbiq olunur.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Martin Van Creveld: The Transformation of War: The Most Radical Reinterpretation of Armed Conflict Since Clausewitz, Free Press, (1991).*

*2. Frank Hoffman, "On Not-So-New Warfare: Political Warfare vs Hybrid Threats" https://warontherocks.com/2014/07/on-not-so-new-warfare-political-warfare-vs-hybrid-threats/*

*3. Peter R. Mansoor, "Introduction: Hybrid Warfare in History", Williamson Murray ve Peter R. Mansoor (der.), Hybrid Warfare: Fighting Complex Opponents from the Ancient World to the Present, New York, Cambridge University Press, 2012.*

*4. Sascha-Dominik Bachmann, Håkan Gunneriusson, "Hybrid Wars: The 21st Century's New*

*Threats to Global Peace And Security", Scientia Militaria - South African Journal of Military Studies, Vol. 43 Num. 1, 20 may 2015.*

*5. Mark Landler ve Michael R. Gordon, "NATO Chief Warns of Duplicity by Putin on Ukraine", The New York Times, 8 iyul 2014. https://www.nytimes.com/2014/07/09/world/europe/nato-chief-warns-of-duplicity-by-putin-on-ukraine.html*

*6. Roger McDermott, "Gerasimov Unveils Russia's 'Reformed' General Staff ". http://www.jamestown.org/single/?tx_ttnews[tt_news]=41951&no_cache=1#.VghFNZc-49k*

*7. Герасимов Валерий, "Ценность науки в предвидении". https://www.vpk-news.ru/articles/14632*

*8. Peter Mattsson, "Russian Military Thinking - A New Generation of Warfare", Journal on Baltic Security, Cild 1, No.1, 2015, s.61-70*

*9. https://www.washingtonpost.com/news/monkey-cage/wp/2015/01/15/russias-new-military-doctrine-same-as-the-old-doctrine-mostly/?arc404=true*

*10. The Nature and Content of a New-Generation War. Military Thought. 03.07.2015 https://pdfs.semanticscholar.org/c887/4593b1860de12fa40dadcae8e96861de8ebd.pdf?_ga=2.233030110.1323214074.1595246427-1052918900.1595246427*

**Açar sözlər:** *Yeni nəsil müharibələr, hibrid müharibə, assimmetrik müharibə, psixoloji savaş, Gerasimov doktrinası.*

**New generation wars at the theoretical and conceptual framework and the Russian approach**

**Jeyhun Ahmadli,**
**Baku State University, P.h.D candidate**

**ABSTRACT**

In the XXI century, the rapid development of information and communication technologies, as in every field, led to revolutionary changes in the nature of wars. Classical theories can no longer explain the nature of modern wars. We live in a time that it is almost impossible to find the border between peace and war. In modern times, we see wars that are not declared. Without in-depth analysis it is very difficult to determine whether different countries are living in a state of war or peace with each other. Proxy wars, widespread use of the media and the Internet, benefiting from the assistance of special military units, and other factors created conditions for nation-states to disguise the direct participation in wars. The purpose of writing the article is to present a theoretical and conceptual view of the new generation of wars and look at the Russian experience in this context.

**Key words:** *New generation war, hybrid warfare, asymmetric war, psychological warfare, Gerasimov doctrine.*

**Теоретико-концептуальный обзор войн нового поколения и подход России**

**Джейхун Ахмадли,**
**Бакинский Государственный Университет, докторант**

**Ключевые слова:** *Война нового поколения, гибридная война, асимметричная война, психологическая война, доктрина Герасимова.*

UOT 327.56

# KİPR PROBLEMİNDƏ TÜRKİYƏ-YUNANISTAN MÜNASIBƏTLƏRİ
## Enozis, Qanlı Milad.

**LEYLA NƏBİYEVA**
*Bakı Dövlət Universiteti,*
*Asiya və Afrika Ölkələri tarixi kafedrasının doktorantı*

*E-mail: Leyla_88@yahoo.com*

Türkiyə və Yunanıstan arasında başlamış olan Kipr problemi Türkiyə üçün həll edilməsi çətin olan məsələlərdən olmuşdur. Kipri Yunanıstanın bir parçası halına gətirmək (Enozis) və orada yaşayan türklərin yox edilməsi, hətta bir gecədə yox edilməsi düşüncəsi Yunanıstanın və Kiprdə yaşayan rumların əsas ideallarından biri olmuşdur. Kiprdə rumlar bu ideyalarını gerçəkləşdirmək üçün 1963-cü ildə türklərə qarşı qətliam törətdilər ki bu da tarixə Qanlı Milad adı ilə yazıldı. Bu hadisə türklərə qarşı düşmənliyi ilə tanınan baş yepiskop Makarios zamanında vaş verdi.

Qanlı miladın törədilməsində 1950 və 1960-cı illərdə Türkiyə ilə Yunanıstan arasında imzalanmış anlaımaya əsasən yaranmış olan Kipr Cümhuriyyətini yox etmək, Enozisi bir an əvvəl həyata keçirmək, Kipr məsələsinin BMT-də müzakirə edilməsinə nail olmaq və Türkiyənin Kipr adasında mövqeyini zəiflətmək məqsədi güdürdü.

Bu yazıda Kipr adasında çıxmış olan problemlər zamanı Türkiyə ilə Yunanıstan arasında olan münasibət, Enozisə Türkiyənin və böyük düvlətlərin reaksiyaları və türklərə qarşı Qanlı Miladın törədilməsi məqsədləri araşdırılacaqdır.

Kipr Siciliya və Sardiniya adalarından sonra Şərq meredianları arasında yer alan ən böyük üçüncü adadır. Bunun üçün də bütün tarix boyu Şərqi Aralıq dənizi və onu çevrələyən dövlətlərin və buradan keçən Şərq-Qərb, Şimal-Cənub istiqamətli dəniz və quru ticarət yollarının idarəsi baxımından çox əhəmiyyətli bir geopolitik və stratejik önəmə sahib olmuşdur. Bu coğrafi vəziyyəti Kipr adasına çox önəm qazandırmışdır ki, bu da tarix boyu böyük güclərin Kipri qazanmaq üçün mübarizə aparmalarına səbəb olmuşdur [9, s.41]. Kipr Orta Şərq və Şərqi Aralıq dənizi, Süveyş bu bölgədən keçən bütün dəniz və hava yollarını Qırmızı dəniz ilə Fars körfəzini nəzarət altında tuta biləcək strateji mövqeyə sahibdir [13, s.3]. Roma, Osmanlı imperiyası və Böyük Britaniya kimi dövlətlərin Aralıq dənizinin üçüncü böyük adası olan Kiprə xüsusi diqqətləri olmuşdur. Osmanlı dövləti 1 iyul 1570-ci il 1 avqust 1571-ci illər arasında çox çətin müharibə nəticəsində Kipri fəth etmiş və ada 308 il (1571-1878) Osmanlı hakimiyyətində qalmışdır [10, s.270]. 1877-78-ci illər Rus-Osmanlı müharibəsində türklərin böyük torpaqlar itirməsini İngiltərə özünə təhlükə olaraq gördüyü üçün Berlin kongresini toplamış və burada 1878-ci ildə imzalanmış olan Berlin anlaşmasına görə, Kipr adası müvəqqəti olaraq İngiltərəyə verildi və İngiltərə Kiprə yerləşdirəcəyi hərbi qüvvə ilə rusların Anadoluya hər hansı bir hücumu zamanı Osmalıya yardım etməyi öz üzərinə götürdü [17, s.34].

1923-cü il Lozan anlaşmasına görə Türkiyə İngiltərənin adanı təktərəfli işğalını tanımaq məcburiyyətində qaldı. 10 mart 1925-ci ildə isə Kipr Tac Koloniyası adlandırılmışdır. 1878-1960-cı illər arasında Kipr adasında davam etmiş İngilis hakimiyyəti dövründə burada yalnız rum xalqının mənafeyi qorunmuş, burada yaşayan türk xalqı isə daima fədakarlıq göstərən tərəf olmuşdur [7, s.52].

İngiltərə Hind və Aralıq dənizinə kontrol etmək məqsədilə Kipri ələ keçirməyi uzun müddət idi ki, planlaşdırırdı. Bu məqsədinə nail olmaq fürsətini 1877-1878 Osmanlı- Rus müharibəsindən sonra ələ keçirdi. 1878-ci ildə Rusiyanın Osmanlı İmperiyasını məğlub etməsi və türklərin

böyük torpaq sahəsə itirməsini öz mənafeyinə uyğun olmadığını görən İngiltərə Osmanlını bu vəziyyətdən çıxarmaq məqsədilə Ayastefanos anlaşmasının türklərin xeyrinə dəyiıdirilməsi üçün Berlin konqersinin yenidən toplanmasını istədi. 1878- ci ildə imzalanan Berlin anlaşmasına görə, Kipr adası müvəqqəti olaraq İngiltərəyə verildi və İngiltərə rusların hər hansı hücumu zamanı Osmanlıya yardım edəcəkdi [17, s.34]. Kipr 1878-ci ildə İngiltərə ilə Osmanlı arasında Türkiyəni rus hücumundan qorumaq məqsədi ilə imzalanmış olan Konvensiya ilə Türklərin əlindən tamamilə çıxdı [19]. Bu tarixdən sonra Osmanlı hökumətlərinin əsas siyasəti orada olan türklərin mənafelərini qorumaq oldu. Yunanlar isə Enosis (birləşmə: Yunanıstanın Kipri özünə birləşdirmə ideyası) üçün təyziqlər edirdilər [8]. Enozisin mənası rumca ilhaq etmək deməkdir və Meqali İdea (Megalo idea böyük fikir ) xəritəsinin çəkildiyi gündən etibarən gündəmdədir [1, s.43]. Meqali İdea Bizansın aradan götürülərək, içində Kipr adasının da olduğu bütün yunanları və tarixdə yunanlara aid olduğu hesab etdikləri bütün torpaqların bir bayraq altında toplanmasini və Böyük Yunanıstan qurulmasını nəzərdə tuturdu. Bu xəritə 1791-ci ildə çəkilməyə başlanılıb 1796-cı ildə çap edilmişdir [2, s. 4-7].

12 iyul 1878-ci ildə Kiprin idarəsinin keçici olaraq İngiltərə ələ aldığı zaman kiprli rumlar Yunanıstanın baş yepiskopu Sofraniyosun başçılığı ilə “adanın idarəsinin dəyişməsini qəbul edirik, çünki digər Yunan adalrı kimi Kiprin də, milli baxımdan bağlı olduğu Yunanıstana verilməsinə İngiltərənin yardım edəcəyini bilirik. ”deyərək Enozis fikirlərini açıqca bəyan etdilər [2, s. 6].

1907-ci ildə ingilis müstəmləkələri nazirliyi məsləhətçisi Uinston Çörçilin Kipri ziyarəti ərəfəsində kiprli rumlar adanın Yunanıstana birləşdirilməsini ondan tələb etdilər. O isə Kiprin Yunanıstan ilə heç bir əlaqəsinin olmadığını və rumların da yunanlı olmadıqlarını, eyni zamanda adanın İngiltərəyə verildiyini əsas gətirərək bu tələbi rədd etdi [2, s.8].

1950-ci il 18 oktyabrda Makarios Kipr Ortodoks kilisəsinin baş yepiskopu seçildi. O, kiprli rumların Enozis sevdalarını daha da alovlandıraraq “Enozisi həyata keçirənə qədər mənə rahat yoxdur” deyə öz çıxışında bildirmişdi [15, s. 61]. Makarios 25 aprel 1952-ci ildə dəfələrlə Yunanıstan ziyarətləri etmiş və nəhayət Yunanıstan baş naziri Papaqosu Kipr məsələsənin BMT-yə çıxarılmasına razılıq verməsinə nail olmuşdu. Beləliklə Yunanıstan BMT-də Kipr xalqına özü öz müqəddəratını həll etmək, özü özünü idarə etmək (self determination) haqqı verilməsini istəyən tələbin gündəmə gətirilməsini istəmişdir və bununla da Enozis üçün daha fərqli bir qapı açılmışdır [14, s. 765-796].

23 Mart 1954-cü ildə Yunanıstan Kipr məsələsinin BMT-də müzakirə edilməsinə nail oldu. BMT siyasi komissiyası Yunanıstanın bu tələbini incələdikdən sonra qəbul edilməsi haqqında qərar çıxardı.Bu qərardan sonra Türkiyə baş naziri Adnan Menderes Kipr məsələsinin bağlandığını bildirdi. Lakin Yunanıstan bu mövzuda heç bir zaman onunla razılaşmadı [4, s. 19-20]. Bundan sonra Kiprdə mütəmadi olaraq türklərə qarşı hücumlar, təkidlər və təxribatlar başladı. Türklər hər yerdə təqib və narahat edilirdilər.

1959-cu ildə Yunanıstan və Türkiyə xarici işlər nazirləri əvvəlcə Parisdə sonra isə Sürixdə toplanaraq Kiprə müstəqil Cümhuriyyət verilməsini müzakirə etdilər. Bunun nəticəsində Türkiyə baş naziri A. Menderes və Yunanıstan baş naziri Karamanlis qərara gəlmiş və anlaşma imzalamışlar. Bu anlaşma 27 maddədən ibarət idi və 11 fevral 1959-cu ildə Sürixdə imzalanmışdır. Bundan sonra 19 fevralda edyni şəkildə Londonda toplanmış və bu səfər türk rum təmsilçiləri də bu anlaşmanı imzalamışdılar. Beləliklə Kiprdə Cümhuriyyət qurulmasını təsdiqləyən London və Sürix anlaşmaları İngiltərənin adada olan mənafelərini qorumağa kömək etdi [7, s. 734-735]. Bu anlaşmalardan sonra Kipr Cümhuriyyəti Konstitusyası və konstitusiyanın bir parçası olan Qarantiya və İttifaq andlaşmaları da imzalanmışdır. Bu gündən sonra Kipr müstəqilliyini elan etdi və beləlikə Yunanıstan Enozis Türkiyə isə Taksim istəklərindən əl çəkmiş oldurlar. 20 sentyabr 1960-cı ildə Kipr BMT-nin üzv dövləti oldu [14, s. 772].

Kipr cümhuriyyət aldıqdan sonra burada türklərə qarşı şiddətlər başladı ki, bunun da başında Makarios dururdu. Makarios konstitusiyada türklərə veto haqqının verilməsi ilə razılaşmır, o maddənin ləğv olunmasını tələb edirdi. Türkiyədə 1960-cı il 17 may hadisələri cərəyan etdiyi üçün

ölkənin bütün diqqəti bu hadisələrə yönəlmişdi. Lakin Makariosun bu tələbinə laqeyd qalınmadı və sərt bir nota ilə bu tələb rədd edildi, ancaq o, bu rəddi qəbul etmədi. Bu zaman Makariosa İngiltərə və Yunanıstandan əks cavab gəlmədi. Buna baxmayaraq Makarios konstitusiyanı dəyişdirmək məqsədinə nail olmadı və çoxdandır hazırlamış olduğu Akritas planını həyata keçirməyə başladı. 21 dekabr 1963-cü ildə Qanlı Milad adı ilə tarixə yazılmış olan, türklərə qarşı hücumlar başladı. Bu hücumlar Enozis çağırışları ilə həyata keçirilir və Kiprdə yaşayan türklərə qarşı edilirdi. Bu hadisələr zamanı uzun illərdir düşünülən türklərin qətliamı reallaşdırılırdı [16, s.198]. Bu hadisələr EOKA adlı təşkilat altında həyata keçirilirdi. EOKA Kiprin Yunanıstana birləşdirilməsini istəyən yunanlar tərəfindən 1955-ci ildə qurulmuş bir təşkilatdır. Qanlı miladın törədilməsində, adanın bütün hər yerində bombalı hücumlar edilərək, pusqular qurularaq, insanları öldürərək təxribatların törədilməsində əsas məqsəd Kiprin Yunanıstana birləşdirilməsi idi.

Qanlı milad hadisələrində bir çox türk qətlə yetirilmiş, evləri dağıdılmışdır. Bu hadisələrin törədilməsində əsas məqsədlərdən biri də, adada yaşayan türk ailələrini qorxutmaq və Kiprdən köç etməyə məcbur etmək idi. Çünki adada nə qədər az türk olarsa Enozisi həyata keçirtmək bir o qədər asan olacaqdı.

Qanlı milad hadisələri zamanı Makarios poçt, TV və radioları ələ keçirərək burada olan hadisələrin dünyaya çatdırılmasının qarşısını almışdı, özü isə dünya mətbuatına qanlı milad hadisələrini türklərə olan hücum olaraq yox, türklərin özlərinin çıxartdıqları qiyam olaraq qələmə verirdi. Bu hadisələr zamanı Türkiyə Qaranti anlaşmasına əsasən 25 dekabr 1963-cü ildə Lefkoşa səmalarında xəbərdarlıq uçuşları etmək üçün hərbi təyyarələrini göndərdi [14, s.780].

1963-cü il 23 dekabrda yunanların türklərə hücum etməsi ilə arada olan münasibətlər qanlı qarşıdurmaya çevrildi. Türkiyə bu vəziyyətə müdaxilə etmək məcburiyyətində qaldı. ABŞ ilk əvvəl bu vəziyyətə müdaxilə etmək istəyində deyildi. Həmin vaxtlarda İsmət İnönü ABŞ-ı bu hadisələrə daxil etmək üçün cəhdlər göstərsə də o vaxt ABŞ xarici işlər naziri Dean Rusk bu mövzuda ABŞ tərəfsizdir deyə bildirmişdir. Sadəcə Rusk türk və yunan səlahiyyətli nümayəndələrinə bu vəziyyətdə ölkələrinə göstərilmiş olan hərbi yardımlardan Amerika dövlətini xəbərdar etmədən istifadə edilməməsi xəbərdarlığını etmişdir. 1963-cü il 25 dekabrda Türkiyə qırıcıları adanın üzərindən xəbərdarlıq uçuşları etməyə başladılar. Bundan sonra İngiltərə, Yunanıstan və Kipr adına Makarios adada barış məqsədli İngilis generalının rəhbərliyində bir güc yaradılmasını qəbul etdi. Bu dönəmdə ABŞ hələ də tərəfsizliyini davam etdirirdi. 1964-cü ildə İnönü ABŞ səfiri Raymond Harreyə ABŞ-ın adada olan vəziyyətə bir qarantiya verməyəcəyi təqdirdə adadakı hadisələrə Türkiyənin müdaxilə edəcəyini bildirdi. Yalnız bu xəbərdarlıqdan sonra ABŞ istəksiz olsa da adada olanlara müdaxilə etmək qərarına gəldi [12, s. 108].

Qanlı Milad hadisələri BMT təhlükəsizlik toplantısında müzakirə edildiyi zaman Yunanıstan nümayəndələri Makariosu dəstəkləyən çıxışlar etdilər və beləliklə onun törətmiş olduğu cinayətləri örtbasdır edərək ona şərik oldular. Eyni zamanda 27 fevral 1964-cü ildə Yunanıstan baş naziri Yargo Papandreou Makariosa onu dəstəklədiyi haqqında məktub da göndərdi [2, s. 69].

Türklərin xəbərdarlıq uçuşlarından sonra Kiprdə atəşkəs elan edildi, lakin rumlar atəşkəsi qorumayıb yenə türklərə hücumlar edir onları qovmaq üçün hər cür yollara əl atırdılar. Bu səbəbdən Türkiyə adada asayişi qorumaq məqsədilə artıq hərbi təyyarələrini və hərbi gəmilərini oraya göndərdi. Bundan sonra 17 fevral 1964-cü ildə BMT baş katibi U Tan iki tərəf arasında vasitəçi olmağı öz öhtəsinə götürdü və münasibətlərin düzəlməsi üçün işlər başladı.

Türklərin yox edilməsi və Kipr adasından tamamilə çıxarılmasına yönəlmiş olan Qanlı milad hadisələri nəticəsində 103 türk kəndi məv edilmiş, yüzlərlə türk öldürülmüş, 7500 nəfər yaralanmış və 25000 nəfər qaçqın düşmüşdür [2, s.69].

Türkiyənin adada olan hadisələrə qarşı artıq səbri qalmadı və hərbi müdaxilələr etməyə başladı. Bundan sonra Amerika Birləşmiş Ştatları prezidenti Conson Türkiyə baş naziri İsmət İnönüyə bir məktub göndərdi [18]. Məktubda Türkiyənin Kiprə müdaxilə edəcəyi təqdirdə Amerikan yardımları ilə Türkiyəyə verilmiş olan hərbi

sursatın istifadəsinə Amerikan hökuməti tərəfindən icazə verilməyəcəyi bildirilirdi. Eyni zamanda Türkiyənin Kiprə müdaxiləsi zamanı Sovetlər də hərəkətlənərək müdaxilə edə biləcəyi və bu təqdirdə NATO müttəfiqlərinin Türkiyəyə heç bir yardım etməyəcəyi açıq şəkildə qeyd olunurdu. Bu təhdid dolu məktuba İsmət İnönünün də cavabı sərt oldu. Məktubda qeyd olunurdu: Məktubunuz illər boyu ABŞ ilə münasibətlərinə diqqət göstərən ölkəmiz üçün bir xəyal qırıqlığı olmuşdur [11,]. NATO anlaşması üzv dövlətlərdən birinin hər hansı təcavüzə məruz qalması təqdirində digərlərinin ona yardım etməsi məqsədi ilə qurulmuşdur. Əgər digər dövlətlər Sovet hücumuna məruz qalmış ölkənin bu vəziyyətə necə gəldiyini araşdırıb nəticəsinə görə qərar verəcəklərsə bu o deməkdir ki, NATO ittifaqının bünövrəsi sarsılmış və o ittifaqın heç bir mənası qalmamışdır [5, s. 279-280]. Bu hadisədən sonra Türkiyə-ABŞ arasında olan münasibətlərdə də bir müddət soyuqluq başladı.

Nəticə etibarilə bütün dünyada Qanlı milad hadisələri kimi bilinən, 21 dekabr 1963-cü ildə başlanan hadisələrdə yüzlərlə türk həlak oldu, minlərlə türk ailəsi yaşadıqları yerləri tərk etmək məcburiyyətində qaldılar. Bu hadisələr zamanı Yunanıstanın Makariosun törətdiyi əməlləri dəstəkləməsi ilə əvvəldən də yaxşı olmayan Türkiyə Yunanıstan əlaqələri daha da pisləşdi. Yunanıstanla yanaşı bu hadisələr Türkiyə ABŞ münasibətlərinə mənfi təsir göstərdi və Türkiyənin adadakı hadisələrə müdaxilə etməsinin qarşısını almaq məqsədilə göndərilmiş olan Conson məktubu ilə uzun müddət düzəlməyəcək qədər pisləşdi. Meqali ideyanı həyata keçirmək üçün hazırlanmış olan Akritas planı və 1963-cü il Qanlı Milad hadisələri törədildi. Bu hadisələr Yunanıstanın Türkiyəyə qarşı olan düşmənliyini hansı həddə qədər gələ biləcəyinin bir sübutu idi.

KKTC-nin qurucusu sayılan Rauf Raif Denktaş öz yazısında Kipr probleminin indiyə qədər həllinin tapılmamasına səbəb olaraq Rum-Yunan birliyinin bütün adaya sahib olmaq sevdasını unutmamaları olduğunu bildirmişdir. O eyni zamanda Kiprin heç bir zaman Yunanıstana aid olmadığını və burada sadəcə sayca daha çox rum yaşayır deyə onların olduğunun iddia edilməsinin yanlış olduğunu söyləmişdir [6, s. 21].

**Açar Sözlər:** *Kipr, Türkiyə, Yunanıstan, Enozis, Qanlı Milad, BMT.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Adıyeke A. N., Geçmişten bu güne Kıbrıs sorunu ve Türkiye. 9. Askeri tarih semineri bildirileri 1, 22-24 Ekim 2003, İstanbul, 2005.*

*2. Alasya H. F., Kuzey Kıbrıs Türk Cümhuriyyeti tarihi, Ankara, 1987, Türk Kültürü araştırma enstütüsü yayın evi.*

*3. Alasya H. F., Kıbrıs ve Rum Yunan emelleri, Lefkoşa- Kıbrıs, 1992.*

*4. Aydınoğlu A., Kıbrıs sorunu Çözüm arayışları-Annan Planı ve Referendum süreci, Ankara, 2005.*

*5. Çiftçi K., Türk dış politikası, Ankara: Aiyasal kitab evi, 2010.*

*6. Denktaş R.R., Son Çağrı, İstanbul, 2007.*

*7. Edibali A., Türkiyenin Kıbrıs Politikası Ne Omalısıd, İstanbul,1974.*

*8. Gazioğlu A. C., Kıbrıs Tarihi: İngiliz dönemi (1878-1960), Mersin: 1997*

*9. Gürsoy C., Coğrafya bakımından Kıbrıs ve Türkiye // Milletlerarası birinci Kıbrıs Kongresi (14-19 nisan 1969) Türk Heyeti Tebliğleri, Ankara: 1971, Türk kültürünü araştıma vakfı,yayımları No.36.*

*10. Hill G.H., A history of Cyprus, c. IV, New York: Cambridge Universty Press, 1952.*

*11. İnönünün Johnsona cevabı. "Milliyet qəzeti" İstanbul: sayı 6517, 14 Yanvar 1966*

*12. Keser Ü.,21 aralık 1963 kanlı noel, kumsal faciası ve bugüne yansımaları, Çağdaş Türkiye Tarihi Araştırmaları dergisi, No:22, İstanbul 2011 ss.93-121s.108*

*13. Olgun A., Kıbrıs Gerçeği (1931-1990(, Ankara, 1991.*

*14. Özkan A., Kanlı Noel Oayı ve BM de Kıbrıs Sorununda Türkiye Arnavutluk desteği, İnternational journal of science, 2013, vol. 6.*

*15. Özakman T., Çılgın Türkler- Kıbrıs, Ankara, 2012.*

*16. Tayhani İ., Türk Mukavemet Teşkilatına Giden Yol//Kıbrıs Milli Mücadelesi ve Bu Mücadelede TMT-nin yeri, uluslararası sempozyum (19-25 Ekim) bildiriler, cilt I, Lefkoşa KKTC, 2009*

*17. Uçarol R., 1878 Cyprus Dispute and The Ot-*

*toman- British agreement, Lefkoşa*

*18. Yürek A. C., Johnsonun mektubu, Hürriyet qəz. 13 Yanvar 1966*

*19. http://www.tarihbilimleri.com/kibris-adasi-nin-gecici-olarak-ingiltereye-devri-1878.html*

**THE TURKISH-GREECE RELATIONSHIP DURING CYPRUS PROBLEM ENOSIS, BLOODY CHIRSTMAS**

**SUMMARY**

**Leyla Nabieva**

The interest of imperialist countries always comprises Turkey because of its geographical and strategic location. The imperialist states which are unwilling to see a very powerful Turkey have targeted to create lots of inner and outsider problems for Turkey. The created Cyprus problem between Turkey and Greece was one of such problems.

The thought of having Cyprus become a part of Greece (Enosis) and killing all Turks who have been living in Cyprus constituted ona of the most crucial elements of Greece's Megali İdea. To realize this idea especially during the period of Makarios, the Greek Cypriots killed the Turks by the end of 1963. This event has passed as Bloody Christmas Events in the history.

**Key words:** *Cyprus, Turkey, Greece, Enozis, Booldy cristmas, UN.*

**ТУРЕЦКО-ГРЕЧЕСКИЕ ОТНОШЕНИЯ В ПРОБЛЕМЕ КИПРА ЭНОСИС, КРОВАВАЯ РОЖДЕСТВО**

**РЕЗЮМЕ**

**Лейла Набиева**

Национальный интерес империалистических стран всегда включает Турцию из-за ее географического и стратегического положения. Империалистические государства, которые не хотят видеть очень сильную Турцию, стремились создать множество внутренних и внешних проблем для Турции. Созданная кипрская проблема между Турцией и Грецией была одной из таких проблем.

Мысль о том, чтобы Кипр стал частью Греции (Эносис) и убить всех турок, которые жили на Кипре, являлась одним из важнейших элементов Мегалийской идеи Греции. Чтобы реализовать эту идею, особенно в период Макариоса, киприоты-греки убили турок к концу 1963 года. Это событие прошло как Кровавое Рождество в истории.

**Ключевые слова:** *Кипр, Турция, Греция, Эносис, Кровавое Рождество, ООН.*

UOT 328;342.5;351/354

# AZƏRBAYCAN RESPUBLİKASINDA İNNOVATİV DÖVLƏT QULLUĞU SİSTEMİNƏ KEÇİD PROSESİNİN XÜSUSİYYƏTLƏRİ

**HƏMDULLA MƏMMƏDOV**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının dissertantı*
*Email: hamdulla.mammadov@gmail.com*

## Giriş

İldən ilə yeniləşən müasir dövlət qulluğu sahəsində dövlət qulluqçularının şəxsi kreativlik potensialı (psixoloji faktor) və effektiv idarəetmə innovasiyalarına yiyələnməyə hazırlıq səviyyəsi (administrativ faktor) olduqca əhəmiyyətli rola malikdir. Dövlət qulluğu sistemlərində innovasiya proseslərinin əhəmiyyəti getdikcə daha da artmaqdadır. Dövlət quluğu sahəsində yüksələn dinamika yeni innovasiyaların tətbiq olunmasını labüd edir. Təbii ki, sözügedən sahədə innovasiyaların tətbiqi zamanı daha qabaqcıl İKT texnologiyalarının tətbiqi vacib əhəmiyyət kəsb edir. Çünki müasir dövr üçün innovasiya sayılabiləcək addımlar bütünlüklə elektronlaşdırma müstəvisində həyata keçirilir. Demək olar ki, hər sahədə müsbət dünya təcrübəsinin tətbiq olunduğu Azərbaycan Respublikasında da dövlət qulluğu sisteminin müasirləşdirilməsi istiqamətində xüsusi innovasiyalar tətbiq olunmaqda və bu özü ilə qlobal miqyasda əks-səda doğurdan nailiyyətlər gətirməkdədir.

## Dövlət qulluğunda innovasiyalar: beynəlxalq təcrübə

XX əsrin 50-ci illərindən başlayaraq, dünyanın bir sıra qabqcıl ölkələri dövlət qulluğu sistemində xüsusi innovasiyaların tətbiq edilməsi ilə bu məsələdə yüksək keyfiyyət dəyişikliklərinə nail olmağa başladılar. Çünki dövlət qulluğu sistemində innovasiyaların tətbiqi özündə istehsal və digər fundamental struktur sahələrində də texnoloji innovasiyaların tətbiqini şərtləndirir. Analoji sahədə ən yaxşı təcrübənin olduğu ölkələr arasında Çin, Yaponiyan, Cənubi Koreya, Sinqapur və s. kimi ölkələri xüsusilə vurğulamaq olar. Adı çəkilən ölkələrin təcrübəsi onu göstərir ki, dövlət qulluğunda innovasiyaların tətbiqi ilə yüksək inkişafa nail olmaq ardıyca milli inkişafı gətirir. Bu zaman həmçinin, strateji inkişaf istiqamətlərində də ciddi uğurlar qazanmaq mümkündür.

Bir az da müasir dövrə baxsaq, son 20 ildə bütün dünyada hökumətlər dövlət qulluğu sistemlərində əsaslı dəyişikliklər ediblər. Dövlət qulluğu islahatı bu innovativ modernləşmə prosesinin mərkəzində olmuşdur. Fərqli inzibati mədəniyyətlərə, siyasi vəziyyətlərə və prioritetlərə baxmayaraq, dövlət qulluğu sistemlərində innovasiyaların tətbiqinə yanaşma üslublarındakı oxşarlıq xüsusilə diqqət çəkir. Bu oxşarlıq son islahatların əsasını qoymuş ortaq bir idarəçilik fəlsəfəsinin yayılmasını əks etdirir. Dövlət qulluğu sistemində innovativ texnologiyaların istifadəsi də bu fəlsəfənin mərkəzində yer almaqdadır.

Dövlət qulluğu sistemlərinin inkişafının hazırkı mərhələsinə baxsaq, bu mərhələni müxtəlif xarakterli proseslərin dinamikliyi ilə səciyyələndirmək olar. Belə olan halda artıq beynəlxalq standartların tətbiq olunması ilə dövlət qulluqçularının da dinamik dəyişikliyə uyğunlaşması tələb olunur. Müasir dövrdə idarəçilik proseslərində psixoloji amillər önə çəkilməkdə və psixoloji məqamların tətbiq edilən innovasiyalarla assosiasiya təşkil etməsinin əhəmiyyəti vurğulanmaqdadır. Təsadüfi deyildir ki, innovativ idarəetmə mədəniyyətinin sistemyaradıcı elementi kimi məhz idarəedicinin şəxsiyyəti

nəzərdən keçirilir.

Əlbəttə ki, dövlət quluğu müstəvisindəki dinamika və sözügedən sahədə münasibətlərin mürəkkəbliyi onun effektivlik kretiyalarına yenidən baxmağı tələb edir. Bununla yanaşı, Qərb orientasiyalı müasir idarəçilik fəlsəfəsində elmi və texnoloji nailiyyətlərin dövlət qulluğunda tətbiq edilməsi onun inkişafının başlıca hüquqi-normativ əsasını təşkil edir. Bunun üçün dövlətin müvafiq siyasəti olmalıdır. Bu siyasətin strateji xətti bəzi mühüm məqsədlərin reallaşdırılması üçün baza rolunu oynamalıdır. Bu baxımdan, dövlətin innovasiya siyasətinin məqsədlərini daha dəqiq nəzərdən keçirsək, onun əsas məqsədlərini (ilk dörd məqsəd) aşağıdakı formada cədvəlləşdirmək olar:

**Cədvəl 1. İnnovasiya siyasətinin məqsəd təsnifatı**

| | |
|---|---|
| Birinci məqsəd | İnnovasiya fəaliyyəti üçün zəruri iqtisadi, hüquqi və təşkilati şərtlərin yaradılması |
| İkinci məqsəd | İnnovasiya fəaliyyətinin aktivləşməsinə, innovasiya sahəsində bazar münasibətlərinin və sahibkarlığın inkişafına nail olmaq |
| Üçüncü məqsəd | İnnovasiya fəaliyyətinə dövlət dəstəyinin artırılmasını nəzarətdə saxlamaq |
| Dördüncü məqsəd | Milli innovasiya məhsullarının inkişafı istiqamətində zəruri addımların atılması və onun nəticələrinin dövlət qulluğunda tətbiq olunması |

*Mənbə: InCiSE, International Civil Service Effectiveness Index: Results Report 2019, Bern, 2019, p. 13*

Yuxarıda qeyd edilmiş məqsədlərə çatmaq baxımından beynəlxalq miqyasda uğur qazanmış bir sıra ölkələrin adın çəkmək olar. Bu kimi ölkələrə, ABŞ, İngiltərə, Yaponiya, Almaniya, İsveçrə və s. kimi misallar göstərmək mümkündür. Bu kontekstdə əgər ABŞ nümunəsinə baxsaq, dövlət qulluğunun ABŞ modelinin performans idarəçiliyinə daha inteqrasiya olunmuş və hərtərəfli bir yanaşma nümunəsi təqdim etdiyini görərik [14]. Dövlət qulluğu innovasiyalarının ABŞ modelinə əsasən, bütün federal şöbələr və agentliklər öz fəaliyyətləri ilə əlaqədar olaraq birbaşa şəkildə Konqresə hesabat verməli və dövlət qulluqçularının performans dəyərləndirməsi ali qanunverici orqan tərəfindən aparılmalıdır. ABŞ hökuməti sözügedən modelin strateji xəttini üç hissəyə bölmüşdür:

1. Beş illik strateji planlar
2. İllik fəaliyyət planları
3. Fəaliyyət və şəffaflıq hesabatı [12]

Başqa bir misal olaraq isə İngiltərədəki dövlət qulluğu sistemindəki innovativ idarəetməni göstərmək mümkündür. Beynəlxalq Dövlət Qulluğu Səmərəliliyi İndeksi üzrə dünya ölkələrinin reytinq cədvəlində 2019-cu ilin göstəricilərinə görə [10], İngiltərənin dördüncü yerdən birinci yerə qalxması dövlət qulluğunun səmərəliliyinin hesablandığı on iki göstəricinin hər birinə görə əvvəlki ilə nisbətən yüksək performans göstərməsi ilə əlaqədardır.

Sözügedən reytinq cədvəlində rəqəmsal innovasiyalar üzrə ən yaxşı yeri Estoniya, ardınca Danimarka və Latviya tutur. Bu reytinq cədvəli ilə əlaqədar hazırlanmış hesabatda Estoniyanın həmçinin vergi inzibatçılığındakı innovasiyaların səmərəliliyə təsirinə görə də digər ölkələrdən xeyli irəlidə olduğu bildirilir [11].

### Azərbaycanda dövlət qulluğu sistemində innvoasiyaların tətbiqi təcrübəsi

Azərbaycanda dövlət qulluğu sistemində müasir anlamda xüsusi innovasiyaların tətbiqi 2000-ci illərin ortalarından başlayır. Bu baxımdan, Azərbaycan Respublikasında kadrların yenidən hazırlanması və peşəkarlığının yüksəldilməsi istiqamətdə həyata keçirilən ilk addımlar dövlət qulluğu sisteminin innovativ inkişafının başlanğıcı kimi qiymətləndirilə bilər.

Bununla yanaşı, Azərbaycan Respublikasında dövlət qulluğunun innovativ yeniliklərlə təmin olunması həm də strateji əhəmiyyət daşıyır. Bu strategiyanın prioritetlərindən biri də cəmiyyətin inkişaf tendensiyalarını nəzərə al-

maqla idarəetmə qərarlarının hazırlanması və onların həyata keçirilməsindən ibarətdir. Dövlət qulluğu sistemində tətbiq ediləcək innovasiyaların müəyyənləşdirilməsində bu məqam həlledici rola malikdir. Ümumiyyətlə, Azərbaycan Respublikasında dövlət qulluğunun prioritetləri cəmiyyətin dinamik inkişafını təmin edəcək müvafiq addımların atılmasından ibarətdir.

Azərbaycan Respublikasında dövlət qulluğu sisteminin innovasiyalar üzərində qurulmasının təmin edilməsi istiqamətində ən mühüm addımlardan biri "bir pəncərə" sisteminin tətbiq edilməsidir. Bu sistem bir tərəfdən təqdim olunan dövlət xidmətlərinin keyfiyyətinin əhəmiyyətli dərəcədə yüksəlməsini təmin etmiş, digər tərəfdən dövlət xidmətlərindən daha çox sayda insanın yararlanmasına imkan yaratmışdır. Bu innovasiya cəmiyyətin razılığının da yüksəlməsinə xidmət edir. Çünki, vətəndaş az zaman və vəsait sərf etməklə keyfiyyətli dövlət xidməti əldə edə bilirs, deməli, o, hakimiyyət orqanlarından razı qalacaqdır.

Artıq qeyd olunduğu kimi Azərbaycan Respublikasında həyata keçirilən dövlət qulluğu sisteminin təkmilləşdirilməsi strategiyası geniş spektrli innovativ texnologiyalara əsaslanır. Bu baxımdan, bütün dünyada dövlət qulluğu sahəsində xüsusi əhəmiyyətə malik olan İKT Azərbaycanda dövlət qulluğu sisteminin müasirləşdirilmısində də olduqca əhəmiyyətli paya sahibdir. Azərbaycanda dövlət qulluğunun səmərəliliyinin artırılması, vətəndaşlara keyfiyyətli və şəffaf xidmətin göstərilməsində İKT innovasiyalarının tətbiqinin mühüm rolu vardır. Dövlət qulluğu sistemində İKT-nin tətbiq olunması istiqamətdə bir sıra ciddi nailiyyətlər də əldə edilmişdir. Azərbaycanda elektron hökumət texnologiyalarının tətbiqi və inkişafı ilə bağlı görülən işlər dövlət qulluğu sistemində İKT-nin tətbiqi ilə innovativliyin təmin olunmasının bariz nümunəsidir.

Onu da vurğulamaq lazımdır ki, Azərbaycanda elektron hökumətin əsası 2003-cü ildə qəbul edilmiş "Azərbaycan Respublikasının inkişafı naminə informasiya kommunikasiya texnologiyaları üzrə Milli Strategiyası (2003-2012-ci illər)" ilə qoyulmuşdur. E-hökumət portalı hal-hazırda da aktiv şəkildə fəaliyyət göstərir. Bu portal üzərindən dövlət qurumlarının təklif etdikləri xidmətlərdən vətəndaşların keyfiyyətli şəkildə yararalanması üçün hər cür şərait yaradılmışdır. Bu portalın istifadəyə verilməsə cəmiyyətə digər bir sıra elektron xidmətlərin göstərilməsi üçün də baza rolunu oynayır.

Bununla yanaşı, təkcə innovativ xidmətlərin göstərilməsi deyil, həmçinin göstərilmiş xidmətlərin və əldə edilmiş nəticələrin qiymətləndirilməsi də oldquca əhəmiyyətli məsələlərdəndir. Azərbaycanda dövlət xidmətlərinin qiymətləndirilməsi Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən həyata keçirilir [1]. Agentlik Azərbaycan Respublikası Prezidentinin Dövlət Xidmətlərinin Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında Fərmanına əsasən dövlət xidmətlərinin qiymətləndirilməsi işini aparır. Aparılan qiymətləndirmə xidmətə müraciət imkanları (elektron, poçt, birbaşa), xidmətin göstərilmə müddəti, xidmətin təşkilində istifadə edilən informasiya ehtiyatlarının elektronlaşdırılması və digər dövlət orqanlarının informasiya sistemləri ilə inteqrasiyası kimi əsas parametrlərə malik "ASAN xidmət indeksi" nə əsaslanır.

Bunu demək kifayətdir ki, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən 2018-ci ili əhatə edən qiymətləndirmə dövründə 29 mərkəzi icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilən 400-dən çox elektron xidmət qiymətləndirilmişdir. Qiymətləndirmə dövlət orqanlarının xidmət prosesinin və elektron xidmətlərin göstərilməsinin cari vəziyyətinin öyrənilməsi, məlumatların sistemləşdirilməsi, parametrlər üzrə yoxlanılması və təhlili istiqamətində aparılmışdır [6].

Azərbaycan Respublikasında dövlət qulluğu sistemində innovasiyaların tətbiqi istiqamətində bir sıra digər işlər də görülmüşdür. Buna misal olaraq Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanan Sərəncamlarla yaradılmış "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxs

[2] və DOST [3] Agentliyini göstərmək kifayətdir. Bütün bu innovativ addımların qlobal miqyasda mühüm nəticələri də olmuşdur. Bu uğurlu nəticələrə ASAN Xidmətin əldə etdiyi mükafatları nümunə gətirmək kifayət edəcəkdir. 2014-cü ildə qlobal miqyaslı konsaltinq və audit şirkəti olan "Price water house Coopers" (PwC) tərəfindən dünyanın 18 iri şəhərində aparılmış araşdırmasına əsasən, dünyanın yalnız bir neçə şəhərində vətəndaşlar rahat şəkildə və vaxt itirmədən istədikləri sənədləri əldə edə bilirlər. Bir sıra əhəmiyyətli kriteriyalar əsasında aparılmış araşdırmanın nəticələrinə görə, "ASAN xidmət" dünyada ilk üçlüyə daxil olmuşdur [7].

Bundan bir il sonra Kolumbiyanın Medellin şəhərində Birləşmiş Millətlər Təşkilatının dövlət xidmətlərinin göstərilməsi sahəsində qaliblərin mükafatlandırılması mərasimində "ASAN xidmət" yüksək mükafata sahib olub. Belə ki, "Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi" kateqoriyasında "ASAN xidmət" 1-ci yerə layiq görülərək xüsusi mükafat və diplomla təltif olunub [5].

Bundan başqa, Azərbaycan Respublikasında dövlət qulluğu sisteminin innovativ inkişafının təmin edilməsi sahəsində Dövlət İmtahan Mərkəzinin də böyük rolu vardır. Belə ki "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın layihəsi məhz DİM tərəfindən işlənib hazırlanmışdır. Sözügedən Strategiya dövlət qulluğu sistemində bir sıra innovativ yeniliklərin tətbiqini nəzərdə tutur [4]:

- "dövlət qulluğunda institusional islahatların həyata keçirilməsi;
- dövlət qulluğunda rotasiya;
- dövlət qulluğunda səriştə (kompetensiya) modelinin tətbiqi;
- dövlət qulluqçularının fasiləsiz peşəkar inkişafının təmin edilməsi;
- dövlət qulluğunun informasiya təminatı və elektron dövlət qulluğunun inkişaf etdirilməsi;
- dövlət qulluğunda mütərəqqi motivasiya (həvəsləndirmə) sisteminin yaradılması" və s.

Yuxarıda sadalananlar isə öz növbəsində müasir idarəetmə texnologiyalarının tətbiqi ilə birlikdə innovasiya yönümlü dövlət qulluğu sisteminin formalaşmasını şərtləndirməkdədir. Bu baxımdan dövlət qurumlarında müstəqil innovasiyalar normadan daha çox inkişafla bağlı olub adətən obyektiv mühitdə meydana gəlməkdədir [16].

Yuxarıdakı məlumatları ümumiləşdirdiyimiz zaman rahatlıqla söyləmək mümkündür ki, akademik Urxan Ələkbərovun da dediyi kimi olduqca gənc bir dövlət olan Azərbaycan Respublikası bu qısa dönəmdə inklüziv idarəçilik və davamlı inkişaf sahəsində ciddi uğurlara imza atmış və bu uğurlar beynəlxalq qurumlar və müstəqil ekspertlərin hesabatlarında öz əksini tapmışdır [13]. Bununla yanaşı, U.Ələkbərovun fikrincə, innovativ idarəçilik texnologiyalarının istifadəsi və dövlət qulluğu sistemində tətbiq edilməsi prosesində ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xüsusi rolu vardır [15]. Digər tərəfdən, dövlət başçımız cənab İlham Əliyev tərəfindən dövlət idarəçiliyi sahəsində həyata keçirilən islahatlar çərçivəsində səmərəlilik, innovasiya potensialı kimi ilkin məsələlərdə müxtəlif dünya ölkələrinin təcrübəsi öz tarixi, milli və yerli xüsusiyyətlərimizi nəzərə almaq və beynəlxalq təcrübənin Azərbaycana uyğunlaşdırılması şərti ilə istifadə olunmaqdadır [8]. Bunu qeyd etmək kifayətdir ki, ölkəmizdə yaradılmış innovativ idarəetmə modelinin mərkəzində Azərbaycan Respublikasının vətəndaşları və başlıca olaraq onların maraqlarının dayanması, bu çərçivədə dövlət qulluğunun "xalqa xidmət" konsepsiyası əsasında həyata keçirilməsi və vətəndaş məmnunluğunun dövlət qulluqçuları üçün əsas qiymətləndirmə meyarına çevrilməsi də görülən işlərin məntiqi yekunudur [9, s. 5].

## Nəticə

Azərbaycan Respublikasında dövlət qulluğu sistemində tətbiq olunan innovasiyalarla bağlı aparılmış tədqiqatın nəticələrinə görə, həm dünya təcrübəsi, həm də Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafı istiqamətində tətbiq olunan innovasiyaların təbiəti onu göstərir ki, elektron idarəçilik ən geniş yayılmış və səmərəli

innovasiyadır. Bu, dövlət idarəçiliyinin bütün mənalarda optimallaşdırılmasının ən təsirli mexanizmlərindən biri rolunda çıxış edir. Eyni zamanda dövlət qulluğu sistemində İKT texnologiyalarının tətbiqi müasir dövrdə əsas innovasiyalar arasında göstərilir. Dövlət xidmətlərinin getdikcə sadə və əlçatan formaya salınması xüsusi innovasiyalardan hesab olunur. Bu baxımdan, Azərbaycan Respublikasında yaradılmış "bir pəncərə" sistemi buna misal ola bilər.

**Açar sözlər:** *Azərbaycan Respublikası, dövlət qulluğu, dünya, innovasiyalar, təcrübə*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması və dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri, 13 iyul 2012-ci il, 3 səh.*

*2. Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı, 14 mart 2018-ci il, 5 səh.*

*3. "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında". Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı, 9 avqust 2018-ci il, 4 səh.*

*4. Abbaszadə Məleykə, Dövlət qulluğu sisteminin formalaşmasında Dövlət İmtahan Mərkəzinin rolu, Xalq Qəzeti (İnternet Resursu) http://xalqqazeti.com/az/news/25497 (12.08.2020)*

*5. "ASAN xidmət" BMT-nin mükafatı ilə təltif edildi, 27 iyun 2015, ASAN (İnternet Resursu) http://www.asan.gov.az/az/content/view/249/2644#.Vg6CVPntlBd (09.08.2020)*

*6. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, HESABAT 2018, s. 37 (İnternet Resursu) http://www.vxsida.gov.az/media/shares/12compressed.pdf (09.08.2020)*

*7. Azərbaycanda yaradılmış "ASAN xidmət" beynəlxalq şirkət tərəfindən yüksək dəyərləndirilib", AzerTag (İnternet Resursu) https://azertag.az/xeber/Azerbaycanda_yaradilmis_ASAN_xidmet_beynelxalq_sirket_terefinden_yuksek_deyerlendirilib-884112 (09.08.2020)*

*8. Həsənoğlu Murtəza, Azərbaycan dövlət idarəçiliyi sahəsində innovativ islahatların başlıca istiqamətləri, Kafkassam (İnternet Resursu) https://kafkassam.com/az%C9%99rbaycan-dovl%C9%99t-idar%C9%99ciliyi-sah%C9%99sind%C9%99-innovativ-islahatlarin-baslica-istiqam%C9%99tl%C9%99ri.html (12.08.2020)*

*9. Həbibova Ziyafət, Azərbaycanın uğur formulu: novator lider və peşəkar dövlət qulluğu, Azərbaycan qəzeti, 23 iyun 2020, s. 5*

*10. InCiSE, International Civil Service Effectiveness Index: Results Report 2019, Bern, 2019, 71 p.*

*11. Leal Natalie, Commonwealth countries leading the world in civil service effectiveness, Global Government Forum, 29/04/2019 (İnternet Resursu) https://www.globalgovernmentforum.com/commonwealth-countries-leading-the-world-in-civil-service-effectiveness/ (09.08.2020)*

*12. Lodge Guy and Susanna Kalitowski, Innovations in Government: International perspectives on civil service reform, Institute for Public Policy Research, London, 2017, 149 9.*

*13. Müasir dövlət idarəçiliyinin təşkilati əsasları: 15 il innovativ inkişaf yollarında, DİA (İnternet Resursu) http://dia.edu.az/az/news/383/ (12.08.2020)*

*14. Oliver Michael, Toward a Merit-Based Civil Service, Lumen Learning (İnternet Resursu) https://courses.lumenlearning.com/amgovernment/chapter/toward-a-merit-based-civil-service/ (09.08.2020)*

*15. Qlobal fövqəladə şəraitdə innovativ dövlət idarəçiliyi texnologiyaları: Azərbaycanın təcrübəsi, Bakı, 4 iyun, AzərTac (İnternet Resursu) https://azertag.az/xeber/Qlobal_fovqelade_seraitde_innovativ_dovlet_idarechiliyi_texnologiyalari_Azerbaycanin_tecrubesi-1503967 (12.08.2020)*

*16. Rəhimli Rəcəb, Dövlət qulluğunda innovasiyaların yeni mərhələsi, Azərbaycan qəzeti (İnternet Resursu) http://www.azerbaijan-news.az/view-169873/dovlet-qullugunda-innovasiyalarin-yeni-merhelesi (13.08.2020)*

**Hamdulla Mammadov**
**PhD Candidate of The Academy of Public Administration under the President of the Republic of Azerbaijan**

**Charateristics of the process of transition to an innovative civil service system in the Republic of Azerbaijan**

**SUMMARY**

The article prepared in the field of research of innovations applied in the civil service system of the Republic of Azerbaijan analyzes the international experience of application of innovations in the civil service system, as well as the experience of application of innovations in the civil service system in the Republic of Azerbaijan. The article discusses the development trends of innovations in the civil service in the world from the middle of the twentieth century to the present, as well as the results of the International Civil Service Efficiency Index for 2019. The article also discusses the state of the civil service system in Azerbaijan, innovations in the civil service, as well as ICT-based innovations. The article also reflects the international awards received by ASAN Service as a result of the correct application of relevant innovations.

**Keywords:** *Republic of Azerbaijan, civil service, world, innovation, experience.*

**Гамдулла Мамедов**
**Диссертант Академии Государственного Управления при Президенте Азербайджанской Республики**

**Особенности процесса перехода к инновационной системе государственной службы в Азербайджанской Республике**

**РЕЗЮМЕ**

В статье, подготовленной в направлении исследования инноваций в системе государственной службы в Азербайджанской Республике, анализируется международный опыт инноваций в системе государственной службы, а также опыт инноваций в системе государственной службы в Азербайджанской Республике. В статье рассматриваются тенденции развития инноваций на государственной службе в мире с середины XX века до наших дней, а также результаты Индекса эффективности международной государственной службы за 2019 год. В статье также обсуждается состояние системы государственной службы в Азербайджане, инновации в государственной службе, а также инновации, основанные на ИКТ. В статье также отражены международные награды, полученные ASAN Service в результате правильного применения актуальных нововведений.

**Ключевые слова:** *Азербайджанская Республика, государственная служба, мир, инновации, опыт.*

UOT 321;323

# SOSİAL XİDMƏTİN FORMALARI VƏ NÖVLƏRİ

**CEYRAN RƏHMƏTULLAYEVA**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dissertantı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Sosial-mədəni fəaliyyət kafedrasının müəllimi*

*Email: ceyran_8@yahoo.com*

İnsanların yeni tələbatlarının yaranması obyektiv və fasiləsiz bir proses olduğundan həmin tələbatlara uyğun yeni sosial xidmətlərin də meydana çıxması və artıq mövcud olanların keyfiyyətinin daha da yüksəldilməsi labüd faktor kimi qiymətləndirilməlidir.

"Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun ayrıca bir fəsli – IV fəsli sosial xidmətin formalarına və növlərinə həsr olunmuşdur. Adı çəkilən qanunun həmin fəsildə öz əksini tapan 18-ci maddəsi sosial xidmətin aşağıdakı formalarını təsbit edir:

*1. evdə (səyyar) sosial xidmət;*
*2. yarımstasionar (günərzi) sosial xidmət;*
*3. stasionar sosial xidmət;*
*4. sosial-məsləhət yardımı.*

**Evdə (səyyar) sosial xidmət** əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri ilə eyni yaşayış məntəqəsində yaşamayan və sosial xidmətə ehtiyacı olan tənha ahıllara, ahıl ər-arvadlara, əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara, xəstəliyin terminal (son) mərhələsində olan şəxslərə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada göstərilir.

Evdə (səyyar) sosial xidmətə aşağıdakılar aiddir:

1. dərman vasitələrini, zəruri ərzaq və əsas tələbat mallarını almağa köməklik göstərilməsi;
2. istirahətin təşkil olunmasında, qida qəbul edilməsində və digər məişət xidmətlərinin göstərilməsində köməklik edilməsi;
3. tibbi və psixoloji yardım almaqda köməklik göstərilməsi, tibb və təhsil müəssisəsinə müşayiət olunması;
4. yaşayış şəraitinin sanitariya-gigiyena tələblərinə uyğunlaşdırılması;
5. hüquqi məsləhət alınmasına köməklik göstərilməsi;
6. əlillərə və 18 yaşadək sağlamlıq imkanları məhdud uşaqlara reabilitasiya xidmətinin göstərilməsi.

"Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununa əsasən ölkəmizdə yaşı 70-ə çatmış şəxslər ahıl hesab olunurlar. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına görə, 2019-cu il yanvar ayının 1- nə olan rəsmi statistikaya əsasən, ölkəmizdə bu kateqoriyadan olan şəxslərin sayı 401 min nəfər (162,9 min kişilər, 238,1 min qadınlar)təşkil edir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 aprel 2014-cü il tarixli 108 saylı Qərarı ilə təsdiq edilmiş "Evdə (səyyar) sosial xidmətin göstərilməsi Qaydası"na əsasən, hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 11 208 nəfər tənha ahıl və əlil şəxsə evlərində sosial-məişət xidmət göstərilir. Həmin insanların 8 857 nəfər ahıl şəxslərdir. Sosial işçilər onlara ev təsərrüfatında təmizlik işlərinin aparılması, yemək hazırlanması, zəruri ərzaq, sənaye və məişət mallarının, müvafiq hallarda tibbi və psixoloji yardımın, hüquqi məsləhətlərin alınması və s. işlərdə köməklik göstərirlər [4, s. 10].

O.V.Boçarova qeyd edir ki, evdə sosial xidmət sosial xidmətin əsas formalarından biri olmaqla, ahıl yaşda olan vətəndaşların və əlillərin sosial statusunun qorunub saxlanılması, habelə hüquq və qanuni maraqlarının qorunması məqsədi ilə onların maksimum dərəcədə və mümkün olduğu qədər daha uzun müddətə adi sosial mühitdə saxlanılmasına yönəlmişdir [8, s. 38].

Ənənəvi stasionar formalardan uzaqlaşma və ahıl insanlara evdə sosial xidmətin inkişaf etdirilməsi bu sahədə prioritetlərin dəyişdiyini göstərir. Evdə xidmətin məqsədi istənilən insan üçün adi so-

sial mühitdə daha çox qalmaq imkanının təmin edilməsindən ibarətdir. Sosial xidmətin bu forması hazırkı şəraitdə ahıl və əlilliyi olan şəxslər üçün çox tələbolunandır. Evdə sosial xidmət ixtisaslaşmış xidmətləri özündə əks etdirir. Sirr deyildir ki, yaşlı insanları müşayiət edən xəstəliklər çox vaxt onların özlərinə qulluq qabiliyyətlərinin itirilməsinə səbəb olur və bu zaman sosial-məişət xidmətləri göstərən sosial işçilərin köməyinə həkiməqədər tibbi yardım və gigiyena xarakterli xidmətlər göstərən tibbi-sosial yardım mütəxəssisləri gəlirlər. Evdə sosial xidmət daimi və ya müvəqqəti qeyri-stasionar xidmətə ehtiyacı olan vətəndaşlara sosial xidmətlərin təqdim edilməsi yolu həyata keçirilir. Evdə sosial xidmət tənha vətəndaşlara və ahılıq, əlillik, xəstəliklə bağlı özünəxidmət qabiliyyətini itirmiş şəxslərə sosial-məişət, sosial-tibbi xidmətlər və digər yardımlar formasında təqdim edilir [16].

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 31 yanvar tarixli 17 nömrəli qərarı ilə təsdiq edilmiş "Evdə (səyyar) sosial xidmətin göstərilməsi" Qaydasının 3-cü bəndinə əsasən evdə (səyyar) sosial xidmət həmin xidmətin xarakterindən asılı olaraq, sosial işçi və sosial xidmətçi tərəfindən göstərilir.

Sosial işçi tərəfindən göstərilən xidmətlərə aşağıdakılar daxildir:

1. sosial xidmətə ehtiyacı olan şəxsə tibbi və psixoloji yardım və hüquqi məsləhət almaqda köməklik göstərmək;

2. qəyyumluq və himayəçilik sənədlərinin hazırlanmasına, tənha-ahıl vətəndaşların və əlillərin internat evinə, sağlamlıq imkanları məhdud uşaqlara müvafiq xüsusi təhsil müəssisələrinə göndərilməsi üçün lazımi sənədlərin toplanmasına köməklik göstərmək;

3. əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara reabilitasiya xidməti göstərmək;

4. sağlamlıq imkanları məhdud uşaqların gündəlik həyatda lazım olan vərdiş və bacarıqlarını, böyük və kiçik motorika, ünsiyyət və koqnitiv bacarıqlarını inkişaf etdirmək;

5. sağlamlıq imkanları məhdud uşaqların sosial uyğunlaşmasına dəstək vermək;

6. sağlamlıq imkanları məhdud uşaqların inkişafı üçün valideynlərə müvafiq məsləhətlər vermək, o cümlədən zəruri yardımçı cihaz və vasitələrdən istifadəni öyrətmək;

7. ailənin sosial inkluziyasına köməklik göstərmək;

8. sağlamlıq imkanları məhdud uşaqların ehtiyaclarının ödənilməsi və problemlərinin həlli məqsədi ilə müvəkkillik fəaliyyətini həyata keçirmək.

Sosial xidmətçi tərəfindən göstərilən xidmətlərə aşağıdakılar daxildir:

- yemək hazırlanmasına kömək etmək (o cümlədən diyetik yeməklər);
- özünə qulluq edə bilməyən xəstələri yedizdirmək və qabları yumaq;
-şəxsin çimizdirilməsinə, saçlarının daranmasına yardım etmək;
- yataq dəstlərini dəyişdirmək, yataq və geyim əşyalarını yumaq və ütüləmək;
- yataq və geyim əşyalarını camaşırxanaya, kimyəvi təmizləmə məntəqəsinə (əgər camaşırxana və kimyəvi təmizləmə məntəqəsi varsa) aparıb-gətirmək;
- paltarların xırda təmirini etmək;
- mənzili yığışdırmaq və təmizləmək;
- zəruri ərzaq, sənaye və məişət mallarını almaq;
- mənzil pulunun və digər kommunal xərclərin ödənilməsini təşkil etmək;
- istiliyə, yanacağa, təmirə olan ehtiyacların ödənilməsi məqsədi ilə aidiyyəti təşkilatlarla əlaqə saxlamaq;
- həyətyanı sahəni nizama salmaq;
- evə həkim çağırmaq, həkimin təyinatı ilə aptekdən dərman almaq, həkim müayinəsinə aparıb-gətirmək;
- sosial xidmətə götürülmüş vətəndaş vəfat etdikdə, dəfni ilə bağlı məsələlərin həllinə köməklik göstərmək.

Sosial işçi xidmətə götürülmüş şəxsə fərdi plana uyğun olaraq xidmət göstərir. Əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara xidmət göstərilməsi vaxtı reabilitasiya xidmətinin növündən asılı olaraq tərəflərin razılığı ilə müəyyən edilir.

Aşağıdakı hallarda evdə (səyyar) sosial xidmət göstərilməsi dayandırılır:

- qismən ödənişli və tam ödənişli sosial xidmətin göstərilməsi ilə əlaqədar sosial xidmət müqaviləsində nəzərdə tutulan hallarda;
- sosial xidmətə ehtiyacı olan şəxs əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri ilə eyni yaşayış məntəqəsində yaşamağa başladıqda;
- tənha ahıllar, əlillər və sağlamlıq imkanları məhdud uşaqlar dövlət sosial xidmət müəssisələrinə

yerləşdirildikdə;

- əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası başa çatdıqda;
- sosial xidmətə ehtiyacı olan şəxs vəfat etdikdə [1].

**Yarımstasionar (günərzi) sosial xidmət** özünün əsas həyati tələbatını müstəqil təmin edə bilən və aktiv hərəkət qabiliyyəti olan ahıllara və əlillərə, o cümlədən çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayanlara gündüz və ya gecə vaxtlarında sosial-məişət, tibbi, mədəni və başqa xidmətlər göstərilməsindən, asudə vaxtın səmərəli təşkil olunmasından, onların münasib əmək fəaliyyətinə cəlb olunmasından ibarətdir.

**Stasionar sosial xidmət** bu məqsədlə yaradılmış müəssisədə sosial xidmət göstərilən şəxslərin (ailələrin) fiziki durumuna və səhhətinə uyğun həyat şəraitinin yaradılmasından, tibbi və sosial reabilitasiya tədbirlərinin həyata keçirilməsindən, qulluğun təşkilindən ibarətdir.

Sosial xidmət müəssisəsində yaşayan ailənin üzvləri ayrıca yaşayış sahəsi ilə təmin olunurlar. Sosial xidmət müəssisəsinin rəhbərliyi müəssisədə yaşayan çətin həyat şəraitində olan şəxslərin (ailələrin) şəxsi və qiymətli əşyalarının mühafizəsini təmin edirlər.

Stasionar sosial xidmətə ehtiyacı olan psixi pozuntusu olan şəxslər qanunla müəyyən edilmiş qaydada xüsusi stasionar müəssisələrdə yerləşdirilirlər.

L.K.Karasevaya görə stasionar sosial xidmət özünəqulluq qabiliyyətini qismən və ya tamamilə itirən və sağlamlıq vəziyyətinə görə daimi qayğıya və baxıma ehtiyacı olan ahıllara və əlilliyi olan şəxslərə hərtərəfli sosial-məişət yardımının göstərilməsini nəzərdə tutur. Stasionar sosial xidmət buna ehtiyacı olan şəxslər üçün onların yaşına və sağlamlıq vəziyyətinə daha adekvat olan həyat fəaliyyəti şəraitinin yaradılması üzrə tədbirləri, tibbi, sosial və müalicə-əmək xarakterli reabilitasiya tədbirlərini, qayğı və tibbi yardım təminatını, istirahət və asudə vaxtın təşkilini nəzərdə tutur [13, s. 46].

Stasionar sosial xidmət sosial xidmətə ehtiyacı olan şəxslərin yaşına, sağlamlıq vəziyyətinə və sosial vəziyyətinə uyğun olaraq profilləndirilən sosial xidmət müəssisələrində həyata keçirilir.

**Sosial-məsləhət yardımının** məqsədi çətin həyat şəraitində olan şəxslərin (ailələrin) cəmiyyətə inteqrasiyasını təmin etməkdən ibarətdir.

Sosial-məsləhət yardımına aşağıdakılar aiddir:

1. qohumlarından və ya qanuni nümayəndələrindən ayrı yaşayan və sosial-məsləhət yardımına ehtiyacı olan şəxslərin (ailələrin) müəyyənləşdirilməsi;
2. çətin həyat şəraitində olan şəxslərin (ailələrin) problemlərinin həllinə dövlət orqanlarının, bələdiyyələrin və qeyri-hökumət təşkilatlarının cəlb olunması məqsədilə zəruri tədbirlərin görülməsi;
3. sosial xidmət üzrə məsləhətlərin verilməsi.

T.F.Zarembo və A.N.Savinov kimi müəlliflər hesab edir ki, ehtiyacı olan vətəndaşlara sosial-məsləhət yardımı onların cəmiyyətə adaptasiyasına, sosial gərginliyin azaldılmasına, ailədə əlverişli mühitin yaradılmasına, habelə şəxsiyyət, ailə, cəmiyyət və dövlətin qarşılıqlı əlaqəsinin təmin edilməsinə yönəlmişdir. Sosial-məsləhət yardımı ahılların və əlilliyi olan şəxslərin psixoloji dəstəklənməsini və qarşılaşdıqları problemlərin həllində öz səylərinin aktivləşdirilməsini ifadə edir [11, s. 56].

“Sosial xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinə əsasən təyinatından asılı olaraq sosial xidmətlər aşağıdakı növlərə bölünür:

1. sosial-məişət xidmətləri – şəxslərin (ailələrin) məişət şəraitinin, yaşayış vəziyyətinin yaxşılaşdırılmasına yönəlmişdir;
2. tibbi-sosial xidmətlər - şəxslərin sağlamlıq vəziyyətinin yaxşılaşdırılmasına yönəlmişdir;
3. sosial-psixoloji xidmətlər - şəxslərin cəmiyyətə adaptasiyası məqsədilə psixoloji vəziyyətinin reabilitasiyasını nəzərdə tutur;
4. sosial-pedaqoji xidmətlər - yetkinlik yaşına çatmayanların inkişafındakı geriliklərin və davranışındakı pozuntuların profilaktikasına, onlarda müsbət maraqların yaranmasına, o cümlədən asudə vaxtlarının təşkilinə və ailədə tərbiyəsinə dəstəyə yönəlmişdir;
5. sosial-iqtisadi xidmətlər – şəxslərin həyat səviyyəsinin qorunmasına və möhkəmlənməsinə yönəlmişdir;
6. sosial-hüquqi xidmətlər - hüquqi yardım göstərilməsi, şəxslərin hüquqlarının qorunmasına yönəlmişdir;
7. palliativ xidmətlər – müalicəsi mümkün olmayan şəxslərin və onların ailə üzvlərinin fiziki, psixoloji, mənəvi və digər problemlərinin müəyyən edilməsi, qiymətləndirilməsi və bu şəxslərə yardımın göstərilməsinə yönəlmişdir.

Elmi ədəbiyyata nəzər saldıqda isə sosial

xidmətlərin təsnifat meyarlarının əslində daha çox olduğunu və müəlliflərin bu sahədə fərqli fikirlərini, yanaşmalarını görə bilərik.

*Xidmətlərin göstərilməsi müddətindən* asılı olaraq sosial xidmətlər aşağıdakı növlərə bölünə bilər:

a) birdəfəlik sosial xidmətlər;

b) uzunmüddətli sosial xidmətlər.

Birdəfəlik sosial xidmətlər əvvəlcədən müəyyən edilmiş konkret bir dövr çərçivəsində göstərildiyi halda, uzunmüddətli sosial xidmətlər müəyyən dövr ərzində təkrarlanan hərəkətlər formasında təqdim edilir və eyni bir xidmətin və ya müxtəlif xidmətlər kompleksinin dövriliyini özündə əks etdirir.

*Nəticəsinin təzahür formasından* asılı olaraq sosial xidmətlərin aşağıdakı növlərini qeyd etmək olar:

a) sadə sosial xidmətlər;

b) mürəkkəb sosial xidmətlər.

Sadə sosial xidmətlər mütəxəssis tərəfindən həyata keçirilir və obyektiv formada qeyd edilə bilən nəticəyə səbəb olur. Mürəkkəb sosial xidmətlər isə bir və ya bir neçə mütəxəssis tərəfindən həyata keçirilir və dərhal görünən nəticəyə gətirib çıxarmır. Mürəkkəb sosial xidmətlərə psixoloji və reabilitasiya xidmətləri aid edilə bilər.

*Təqdimetmə obyektinə görə:*

a) fərdi sosial xidmətlər;

b) kollektiv (qrup) sosial xidmətlər.

Fərdi sosial xidmətlər fərdi ehtiyacları və tələbatları nəzərə alınmaqla konkret müştəriyə göstərilir. Kollektiv sosial xidmətlər eyni zamanda ümumi maraqlar əsasında birləşmiş müştərilər qrupuna təqdim edilir.

*Ödənişli olub-olmamasından* asılı olaraq sosial xidmətlər bölünə bilər:

- Ödənişli sosial xidmətlər;
- qismən ödənişli sosial xidmətlər;
- ödənişsiz sosial xidmətlər.

Prof. M.N.Əliyevin fikrincə, sosial xidmətin yalnız pulsuz və ya qismən ödənişli xidmət formalarını göstərmək olar. Əvəzli şəkildə pullu göstərilən xidmətlər isə sosial xidmətlər hesab edilə bilməz. Bununla əlaqədar göstərmək olar ki, haqqı tam ödənilməklə xidmətlərin göstərilməsi sosial təminat hüququnun predmetinə aid edilməməlidir. Belə münasibətlər, hətta xidmətin çətin həyat vəziyyətinə düşmüş şəxslərə göstərilməsi və sosial müdafiə orqanları tərəfindən həyata keçirilməsi hallarında belə mülki hüquq sahəsinin predmetini təşkil edir. Xidmətlərin pulsuz, yaxud onların tam bazar dəyəri ödənilmədən göstərilməsi sosial təminat hüququnun predmetinin bir hissəsini təşkil edir [2].

Sosial xidmətin digər xidmətlərdən fərqi ondan ibarətdir ki, həmin xidmət vətəndaşların müəyyən kateqoriyasına (ahıllara, əlillərə, uşaqlara və s.) onların spesifik tələbatlarının təmin edilməsi (məsələn, hərəkət vasitələrinin verilməsi, peşə reabilitasiyası və s.) üçün pulsuz, yaxud haqqı qismən ödənilməklə özlərinin gəlirləri hesabına deyil, cəmiyyətin vəsaiti hesabına göstərilir [6, s. 21].

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2012-ci il tarixli 328 nömrəli qərarı ilə "Dövlət sosial xidmət müəssisələrində və evlərdə qismən ödənişli və tam ödənişli şərtlərlə sosial xidmətin göstərilməsi qaydası" təsdiq edilmişdir. Həmin qaydalara görə çətin həyat şəraitində olan şəxslərə (ailələrə) dövlət sosial xidmət müəssisələrində və evlərdə sosial xidmət zəmanət verilmiş həcmdə ödənişsiz göstərilir. Ödənişli sosial xidmət göstərilərkən çətin həyat şəraitində olan şəxsin maraqları, sağlamlıq vəziyyəti, çətin həyat şəraitində olmasının səbəbi, şəxs üçün müəyyən olunmuş reabilitasiya proqramının məzmunu, sosial xidmətlərə tələbatının qısamüddətli və ya uzunmüddətli olması nəzərə alınır. Ödənişli şərtlərlə sosial xidmət çətin həyat şəraitində olan şəxs (ailə) ilə sosial xidmət göstərən subyektlər arasında bağlanmış müqavilə əsasında həyata keçirilir. Müqavilə xidmət göstəriləcək şəxsin yaxın qohumları, qanuni nümayəndələri, həmçinin xidmət haqqının ödənişini həyata keçirən əmək kollektivləri, dövlət büdcəsindən maliyyələşən təşkilatlar istisna olmaqla digər orqan və təşkilatlarla da bağlanıla bilər. Sosial xidmət göstərən subyekt müqavilə bağlananadək çətin həyat şəraitində olan şəxsə təklif edilən ödənişli sosial xidmətlə, sosial işçinin və ya sosial xidmətçinin iş rejimi, sosial xidmətin dövlət tərəfindən zəmanət verilmiş həcmi, qismən ödənişli və tam ödənişli sosial xidmətin növləri, xidmət haqqı tarifləri, xidmət haqqının ödənilməsi qaydası ilə bağlı geniş məlumat verməli, onun düzgün seçim etməsinə yardım göstərməlidir. Müqavilədə ödənişli şərtlərlə sosial xidmətə götürülən şəxslərə göstəriləcək xidmətlərin xarakteri və həcmi, xidmət göstəriləcəyi müddət, xidmətin ödənilməsi məbləği və qaydaları göstərilir. Ödənişli sosial xidmət göstərilməsi üçün zəruri olan avadanlıq və vasitələrin dəyəri, nəqliyyat xərcləri

sosial xidmət haqqının məbləğinə daxil deyildir və bütövlükdə sosial xidmət göstərilən şəxs tərəfindən ödənilir.

*Maliyyələşmə mənbəyinə görə:*

- dövlət büdcəsindən maliyyələşdirilən;
- bələdiyyə büdcəsindən maliyyələşdirilən;
- digər maliyyə vəsaitləri (QHT-lər, ianələr, xeyriyyəçilik fəaliyyəti ilə məşğul olan şəxslər və s.) hesabına maliyyələşdirilən.

Bu təsnifatı başqa cür də formulə etmək olar. Belə ki:

*Təqdim edən subyektdən asılı olaraq:*

a) dövlət sosial xidmətləri;

b) qeyri-dövlət sosial xidmətləri.

Dövlət sosial xidmətlərinə dövlət sosial təminat orqanları tərəfindən, qeyri-dövlət sosial xidmətləri isə ayrı-ayrı şəxslər (xeyriyyəçilər, fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar və s.) bələdiyyələr və qeyri-hökumət təşkilatları tərəfindən təqdim edilən xidmətləri aid etmək olar.

Əksər ölkələrdə sosial xidmət sistemi üçün iki prinsip - dövlətin yalnız ictimai birliklərin müəyyən fəaliyyət göstərməsindən sonra sosial xidmət göstərilməsinə dəstək prinsipi, yəni bazar münasibətləri şəraitində funksional mərkəzsizləşmə haqqında danışmağa imkan verən dövlətin səlahiyyətlərinin bir hissəsinin könüllü fəaliyyət göstərən təşkilatlara, yerli hakimiyyətlərə verilməsi və bunun təckə insan hüquqlarının təmin olunmasına deyil, həm də insanlara normal həyat şəraitinin təmin olunmasına aid olduğu halda əsas rolun və məsuliyyətin dövlətə keçməsi prinsipi xarakterikdir [19, s. 220-222; 20, s. 1921].

N.T.Nağıyev göstərir ki, bələdiyyələrə yerli sosial müdafiə və sosial inkişaf proqramlarının qəbul və icra edilməsi ilə bağlı səlahiyyətlər verilsə də, həmin səlahiyyətlər maliyyə çatışmazlığı səbəbindən həyata keçirilə bilmir. Bununla bağlı o, təklif edir ki, bələdiyyələrin sosial layihələrinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən maddi yardımların ayrılması məqsədəmüvafiq olardı [5, s. 160].

Ümumiyyətlə, sosial xidmət sistemi dövlət, bələdiyyə və qeyri-hökumət sosial xidmətini özündə əks etdirir. Dövlət sosial xidmətinə sosial xidmətləri təşkil etmək və həyata keçirmək səlahiyyətinə malik olan dövlət idarə, müəssisə və təşkilatları, icra hakimiyyəti orqanları, bələdiyyə sosial xidmətinə sosial xidmətləri təşkil etmək və həyata keçirmək səlahiyyətinə malik olan yerli idarə, müəssisə və təşkilatlar, qeyri-hökumət sosial xidmətlərinə isə xeyriyyə, ictimai, dini və digər qeyri-hökumət təşkilatları və fiziki şəxslər tərəfindən yaradılan sosial xidmət təsisatları aiddir.

Respublikamızda baş verən sosial-iqtisadi və demoqrafik proseslərlə əlaqədar əhaliyə sosial xidmət sahəsindəki vəzifələrin genişlənməsi məsələsinə xüsusi diqqət yetirmək lazımdır. Şübhəsiz, sosial xidmət sahəsində yerli orqanlar mühüm rol oynayır, çünki onlar məişət, tarixi ənənələri daha yaxşı nəzərə ala, bütün ehtiyacı olan şəxsləri, onların tərkibini, maddi vəziyyətini aşkara çıxara və bunun əsasında əhalinin müəyyən kateqoriyalarına ünvanlı sosial xidmət proqramını hazırlamağa əməli köməklik göstərə bilərlər.

A.V.Qorova haqlı olaraq göstərir ki, sosial xidmətlərin təqdim edilməsi formasında sosial müdafiəyə ehtiyacı olan şəxslərin kəmiyyətinin daimi artması elə şərait yaratmışdır ki, dövlət öz maliyyə imkanlarına görə çətin həyat şəraitində yaşayan bütün şəxsləri keyfiyyətli sosial xidmətlərlə təmin edə bilmir. Ona görə də hazırkı şəraitdə sosial xidmətlər təqdim edən qeyri-dövlət subyektləri daha geniş intişar tapmağa başlayır. Onlara ictimai, xeyriyyə, dini təşkilatları, habelə fəaliyyəti sosial xidmətlərin təqdim edilməsi ilə bağlı olan fiziki şəxsləri aid etmək olar [10, s. 446].

Bazar iqtisadiyyatı şəraitində özəl sosial xidmət müəssisələrinin yaradılması məqsədəuyğun olardı. İnkişaf etmiş ölkələrdə sosial-iqtisadi layihələrin həyata keçirilməsində QHT-lərə mühüm önəm verilir. Belə təcrübə Azərbaycanda da uğurla tətbiq olunur. Cəmiyyətin bugünki müasir inkişafı mərhələsində dövlətin sosial siyasətinin əsas prioritetlərindən biri kimi sosial sferada qeyri-hökumət təşkilatlarının rolunun daha da artırılmasına nail olmaq çıxış edir.

İstənilən halda, dövlət sosial xidmət sahəsində siyasəti həyata keçirərkən onun maliyyə təminatına xüsusi diqqət yetirməlidir. Dünya Bankının dünyanın inkişafı haqqında hesabatında dövlətin beş əsas vəzifəsi sırasında sosial xidmətlərin və infrastrukturun maliyyələşdirilməsi vəzifəsi göstərilmişdir [15, s. 102].

*Tələbatların təmin edilməsinə verdiyi töhfəyə görə:*

a) baza xarakterli sosial xidmətlər;

b) köməkçi sosial xidmətlər.

Baza xarakterli sosial xidmətlər əsas tələbatın ödənilməsinə yönəlir. Köməkçi sosial xidmətlər əsas xidmətin istehlakı üçün zəruri şəraitin yaradılması ilə bağlı olurlar. Məsələn, tibbi-sosial xidmət göstərilən zaman əlavə olaraq sanitar-gigiyenik xidmətə də ehtiyac yarana bilər. köməkçi sosial xidmətlər əsas sosial xidmətin təqdim edilməsi prosesinin ayrılmaz elementi kimi çıxış edir və onsuz səmərəli nəticəyə nail olmaq çox vaxt mümkün olmur.

*Texnologiya ilə əlaqəsindən asılı olaraq:*

a) ənənəvi xidmətlər;

b) innovasion xidmətlər.

Ənənəvi sosial xidmətlər uzun müddət ərzində formalaşır və dəyişmir. İnnovasion xidmətlər isə elmi texniki tərəqqinin nailiyyətlərinin sosial sahəyə tətbiqi ilə bağlı olub, sosial xidmətlərin fəaliyyətində yeni, daha səmərəli üsullardan istifadə olunmasına imkan verir. Lakin ənənəvi sosial xidmətlər də innovasion texnologiyalardan istifadə edilməklə təqdim edilə bilər.

*Göstərildiyi yerdən asılı olaraq:*

a) evdə göstərilən sosial xidmətlər;

b) sosial xidmət müəssisələrində göstərilən sosial xidmətlər.

Sosial xidmət sistemində mövcud olan xidmətlər yerinə yetirilən funksiyalardan asılı olaraq aşağıdakı kimi təsnifləşdirilə bilər:

a) diaqnostik;

b) proqnostik;

c) xəbərdaredici-profilaktik;

ç) hüquq müdafiə;

d) sosial-pedaqoji;

e) psixoloji;

ə) sosial-məişət;

f) kommunikativ;

g) reklam-təbliğat;

ğ) mənəvi-humanist;

h) təşkilati.

Prof. M.N.Əliyev sosial xidmətin növlərinin təminedici və bərpaedici növlərə bölünməsini təklif edir. Müəllifin fikrincə, sosial xidmətin təminedici növlərinə sosial riskin təsirinə məruz qalmış şəxslərin təmin edilməsi üçün nəzərdə tutulan xidmətləri: stasionar, yarımstasionar sosial xidməti, evdə sosial xidməti; sosial-məsləhət xidmətini aid etmək olar. Sosial xidmətin bərpaedici növünə əlillərə, uşaqlara, məcburi köçkünlərə və qaçqınlara, fövqəladə hallarla üzləşmiş şəxslərə reabilitasiya xidmətini aid etmək olar [2].

N.M.Staxovskayanın fikrincə, sosial xidmət göstərmə formalarına sosial xidmətlərlə yanaşı güzəştlər, natural və digər formalar daxildir [17, s. 132].

E.Q.Tuçkova və M.L.Zaxarov sosial xidmətin ən mühüm növlərinə aşağıdakıları aid edirlər: 1) əlillərin reabilitasiyası, təhsili və onların məşğulluğunun təmin edilməsi; 2) protez-ortopedik yardım və əlillərin nəqliyyat vasitələri ilə təminatı; 3) evdə və stasionar müəssisələrdə sosial xidmət; 4) uşaqlara sosial xidmət [12, s. 494-496].

M.O.Buyanovanın fikrincə, etimoloji mənada «reabilitasiya» «bərpa» deməkdir, yəni onların sosial xidmətin müstəqil növü kimi fərqləndirdikləri «protez-ortopedik yardım və əlillərin nəqliyyat vasitələri ilə təminatı», əslində, sosial xidmətin ayrıca növü olmayıb, onun bərpa (reabilitasiya) növünə aid edilməlidir [9, s. 233].

Əlillərə reabilitasiya xidməti peşə təlimi, işədüzəltmə, nəqliyyat vasitələri ilə təminat, protezləşdirmə, güzəştlər üzrə xidmətlər kompleksinin göstərilməsini nəzərdə tutur. Bu xidmət orqanizmin pozulmuş, yaxud itirilmiş funksiyalarının bərpasına, kompensasiyasına; əlillərin müəyyən fəaliyyət növlərini yerinə yetirmək qabiliyyətinin bərpasına və kompensasiyasına yönəlmiş sosial-tibbi, peşə, psixoloji-pedaqoji, sosial-hüquqi və digər xidmətlərdən ibarət tədbirlər kompleksini özündə əks etdirir [3, s. 17].

Məktəbəqədər və məktəb yaşlı uşaqlara uşaq müəssisələrində sosial xidmət növlərinin təqdim edilməsi nəzərdə tutulmuşdur. Uşaqların reabilitasiyası yetim və valideyn himayəsindən məhrum uşaqlara, xüsusi uşaq evlərində, həddibuluğa çatmayanlar üçün mərkəzlərdə, qəyyum və ya himayədar ailələrdə tərbiyə alan uşaqlara xidmət komplekslərini nəzərdə tutur.

B.İ.Staşkiv sosial xidmətləri onları təqdim edən orqanlara görə təsnifləşdirir və onları dörd qrupa bölür:

- səhiyyə orqanları tərəfindən təqdim edilən sosial xidmətlər;
- sosial siyasət orqanları tərəfindən təqdim edilən sosial xidmətlər;
- gənclər və idman orqanları tərəfindən təqdim edilən sosial xidmətlər;
- təhsil və elm orqanları tərəfindən təqdim edilən sosial xidmətlər [18, s. 4].

V.M.Litvinenko sosial xidmətləri təmin etdikləri tələbatlardan asılı olaraq ümumi tələbatları təmin edən sosial xidmətlərə (məsələn, kompleks sosial-məişət və sosial-iqtisadi xidmətlər), habelə xüsusi tələbatları təmin edən sosial xidmətlərə (məsələn, reabilitasiya xidmətləri) bölməyi təklif edir. Həmçinin müəllif əldə edən subyektlərdən asılı olaraq istənilən fiziki şəxsə təqdim edilən sosial xidmətləri və yalnız müəyyən kateqoriya şəxslərə təqdim edilən sosial xidmətləri fərqləndirir [14, s. 101-105].

Xidmətlər göstərilmə sahəsinə, fəaliyyət növünə, miqyasına və digər meyarlara görə fərqləndirilir. Məsələn, elə xidmətlər var ki, fərdi şəkildə ayrı-ayrı müştərilərin, istehlakçıların sorğuları əsasında həyata keçirilir. Eyni zamanda, bəzi xidmətlərə bütövlükdə cəmiyyətin tələbatı mövcud olur və onlar ictimai xidmətlər adlanır. İctimai xidmətlər cəmiyyət tərəfindən vergilər hesabına maliyyələşdirilir. Belə xidmətlər sırasına idarəetmə fəaliyyəti, hərbi xidmət və s. aiddir.

Sosial xidmətin xüsusi növü kimi uşaqlı ailələrə sosial xidməti qeyd etmək olar. Lakin təəssüflər olsun ki, bu gün respublikamızda uşaqlı ailələrə sosial xidmət göstərilməsi ilə bağlı məsələləri tənzim edən, onların təqdim edilməsi qaydasını və standartlarını müəyyənləşdirən kompleks normativ hüquqi akt yoxdur. Bundan başqa, qüvvədə olan qanunvericilikdə də uşaqlı ailələrə sosial xidmət sosial xidmətin ayrıca növü kimi fərqləndirilmir.

Sosial risk hallarından asılı olaraq uşaqlı ailələrə sosial xidmətin aşağıdakı növləri fərqləndirilir: uşağın saxlanılması tərbiyəsi zərurəti ilə bağlı sosial xidmətlər; əlilliklə bağlı sosial xidmətlər; kimsəsizliklə bağlı sosial xidmətlər; xəstəliklə bağlı sosial xidmətlər; natamam ailələrə sosial xidmətlər; aztəminatlı ailələrə sosial xidmətlər [7, s. 16-220].

Bir çox xarici ölkələrdə olduğu kimi respublikamızda da təcili sosial xidmət formasının tətbiqi məqsədəmüvafiq olardı. Təcili sosial xidmət sosial dəstəyə ciddi ehtiyacı olan şəxslərə birdəfəlik xarakterli təxirəsalınmaz yardımın göstərilməsi məqsədi ilə həyata keçirilir. Təcili sosial xidmət aşağıdakı sosial xidmət növlərini özündə əks etdirə bilər: 1. ciddi ehtiyacı olan şəxslərin pulsuz isti yeməklərlə və məhsullarla təmin edilməsi; 2. paltar, ayaqqabı və digər ilkin zərurət predmetləri ilə təminat; 3. birdəfəlik maddi yardım göstərilməsi; 4. müvəqqəti yaşayış sahəsi ilə təminat və s.

Təcili sosial xidmətin təqdim edilməsi üçün əsas kimi sosial xidmət alanın ərizəsi və ya sosial xidmət sisteminə daxil olmayan tibb, təhsil və ya digər təşkilatlardan təcili sosial xidmətə ehtiyacı olan vətəndaşlar barədə alınan məlumatlar çıxış etməlidir. Təcili sosial xidmətin təqdim edilməsi barədə aktda bu xidməti təqdim və əldə edən subyektlər, təqdim edilən təcili sosial xidmətin növü (növləri), müddəti, tarixi və təqdim edilməsi şərtləri barədə məlumatlar öz əksini tapmalıdır.

**Beləliklə, bu məqalədə qeyd edilənləri ümumiləşdirərək aşağıdakıları göstərmək olar:**

1. İnsanların yeni tələbatlarının yaranması obyektiv və fasiləsiz bir proses olduğundan həmin tələbatlara uyğun yeni sosial xidmətlərin də meydana çıxması və artıq mövcud olanların keyfiyyətinin daha da yüksəldilməsi labüd faktor kimi qiymətləndirilməlidir.

2. “Sosial xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 23-cü maddəsində təyinatından asılı olaraq sosial xidmətlərin yeddi növü (sosial-məişət xidmətləri; tibbi-sosial xidmətlər; sosial-psixoloji xidmətlər; sosial-pedaqoji xidmətlər; sosial-iqtisadi xidmətlər; sosial-hüquqi xidmətlər; palliativ xidmətlər) göstərilir. Elmi ədəbiyyata nəzər saldıqda isə sosial xidmətlərin təsnifat meyarlarının əslində daha çox olduğunu görə bilərik.

Elmi ədəbiyyatın və xarici ölkələrin sosial xidmət praktikasının təhlili əsasında sosial xidmətlərin aşağıdakı təsnifatını təklif edə bilərik:

*1. Xidmətlərin göstərilməsi müddətindən asılı olaraq:*

a) birdəfəlik sosial xidmətlər;
b) uzunmüddətli sosial xidmətlər.

*2. Nəticəsinin təzahür formasından asılı olaraq:*

a) sadə sosial xidmətlər;
b) mürəkkəb sosial xidmətlər.

*3. Təqdimetmə obyektinə görə:*

a) fərdi sosial xidmətlər;
b) kollektiv (qrup) sosial xidmətlər.

*4. Ödənişli olub-olmamasından asılı olaraq:*

- Ödənişli sosial xidmətlər;
- qismən ödənişli sosial xidmətlər;
- ödənişsiz sosial xidmətlər.

*5. Maliyyələşmə mənbəyinə görə:*

- dövlət büdcəsindən maliyyələşdirilən;
- bələdiyyə büdcəsindən maliyyələşdirilən;
- digər maliyyə vəsaitləri (QHT-lər, ianələr, xeyriyyəçilik fəaliyyəti ilə məşğul olan şəxslər və s.)

hesabına maliyyələşdirilən.

Bu təsnifatı başqa cür də formulə etmək olar. Belə ki:

Təqdim edən subyektdən asılı olaraq:

a) dövlət sosial xidmətləri;

b) qeyri-dövlət sosial xidmətləri.

*6. Tələbatların təmin edilməsinə verdiyi töhfəyə görə:*

a) baza xarakterli sosial xidmətlər;

b) köməkçi sosial xidmətlər.

*7. Texnologiya ilə əlaqəsindən asılı olaraq:*

a) ənənəvi xidmətlər;

b) innovasion xidmətlər.

*8. Göstərildiyi yerdən asılı olaraq:*

a) evdə göstərilən sosial xidmətlər;

b) sosial xidmət müəssisələrində göstərilən sosial xidmətlər.

*9. Yerinə yetirilən funksiyalardan asılı olaraq:*

a) diaqnostik;

b) proqnostik;

c) xəbərdaredici-profilaktik;

ç) hüquq müdafiə;

d) sosial-pedaqoji;

e) psixoloji;

ə) sosial-məişət;

f) kommunikativ;

g) reklam-təbliğat;

ğ) mənəvi-humanist;

h) təşkilati.

*10. Göstərildiyi şəxslərin sosial riskin təsirinə məruz qalmasından asılı olaraq:*

a) təminedici sosial xidmətlər;

b) bərpaedici sosial xidmətlər.

*11. Təqdim edən orqanlara görə:*

a) sosial təminat orqanları tərəfindən təqdim edilən sosial xidmətlər;

b) səhiyyə orqanları tərəfindən təqdim edilən sosial xidmətlər;

c) digər orqanlar tərəfindən təqdim edilən sosial xidmətlər.

*12. Təmin etdikləri tələbatlardan asılı olaraq:*

a) ümumi tələbatları təmin edən sosial xidmətlər;

b) xüsusi tələbatları təmin edən sosial xidmətlər.

3. Bir çox xarici ölkələrdə olduğu kimi respublikamızda da təcili sosial xidmət formasının tətbiqi məqsədəmüvafiq olardı. Təcili sosial xidmət sosial dəstəyə ciddi ehtiyacı olan şəxslərə birdəfəlik xarakterli təxirəsalınmaz yardımın göstərilməsi məqsədi ilə həyata keçirilir. Təcili sosial xidmətin təqdim edilməsi üçün əsas kimi sosial xidmət alanın ərizəsi və ya sosial xidmət sisteminə daxil olmayan tibb, təhsil və ya digər təşkilatlardan təcili sosial xidmətə ehtiyacı olan vətəndaşlar barədə alınan məlumatlar çıxış etməlidir. Təcili sosial xidmətin təqdim edilməsi barədə aktda bu xidməti təqdim və əldə edən subyektlər, təqdim edilən təcili sosial xidmətin növü (növləri), müddəti, tarixi və təqdim edilməsi şərtləri barədə məlumatlar öz əksini tapmalıdır.

**Açar sözlər:** *sosial xidmət, sosial xidmətin formaları, sosial xidmətin növləri, evdə (səyyar) sosial xidmət, yarımstasionar (günərzi) sosial xidmət, stasionar sosial xidmət, sosial-məsləhət yardımı.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 31 yanvar tarixli 17 nömrəli qərarı ilə təsdiq edilmiş "Evdə (səyyar) sosial xidmətin göstərilməsi" Qaydası. http://e-qanun.az/framework/25205*

*2. Əliyev M.N. Sosial xidmət sosial təminat hüququnun institutu kimi. Bakı: Təknur, 2008, 192 s.*

*3. Həsənzadə S.B. Əlillərin sosial müdafiəsi sahəsində hüquq islahatlarının əsas istiqamətləri. Bakı: Təknur, 2009, 120 s.*

*4. Məmmədli Q. Ahılların sosial müdafiəsi dövlətin sosial siyasətinin mühüm tərkib hissəsidir. "Ekspress" qəz., 2017, 3 oktyabr, № 176, s. 10*

*5. Nağıyev N.T. Azərbaycan Respublikasında sosial təminatın konstitusion və hüquqi əsasları. Bakı: Qanun, 2010, 180 s.*

*6. Благодир А.Л. Социальное обслуживание в системе права социального обеспечения. М.: Волтерс Клувер, 2008, 154 с.*

*7. Бориченко Е.В. Социальное обслуживание как вид социальной защиты семей с детьми // LEGEA ŞI VIAŢA, 2014, № 6/2 (270), с. 16-20*

*8. Бочарова О.В. Право социального обеспечения. Учебное пособие. Новочеркасск: ЮРГТУ, 2011, 153 с.*

*9. Буянова М.О. Социальное обслуживание граждан России в условиях рыночной экономики: Дисс. ... докт. юрид. наук. М., 2003, 325 с.*

*10. Горова А.В. Недержавний сектор надання соціальних послуг: сучасний стан та перспективи розвитку // Актуальні проблеми*

*держави і права: Збірник наукових праць. Вип. 63. Одеса: Юридична література, 2012, с. 445-450*

*11. Зарембо Т.Ф., Савинов А.Н. Организация работы органов социального обеспечения. Учебное пособие. М.: Академия, 2011, 75 с.*

*12. Захаров М.Л., Тучкова Э.Г. Право социального обеспечения в России. Учебник. М.: БЕК, 2001, 576 с.*

*13. Карасева Л.К. Организация работы с гражданами в системе пенсионного обеспечения и социальной защиты населения. Пенза: ПГПУ Им.В.Г. Белинского, 2011, 154 с.*

*14. Литвиненко В.М. Видовий поділ соціальних послуг у законодавстві та теорії // Актуальні проблеми держави і права: Збірник наукових праць. Вип. 37. Одеса: Юридична література, 2008, с. 101-105*

*15. Роль социального обеспечения в решении проблемы бедности и совершенствование методики преподавания права социального обеспечения: материалы Всероссийского научно-практической конференции / Под. ред. Э.Г.Тучковой. М.: Проспект, 2004, 464 с.*

*16. Социальное обслуживание на дому. http://refleader.ru/jgepolqasrnayfs.html*

*17. Стаховська Н.М. Відносини в праві соціального забезпечення: дис. ... канд. юрид. наук. К., 2000, 198 с.*

*18. Сташків Б.І. Право соціального обслуговування: Навч. посіб. К.: Знання, 2007, 567 с.*

*19. Теория и практика социальной работы: отечественный и зарубежный опыт / Отв. ред. Т.Ф.Яркина. Т.1. М., Тула, 1993, 368 с.*

*20. Элементы системы социального обеспечения в условиях социально ориентированной рыночной экономики. На примере ФРГ. М.: Дело, 1993, с. 19-*

## SUMMARY

## FORMS AND TYPES OF SOCIAL SERVICE

This article analyzes the forms and types of social services. Article 23 of the Law of the Republic of Azerbaijan “On Social Services” states that seven types of social services are provided depending on their purpose. The author, however emphasizes that in the scientific literature, the classification criteria for social services are actually higher. Proposes a broader classification of social services based on the analysis of social service practices in foreign countries. At the same time, it emphasizes the need for the emergence of new social services with the emergence of new needs of people over time. Taking advantage of international experience, it suggests the introduction of emergency social services in our country.

**Keywords:** *social service, forms of social service, types of social service, home (mobile) social service, semi-stationary (daytime) social service, stationary social service, social-consulting assistance.*

## РЕЗЮМЕ

## ФОРМЫ И ВИДЫ СОЦИАЛЬНЫХ УСЛУГ

В данной статье анализируются формы и виды социальных услуг. Здесь отмечается, что в статье 23 Закона Азербайджанской Республики «О социальных услугах» предусмотрены семь видов социальных услуг предоставленные в зависимости от их назначения. Но автор подчеркивает, что в научной литературе критерий классификации социальных услуг значительно больше и предлагает их более широкую классификацию, основанную на анализе практики социальных услуг в зарубежных странах. В то же время, учитывая появление с течением времени новых потребностей людей, подчеркивается необходимость появления и новых социальных услуг. Воспользовавшись международным опытом, и в нашей стране предлагается применение экстренных социальных служб.

**Ключевые слова:** *социальная служба, формы социального обслуживания, виды социального обслуживания, мобильное социальное обслуживание, полустационарное (дневное) социальное обслуживание, стационарное социальное обслуживание, социально-консультационная помощь.*

UOT 314.02

# Sosiologiya

**OSMAN HACIYEV**
*Sumqayıt Dövlət Universitetinin*
*Fəlsəfə, sosiologiya və politologiya*
*kafedrasının baş müəllimi,*
*fəlsəfə üzrə fəlsəfə doktoru*
*E-mail: osmanhaciyev@mail.ru*

## REGİONAL İNKİŞAF – DEMOQRAFİYADA STİMULLAŞDIRICI TENDENSİYA KİMİ

Müasir şəraitdə ölkənin dövlət müstəqilliyinin təmin olunması, milli iqtisadiyyatının bazar prinsipləri əsasında formalaşdırılması digər şərtlərlə yanaşı ölkə iqtisadiyyatının əsas tərkib hissəsi olan regionların sosial-iqtisadi inkişaf səviyyəsindən asılıdır. Bu, yüksək iqtisadi fəallığı stimullaşdırır, bölgələrdə yaşayış səviyyəsinin əhəmiyyətli dərəcədə yaxşılaşmasını, Azərbaycanın regionlarının hərtərəfli tərəqqisini şərtləndirir.

Regionlarda davamlı sosial-iqtisadi inkişafa nail olmaq üçün ilk növbədə regionların malik olduğu iqtisadi potensialı o cümlədən, sənaye potensialını tam şəkildə hərəkətə gətirmək və onu düzgün reallaşdırmaq lazımdır. Ümumi sosial-iqtisadi siyasətdən fərqli olaraq regional inkişafın özünəməxsus xüsusiyyətləri vardır. Başlıca xüsusiyyətlərdən biri regional siyasətin kompleks xarakter daşımasındadır. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, ölkənin sosial-iqtisadi inkişaf siyasəti necədirsə, regional siyasət də elədir və birinci halda ölkə qarşısında qoyulan vəzifələr ikinci halda region miqyasında qarşıya qoyularaq yerinə yetirilir. Daha kiçik ərazidə həyata keçirilməsinə baxmayaraq regional sosial-iqtisadi inkişaf siyasəti daha mürəkkəbdir. Ona görə ki, bu inkişaf çoxsaylı ümumrespublika xarakterli amillərlə yanaşı, həm də hər bir regionun konkret şəraitin, təbii-iqtisadi potensialı, coğrafi mövqeyindən irəli gələn amillərdən asılıdır. İstər ölkə səviyyəsində, istərsə də regional səviyyədə sosial-iqtisadi inkişaf dedikdə sabit sosial-iqtisadi inkişafa nail olmaq, iqtisadi stabilliyi təmin etmək, əhalinin həyat səviyyəsini yüksəltmək məqsədilə qarşıya qoyulmuş cari və strateji məqsədlər, vəzifələr və onların yerinə yetirilməsi vasitələrinin məcmusu başa düşülür. Təcrübə və araşdırmalar sübut edir ki, regional sosial-iqtisadi inkişaf siyasətinin formalaşmasına bir çox daxili və xarici amillər təsir edir. Daxili amillər əsasən milli iqtisadiyyatın inkişaf səviyyəsi, mülkiyyət və təsərrüfatçılıq formaları arasındakı inkişaf nisbətləri və qarşılıqlı münasibətlər, regional inkişaf göstəriciləri əhalinin məşğulluq və həyat səviyyəsinin qorunub saxlanması, yüksəldilməsi və s. ilə bağlı olduğu halda, xarici amillər əsasən dövlətlərarası münasibətlər və dünya iqtisadiyyatında gedən proseslərdən asılıdır [9, 74].

Ölkədə davamlı inkişaf səviyyəsini təmin etmək məqsədilə regionlarda iqtisadi yüksəlişə nail olmaq əsas şərtdir. Qloballaşma prosesləri və onların doğurduğu nəticələr bütün ölkələrdə sosial-iqtisadi inkişafın davamlılığına öz təsirini göstərməkdədir. Belə ki, müasir dövrdə hər bir ölkədə sosial-iqtisadi inkişaf prosesinin normal gedişini və davamlılığını təmin etmək məqsədilə milli maraqları nəzərə almaqla beynəlxalq əmək bölgüsü sistemində layiqli yer tutmaq və dünya iqtisadiyyatına inteqrasiya olunmaq bir zərurətə çevrilmişdir. Məhz bu proseslərdə ölkənin sosial-iqtisadi təhlükəsizliyinin təmin olunması mühüm əhəmiyyət kəsb edir.

Hər bir ölkədə mövcud əmək resurslarından nə dərəcədə səmərəli istifadə edilməsi və davamlı iqtisadi inkişafın təmin olunması həmin ölkədə hazırlanmış sosial-iqtisadi inkişaf siyasətindən və onun strategiyasından, bunların bir-birilə konkret inkişaf mərhələsində nə dərəcədə düzgün əlaqələndirilməsindən çox asılıdır. Siyasət və strategiya, bunların bir-birini tamamlaması nəticə etibarı ilə dövlətin sosial-iqtisadi inkişafını təmin etmək

üçün istifadə etdiyi mexanizmləri müəyyən edir.

Demoqrafik proseslərdə baş verən dəyişikliklər özünü əhalinin təbii təkrar istehsalında və əmək ehtiyatlarının hərəkət dinamikasında biruzə verir. Əmək ehtiyatları ayrı-ayrı ərazilərdə mövcud olan əhalinin bir hissəsini təşkil etdiyindən onların sayı burada yaşayan əhalinin ümumi sayından, yaş-cins tərkibindən, təhsil səviyyəsi və peşə hazırlığından, təbii təkrar istehsal göstəricilərindən, nigah və boşanma səviyyəsindən, həmçinin yerdəyişməsindən asılıdır. Ayrı-ayrı ərazilərdə yaşayan əhali maddi nemətlərin istehsalçısı və istehlakçısı, istehsal münasibətlərinin daşıyıcısı və nəslin davametdiricisi olmaqla burada mövcud olan işçi qüvvəsinin formalaşmasının əsas mənbəyidir. Əmək ehtiyatlarının sayı əhalinin sayından, əhalinin sayı isə təbii təkrar istehsal göstəricilərinin səviyyəsindən asılıdır.

İqtisadi inkişafda olan bütün bu müsbət dəyişikliklər ölkəmizin başlıca milli sərvəti olan insan potensialının və onun təbii əsasını təşkil edən demoqrafik proseslərin inkişaf səviyyəsinə də öz müsbət təsirini göstərməmiş deyildir. Lakin respublika əhalisinin inkişafında və onun demoqrafik vəziyyətində baş vermiş bütün müsbət dəyişikliklərə baxmayaraq keçən əsrin axırlarından başlayaraq Azərbaycan Respublikasının demoqrafik inkişaf göstəricilərində baş verən bəzi mənfi meyllər (doğum səviyyəsinin sürətlə azalması, əmək qabiliyyətli yaşında olan kişilər, körpələr və analar arasında ölüm səviyyəsinin nisbətən artması, boşanma hallarının çoxalması, əhalinin qeyri mütəşəkkil miqrasiyasının sürətlənməsi və s.) göstərir ki, lazımi tədbirlər görülməsə yaxın 15 – 20 ildə əhalinin, xüsusilə əmək ehtiyatlarının artımında çətinliklərin yaranmasını gözləmək olar. Çünki bir çox sosial-iqtisadi, siyasi, etnik, ailə-məişət və s. amillərin təsiri altında keçən əsrin ikinci yarısının axırlarından başlayaraq Azərbaycanda bir tərəfdən əhalinin hər 1000 nəfərinə düşən doğumun səviyyəsi və nigahların sayının sürətlə azalması, boşanma hallarının artması, digər tərəfdən isə gənc oğlanların bir qisminin qeyri-mütəşəkkil halda ölkəni tərk etməsi burada, xüsusilə də kənd yerlərində gənc oğlan və qızların sayı arasındakı nisbətin pozulması, urbanizasiya nəticəsində şəhər əhalisinin xüsusi çəkisinin artması, qadınların mədəni səviyyəsinin və ictimai istehsalatdakı məşğulluğunun yüksəlməsi və s. demoqrafik proseslərin dəyişilməsində bir sıra çətinliklərin yaranmasına səbəb olmuşdur. Bütün bunların nəticəsi olaraq hazırda respublikamızda demoqrafik inkişafın ümumi səviyyəsi – əhalinin doğum səviyyəsinin nisbətən yüksək, ölüm səviyyəsinin aşağı (əmək qabiliyyətli yaşda olan kişilər və körpələr arasında isə nisbətən yüksək) olması doğulanların gözlənilən ömür uzunluğunun (əsasən kişilər arasında) azalması və onun demoqrafik qocalması prosesinin sürətlənməsi, boşanma hallarının artması və s. proseslərlə səciyyələnir. 1988 – 1995-ci illərdə Azərbaycanda demoqrafik vəziyyətin kəskinləşməsi bazar münasibətlərinə keçid və ölkədə yaranmış sosial-iqtisadi böhranla əlaqədar olaraq əhalinin əksər hissəsinin yaşayış vəziyyətinin pisləşməsi və onların arasında kəskin fərqin yaranması, bu zaman sosial infrastruktur sahələrinin zəif inkişaf etməsi və əhalinin əksər hissəsinin onların xidmətlərindən lazımi səviyyədə istifadə etmək imkanlarına malik olmaması, bir milyon nəfərədək qaçqın və məcburi köçkünün mövcud olması, işğal olunmuş ərazilərdə 300 mindən çox iş yerlərinin itirilməsi, əhali arasında müxtəlif xəstəliklərin artması, istehlak edilən ərzaq məhsullarının keyfiyyətinə və satışına nəzarətin zəif olması, sağlam yaşayış tərzinin ləng formalaşması və onun təbliğinin aşağı səviyyədə olması, ölkədə miqrasiya proseslərinin lazımi səviyyədə tənzimlənməməsi və nəhayət, axır illərədək dövlətin milli demoqrafik inkişaf konsepsiyası və proqramının olmaması, həmin sahədə qəbul edilmiş Dövlət Proqramlarında irəli sürülmüş vəzifələrin lazımi səviyyədə yerinə yetirilməməsi, demoqrafik proseslərin nizamlanmasının məqsədyönlü xarakter daşımaması, demoqrafik siyasət sahəsində həyata keçirilən tədbirlərin sistem halında olmaması və lazımi səmərə verməməsi və s. kimi səbəblərlə bağlı olmuşdur [1, 21].

Bütün bunların aradan qaldırılması məqsədilə Ulu Öndər Heydər Əliyev hələ 1998-ci il dekabrın 28-də "Azərbaycanın demoqrafik inkişaf konsepsiyası"nın hazırlanmasına dair sərəncam imzalamışdır. Bu konsepsiyada irəli sürülmüş

müddəa və vəzifələrin həyata keçirilməsinin sürətləndirilməsi məqsədilə 11 noyabr 2004-cü il tarixdə Prezident İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı (2004-2009-cu illər)" qəbul edilmişdir. Dövlət Proqramında əhalinin doğum səviyyəsinin azalmasının sürətlənməsinin qarşısını almaq və onun sabitliyini təmin etmək məqsədilə ilk öncə mühüm vəzifələrin yerinə yetirilməsi tələb olundu. Proqrama nəzərdə tutulmuş mühüm vəzifələrə çoxuşaqlı ailələrin dövlət səviyyəsində müdafiəsinin təmin edilməsi və doğum problemi ilə bağlı strateji tədbirlər sistemi daxildir. İslahatlar həyat tərzinin elə tərəflərinə yönəldilməlidir ki, o çoxuşaqlı ailələrin bütün yaşayış dövrlərində hərtərəfli inkişafına müsbət təsir göstərə bilsin. Respublikada həyata keçirilən demoqrafiya siyasəti vahid strateji istiqamətə malik olmalı, onun sosial-iqitsadi inkişafını, əhalinin təkrar istehsalı və milli xüsusiyyətlərini özündə əks etdirməlidir. Əhalinin normal təkrar istehsalı prosesinin həyata keçirilməsinin təmin etmək məqsədilə respublikada mövcud olan və yeni qurulan ailələrin ən azı 80%-də 2 – 3, o cümlədən bütün ailələrin 40 – 45%-də 2 nəfər, 30-40%-də isə 3 nəfər uşaq doğulub tərbiyə edilməsi üçün şəraiti yaradılmalıdır. Üç, dörd uşaqlı ailələrin ideal ailə kimi qiymətləndirilməsi və stimullaşdırılması məqsədilə onların sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün müxtəlif ödənişlər və güzəştlər müəyyənləşdirilməli, çoxuşaqlı ailələrə maddi yardımı gücləndirmək məqsədilə həm dövlətin, həm də xüsusi müəssisələrin yardımından geniş istifadə edilməklə vəsait cəlb edilməsi təşkil edilməli, gənclərin arasında nigahların artırılması üçün gənc ailələrə yardımın və müxtəlif güzəştlərin müəyyən edilməsi, onların mənzillə təminatı və mənzil şəraitinin yaxşılaşdırılması dövlət səviyyəsində həll edilməli, əhalinin ölüm səviyyəsinin xüsusilə uşaqlar, körpələr və əmək qabiliyyətli yaşında olan adamlar arasında azaldılması, anaların mühafizəsinə diqqəti artırmaq üçün səhiyyə sistemi təkmilləşdirilməli, onun maddi-texniki bazası möhkəmləndirilməli, demoqrafik siyasət tədbirləri ilə sıx bağlı olan əhali miqrasiyası məsələləri dövlətin ciddi nəzarəti alınmalı və bunun üçün respublikada qanunvericilik yolu ilə xüsusi qayda yaradılmalı, miqrasiyanın kortəbii surətdə baş verməsinin qarşısı alınmalı, bu prosesə təsir göstərmək yolları araşdırılıb tapılmalı, dövlət və cəmiyyət üçün həmin prosesin törədə biləcəyi neqativ hallara qarşı ciddi mübarizə aparılmalı, miqrantların potensialından səmərəli istifadə edilməsi üçün xüsusi tədbirlər işlənib hazırlanmalı və həyata keçirilməli, demoqrafik siyasət tədbirləri ilk növbədə ailənin qurulması və möhkəmlədirilməsinə yönəldilməlidir [11, 106].

Ölkədə insan inkişafı göstəricilərinin artması iqtisadi, sosial və siyasi insan hüquqlarının genişləndirilməsinə yönəldilmiş insan inkişafının və eləcə də cəmiyyətin hər bir üzvünün potensialının artırılması üçün imkanların yaradılması məsələlərinin prioritet və dövlət siyasəti olaraq qarşıya qoyulmasının nəticəsi kimi səciyyələnir. İnsan İnkişafı İndeksi (III) – 1990-cı ildən etibarən hər il BMT-nin İnkişaf proqramı tərəfindən nəşr edilən "İnsan İnkişafı Hesabatı"nda dünya ölkələrində əhalinin rifahını əks etdirən göstəricidir. Bu indeks özündə əhalinin rifahını ÜDM göstəricisindən daha geniş şəkildə ehtiva edir və insan inkişafının üç ölçüsünü birləşdirir:

- uzun və sağlam ömür (orta ömür uzunluğu əsasında hesablanır);
- təhsil səviyyəsi (böyüklər arasında savadlılıq, həmçinin ibtidai, orta və ali məktəblərdə təhsil alanların say nisbəti əsasında hesablanır);
-layiqli yaşayış standartları (alıcılıq qabiliyyəti pariteti gəlir əsasında hesablanır).

Lakin bu indeks insan inkişafının müfəssəl, hərtərəfli ölçü vasitəsi deyil. Buraya gender və ya gəlir bərabərsizliyi, insan hüquqları və siyasi azadlıqların təmin olunması kimi göstəricilər daxil edilmir. Buna baxmayaraq, məhz bu indeks insan inkişafının və gəlirlə rifah arasında qarşılıqlı mürəkkəb münasibətlərin nəzərdən keçirilməsi üçün daha geniş prizmanı təmin edir. Bu hesabata əsasən Azərbaycan İnsan İndeksinə görə 188 ölkə arasında 78-cidir [6, 24].

Respublikada optimal perspektiv inkişaf yollarının seçilməsinin əsaslandırılması baxımından əmək qabiliyyətli və ondan kənar yaşda olan əhali sayları arasındakı mövcud nisbət ölkənin gələcək

iqtisadi inkişafının aparıcı qüvvəsi sayılan mühüm amillərdən biri olmaqla müsbət demoqrafik vəziyyət kimi xarakterizə oluna bilər.

Bizim fikrimizcə, dövlət indiki mərhələdə inzibati tənzimləmə kanallarına üstünlük verməli, birbaşa inzibati yolla bu məsələləri tənzimləməli və ölkədə ərazi üzrə komleks inkişafı təmin etməlidir. Çünki on illərlə regionlar arasında formalaşmış kəskin disproporsiyaları təkcə iqtisadi alətlər vasitəsilə yaxın vaxtlarda aradan qaldırmaq mümkün olmayacaqdır. Bunun üçün radikal inzibati tədbirlər tələb olunur. Bununla belə regionların sosial-iqtisadi inkişafında və regional fərqlərin aradan qaldırılmasında iqtisadi vasitələrin rolu böyükdür və xüsusilə bazar iqtisadiyyatı şəraitində bu cür metodlarla tənzimləmə böyük aktuallıq kəsb edir. İqtisadi sistem və mexanizm elə qurulmalıdır ki, ölkədə istər ərazi, istərsə də sahəvi kompleks üzrə inkişaf təmin edilsin, ciddi regional fərqlərə yol verilməsin. Fikrimizcə regionlar üzrə mövcud fərqlərin nisbətən aradan götürülməsi, iqtisadi-sosial inkişafın nizamlanması və bütövlükdə ölkə üzrə məhsuldar qüvvələrin kompleks inkişafının təmin edilməsində iqtisadi və sosial siyasətdə differensial yanaşmaya böyük ehtiyac vardır.

Hər regionun yerli potensialı və spesifik xüsusiyyətləri, demoqrafik amilləri ümumi inkişaf prinsipləri ilə yanaşı əsas götürülməlidir. Yəni Azərbaycan kimi regional fərqləri olan bir ölkədə differensial yanaşma iqtisadi siyasətin vacib tərkib hissəsi olmalıdır. Yalnız bu şəraitdə iqtisadi-sosial siyasət öz bəhrəsini verər və ərazi üzrə kompleks inkişaf təmin edilmiş olar.

Demoqrafik proseslərin nizama salınması məsələlərinin həllinə təkcə müasir tələblər baxımından deyil, əksinə daha çox gələcəkdə inkişafın tələb və məqsədləri baxımından yanaşmaq lazımdır. Eyni zamanda, demoqrafik prosesin nizamlanması ilə bağlı olan tədbirlər sistemi işlənib hazırlanarkən ona həm konkret, həm də bütünlükdə sosial-iqtisadi hadisələr sistemində baxılmalıdır. Bu cəhətdən əhalinin təbii təkrar istehsalı prosesinin əsasını təşkil edən doğumun və ailədəki uşaqların sayının nizamlanması ilə bağlı olan tədbirlər sistemi işlənib hazırlanarkən ona hər şeydən əvvəl, həmin prosesin müasir dövrdə və gələcəkdə bütünlükdə respublika iqtisadiyyatının inkişafına və sosial hadisələrin gedişinə necə təsir göstərə biləcəyi öyrənilib, qiymətləndirilməklə yanaşılmalıdır. Çünki əhalinin doğum səviyyəsinin artıb-azalması, ayrı-ayrılıqda həm cari, həm də gələcək dövr baxımından bir sıra mənfi və müsbət sosial-iqtisadi, demoqrafik nəticələrə səbəb olur. Belə ki, doğumun azalması bir tərəfdən gələcəkdə cəmiyyətin başlıca məhsuldar qüvvəsi olan əmək potensialının mütləq və nisbi qaydada azalmasına, iqtisadiyyatın sahələrinin iş qüvvəsi ilə təmin edilməsinin məhdudlaşmasına səbəb olursa, digər tərəfdən də ailədə uşaqların sayının azalması qadınların ictimai istehlatdakı məşğulluq səviyyəsinin, peşə-ixtisas dərəcəsinin, mədəni səviyyəsinin yüksəlməsinə şərait yaradır. Buna görə də bu sahədə elə tədbirlər sistemi işlənib hazırlanmalı və həyata keçirilməlidir ki, ölkəmizdə əhalinin normal təkrar istehsalı proseslərinin təmin edilməsinə, əhalinin təbii və mexaniki hərəkətinin gedişinə və demoqrafik vəziyyətin yaxşılaşmasına səbəb olmaqla xalqımızın həyat şəraitinin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə gətirib çıxara bilsin.

**Açar sözlər:** *region, əhali, demoqrafiya, əmək ehtiyatları, Dövlət proqramı.*

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı (2004-2009-cu illər). Dövlət Statistika Komitəsi. Bakı: 2004, 30 s.*

*2. Azərbaycanda səhiyyə və sosial təminat. Dövlət Statistika Komitəsi. Bakı, 2017, 495 s.*

*3. Əfəndiyev V.Ə., Nağıyev S.Q. Əhali coğrafiyası. Bakı: Bakı Universiteti nəşriyyatı, 2006, 326 s.*

*4. Əlirzayev Ə.Q. İqtisadi və sosial idarəetmə: bazar iqtisadiyyatı, metodoloji prinsiplər, qanunauyğunluqlar. Bakı: Diplomat nəşriyyatı, 1997, s.56-63.*

*5. Əlirzayev Ə.Q. İslahatlar və sürətlənmə strategiyası şəraitində Azərbaycanın sosial-iqtisadi problemləri: Təcrübə, meyllər və perspektiv istiqamətlər. Bakı: ADİU nəşriyyatı, 2005, 374 s.*

*6. Hacızadə E.M. Regional inkişaf strategiyası:*

*elmi-empirik baxış və yeni konseptual əsaslandırmalar // Dirçəliş, 2005, ¹ 86, s.72-78*

*7. Hacızadə E.M. Sosiallaşan iqtisadiyyat. Bakı: Elm, 2006, 509 s.*

*8. Muradov Ş.M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Bakı: Elm, 2004, 220 s.*

*9. Muradov R.Ş. Müasir şəraitdə Azərbaycan Respublikasında əmək bazarı problemləri, Bakı: Elm, 2000, 280 s.*

*10. Nağıyev Ə.T. Sosial-iqtisadi inkişafın metodoloji aspektləri, Bakı: 2006, 294 s.*

*11. Nuriyev Ə.X. Regional siyasət və idarəetmə, Bakı: Elm, 2004, 348 s.*

*12. 2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf sahəsində Dövlət Proqramı. Bakı: 2014, 423 s.*

**О.Ю.Гаджиев**

**Региональное развитие - как тенденция демографического стимулирования**

**РЕЗЮМЕ**

Одним из важнейщих компонентов каждой страны в области социально-экономического развития является политика регионального развития. Основной темой обсуждения в данном статье является влияние человеческого потенциала, основного национального богатства регионов, на развитие демографических процессов, которые составляют естественную основу регионов. Кроме того, важно обеспечить надлежащее выполнение обязанностей государственных программ, принятых в соответствующем направлении, предотвращение ускорения рождаемости населения и обеспечение его стабильности.

**Ключевые слова:** *регион, население, демография, трудовые ресурсы, Государственная программа*

**O.Y.Hajiyev**

**Regional development - as a stimulating tendency in demography**

**SUMMARY**

One of thecrucial components of socio-economic development of each country is a regional development policy. The basic topic of discussion in this article is the influence of human potential, the main national wealth of the regions, on the development of demographic processes that constitute the natural basis of the regions. In addition, the proper implementation of the duties of State programs adopted in the relevant direction, preventing the acceleration of the birth rate of the population and ensuring its stability express principal issue in this article.

**Keywords:** *region, population, demography, labour resources, State program.*

UOT 316.33

MƏFTUNƏ İSMAYILOVA
*Bakı Dövlət Universiteti, dissertant*

*E-mail: maftuna_i@mail.ru*

# GENDER ZƏMİNİNDƏ MƏİŞƏT ZORAKILIĞI

Gender əsaslı zorakılıq - qadın və kişi arasında bərabər olmayan qüvvələrin təzahür formasıdır ki, bu da daha çox qadınlar üzərində hökmranlığa gətiri çıxarır.

Zorakılığın təzahür formaları:

| | |
|---|---|
| Özünə qarşı yönəldilmiş zorakılıq | Fiziki, (suisidal davranış, özünə xəta yetirmək)<br>Psixoloji |
| Şəxsiyyətlər arası zorakılıq | ailədə zorakılıq və tərəf müqabilinə münasibətdə zorakılıq sosial qruplarda, ailədən kənar baş verən zorakılıq |
| kollektiv zorakılıq | siyasi, iqtsiadi və ya sosial məqsədlərə nail olmaq üçün, hər hansı qrupun zorakılığı öz əlində bir alətə çevirməsidir |

Ailədə zorakılıq-bu nə mübahisə, nə də münaqişədir. Münaqişə və mübahisə - müəyyən məsələlərdə bir-biri ilə razılaşmayan və öz mövqeyi üzərində dayanan tərəflərin vəziyyətidir. Ailədə zorakılıq prosesində isə, tərəflərarası bərabərliyə imkan yaranmır. Zorakılığı törədən tərəf fiziki güc, iqtisadi imkanlar və sosial statusundan nəzarət məqsədi ilə istifadə edir.

"Ailədə zorakılıq" anlayışının ümumi qəbul edilmiş təyini mövcud deyil. Problemi araşdıran tədqiqatçıların hər birinin problemə fərdi yanaşması mövcuddur.

S.İ Ojeqova görə, "zorakılıq - 1) kiməsə qarşı fiziki gücün tətbiqi – və ya; 2) başqasına qarşı məcburi təsir – və ya; 3) zülm etmə, qanunsuzluqdur; (5)

Y.İ.İvanovun fikrincə, "Məişət zorakılığı" anlayışı - ən ağır və gizli sosial problemlərdən biridir. Bu anlayış altında, ailənin bir üzvünün və ya bir necə üzvünün, ailənin digər üzvü və ya üzvlərinə qarşı tətbiq edilən, fiziki, iqtisadi, psixoloji, seksual təsirlərin müxtəlif qəbul edilməyən və travma ilə nəticələnən formaları anlaşılır ". (5)

E.Q.Tonkopeye bildirir ki, "Ailədə zorakılıq – ailənin bir üzvünün digər üzvü üzərində hakimiyyət və nəzarəti əldə etmə və ya saxlanma məqsədi ilə törədilən konkret hərəkətləridir". (5)

O. N. Xlobustov - "Ailədə zorakılıq – bir insanın digəri üzərində hakimiyyət və nəzarətin saxlanılması üçün davranış sistemidir" fikrini irəli sürür. (5)

Ailədə zorakılıq–zorakı və təhlükəli hərəkətlərin məcmusu olmaqla, zorakılığın fiziki, emosional, iqtisadi və seksual formalarını təşkil etməklə yanaşı, həmçinin qorxutma, təcrid etmə və məcburiyyəti özündə təzahür etdirir.

Ailədə zorakılıq - birinin digəri üzərində hakimiyyətin və nəzarətin bərqərar edilməsi üçün tətbiq edilir.

Zorakılıq əksər hallarda ailə üzvləri olan - kişilər tərəfindən, rəsmi nikahda yaşadığı arvadına və ya keçmiş arvadına, rəfiqələrinə qarşı tətbiq edilir.

Ailədə zorakılıq–onun qurbanını davamlı sarsıdan çıxılmaz zəncirdir ki, təkrarlandıqca yeni elementləri özünə cəlb edir və insanın qarşısında seçim imkanlarını məhdudlaşdırır. Bu məhdudlaşdırma bir başa insan hüquqlarının pozuntusu ilə müşahidə edilir (2).

Ailədə zorakılıq - davranışın müəyyən formasını təşkil etməklə, ailə və sosial münasibətlərin prizması kontekstindən araşdırılır. Bu problem genetik davranışdan asılı olan hər-hansı xəstəliyin nəticəsi deyil.

Ailədə zorakılıq-onun tətbiqi “nəticə”lərindən istifadə edən insanlar üçün əlverişli vasitədir. Bu vasitə, yəni, qorxutma və təhdidlər imkan verir ki, qurban üzərində nəzarət saxlamaq mümkün olsun. Qurbanın itaətkarlığını hiss edən şəxs (hətta bu müvəqqəti olarsa belə), bu taktikasını, yəni zorakılığın tətbiqinə təkrarlayır

Ailədə zorakılıq - qadın və kişi arasında bərabər olmayan qüvvələr münasibətinin təzahür formasıdır ki, bu da qadınlar üzərində hökmranlığa gətirir. Münasibətlərdəki hökmranlıq isə, mütləq, daha zəif tərəf (əlalxüsus da iqtisadi) sayılan qadının kişi tərəfindən diskriminasiyası ilə nəticələnir. Qadınların güzəranının ağırlığı, onları kişilərdən asılı vəziyyətə salınması, həmin diskriminasiyanın təzahürlərindəndir ki, burada qadınlara münasibətdə zorakılıq əsas sosial mexanizm qismində iştirak edir.

Ailədə zorakılıq - müxtəlif formalarda tətbiq edilə bilər: fiziki zorakılıq, seksual zorakılıq, iqtisadi nəzarət, psixoloji zorakılıq (fiziki zorakılığın tətbiqinə dair təhdidlər, əmlaka və ya ev heyvanlarına iqtisadi zərər, mənəvi təsir, başqa insanlarla ünsiyyətin məhdudiyyəti, uşaqlarla əlaqələrlə qadağa və s. (6) Zorakılığın bu formaları ailə çərçivəsində və ya yaxın əlaqədə olan insanlar arasında baş verdiyindən əksər vaxt belə hərəkətlər zorakılıq kimi dərk edilmir. Dünyanın çox ölkələrində ər tərəfindən (marital rape) arvadın zorlanması seksual zorakılıq kimi qəbul edilmir, çünki hesab edilir ki, ər öz arvadı ilə istediyi formada seksual münasibətlər hüququna malikdir.

### Məişət zorakılığının formaları

Zorakılığı törədən şəxslər (təcavüzkarlar) qurbanlara qarşı davranışın müxtəlif modellərindən istifadə edərək təsir altında saxlayırlar. Bunar aşağıdakılardır: psixoloji, onu mənəvi və ya emosional da adlandırırlar;iqtisadi;fiziki;cinsi;təqib (yeni anlayış)

Bəzi hallarda qəddarlıqla müşahidə edilən zorakılıq halını müxtəlif adlarla qiymətləndirsələr də, əslində həmin qiymətləndirmə dörd növdə təsnifatlanır. Məsələn, əgər qadın əri tərəfindən döyülüb, şikəst olursa, bu prosesdə fiziki güc tətbiq edildiyindən, bu fakt fiziki zorakılıq hesab edilir.

Bəzən fiziki güc tətbiq edilir ki, bu davranış nəticəsində qurban fiziki və psixoloji travmalar alır. Başqa halda, mənəvi təsirdən istifadə edilir ki, zorakılığın bu forması fiziki zədələr qoymasa da, amma qurbanlarını psixi vəziyyətinə çox ciddi təsir edir. Bundan başqa, zorakılığın müxtəlif formalarının tətbiqi kompleks şəkildə həyata keçirilə bilər. Belə ki, fiziki təsir tərəf müqabili üzərində hakimiyyətin və nəzarətin qurulması üçün istifadə edilirsə, psixoloji zorakılıq isə hakimiyyət və nəzarəti dəstəkləyir və gücləndirir, bərqərar edir.

Adətən, ailədə zorakılıq faktlarının vəziyyətinə dair aparılan araşdırmalar zamanı, respondetlər ailədə mövcud münasibətləri əsasən “yaxşı” göstəricisi ilə qiymətləndirir. Lakin müqayisəli təhlil göstərmişdir ki, qeyd edilən “yaxşı”, ənənəvi qaydalardan irəli gələn cavabdır və əslində ailə münasibətləri qeyd edilən dərəcədə də yaxşı deyil.

Belə araşdırmalar zamanı müəyyən edilir ki, ailədə qadınlara qarşı fiziki zorakılıq halları mövcuddur, lakin qadınlar bu halı tam gizli saxlamağa çalışırlar. Bəzi hallarda qadınlar fiziki zorakılığı özlərinin davranışından irəli gələn addım kimi qiymətləndirirlər. Qadınlar arasında “günahkarlıq sindromu” geniş yayılmış hal kimi qeydə alınır.

Ailədə zorakılığa məruz qalmış qadınlarda ürək çatışmamazlığı, kişilərdə qan təzyiqinin artımı müşahidə edilir.

### Fiziki zorakılıq

Zorakılığın ən geniş yayımış və təhlükəli formasıdır. Adətən zorakılığın bu forması ayrılıqda təsnifatlandırılsa da, əslində fiziki zorakılıqla psixoloji zorakılıq paralel tətbiq edilir. Qışqıraraq öldürmə hədəsini bildirən kişi fiziki zorakılığı tədbiq etmiş olur. Birinci halda, yəni fiziki zorakılıq etmiş kişinin hərəkətləri, hüquqi aspektdən cinayət kimi qiymətləndirilirsə, digər aspekt üzrə, yəni sözlə ifadə edilən öldürmək hədəsi, psixoloji zorakılıq halı kimi qiymətləndirilir.

**Cinsi zorakılıq**

Cinsi zorakılıq – zor, güc şantaj vasitəsilə cinsi münasibətlərə məcbur etmə, qadını qəbul edilməyən formada cinsi münasbətlərə təhrik etmədir. Baxmayaraq ki, cinsi zorakılıq ailədə tez-tez baş veriri, lakin əksər vaxt bu barədə danışılmır. Əslində ailə münasibətlərində cinsi zorakılıq cinayət hesab edilsə də, lakin bir çox qadınlar bu barədə məlumatlı deyil. Problemin kökündə gender stereotipləri dərin kök salıb. Məhz bu baxımdan hətta ailə münasbiətlərində cinsi zorakığa məruz qalmış qadınlar bunu dərk edərək qəbul edə bilmirlər.

Cinsi zorakılığın əlamətləri:

- Zərif hisslərin göstərilməsindən imtina, qəddar hərəkətlərin daha çox yer alması;
- Qadının istətinin əleyhinə olaraq, onun paltarının çıxarılmasının tələb edilməsi;
- İstəyinin əleyhinə cinsi əlaqəyə vadar edilmə, zorlama;
- Həyat yoldaşına fizki guc tətbiq etdikdən sonra, cinsi əlaqəyə məcbur etmə;
- Həyat yoldaşını başqaları ilə intim münasibətdə ittiham etmə;
- Poronoqrafiq materillara baxmaga vadar etmə, eləcə də həmin hərəkətləri təkrar etməyə məcbur etmə.

Qadınlar, fiziki zorakılığın tətbiqinin cinayət faktı olduğunu dərk etdiklərindən, kişilərini müdafiə məqsədi ilə məlumat verməkdən çəkinirlər. Lakin, istəyinin əleyhinə onunla cinsi əlaqədə olmanın cinayət faktı olduğunu dərk etmədiklərindən bu barədə sərbəst məlumat verirlər. Qadınlar belə düşünür ki, onlar kişinin əmlakıdır, ona məxsusdur və kişi istədiyi vaxt (hətta fiziki güc tətbiq etdikdən sonra belə) onunla istəyinin əleyhinə belə cinsi münasibətdə ola bilər. Bu adətdir, bu cinayət deyil(9). Ailə üzvlərindən qadının və ya kişinin istədiyi vaxt intim münasibətdə olmasını müəyyənləşdirərkən məlum oldu ki, kişilər ( qadınlardan fərli olaraq) istədiyi vaxt həyat yoldaşları ilə intim münasibətdə ola bilir).

Kişilər, ailədə tətbiq etdikləri fiziki zorakılıq hallarını cinsi zorakılıq zəminində tənzimləyərək, buna “sevgi” adı verirlər

Kişilərin bu davranışı ənənə kimi qiymətləndirilir. Çünki kiçik yaşlarından qızlara belə tərbiyə verilir ki, qadın kişiyə tabedir və onun istəkləri müzakirə edilmədən yerinə yetirilməlidir.

Ümumilikdə, belə qənaətə gəlmək olar ki, həm kişilər, həm də qadınlar ailədə mövcud olan zorakılıq hallarını, ənənə kimi qiymətləndirir və onun dəyişməsinə cəhd göstərmir.

**Psixoloji zorakılıq**

Psixoloji zorakılıq, ailədaxili zorakılığın ən geniş yayılmış formalarından biridir. Ərin arvadına qarşı müxtəlif formada həyata keçirdiyi təpgilər, bəzən fiziki güc tətbiq edilmədən də həyata keçirilir.

Psixoloji zorakılıq dedikdə - sözlə ifadə edilən, təhqir, şantaj, uşaqlara qarşı zorakılığı tətbiqi və ya uşaqlardan zorakılıq vasitəsi kimi sui-istifadə, uşaqlar vasitəsilə zorakılıq tətbiq edilən şəxs üzərində nəzarətin qurulması, intihar hədis ilə təsir etmə, ev heyvanlarına qarşı zorakılıq tətbiq etməklə təsir etmə, təqib, qurbanın fəaliyyətinə nəzaət, zərərçəkmişin ünsiyyət dairələrinə nəzarət, qrubanın sosial xidmət resurslarına nəzarət ( sosial yardımın alınması, həkimə müraciət, təhsil, dostları ilə ünsiyyət və s) , qurbanı onu alcaldan hərəkətlərə vadar etmə, qurbanın gündəlik həyat tərzinə nəzarət və s. Zorakılığı bu növünün davamlılığı qurbanı posttravmatik stressə, depressiyalara, qorhu və həyacan hissinə və özünəqəsdə gətirib çıxara bilir. Zorakılığın bu növü xroniki xəstəliklərlə nəticələnə bilir.

Kişi evdə müxtəlif bəhanələrlə qadına psixolji təpgilər göstərərək, öz qaydalarını qoyur, qadını bütün hüquqlarından məhrum edir(9). Belə ailə diktatorunun sosial cizgiləri aşağıdakı kimi qimyətləndirilir:

- ilk növbədə ədalətlilik məhfumu aşılanır; ikinci, belə kişilərdə özünüqiymətləndirmə səviyyəsi aşağı olur; üçüncü, bütün zorakı vasitələrlə o hakimiyyətə can atır.

Qeyd edilən tip kişilər intellektual cəhətdən adətən zəif olsa da, onlarda daxili komplekslər olduqca güclü olur. Zorakılıq həyata keçirən kişi, qeyri-şüuri olaraq tərəf müqabilinin daha güclü ola biləcəyi və onun zəiflyini aşkarlayacağından ehtiyatlanır. Törətdiyi zorakılığı gizli saxlamağı tələb edən kişi, etdiyi əməlin aşkarlanması və

qadının başqaları tərəfindən müdafiə edilməsini arzulamır.

Əri tərəfindən qadına qarşı sözlə ifadə edilən mənəvi zorakılıq halları, demək olar ki, bütün dünya xalqlarında müxtəlif zərb misallarda əks edilib. Nəzərinizə çatdırmaq istərdik ki, bəzən sözlə ifadə edilən mənəvi zorakılıq öz təsirinə görə fiziki zorakılığı üstələyə bilir. Azərbaycan kişiləri ailə üzvw olan qadına qarşı işlətiyi ifadələrə diqqət yetirək: " qadının ağlı, toyuğun ağlı qədərdir", yaxud, "yaxşı at özünə qamçı vudurmaz". Bu ifadələr qadını alşağılamaqla yanaşı onu dəyərsizləşdirir. Bəzən isə, kişilər bu ifadələri qohum və qonşuların toplaşdığı məclislərdə belə səsləndirməkdən çəkinmirlər.

Sözlə ifadə edilən zorakılığa misal olaraq: "pis arvadsan", "məni başa düşmürsən, "qayğıma qalmırsan", "ağılsız", "axmaq", "səni qandıra bilmədim", "çirkinsən", " nə qündəsən", "qocasan", "geri qalıbsan", "xalxın arvadlarına bax, gözünə su ver", "yemək bişirə bilmirəsn", "mənə tay deyilsən", "əlindən bir iş gəlmir","məndən başqa heç kimə lazım deyilsən", "sən gərək papağını göyə atasan ki, mən səni aldım", "səni məndən başqa heç kim almazdı", "sənə yazığım gəldi aldım".

Azərbaycanda kişinin qadına sözlə ifadə etdiyi zorakılığın ən bariz nümunəsi "aldım" ifadəsidir. Bu ifadə, qadını alış veriş obyektini çevirmklə yanaşı, onun tam hüquqsuzluğundan xəbər verir(8).

Qadının təhsilini, işini, karyerasını davam etdirməyə qadağa qoyan kişi, onun intelektual inkişafına ciddi təsir göstərir. Arvadının təhsilini, işini, karyerasını davam etdirməyə qadağa qoyan ər, üstəlik onu fiziki və psixoloji zorakılığın tətbiqi ilə hədələyir. Qeyd edilən hədələri, psixoloji zorakılığın, fiziki zorakılığa keçid fazası kimi qiymətləndirmək olar.

**İqtisadi zorakılıq**

Zorakılıq nəzarət və hakimiyyəti saxlamaq üçün vasitədir. Nəzarət və hakimiyyəti işə salan mexanizmlərdən biri isə iqtisadi zorakılıqdır. İqtisadi zorakılıq ailədə qadını birbaşa asılı vəziyyətdə saxlayan bir vasitədir. Həyat yoldaşlarını iqtisadi asılı vəziyyətə salmaqla, öz hakimiyyətini qoruyub saxlamaq həm varlı, həm kasıb ailələrin kişilərinə məxsusdur(8).

İqtisadi zorakılıq aşağıdakı formalarda ifadə edilə bilər: uşaqların saxlanılmasından imtina, gəlirin gizlədilməsi, ailə büdcəsini yalnız şəxsi ehtiyacları üçün istifadə etmə, evin maliyyə xərcləri ilə bağlı qərarların sərbəst qəbulu, ailə üzvlərinin xərcləri üzərində ciddi nəzarət; və s. Əksər vaxt qadınlar bir sıra sbəblərdən ərindən iqtisadi cəhətdən asılı vəziyyətə düşür. Məsələn, uşaqların dünyaya gələməsi, ər tərəfindən əmək fəaliyyəti ilə məşğul olmağa qadağa, əmək bazarında ayrı seçkilik və s.

Kasıb ailələrə məxsus olan qadınlar üçün iqtisadi asılılıq daha kəskin fəsadlarla nəticələnir. Belə ki, ailələrdə baş verən zorakılıq hallarının kəskin həddə çatmasına baxmayaraq, onlar boşanmaq üçün müraciət etməkdən çəkinirlər. Kasıb ailələrdə qadını iqtisadi asılı saxlamaq və öz hakimiyyətini qoruyub saxlamaq üçün kişilər həyat yoldaşının işləməsinə maneə yaradır. Həm kasıb, həm də varlı ailələrdə, iqtisadi zorakılıq qurbanı olanlar, ərindən ev xərcləri alarkən, həmin xərclər barədə hər gün hesabat verməyə borcludur. Iqtisadi zorakılıq, zorakılığın digər formaları kimi latent baş verir. Bu barədə ailənin hər iki üzvü susmağa üstünlük verir.

Əmək fəaliyyəti ilə məşğul olan qadınlar belə əri tərəfindən iqtisadi zorakılığa məruz qala bilər. Belə ki, onların qazancı əri tərəfindən nəzarət edilə və ya mənimsənilə bilər.

Uşaqlardan istifadə etməklə quban üzərində nəzarətin qurulması zorakılığın ayrıca bir növü sayıla bilər. Bəzən evin kişi üzvləri zorakılığın tətbiqində uşaqları vasitəçi roluna çevirə bilir(6). "Arvadınızdan pul istədiyiniz vaxtlar olurmu?" sualına kişilər arasında "çox nadir hallarda" cavabını verənlər adətən üstünlük təşkil edir. "Hərdən" pul verdiklərini qeyd edənlər də nadir hallarda pul verənlər paralel gedir. Kişilər adətən, pulun həmişə onlarda olduğunu bildiri. Bu ona dəlalət edir ki, kişilər pulu əldə saxlamaqla öz üstünlüklərini əldə etməklə yanaşı, qadınlar iqtisadi cəhətdən tam asılı edirlər.

Həyat yoldaşlarını iqtisadi asılı saxlamaq siyasətini yeridən kişilər bunu belə əsaslandırırlar: "qadının işi heç kimə lazım deyil, o işə yalnız çay içməyə gedir".

Bir qism kişilər isə, “arvadını evdən qovmaq, pulsuz qoymaq və aliment verməməklə hədələməklə” hakimiyyətini onların əlində olduğunu gizlətmirlər.

qtisadi zorakılığın bir vasitəsi də, qadınlar tərəfindən ailə zənbilinin idarə edilməsində sərbəstliyə yol verilməməyidir. Yəni, qadına verilən pulların hesabatının aparılması. Hətta evin kişisi, ailənin gündəlik xərclərinə dair arvadına verdiyi xərcliyi nəzarət altında saxlayır(10).

Təqib (Stalking) yalnız son zamanlar zorakılığın yeni forması kimi tanınmışdır. Zorakılığın bu növü qurbanlar üçün ciddi təhlükə hesab edilir.

Ailədə zorakılıqdan əziyyət çəkən qadınların vəziyyətinə diqqətin ayrılması, onların cəmiyyətdə bərabər hüquqlu iştirakını təmin etmək məqsədi daşıyır. Ailə üzvlərinin, əlalxüsus da uşaqların fizki və zehni inkişafı üçün ailənin idarə edilməsində qadının iştirakı vacib amildir. Ailədə zorakılığa məruz qalan qadın tez-tez depressiyaya düşür, sağlamlığında problemlər yaranır, intihara meyilli olur. Belə qadınların fiziki və intelekt inkişafı geriləyir. Bu isə bir başa uşaqların inkişafına təsir göstərir.

**Açar sözlər:** *Məişət zorakılığı, gender əsaslı zorakılıq, məişət zorakılığının formaları.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Qadınların Hüuqularının İnteqrasiyası və Gender Perspektivləri: Qadınlara Qarşı Zorakılıq, Birləşmiş Millətlər Təşkilatının İnsan Haqqları Komissiyası (E/CN.4/2003/75/Əlavə.1) (27 Fevral, 2003).*

*2. Qadınlara Qarşı Zorakılıq Üzrə Xüsusi Məruzəçinin 1997-ci il Hesabatı, İnsan Hüquqlarının və Əsas Hüquqların Səmərəli Təmin Olunması Üzrə Birləşmiş Millətlər Təşkilatı Sistemi Daxilində Yanaşmalar, Yollar və Vasitələr. (E/CN.4/1997/47), 12 Fevral, 1997.*

*3. “Ailə-Məişət Zorakılığının sosial-iqtisadi aspektləri”, Bakı-2014*

*4. Azərbaycanda Zorakılıq və Qadınlar, Beynəlxalq Xilasetmə Komitəsi, (PDF, 40 səh.)*

*5. http://intranet.theirc.org/docs/IRC%20Azerbaijan%20VAW%20Assessment%20June%20 2004%20English.pdf*

*6. Media-monitorinq “Qadınlara qarşı Zorakılıq”, Azərbaycan Gender İnformasiya Mərkəzi (Aprel, 2003) (http://www.gender-az.org/shablon_en.shtml?doc/en/library/reserch/monitoring)*

*7. ÜST, London School of Hygiene and Tropical Medicine, 2010.*

*8. http://dergipark.ulakbim.gov.tr/spcd/article/viewFile/5000108037/500010074*

*9. https://www.nap.edu/read/11183/chapter/6*

*10. https://learn.nursing.jhu.edu/instruments-interventions/Danger%20Assessment/index.html*

**Мафтуне Исмаилова**

**Бытовое насилие по гендерному признаку**

**РЕЗЮМЕ**

В статье рассматриваются аспекты бытового насилия, а также гендерного насилия в семье. Анализируются определения гендерного насилия и бытового насилия. Автор анализирует формы бытового насилия и показывает их проявления. В нем также комментируется значимость бытового насилия по признаку пола.

**Ключевые слова:** *бытовое насилие, гендерное насилие, формы бытового насилия.*

**Maftuna Ismailova**

**Gender-based domestic violence**

**ABSTRACT**

The article explains domestic violence, and the aspects of gender-based violence. The definition of gender-based violence and domestic violence is analyzed. The author also explains the types of domestic violence and explains how they appear. In addition, the article shows the actuality of gender-based violence.

**Keywords:** *domestic violence, gender-based violence, types of domestic violence*

UOT: 94(479.24), 930:314



# QARADONLU ƏHALİSİ

## (1926-cı il Ümumittifaq siyahıyaalınması materialları əsasında)

**ASƏF HACIYEV**
*Bakı Dövlət Universiteti, tarix üzrə fəlsəfə doktoru*
*E-mail: asafhajiyev@rambler.ru*

Qaradonlu İmişli rayonunun ən qədim yaşayış mərkəzlərindən biri hesab edilir. (İmişli toponimi isə İmaşlı, İbişli türk tayfasının adını özündə əks etdirir. Həmçinin, rus mənbələrində "Emişli" - adıyla göstərilir. Bundan başqa İmişli qədim Hun dilində "sulu yer", qədim türk dilində isə İmeşli- yəni, iki çay arası mənalarında işlədilir. İm və Eş qədim türk dilində çay-orta anlamındadır.) Hələ çar Rusiyası dövründə yaradılmış Qaradonlu əvvəllər Salyan sonra isə Cavad qəzalarının ərazisinə daxil olub.1930-cu ildə Azərbaycan SSR-də qəza inzibati ərazi vahidləri ləğv edilərək onların ərazisində rayonlar yaradıldı. Bundan sonra Qaradonlu 1930-cu il avqustun 8-də yaradılmış İmişli rayonunun ərazisinə daxil edilir. Rayon 19 iyul 1938-ci il tarixinə kimi indiki Qaradonlu kəndinin adıyla Qaradonlu adlandırılmışdır.

Qaradonlu sözünün etimalogiyası ilə bağlı bir necə versiya var. Tarixdən məlumdur ki, Hun imeratorlarının 9-cu nəslindən olan Balamir xan 400-cü ildə vəfat etdikdən sonra onun oğlu Ulduz xan imperator olur. 410-cu ildə isə Ulduz xanın vəfatından sonra imperyaya onun oğlu qara geyimli Qaradon başçılıq edir. Bəzi tədqiqatcılar bu adı Qaradonun adı ilə bağlayırlar. Onlar fikirlərini belə əsaslandırırlar ki, guya 410-415-ci illərdə qoşunlarının başında Azərbaycana gələn Qaradon bu ərazidə olmuş, onun cadır qurub muvəqqəti yaşadığı yer sonralar Qaradonlu adlanmağa başlanmışdır [4].

Qaradonlu sözünün qədim mənası-"qarapaltarlı", "qara geyimli" anlamını da verir və Qaradonun adı ilə əlaqələndirilir. Başqa bir versiyaya gorə Qaradonlu Şahsevən tayfa ittifaqına daxil olan eyni adlı tayfanın burada məskunlaşması nəticəsində yaranmışdır. "Qaradonlu" adı qədim tarixcilərin, coğrafiyaşünasların və tədqiqatçı-alimlərin əsərlərində, eləcə də yol qeydlərində diqqəti çəkir. Qədim alban tarixçisi Musa Kalankatlı ozunun "Albaniya tarixi" adlı əsərində Karaton, Kara-tun coğrafi adlarını işlədir. Tədqiqtçılar belə hesab edirlər ki, Qaradonlu alban tarixçisinin xatırlatdığı "Kraton"un, "Kara-tun"un səsyozumu nəticəsində yaranmış variantıdır.

"Qaradonlu" adının mənşəyini qədim ədəbi abidəmiz olan "Kitabi Dədə-Qorqud"un "Qaradonlu kafirlər" personajı ilə əlaqələndirənlər də vardır. Bu versiyanı söyləyənlərin fikirlərinə gorə, bu əraziyə qaradonlu kafirlər tez-tez hucum edir, əhalinin var-yoxunu, qazandıqları sərvətlərini capıb-talayıb aparırdılar. Məhz bu yerdə duşmənlərin talançı basqınlarının qarşısı alınmış, yerli sakinlərin "qaradonlu" adlandırdıqları duşmənlərin dərsi verilmişdir. Həmin vaxtdan da ərazi Qaradonlu adlanmağa başlanmışdır [4].

Qaradonlu tarixin ayrı-ayrı dönəmlərində böyük sərkərdələrlə, qüdrətli hökmdarlarla qarşı-qarşıya gəlib. Bu baxımdan Ağqoyunlu dövlətinin başçısı Uzun Həsənin anası Sara xatunun Teymuri Əbu Səidlə Qaradonlu yaxınlığında danışıqlar aparması tarixi faktdır.

Xanlıq dönəmində Talış xanlığının tərkibində - bir hissəsi Mustafaxanlı, bir hissəsi isə Kəbirli mahallarının tərkibində olmuşdur. XIX əsr rus qaynaqlarında, eləcə də çar Rusiyası donəmində Azərbaycanda aparılan kameral siyahılarda Qaradonlu və ona daxil olan yaşayış məntəqələri haqqında bilgilər vardır.

Qaradonlunun mənşəyini vaxtı ilə bu ərazidə movcud olan "Qardon" zastavasının adı ilə bağlayanlar da var. Qaradonlu əvvəllər Bakı quberniyasının Cavad qəzasına (Qeyd: rus çarı II Aleksandrın (1855-1881) Zaqafqaziya və Qafqaz diyarının idarəçiliyinin dəyişdirilməsi haqqında 1867-ci il 9 dekabr tarixli fərmanına əsasən, 1868-ci ilin fevralında Bakı quberniyasının daxilində Cavad qəzası yaradılır. 1920-ci ildə Cavad qəzası Azərbaycan SSR-in tərkibinə daxil olmuş və Salyan qəzası adlandırılmışdır. Salyan qəzası 1929-cu ildə

ləğv edilmişdir), sonralar isə Salyan qəzasına daxil idi.

Qaradonlu əhalisi haqqında 1926-cı il məlumatlarını verməzdən öncə 1886-cı il siyahıyaalınması dövründə Bakı quberniyası Cavad qəzası Rəsullu kənd birliyinə daxil olan Çahar-Qaradonlu və Qara Qaradonlunun əhalisi barədə məlumat verməyimiz daha dolğun olardı. Belə ki, 1886-cı il siyahıyaalınmasına görə, Çahar-Qaradonlu kəndində 44 ev (tüstü) olmuşdur ki, burada yaşayan əhalinin ümumi sayı 212 nəfər təşkil edirdi. Bunların da 117 nəfəri (55,1faiz) kişi, 95 nəfəri (44,9 faiz) isə qadın cinsinə mənsub idi. Digər Qara Qaradonlu kəndində isə 33 ev (tüstü) vardı. Bu kəndin əhalisinin sayı isə 159 nəfər təşkil edirdi ki, bunların da 86 nəfəri (54,1faiz) kişi, 73 nəfəri (45,9 faiz) isə qadın cinsinə mənsub idi [3]. (Cədvəl 1)

**1886-cı il siyahıyaalınmasına görə Qaradonlu əhalisinin sayı**

**Cədvəl 1**

| № | Yaşayış məntəqəsinin adı | Əhalinin ümumi sayı | Kişi | Qadın | Evlərin sayı (tüstü) |
|---|---|---|---|---|---|
| 1 | Çahar-Qaradonlu | 212 (100%) | 117 (55,1%) | 95 (44,9%) | 44 |
| 2 | Qara Qaradonlu | 159 (100%) | 86 (54,1%) | 73 (45,9%) | 33 |

*Mənbə: Azərbaycan Milli Arxiv İdarəsi. Fond 43, siyahı 2, iş 7358*

Dağıstan Respublikası Mərkəzi Dövlət Arxiv İdarəsinin 22-ci fondunda 1926-cı il Ümumittifaq əhali siyahıyaalınmasını araşdırarkən Salyan qəzasının tərkibinə daxil olmuş (1920-ci ildə Cavad qəzası Azərbaycan SSR-in tərkibinə daxil olmuş və Salyan qəzası adlandırılmışdır. Salyan qəzası 1929-cu ildə ləğv edilmişdir) Qaradonlunun əhalisi barədə məlumata rast gəldim. Həmin dövr üçün Qaradonlunun əhalisi 23.702 nəfər təşkil edirdi ki, onların da 12.784 nəfəri (53,9 faiz) kişi, 10.918 nəfəri (46,1 faiz) isə qadın cinsinə mənsub idi [5]. (Cədvəl 2).

**Qaradonlu əhalisinin sayı (1926-cı il Ümumittifaq əhali siyahıyaalınmasına görə)**

**Cədvəl 2**

| № | Yaşayış məntəqəsinin adı | Əhalinin ümumi sayı | Kişi | Qadın |
|---|---|---|---|---|
| 1 | Qaradonlu | 23.702 (100%) | 12.784 (53,9%) | 10.918 (46,1%) |

*Mənbə: Dağıstan Respublikası Mərkəzi Dövlət Arxiv İdarəsi. 1926-cı il Ümumittifaq əhali siyahıyalınması. Zaqafqaziya Sosialist Federativ Sovet Respublikası. Fond r-22, siyahı 23, iş 1 j,vərəq 74-75,104-105*

Qaradonlu əhalisinin etnik tərkibini araşdırarkən məlum olur ki, 1926-cı il siyahıyaalınmasına görə burada yaşayan 23.702 nəfər əhalinin demək olar 97,5 faizi, yəni 23.120 nəfəri türklərdən ibarət olub. Ruslar isə ümumi əhalinin 2,1 faizini, yəni 519 nəfərini təşkil edib. Diqqətə çatdırmaq yerinə düşərdi ki, rusları bu ərazilərdə məskunlaşdırmaqla imperiyanın əsas məqsədi inqilab əhval-ruhiyyəli insanları mərkəzdən uzaqlaşdırmaq və rusdilli əhali hesabına İranla sərhəddə "müdafiə zolağı" yaratmaq idi. (Qeyd: 9 noyabr 1906-cı il tarixli çar fərmanına uyğun olaraq "kəndli torpaq sahibkarları və torpaqdan istifadə haqqında" qanuna əsasən icmalar ləğv olunurdu və kəndlilərə şəxsi istifadə üçün torpaq sahələri verilirdi. Rusiyanın nazirlər sovetinin sədri Pyotr Stolıpinin aqrar islahatları nəticəsində bu yerlərdə-Poltavka, Suvorovka və Semyonovka kəndləri yaradıldı. Hazırda həmin kəndlər müvafiq olaraq-Aranlı, Hacırüstəmli və Qızılkənd adlanır). Sonrakı yerdə Qaradonlu əhalisinin 23 nəfərini (0,09 faiz) ermənilər, 9 nəfərini (0,03 faiz) ləzgilər, 6 nəfərini (0,02 faiz) gürcülər, 4 nəfərini (0,01 faiz) ukraynalılar, 1 nəfərini (0,004 faiz) almanlar, 1 nəfərini (0,004 faiz) isə tatarlar təşkil edirdi [5]. (Cədvəl 3).

**Qaradonlu əhalisinin etnik tərkibi (1926-cı il Ümumittifaq əhali siyahıyaalınmasına görə)**

**Cədvəl 3**

| № | Etnoslar | Əhalinin ümumi sayı | Kişi | Qadın | Əhalinin ümumi faizi |
|---|---|---|---|---|---|
| | | 23.702 | 12.784 | 10.918 | 100% |
| 1 | Türklər | 23.120 | 12.414 | 10.706 | 97,5% |
| 2 | Ruslar | 519 | 316 | 203 | 2,1% |
| 3 | Ermənilər | 23 | 21 | 2 | 0,09% |
| 4 | Ləzgilər | 9 | 9 | - | 0,03% |
| 5 | Gürcülər | 6 | 4 | 2 | 0,02% |
| 6 | Ukraynalılar | 4 | 3 | 1 | 0,01% |
| 7 | Almanlar | 1 | 1 | - | 0,004% |
| 8 | Tatarlar | 1 | 1 | - | 0,004% |

*Mənbə: Dağıstan Respublikası Mərkəzi Dövlət Arxiv İdarəsi. 1926-cı il Ümumittifaq əhali siyahıyalınması. Zaqafqaziya Sosialist Federativ Sovet Respublikası. Fond r-22, siyahı 23, iş 1 j,vərəq 74-75,104-105*

Yuxarıda qeyd etdik ki, Qaradonlu əhalisinin 1926-cı ildə sayı 23.702 nəfər təşkil edib. Bu əhalinin 23.120 nəfəri türk dilində danışıb. Rus dilində danışan əhalinin sayı isə 526 nəfər təşkil edib. Erməni dilində danışanlar 22 nəfər, ləzgi dilində danışanlar 13 nəfər, gürcü dilində danışanlar 6 nəfər, ukrayna dilində danışanar 2 nəfər, alman və tatar dillərində danışanlar isə müvafiq olaraq 1 nəfər təşkil edib [5]. (Cədvəl 4).

**Qaradonlu əhalisinin danışıq dili (1926-cı il Ümumittifaq əhali siyahıyaalınmasına görə)**

**Cədvəl 4**

| № | Danışıq dili | Əhalinin ümumi sayı | Kişi | Qadın | Əhalinin ümumi faizi |
|---|---|---|---|---|---|
| | | 23.702 | 12.784 | 10.918 | 100% |
| 1 | Türk dili | 23.120 | 12.413 | 10.707 | 97,5% |
| 2 | Rus dili | 526 | 319 | 207 | 2,2% |
| 3 | Erməni dili | 22 | 20 | 2 | 0,09% |
| 4 | Ləzgi (Kürin) dili | 13 | 13 | - | 0,03% |
| 5 | Gürcü (Kartvel) dili | 6 | 4 | 2 | 0,02% |
| 6 | Ukrayna dili | 2 | 2 | - | 0,01% |
| 7 | Alman dili | 1 | 1 | - | 0,004% |
| 8 | Tatar dili | 1 | 1 | - | 0,004% |

*Mənbə: Dağıstan Respublikası Mərkəzi Dövlət Arxiv İdarəsi. 1926-cı il Ümumittifaq əhali siyahıyalınması. Zaqafqaziya Sosialist Federativ Sovet Respublikası. Fond r-22, siyahı 23, iş 1 j,vərəq 74-75,104-105*

Qaradonlu əhalisinin yaş tərkibini araşdırarkən müəyyən etdik ki, 23.702 nəfər əhalinin 20-60 yaş arası, eyni zamanda 60 yaşdan yuxarı daha çoxluq təşkil edib. Belə ki, 20-24 yaşlı əhalinin sayı 1.492 nəfər (718 nəfər kişi, 774 nəfər qadın), 25-29 yaşlı əhalinin sayı 1.934 nəfər (902 nəfər kişi, 1.032 nəfər qadın), 30-39 yaşlı əhalinin sayı 3.502 nəfər (1.839 nəfər kişi, 1.663 nəfər qadın), 40-49 yaşlı əhalinin sayı 2.322 nəfər (1.342 nəfər kişi, 980 nəfər qadın), 50-59 yaşlı əhalinin sayı 1.318 nəfər (722 nəfər kişi, 596 nəfər qadın), 60 və yuxarı yaşlı əhalinin sayı isə 2.105 nəfər (1.041 nəfər kişi, 1.064 nəfər qadın) olub [5]. (Cədvəl 5).

**Qaradonlu əhalisinin yaş tərkibi və təhsil səviyyəsi (1926-cı il Ümumittifaq əhali siyahıyaalınmasına görə)**

**Cədvəl 5**

| № | Yaş | Əhalinin ümumi sayı | Kişi | Qadın | Təhsil alan | |
|---|---|---|---|---|---|---|
| | | 23.702 | 12.784 | 10.918 | Kişi | Qadın |
| 1 | 1 yaşa qədər | | 289 | 270 | - | - |
| 2 | 1 yaş | | 447 | 417 | - | - |
| 3 | 2 yaş | | 677 | 659 | - | - |
| 4 | 3 yaş | | 685 | 607 | - | - |
| 5 | 4 yaş | | 524 | 406 | - | - |
| 6 | 5 yaş | | 521 | 431 | - | - |
| 7 | 6 yaş | | 350 | 282 | - | - |
| 8 | 7 yaş | | 381 | 232 | 8 | - |
| 9 | 8 yaş | | 430 | 249 | 19 | - |
| 10 | 9 yaş | | 155 | 113 | 9 | 1 |
| 11 | 10 yaş | | 446 | 213 | 22 | - |
| 12 | 11 yaş | | 55 | 36 | 5 | - |
| 13 | 12 yaş | | 355 | 163 | 34 | 2 |
| 14 | 13 yaş | | 92 | 44 | 11 | 2 |
| 15 | 14 yaş | | 135 | 80 | 15 | - |
| 16 | 15 yaş | | 287 | 138 | 23 | 2 |
| 17 | 16 yaş | | 110 | 105 | 18 | 2 |
| 18 | 17 yaş | | 65 | 71 | 10 | 1 |
| 19 | 18 yaş | | 172 | 223 | 15 | 3 |
| 20 | 19 yaş | | 44 | 59 | 8 | 4 |
| 21 | 20-24 yaş | | 718 | 774 | 118 | 10 |
| 22 | 25-29 yaş | | 902 | 1032 | 101 | 11 |
| 23 | 30-39 yaş | | 1839 | 1663 | 150 | 11 |
| 24 | 40-49 yaş | | 1342 | 980 | 74 | 5 |
| 25 | 50-59 yaş | | 722 | 596 | 40 | - |
| 26 | 60 yaş və yuxarı | | 1041 | 1064 | 35 | - |
| 27 | Yaşı məlum olmayan | | - | 11 | - | - |
| **28** | **Yekun təhsilli olanlar** | | | | **715 nəfər (5,5%)** | **54 nəfər (0,4%)** |

*Mənbə: Dağıstan Respublikası Mərkəzi Dövlət Arxiv İdarəsi. 1926-cı il Ümumittifaq əhali siyahıyalınması. Zaqafqaziya Sosialist Federativ Sovet Respublikası. Fond r-22, siyahı 23, iş 1 j,vərəq 74-75,104-105*

Əhalinin bu dövr üçün təhsil səviyyəsini də araşdırmaya cəlb etdik. Belə ki, Qaradonlu əhalisi arasında 1926-cı il siyahıyaalınmasına görə, təhsil alanların ümumi sayı 769 nəfər göstərilib. Belə ki, 5 saylı cədvəldə təhsil alan əhalinin 715 nəfərinin kişi cinsinə, 54 nəfərinin isə qadın cinsinə mənsub olduğunu aydın şəkildə görürük. Təhsil alan əhalinin yaş bölgüsünə gəldikdə isə bu aşağıdakı kimidir. Əhalinin 7 yaşlılar arasında təhsil alanların sayı - 8 nəfər (hamısı kişi cinsinə mənsub), 8 yaşlılar arasında 19 nəfər (hamısı kişi cinsinə mənsub), 9 yaşlılar arasında 10 nəfər (9 nəfər kişi, 1 nəfər qadın cinsinə mənsub), 10 yaşlılar arasında 22 nəfər (hamısı kişi cinsinə mənsub), 11 yaşlılar arasında 5 nəfər (hamısı

kişi cinsinə mənsub), 12 yaşlılar arasında 36 nəfər (34 nəfər kişi, 2 nəfər qadın cinsinə mənsub), 13 yaşlılar arasında13 nəfər (11 nəfər kişi, 2 nəfər qadın cinsinə mənsub), 14 yaşlılar arasında 15 nəfər (hamısı kişi cinsinə mənsub), 15 yaşlılar arasında 25 nəfər (23 nəfər kişi, 2 nəfər qadın cinsinə mənsub), 16 yaşlılar arasında 20 nəfər (18 nəfər kişi, 2 nəfər qadın cinsinə mənsub), 17 yaşlılar arasında 11 nəfər (10 nəfər kişi, 1 nəfər qadın cinsinə mənsub), 18 yaşlılar arasında 18 nəfər (15 nəfər kişi, 3 nəfər qadın cinsinə mənsub), 19 yaşlılar arasında 12 nəfər (8 nəfər kişi, 4 nəfər qadın cinsinə mənsub), 20-24 yaşlılar arasında 128 nəfər (118 nəfər kişi, 10 nəfər qadın cinsinə mənsub), 25-29 yaşlılar arasında 112 nəfər (101 nəfər kişi, 11 nəfər qadın cinsinə mənsub), 30-39 yaşlılar arasında 161 nəfər (150 nəfər kişi, 11 nəfər qadın cinsinə mənsub), 40-49 yaşlılar arasında 79 nəfər (74 nəfər kişi, 5 nəfər qadın cinsinə mənsub), 50-59 yaşlılar arasında 40 nəfər (hamısı kişi cinsinə mənsub), 60 və yuxarı yaşlılar arasında isə 35 nəfərdir (hamısı kişi cinsinə mənsub) [5].

Beləliklə, 1886-cı il siyahıyaalınması dövründə Bakı quberniyası Cavad qəzası Rəsullu kənd birliyinə daxil olan Çahar-Qaradonlu və Qara Qaradonlu-nun əhalisi barədə məlumat verərkən aydın olur ki, hər iki kənddə 77 ev (tüstü) və burada yaşayan əhalinin ümumi sayı 371 nəfər təşkil edib. 1926-cı il siyahıyaalınmasına görə Qaradonluda 23.702 nəfər əhali yaşadığının şahidi oluruq. Əhalinin 23.120 nəfəri etnik tərkib baxımından türklərdən ibarət olub. Qara-donlu əhalisi arasında 1926-cı il siyahıyaalınmasına görə, təhsil alanların ümumi sayı isə 769 nəfər təşkil edib.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan tarixi: Yeddi clddə. IV c. (XIX əsr). Baki: Elm, 2000, səh.508*

*2. Azərbaycan tarixi: Yeddi cilddə.V c. (1900- 27 aprel 1920). Baki: Elm, 2001, səh.672*

*3. Azərbaycan Milli Arxiv İdarəsi. Fond 43, siyahı 2, iş 7358*

*4. Ağayev O.V. İmişlinin elat tayfaları (Tərəkəmələr). Bakı-2013, səh.304*

*5. Dağıstan Respublikası Mərkəzi Dövlət Arxiv İdarəsi. 1926-cı il Ümumittifaq əhali siyahıyalınması. Zaqafqaziya Sosialist Federativ Sovet Respublikası. Fond r-22, siyahı 23, iş 1 j,vərəq 74-75,104-105*

*6. S.Hüseynoğlu, Ç.Bahaduroğlu. Tarix olduğu kimi: İmişli-80. Bakı-2010, səh. 282*

**Açar sözlər:** *Qaradonlu, əhali, siyahıyaalma, etnik tərkib.*

## Население Гарадонлу
## РЕЗЮМЕ

Согласно сведениям, полученным из источников относительно населения Чахар-Гарадонлу и Гара Гарадонлу, входящих в сельскую общину Расуллу Джеватского уезда Бакинской губернии в период переписи 1886 года, становится ясно, что в обоих селах было 77 домов, общее число населения, проживающих здесь, составляло 371 человек.

По данным переписи 1926 года, в Гарадонлу проживало уже 23 702 человек. По этническому составу 23 120 человека были тюрками. Согласно переписи 1926 года среди населения Гарадонлу, общее число получающих образование составляло 769 человек, из которых 715 – мужчины, 54 – женщины. Большинство среди получающих образование составляло население, входящее в возрастную группу 20-24, 25-29 и 30-39 лет.

**Ключевые слова:** *Гарадонлу, население, перепись, этнический состав.*

## Population of Garadonlu
## SUMMARY

Based on 1886 census records we obtained from the sources about populations of Chahar-Garadonlu and GaraGaradonlu included in Rasullu village union of Javad parish of Baku province, it is clear that there were 77 houses in both villages, with a total local population of 371 people. In accordance with 1926 census records, we can see that 23702 people inhab-itedGaradonlu. 23120 inhabitantswere ethnic Turks. Based on 1926 census among Garadonlu population, a total of 769 people were educated, out of which 715 were male and 54 were female. Majority of educated population were from 20-24, 25-29 and 30-39 age groups.

**Key words:** *Karadonlı, population, census, ethnic composition.*

UOT 94 (479.24)

# RUSİYA İMPERATOR TEXNİKİ CƏMİYYƏTİNİN BAKI BÖLMƏSİNİN MƏKTƏBLƏRİ

**MƏHBUBƏ HACIYEVA**
*Sumqayıt Dövlət Universitetinin Azərbaycan və Şərqi Avropa xalqları tarixi kafedrasının doktorantı, müəllim*

*E-mail: umid-hacizade@mail.ru*

1884-cü ildə Bakıda təsis edilmiş Neft Sənayeçiləri Qurultayı Şurasının XIX əsrin sonlarından başlayaraq həyata keçirdiyi xeyriyyə tədbirlərinin bir istiqamətini də mədəni-maarif təşkilatlarının, ocümlədən bir sıra məktəblərin açılması təşkil edirdi. Qurultayın fəaliyyəti ilə bağlı müxtəlif hesabatlarda hətta bəzi tədqiqat əsərlərində bu haqda müəyyən məlumatlar əldə etmək olar [1,s.244].

Bakı Bölməsinin açdığı texniki fəhlə kurslarının yerlərdə çalışan müxtəlif yaş qruplarına mənsub işçi və fəhlələr arasında praktik biliklərin yayılması, onların işlə təmin edilməsi və ya əmək şəraitlərinin yaxşılaşdırılmasına yardımçı olmaq baxımından əhəmiyyətli dərəcədə xidmətləri olmasına rəğmən, bu sahə indiyədək elmi dövriyyədən kənarda qalaraq tədqiq olunmamışdır.

Bakıda sənaye və istehsalın müxtəlif sahələrində buxar maşınları, qazma qurğuları, nasoslar, tartan qazma barabanları və digər yeniliklərdən kütləvi istifadə edilməsi zamanı “bu mexanizm və alətlərin iş xüsusiyyətlərinə və vərdişlərinə bələd olan mühəndis, işçi və mütəxəssislərin çatışmazlığı özünü açıq göstərirdi”[2]. Bu problemlərin həlli üçün “digər şəhər və ölkələrdən “mütəxəssislərin dəvət edilməsi”[8,s.63] iş prosesində ortaya çıxan nasazlıq hallarının aradan qaldırılması çoxlu maliyə vəsaiti, ən əsası isə vaxt itkisi ilə müşahidə edildiyi üçün ən qısa vaxtda həllini tələb edirdi. İmperiyanın böyük sənaye şəhərlərində problemin həlli yollarından biri kimi ali və orta texniki ixtisas məktəblərinin geniş şəbəkəsinin yaranması bu problemin həllinə xeyli kömək etmişdi.

Beləliklə, Bakı şəhəri və onun ətarfında yerləşmiş mədən və zavodlarda müxtəlif peşələrdə çalışmaq üçün Bakı Bölməsinin təşkilatçılığı və xərcləri hesabına XX əsrin ilk illərindən başlayaraq texniki kurslar açılır və burada həm ixtisas, həm də müəyyən biliklər verən ümumi fənlər tədris edilirdi. Bu kurslar bölmənin məktəbləri adlansa da, onlar bizim görməyə adət etdiyimiz qəza, şəhər və digər tipli məktəblərdən tam fərqli idi. Beləki bu məktəblərdə tədris müddəti 1 ilə yaxın, çox vaxt isə 7-8 ay davam edirdi.

Kurslar əsasən Bakı neft sahibkarları və iş adamlarının bölməyə verdikləri könüllü maliyyə vəsaitləri hesabına təşkil edilirdi və dərslər yalnız işdən sonra başlayırdı. XX əsrin əvvəllərində dünya iqtisadi böhranının iqtisadiyyatımıza təsirinin, xüsusilə də neft sənayesinə təsiri azalana qədər istehsalın neft və digər əsas sahələrində zəruri işçi qüvvəsinə, ilk növbədə müəyyən nəzəri biliyi və təcrübəsi olan fəhlələrə ehtiyacın ilbəil artdığı şəraitdə burjuaziyanının ayrı-ayrı nümayəndələrinin bölmənin tərkibindəki kursların fəaliyyətinə könüllü maliyyə dəstəyi göstərmələri təbii olaraq zavod və mədənlərdəki işçi əllərə tələbatı təmin etməyə xidmət edirdi.

Bu cür kursların təşkili və fəaliyyətinə Qafqaz tədris dairəsi tərəfindən ciddi nəzarət olunur və bölmə rəhbərliyinin dairəyə rəsmi müraciətinə müsbət cavab alındıqdan sonra onların fəaliyyətinə icazə verilirdi.

Bölmə yanında ilk bu cür kursların fəaliyyətinin əvvəli 1903/1904-cü dərs ilinə təsadüf edirdi. Bölmənin 1903-cü il 12 iyun tarixli müraciətinə müsbət cavab alındıqdan sonra bölmədə“kursların fəaliyyətinə rəhbərlik və nəzarət məqsədi ilə 12 üzvdən ibarət xüsusi komissiya da yaradılmışdı” [7,s.3].

Göstərilən tədris ilinin ilk yarısında bu komissiyanın üç iclasının keçirildiyi məlum idi. Bu

iclaslarda kursların fəaliyyətinin ilk addımlarının nəticələrinə qiymət verilmiş, yol verilmiş nöqsanların aradan qaldırılması, kursların işinin səmərəsinin artırılması üçün konkret qərarlar qəbul edilib, praktik yönümlü göstərişlər verilmişdi. Lakin bu o demək deyildir ki, komissiyanın qəbul etdiyi qərarların hamısı kurslarda tədrisin keyfiyyətinin artırılmasına yönəlmişdi. Bu mənada komissiyanın qəbul etdiyi bir qərar üzərində xüsusi dayanmaq istərdik. 1903/1904-cü tədris ilində kurslardakı dinləyicilərin dərslərə davam etməsində bəzən fasilələrə yol verməlarinə münasibət bildirən komissiyanın fikrincə bunun əsas səbəblərindən biri həm 2 həftəyə yaxın davam edən pasxa bayramı günlərinin kursların iş günləri hesab olunması idi. Komissiyanın qərarı ilə növbəti dərs illələrində kurslarda həmin günlər də qeyri iş günləri sayılmalı, bununla da bu sahədəki nöqsan aradan qaldırılmalı idi.

Bölmənin yaratdığı bu komissiyanın qəbul etdiyi qərarların hamısının səmərəli olması haqqında müxtəlif fikirlər ola bilər. Lakin hər bir halda bu qərarlar arasında elələri də olmuşdur ki, onlar həqiqətən kursların fəaliyyətinin sonrakı gedişinin təkmilləşdirilməsində müsbət rol oynamışdı. Komissiyanın qərarı ilə "hər bir tədris ilinin sonunda kursu başa vurmağa nail olan dinləyicilərə xüsusi anketlər paylanaraq" [7,s.39] onlardan cəmi 4 suala cavab vermələri tələb olunurdu:

1) Sizin fəhlələr üçün təşkil edilmiş bu kurslara qatılmağınızın səbəbi nədir?

2) Dərslərdən hansında siz vaxtlı - vaxtında iştirak etmisiniz, hansında etməmisiniz?

3) Hansı səbəblər sizin dərslərdə vaxtlı - vaxtında iştirak etməməyinizə, yaxud kursdan çıxıb getməyinizə gətirib çıxarmışdır?

4) Siz kurslarda oxumaqla öyrənmək istədiklərinizə nail ola bildinizmi? Əgər yoxsa, səbəbi nədir?

Anketlərdəki cavabların təhlili komissiyaya növbəti illərdə kursların fəaliyyətinin təkmilləşdirilməsinə kömək edirdi.

Yaşadığımız günlərdə orta ixtisas və ali təhsil müəssisələrində mütəmadi deyil, bəzi vaxtlarda anket sorğuları keçirilir. Fikrimizcə, hələ bir əsrdən çox əvvəl istifadə olunmuş bu forma və ya iş üsulunun təbii ki, bir xeyli təkmilləşdirilmiş formada, xüsusi olaraq qoyulmuş sualların artırılması və onların həm müəllimlərin, həm də bütövlükdə tədris müəssisəsinin fəaliyyətinin obyektiv və tam şəkildə qiymətləndirilməsinə kömək edəcək dərəcədə səmərəli şəklə salınması tədris prosesinin yaxşılaşmasına və daha yüksək nəticələr əldə edilməsinə təsirli kömək etmiş olardı.

Bu istiqamətdə digər vacib və təsirli vasitə isə dinləyicilərin təhsili başa vurub getməsindən sonra onlara artıq iş yerlərində yazılı anket sorğularının paylanması idi. Bu sorğularda qoyulmuş suallara cavabların təhlili həm real, həm də prakrik baxımdan olduqca əhəmiyyətli olaraq kursların fəaliyyətində mövcud olan irili-xırdalı bütün problem və qüsurları asanlıqla müəyyən etməyə imkan verirdi.

Sorğu-anketlərdəki cavabların təhlili nəticəsində ilk olaraq müşahidə edilmiş nəticələri belə xarakterizə edə bilərik:

- kurslardakı ustaların və digər dinləyicilərin xüsusi həvəs göstərdiyi və öyrəndiyi fənlər ilk olaraq rəsmxət və sonra isə hesab olmuşdu;
- cavablarda bu, xüsusi olaraq vurğulanmışdı ki, onların hər biri çertyojları əvvəlcə oxumağa, sonra isə özləri tərtib etməyi bacarmaq üçün bu fənni öyrənməyə üstünlük vermişdilər;
- sorğu edilənlərin təxminən yarısı bildirmişdi ki, onlar bura gəlməklə məqsədlərinə nail ola bilməsələr belə, hər halda müəyyən nəzəri məsələləri və praktik vərdişləri mənimsəyə bilmişlər;
- dinləyicilərin bir qrupu bildirmişdi ki, onlar kursa gəlməklə məqsədlərinin hamısına nail ola bilməsələr belə, hər halda müəyyən nəzəri məsələləri və praktik vərdişləri mənimsəyə bilmişlər;
- dinləyicilərin özlərinin etiraf etmələrindən aydın olur ki, onların kursun gedişində öz məqsədlərinə tam nail ola bilməmələrinin əsas səbəbi dərslərə davamiyyətli qoşula bilməmələri olmuşdur. Belə ki, kursa qoşulan ustalar çox vaxt iş saatı bitdikdən sonra belə müdiriyyət tərəfindən iş yerlərində qeyri–qanuni şəkildə qalmağa məcbur edilirdi və onlar da dərslərə gəlib çata bilmirdilər.

Kursların fəaliyyətinin nəticələrinin bu formada birbaşa təhlili yol verilmiş nöqsanların səbəblərini müəyyən etməyə imkan verirdi. Doğrudur, bu cavablar içərisində başqa müxtəlif izahlar da var idi. Lakin onlar bir və ya iki, çox az halda üç olsa da tam təsadüfi, həm də inandırıcı deyildi.

Bütün bu deyilənlərdən belə nəticəyə gəlmək olar ki, növbəti dərs ilində rəsmxət fənninin öyrənilməsinə, bunun üçün də ilk olaraq bu fənnə ayrılan saatların miqdarının artırılması, dinləyici ustaların özlərində birbaşa naturadan çertyojların tərtib edilməsi bacarıqları formalaşdırılması daha üstün tədris vasitəsi sayılmalı idi.

Ümumiyyətlə, bölmədəki kursların fəaliyyəti ilə əlaqədar müəyyən məqamlar bu gün də diqqəti cəlb edir və deyərdik ki, bu günkü şəraitlə səsləşir. Bölmənin kursların fəaliyyətinin təbliğ etmək sahəsindəki fəaliyyəti belə vacib məqamlardan biri idi. Belə ki, hər il sentyabrın əvvəllərində Bakıda nəşr olunan yerli qəzetlərdə bölmənin kurslarında hansı peşələr üzrə və fənlər əsasında məşğələlərin keçiriləcəyi, onların məqsədləri haqqında bildirişlər dərc olunurdu. Bundan əlavə “Bakı və onun yaxınlığındakı bütün zavod və fabriklərə bölmənin kurslarında dərslərin sentyabrın 20-dən başlaması haqqında yazılı bildirişlər də göndərilirdi”[7,s.6].

Dinləyicilərin kurslara qəbulu qəzetlərdə əvvəlcədən elan vasitəsi ilə bildirilir və sonra sadələşdirilmiş qaydalar əsasında həyata keçirilirdi [5, s.4].

Dərslər həftənin ilk beş günündə, işdən sonra axşam saat 7.30 - 9.30 arasında keçirilirdi və dinləyicilər 15 yaşdan az olmayan, yazıb-oxumağı bacaran şəxslər sırasından seçilirdi.

Kurslar fəaliyyətə başladığı ilk tədris ilində cəmi 4 fənn - rəsmxət, riyaziyyat, buxarla işləyən qazanx-analara qulluq göstərilməsi, rəssamlıqdan dərslər keçilirdi. Lakin sonrakı illərdə kurslarda öyrədilən peşələrin sırası genişləndikcə, burada “ocaqçı”, “qaynaqçı”, “maşinist”, “tornaçı”, “çilingər” və digər peşələrin öyrənilməsinə kömək məqsədilə bəzi əlavə fənlərin tədrisinə başlanılmışdı.

Deməliyik ki, bölmə daxilindəki kursların fəaliyyəti ilə bağlı bütün məsələlər bölmədə xüsusi təşkil edilmiş komissiya və kursların administrasiyası tərəfindən tam incəliklərinə qədər nəzarətdə saxlanılırdı. Toplanılmış vəsait, onun xərclənməsi, kurslar üçün alınan dərs kitabları və digər tədris vasitələri, dərslərin keçirildiyi binaların saxlanması, müəllimlərin və texniki xidmət işçilərinin maaşları, bir sözlə, kursların fəaliyyəti ilə bağlı bəzən əhəmiyyətsiz sayılan bütün məsələlər daim diqqət mərkəzində idi. Bu məsələlər Bölmənin fəaliyyətinin bütün tərəflərini əhatə edən illik hesabatlarda da əks edilirdi. Yalnız iki dəfə - “1905-ci və 1912-ci illərdə bölmədəki bütün kursların fəaliyyəti ilə bağlı hesabatlar, komissiyaların iclaslarının protokolları və digər mühüm rəsmi sənədlər ayrıca kitabça formasında çap edilmiş”[7;183], qalan illərdə isə Bakı Bölməsinin illik hesabatlarında xüsusi cədvəllərdə verilmişdir. Bütövlükdə onların hər biri bölmə kurslarının fəaliyyətinin nəticələri ilə tanışlıq üçün imkanlar yaradır.

1904/1905-ci tədris ilində bölmənin kurslarına eyni vaxtda 2-3 və bəzən də 4 bölməyə yazılmaq imkanı verilməklə 129 dinləyici yazılmışdı. Apardığımız hesablamalardan aydın olur ki, “müraciət edənlərdən eyni vaxtda 4 fənn öyrənmək arzusunda olanlar 32, 3 fənn üzrə 44, 2 fənn üzrə 29 və bir fənn üzrə 24 dinləyici olmuşdu”[7,s.23].

Kurslarda təhsillə bağlı başqa bir maraqlı məsələ bura gələnlərin iş yerləri və ya hansı zavod, fabrik və emalatxanalardan gəlmələri idi. Dinləyicilərin bəhs edilən tədris ilində təmsil etdiyi 44 müəssisə idi və hər müəssisəyə orta hesabla 29 dinləyici düşürdü. Ancaq bu müəssisələrdən gələnlərin sayında iş yerlərini təmsil etmə baxımından böyük fərqlər var idi. “Cənubi Qafqaz dəmir yolu deposundan kurs-lara 18, Nobel qardaşları və Bakı maşınqayırma zavodlarının hər birindən 6, Vulkan cəmiyyəti zavodundan 4, Bibiheybətdəki Oleum və Zubalov mədənlərindən 3, 6 fabrik və zavoddan hər birindən 2, qalanlardan isə cəmi 1 nəfərkursların dinləyicisi olmuşdur”[7,s.26-27].

Kursların fəaliyyət göstərdiyi ilk iki ildə buradakı dinləyicilərin sayi 100-128 arasında dəyişərək o qədər də çox olmasa da, lakin sonrakı tədris illərində bu rəqəmlər get-gedə çoxalmışdı və biz tədqiqatımızın bu yarımfəslində bu haqda daha ətraflı bəhs edəcəyik.

Kurslarda onların normal fəaliyyəti üçün ilboyu bina və otaqlar, siniflərdə dinləyicilərin istifadə etdikləri əyani vəsaitlər, dərslik, fənn kitabları və digər məqsədlər üçün xərclənmiş pulların dəqiq uço-tu aparılırdı. “1903/1904 tədris ilində fəhlə kursları tərəfindən 272 rublluq inventar və ya əşyalar, 115 rublluq tədris vəsaitləri, dərslik, kitablar alınmışdı” [7,s.30-34].

1904/1905-ci tədris ilində 4 bölmə üzrə dinləyici fəhlələrin istifadəsinə verilməsi üçün “25 adda 46 rublluq kitab və dərs vəsaitləri alınmışdır” [7,s.16].

Tədqiqatımızın gedişində kurslarda təhsil alan

fəhlələrin hazırladıqları işlərdən ibarət xüsusi sərgilərin keçirilməsindən bəhs etmişdik. Bu tədbirə bölmə rəhbərliyi və kursun əməkdaşlarının diqqətlə yanaşması bu prosesin nəticələrinin kursların növbəti illərdəki fəaliyyətinin gedişinə əhəmiyyətli dərəcədə təsir göstərəcəyi ilə əlaqədar idi.

Sərginin təşkilinə məsuliyyət daşıyan komissiya və kursların rəhbərliyi bu sərgiləri hər tədris ilinin iyun ayında 2 həftə müddətində keçirir, bu haqda əvvəlcədən yerli qəzetlərdə çap edilən elanlarda və fabriklərə, zavodlara göndərilmiş yazılı bildirişlərdə məlumat verilirdi. Sərgilərin keçirilməsində ən maraqlı tərəf, sözsüz ki, hazırladıqları işlərin nümayiş etdirilməsinə ciddi cəhdlə çalışan dinləyicilər idi. Bölmə rəhbərliyi bu məqsədlə yerləşdiyi binanın ümumi zalında 3 yerdə, 3 bölmə üzrə təqdim olunan əl işlərinin nümayiş etdirilməsi üçün zəruri avadanlıqlar təqdim edirdi. 1904-cü ilin 6-20 iyununda keçirilən ilk belə sərgidə əsasən fəhlələrin hazırladıqları dəzgah, avadanlıq, texniki qurğu, mühərriklərin çertyoj işlərinin və təcvirlərin ümumi çəkisi bəhs edilən tədris ilində 2 tona yaxın olmuşdu.

Sərgidə Bakı Bölməsinin rəhbərliyi, bölmənin kursların fəaliyyətinə nəzarət üçün yaradılan komissiya üzvləri, habelə fəhlələrin təmsil etdikləri müəssisələrin nümayəndələri, bəzi günlərdə isə şəhər və digər yerli əhəmiyyətli idarəçilik orqanlarının rəhbərləri də iştirak etmişdilər. Sərginin ilk açılış günündə 300-dən çox şəxsin iştirak etməsi sərginin fəaliyyətinə və onun nəticələrinə xüsusi diqqət verilməsini göstərirdi. “Sərginin ilk iş günündən fərqli olaraq sonuncu iş günündə 42, cəmi 2 həftə ərzində isə 529 nəfər sərgiyə baxışda iştirak etmişdi”[7,s.38-39].

Qeyd edək ki, sərginin təşkili və fəaliyyətinin əhəmiyyəti barədə Bakı və Cənubi Qafqazın digər şəhərlərindəki mətbuat orqanlarında müxtəlif yazılar dərc olunmuşdu.

Bakı Neft Sənayeçiləri Qurultay Şurasının təsis etdiyi “Neftyanoe delo” nəşrində gedən yazıda bildirilirdi ki, kursların dinləyiciləri tərəfindən hazırlanmış bu cür işlərin əyani nümayişi mühüm praktik əhəmiyyət daşıyır. Ancaq çox təəssüf ki, bizim zavodçular bu vacib tədbirə o qədər də ciddi əhəmiyyət verməmişlər. Bu baxımdan sahibkarlar bilməlidirlər ki, “belə kursların təşkili və onların fəaliyyətinin nəticələri elə ilk növbədə onların özlərinə daha çox gərəkdir”[6, s.934].

Bu fikir yerində və vaxtında söylənilmiş irad idi. Çünki sonrakı illərdə kurslarda təhsil almış fəhlələrin içərisindən yerlərdə, fabrik-zavodlarda öz işinin əsl ustası olan, istehsal prosesinin təkmilləşdirilməsinə, min rubllarla vəsaitə qənaət etməyə və əlavə gəlir əldə etməyə imkan yaratmış səmərələşdirici təkliflər verən və onları işdə həyata keçirən istedadlı şəxslər çıxmışdı.

Lakin çox təəssüflə qeyd etməliyik ki, bu cür yenilik və səmərələşdirici təkliflər o vaxtlar müəlliflik və ya patent almaq hüquqları, qaydaları formalaşmadığı, həmin şəxslərin bu yenilikləri öz adlarına rəsmiləşdirməyin praktik olaraq mümkün olmadığı bir şəraitdə fabrik, zavod və müəssisə sahiblərinin adı ilə bağlanırdı. Lakin hər bir halda bölmənin təşkil etdiyi kursların fəaliyyətinin praktik nəticələri sahibkarların özləri tərəfindən də etiraf olunurdu. Əgər belə olmasaydı, milliyətindən asılı olmayaraq iş adamları və sahibkarlar bölmənin kurslarının fəaliyyəti üçün müxtəlif vaxtlarda kifayət qədər böyük miqdarda könüllü pul vəsaitləri verməzdilər.

1904/1905 tədris ilində Bakıda və onun ətrafında fəaliyyət göstərən fabrik-zavodlar, şirkətlər, cəmiyyətlər, ayrı-ayrı iş adamları tərəfindən kursların fəaliyyətinə yardım üçün könüllü bağışlamalar kifayət qədər çox - 3095 rubl məbləğində idi. Nəzərə alsaq ki, “bu bağışlamalar 39 şirkət və şəxs tərəfindən ödənilmişdi, bu hər bir paycıya təqribən orta hesabda 80 rubl düşməsi demək idi”[7,s.48-49].

Bu bağışlamaların ünvanları siyahısında ilk yerlərdə hər biri 150 rubl vermiş Şibayev, Nobel qardaşları, Xəzər-Qara dəniz cəmiyyətləri, hər biri 100 rubl ödəmiş Eyzenşimdt zavodu, Rus neft və duru yanacaq, Mirzəyev qardaşalrı, Şərq gəmiçilik cəmiyyətləri dayanırdı. “Qalan bağışlamalar 10-60 rubl arasında dəyişirdi”[7,s.49].

Belə bir cəhəti xüsusi olaraq qeyd etməliyik ki, bağışlamalar siyahısında göstərilmiş 39 şirkət və cəmiyyətin təxminən yarısının adlarına indiyədək heç bir tarixi tədqiqat və ədəbiyyatlarda rast gəlinməmişdir. Fikrimizcə, Bakı Bölməsinin fəaliyyətindəki bir çox məqamlarla yanaşı bu fakt və rəqəmlərin elmi dövriyyəyə ilk dəfə daxil edilməsi müsbət haldır və bir çox məsələlərə tam aydınlıq gətirməyə kömək edir.

Siyahıdakı 39 ünvanın arasında milli burjuaziyamızın 8 nümayəndəsinın, yəni adı verilənlərn beşdə birinin olması da fərəhləndirici haldır. Əgər nəzərə alsaq ki, milli burjuaziya nümayəndələrinin sayı və malik olduqları kapital bu təbəqənin ümumi kütləsində o qədər də çox xüsusi çəkiyə malik olmamışdır. Bundan məlum olar ki, 5 şəxsdən biri elə də kiçik rəqəm deyil.

Siyahıda göstərilən ad və ünvanların əksəriyyəti tariximizlə bağlı bir çox məsələlər baxımından əhəmiyyətlidir. Lakin bunların biri üzərində qısaca dayanmaq istərdik. Siyahının sonunda tarixi memarlıq abidəsi kimi tanınan, fəaliyyəti yaşadığımız indiki günlərə qədər davam etmiş, bakılıların və şəhərimizin qonaqlarının "Fantaziya hamamı" kimi tanıdıqları məişət obyekti də var və kurslarda hamamın ocaqçıları üçün təhsil haqqından əlavə könüllü bağışlanmış məbləğ haqqında məlumata da rast gəlirik. Lakin çox təəssüf ki, Bakı şəhər meriyasının əvvəlki rəhbərliyinin səhlənkarlığı və tariximizə biganəliyinin nəticəsində bu tarixi bina sökülərək yerində yeni hündür yaşayış binası tikilmişdir. Tarixi-memarlıq abidəsinə o vaxtkı və indiki sahibkarların münasibəti və diqqətinə nəzər saldıqda ilk olaraq sonuncuların ən azı diqqətsizliyi, qayğısızlığı və ümumiyyətlə isə təzadlı yanaşma tərzi diqqəti cəlb edir.

Bir cəhəti də qeyd etmək yerinə düşər ki, kurslarda yerli usta, mühəndis, texniki işçilər və hətta alimlərlə yanaşı, imperiyanının digər şəhərlərindən dəvət edilmiş və öz sahəsində kifayət qədər tanınmış təcrübəli alimlər də dərs deyirdilər. Digər tərəfdən kurslardakı dərslərin və dinləmələrin normal keçməsi üçün zəruri olan bütün proqram və dərsliklər hətta Avropa ölkələrindən sifariş edilib gətirilirdi. Bu barədə mənbələrdə yazılar və qeydlər olduqca çoxdur.

Artıq söyləmişdik ki, bölmənin kurslarının fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində müxtəlif xarakterli işlər görülürdü. Bunların böyük bir hissəsi sonralar bölmənin texniki təhsil üzrə komissiya adlandırılan xüsusi qurumun öhdəsinə düşürdü. Kursların fəaliyyətinə fasiləsiz nəzarət edən komissiyanın iclas protokolları, hesabatları, bölmə rəhbərliyinə ünvanlanmış məktubları, fabrik, zavod və müəssisələrə göndərilən yazılı bildirişlər, qismən də mətbuatda kursların fəaliyyəti haqqında gedən yazılarda bir çox məqamları müşahidə etmək və müəyyən nəticələrə gəlmək də mümkündür.

Bu materiallardan aydın olur ki;

- kursların dərslərində iştirak etmək arzusunda olan usta və fəhlələrin sayı kifayət qədər çox idi və bəzi illərdə bu rəqəm vakansiyanı 2 dəfəyə yaxın üstələyirdi;
- kurslara qəbul olunanların heç də hamısı sonadək təhsilini davam etdirə bilməyərək, təhsillərini müxtəlif səbəblərdən yarımçıq qoyub getmişdilər;
- dinləyicilərin bir hissəsinin, ayrı-ayrı illərdə bu rəqəmlərdə həm azalma, həm də artma halları müşahidə olunmuşdu, kurslardan gedənlərin əvəzinə dərs ilinin gedişində kurslara daxil olmaq arzusunda olan və yerlərdən göndərilənlər hesabına dinləyicilərin sayında elə bir ciddi azalma müşayət edilməmişdi. Lakin hər bir halda belə hallar dinləyicilərin bilik və bacarıq səviyyələrində, nəhayət bütövlükdə kursların fəaliyyətinin nəticələrinin qiymətləndirilməsində müəyyən çətinliklər yaratmaya bilməzdi;
- dinləyicilərin bir qrupu arasında dərslərə davamiyyətin normal ahəngdə davam etməsi, ən müxtəlif səbəblərdən dərs buraxma hallarının azalması da texniki kursların fəaliyyət göstəricilərinin tam arzuedilən səviyəyə yaxınlaşması səbəblərinə daxil idi.

Özlüyündə bölmə kurslarının rəhbərliyi tərəfindən bu istiqamətdəki fəaliyyətin təkmilləşdirilməsi yollarının axtarılıb tapılması, aşkar olunmuş qüsurların və çatışmazlıqların aradan qaldırılması üçün zəruri işlərin görülməsi bu məsələyə nə qədər ciddi və operativ yanaşılmasından xəbər verirdi. Bu məqsədlə görülmüş işlər, həyata keçirilmiş tədbirlər çox idi. Lakin bu heç də o demək deyildi ki, onların hamısı gözlənilən nəticələri əldə etməyə, vəziyyəti yaxşılaşdırmağa kömək etmişdir.

**Açar sözlər:** *Texniki təhsil, peşə kursları, iş adamlarının ianələri, təhsilin monitorinqi, anket sorğuları.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Xəlilov, P.R. Bakı Neft Sənayeçiləri Qurultayının Səhiyyə və mədəni- maarif sahələrində fəaliyyəti: / tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / - Bakı,*

*2015. - 32 s*
*2. İbrahimov, N.A. XIX əsrin sonu - XX əsrin əvvəllərində Bakı şəhərinin mədəni və siyasi həyatı / N. İbrahimov. - Bakı: Ozan, - 1997. - 132 s.*
*3. Бакинское отделение Императорского Русского технического общества (БОИРТО): [Elektronresurs] / - URL: https://www.baku.ru/enc-show.php?id=153918&cmm_id=276.*
*4. Бакинское отделение Императорского Русского технического общества (БОИРТО): [Elektronresurs] / - URL: https://www.baku.ru/enc-show.php?id=153918&cmm_id=276.*
*5. К городским новостям // Каспий. 1904, 6 января. - с. 4.*
*6. Общественные известия // - Баку: Нефтяное дело. - 1904. №11, - с. 934-937.*
*7. Отчет о деятельности технических курсов при Бакинского отделения Императорсого Русского Технического О-ва за 1904/1905 учебный год. Издание БО ИРТО / Сост. К.Ярченко. - Баку: Тип. Труд С.Г.Берладира, - 1905. - 75 с.*
*8. Таирзаде, Н.К. К истории народного образования в промыслово-заводском районе Баку в конце XIX - начале XX века // - Баку: АН Азербайджанской ССР. Серия история, философия и право, - 1988. №1, - с.63-70.*

## ШКОЛЫ БАКИНСКОГО ОТДЕЛЕНИЯ ИМПЕРАТОРСКОГО РУССКОГО ТЕХНИЧЕСКОГО ОБЩЕСТВА

### РЕЗЮМЕ

В конце XIX века в Баку при организации Совета съезда нефтепромышленниковбыли открыты несколько культурно-просветительских учреждениийи школ. Это было продиктовано необходимостью обеспечить развивающуюся промышленность Азербайджанаграмотными кадрами. Представители национальной буржуазии Азербайджана финансировали открытие и деятельность школ, дающих техническое образование, с целью повышения практических знаний и навыков рабочих, обеспечения стабильной работой и улучшения условий труда. Курсы организовывались в основном за счет финансовых средств, добровольно пожертвованных отделению бакинскими нефтепромышленниками и предпринимателями. На эти курсыпривлекались рабочие и специалисты, работающие на их предприятиях. В связи с этим занятия на курсах начинались после окончания рабочего дня. Однакоиз-за того, что предприниматели заставляли рабочих дополнительно работать и после окончания рабочего дня, это отрицательно сказывалось на посещаемости и часто не давало ожидаемого результата. Положительным моментом было то, что в открывающихся школахпериодически проводились мониторинги качества образования иоценивания, и этим стремились решить существующие проблемы.

**Ключевые слова:** *техническое образование, профессиональные курсы, пожертвования предпринимателей, мониторинг образования, анкетный опрос*

## THE SCHOOLS OF BAKU BRANCH OF THE RUSSIAN IMPERATOR TECHNICAL SOCIETY

### SUMMARY

A number of cultural and educational institutions, including schools, were opened in Baku under the auspices of the Council of the Congress of Oil Industry from the end of the 19th century. This was due to the necessity to provide qualified personnel of the developing Azerbaijani industry.

In order to increase the practical knowledge and skills of workers, to provide them with sustainable employment or to improve theirs working conditions representatives of the Azerbaijani national bourgeoisie financed the opening and activities of these technical schools. In this regard, classes started after work day.

However, employers' forced employees to work overtime, and this prevented them attending classes regularly, and sometimes the expected results are not achieved.

It is noteworthy that the quality of education in these schools is periodically monitored, evaluated and efforts are made to eliminate existing problems.

**Keywords:** *Technical education, vocational courses, business donations, education monitoring, questionnaires.*

UOT 94; 930.85

# ƏBU İSHAQ ƏL-İSFƏRAYİNİYƏ AİD EDİLƏN "NURUL-EYN Fİ MƏŞHƏDİL-HÜSEYN" ƏSƏRİ HAQQINDA BƏZİ QEYDLƏR

**ELNURƏ ƏZİZOVA**
*Azərbaycan İlahiyyat İnstitutu, dosent*

*E-mail: elnuraazizova@ait.edu.az*

Xilafət tarixinin ilk dövrlərindən etibarən mühüm siyasi-ictimai simaların qətlinə dair VIII əsrdən etibarən müstəqil tarix əsəri kimi "məqtəl" növü ortaya çıxmışdır. Məhəmməd peyğəmbərin nəvəsi Hüseyn ibn Əlinin 680-ci ildə Kərbəlada qətlə yetirməsinə həsr olunmuş "Məqtəlül-Hüseyn" nümunələri tədricən ən məşhur "məqtəl" növünə çevrilmiş və bir müddət sonra "məqtəl" əsərləri "Məqtəlül-Hüseyn"lərlə eyniləşmişdir. Siyasi-ictimai hadisələrin təsiri ilə "məqtəl" ədəbiyyatı müəyyən bir dövrdən sonra tarixi mətn olma xüsusiyyətini itirərək tarixi-ədəbi növə çevrilmişdir (21, c.1, s. 315, 321; 22, s. 102-114; 14, s. 207-208; 10, s. 237).

X-XI əsrin məşhur alimlərindən Əbu İshaq əl-İsfərayiniyə aid edilən "Nurul-eyn fi məşhədil-Hüseyn" əsəri "müəllifinin" şöhrəti ilə müqayisədə tanınmasına və tədqiq olunmasına görə daha az bilinən bir "məqtəlül-Hüseyn" əsəridir. XIX əsrin sonlarından etibarən on dəfədən artıq çap olunması əsərin populyarlığını göstərsə də, elmi ictimaiyyətə natamam və yaxud nöqsanlı şəkildə təqdim olunmuşdur. George Kanazinin filoloji təhlilə istinad edərək "Nurul-eyn fi məşhədil-Hüseyn"in Əbu İshaq əl-İsfərayiniyə aid olmadığını əsaslandırmağa çalışdığı məqaləsi (18, s. 27-31) bir istisna kimi qiymətləndirilə bilər.

Sahəsinin digər nümunələri kimi, "Nurul-eyn fi məşhədil-Hüseyn" Məhəmməd peyğəmbərin nəvəsi Hüseyn ibn Əlinin 680-ci ildə Kərbəlada şəhid edilməsi mövzusu üzərinə yazılıb. Əsərin məzmununu təhlil etməzdən əvvəl qeyd etmək lazımdır ki, Kərbəla hadisəsini ən geniş təsvir edən erkən dövr mənbələrindən Təbərinin Tarix əsərində də görüldüyü kimi Hüseyn ibn Əlinin şəhadətinə aparan hadisələr əsasən bu istiqamətdə təsvir olunur: Əməvi xəlifəsi Müaviyə ibn Əbu Süfyanın (661-680) oğluna vəsiyyəti, Yezid ibn Müaviyənin (680-683) ikinci Əməvi xəlifəsi kimi hakimiyyətə gəlməsi, Hüseyn ibn Əlinin Yezidin xəlifəliyini qəbul etməyərək Mədinədən Məkkəyə, oradan da Kufəyə doğru yola çıxması, Kərbəlada baş verən faciə ilə hadisələrdə kuliminasiya nöqtəsinin yaşanması, Kərbəladan Kufəyə, oradan da Dəməşqə aparılan Hüseyn ibn Əlinin ailə üzvlərinin Mədinəyə qayıtması (23, c. 5, s. 322-462). Klassik İslam tarixi mənbələrinə paralel olaraq Hüseyn ibn Əlinin şəhadətinə dair daha sonrakı dövrə aid ərəbdilli "məqtəl"lərdə də, hadisənin təfsilatlarında müəyyən fərqliliklər olmaqla yanaşı, əsasən eyni süjet xəttinin davam etdirildiyi görülür (9, s. 39-44; 10, s. 234-237).

"Nurul-eyn fi məşhədil-Hüseyn"i digər "məqtəl"lərdən məzmun cəhətdən fərqləndirən ən bariz cəhət əsərin girişindən etibarən Hüseyn ibn Əlinin Kufəyə getmək üçün Hicazdan yola çıxdığı dövrə qədərki tarixi hadisələrlə əlaqəli qismidir. Əsərin həmin hissəsində Məhəmməd peyğəmbərin vəfatından sonra Raşidi xəlifələrin, onların ardından Müaviyə ibn Əbu Süfyanın hakimiyyətə gəldiyi qeyd olunur. Qısa müddət Mədinədə xəlifəlik edən və həmin dövrdə Hüseyn ibn Əli başda olmaqla Haşim oğullarına qarşı maddi-mənəvi dəstəyini əskik etməyən Müaviyə Şamda məskunlaşmağa qərar verir. Dəməşqi paytaxt seçən Müaviyə Hüseyn ibn Əli başda olmaqla Haşim oğullarını da özü ilə birlikdə aparır. Müaviyənin hakimiyyəti dövründə ümumilikdə Haşim oğulları, xüsusilə Hüseyn ibn Əli hər baxımdan xəlifənin diqqət və qayğısı ilə əhatə olunur. Vəfatı yaxınlaşan Müaviyə oğlu Yezidi çağıraraq xalqa və Hüseyn ibn Əlinin rəhbərliyində Haşim oğullarına qarşı hörmət və qayğı göstərməyi

vəsiyyət edir (8, s. 2-6).

Müaviyənin vəfatından sonra verdiyi sözü yerinə yetirməyən Yezid əxlaqi və siyasi cəhətdən xəlifəyə uyğun olmayan həyat tərzi sürür, bundan əlavə, Hüseyn ibn Əli və ailəsini diqqət və qayğıdan kənarda tutur. Bu vəziyyətdən son dərəcə məyus olan Hüseyn ibn Əli Hicaza getmək üçün "bacısı" Sükeynə ilə məsləhətləşir və onun məsləhəti ilə Dəməşqdən getmək istədiyini Yezidə yazaraq fikrini öyrənir. Yezid cavab məktubunda öz laqeydliyini və hörmətsizliyini açıq şəkildə ifadə etdiyi üçün Hüseyn ibn Əli Hicaza doğru yola çıxmağa qərar verir (8, s. 7-9). Əvvəlcə qardaşı Məhəmməd ibn Hənəfiyyənin yanına Mədinəyə, qısa müddət orada qaldıqdan sonra Məkkəyə gedir. Həmin dövrdə "Məkkə xəlifəsi" olan Abdullah ibn Zübeyr Hüsey ibn Əliyə və yaxınlarına böyük ehtiram göstərir, ona xəlifə olmağı təklif edir. Zöhd həyatı yaşamağa üstünlük verən Hüseyn ibn Əli bu təklifi qəbul etmir və Məkkədə həyatını ibadətlə keçirir (8, s. 10). Yezidin hakimiyyətindən narazı olan İraq əhalisi, xüsusilə kufəlilər Hüseyn ibn Əliyə elçilər göndərərək xəlifə olması üçün dəvət edirlər. Bir neçə dəfə bu məktublara əhəmiyyət verməyən Hüseyn ibn Əli nəticədə Kufəyə getməyə qərar verir (8, s. 11-14). Beləliklə, Hüseyn ibn Əli "bacısı" Sükeynənin və Abdullah b. Zübeyrin təkidlərinə baxmayaraq az sayda tərəfdarı ilə birlikdə Mədinəyə gedir, Mədinədə qardaşı Məhəmməd ibn Hənəfiyyənin və Abdullah ibn Abbasın etirazlarına baxmayaraq Kufəyə getmək məqsədilə yola düşür (8, s. 15-19). Əsərin Kərbəla hadisəsindən etibarən sonuna qədərki qismi təfsilatlar istisna edilərsə, məzmun baxımından digər ərəbdilli "Məqtəlül-Hüseyn"lə paraleldir. Lakin, "məqtəl" sahəsinin məşhur müəllifi Əbu Mixnəfə aid edilən "Məqtəlül-Hüseyn" əsəri ilə müqayisə olunduqda bu paralellik daha açıq şəkildə müşahidə olunur. Məhz bu paralellik Əbu Mixnəfə aid edilən "Məqtəlül-Hüseyn"in dörd əlyazma nüsxəsi üzərində apardığı tədqiqatda alman şərqşünas H.F.Vüstenfeldin "Nurul-eyn fi məşhədil-Hüseyn" əsərini "Məqtəlül-Hüseyn"in bir digər versiyası adlandırmasına səbəb olmuşdur (24, s. ıx).

Görüldüyü kimi, ümumi məzmun baxımından "Nurul-eyn fi məşhədil-Hüseyn"i digər "məqtəlül-Hüseynlər"dən ayıran ən mühüm fərqlilik, həm Hüseyn ibn Əlinin Kufəyə getmək məqsədilə Hicazdan çıxışına qədərki hadisələrin gedişatında, həm də Hüseyn ibn Əli başda olmaq üzrə hadisələrdə iştirak edən mühüm siyasi simalarla əlaqəli ifadə və yorumlarda özünü göstərir. Xüsusilə, giriş qismində üzərində durulan bəzi nüanslar, aşağıda təfsilatlı şəkildə bəhs ediləcəyi kimi, əsərin Sünnilik perspektivindən yazılmış bir "məqtəl" olduğuna dair iddialara səbəb olmuşdur: ilk müsəlman toplumun "səhabə" adlandırılan fərdlərinin üstünlüyü, Raşidi xəlifələrin hakimiyyətə gəlmə ardıcıllığının həm də üstünlük ardıcıllığını müəyyənləşdirməsi, Müaviyə ibn Əbu Süfyanın Əhli-Beytə böyük hörmət göstərən ideal bir müsəlman kimi təsvir olunması. (8, s. 5-7).

Haşim oğullarının Müaviyə ibn Əbu Süfyan dövründə Dəməşqdə Əməvi sarayında yaşaması, Hüseyn ibn Əlinin Yezidin hakimiyyətə gəlməsinə qarşı etiraz etməməsi, Hüseyn ibn Əlinin azyaşlı qızı Sükeynənin hadisələr zamanı məsləhət aldığı bacısı kimi göstərilməsi, Müaviyə ibn Əbu Süfyan və Abdullah ibn Zübeyr kimi siyasi simalarla əlaqəli tarixi reallıqdan uzaq məlumatlar verilməsi, əsərin mötəbərliyini şübhə altında qoyur. Təkcə Kərbəlaya qədərki qismin bu ciddi faktoloji səhvləri kifayət edir ki, "Nuru'l-eyn fi məşhədil-Hüseyn"in məşhur alim Əbu İshaq əl-İsfərani tərəfindən yazılması məsələsinə ehtiyatla yanaşılsın. Əbu İshaq əl-İsfərayininin elmi fəaliyyətləri ilə daha yaxından tanış olmaq, əsərlə müəllifi kimi təqdim olunan alim arasındakı əlaqənin aşkarlanmasına müəyyən qədər aydınlıq gətirə bilər. "Nurul-eyn"in giriş qismində müəllifi ilə əlaqəli istifadə olunan "imam, alim, əllamə" titullarından hərəkətlə demək olar ki, nəzərdə tutulan alim orta əsrlər İslam dünyasında şöhrəti bu qədər yayılmış tək Əbu İshaq əl-İsfərayini, daha dəqiq ifadə etsək, məşhur Şafii-Əşəri alimi Əbu İshaq Rüknüddin İbrahim ibn Məhəmməd ibn İbrahim əl-İsfərayinidir (v. 418/1027).

Xorasan bölgəsindəki İsfərayen şəhərində dünyaya gələn Əbu İshaq əl-İsfərayini, təhsilini Bağdadda dövrün məşhur fiqh və kəlam alimlərinin yanında tamamladıqdan sonra Xorasanın bir digər şəhərində, Nişaburda müəllimlik fəaliyyətinə başlamışdır. Əbu İshaq əl-İsfərayininin tədris fəaliyyəti üçün xüsusi olaraq mədrəsə tikilməsi (16, c. 1, 312; 27, c. 9, 292; 26, c. 13, 101; 20, c. 6, s. 69; 15, c. 1, s. 367) onun öz dövrünün məşhur alimi olduğunu göstərir. Xüsusilə fiqh sahəsində müctəhid dərəcəsindəki alimlərdən sayılan, "şeyx", "imamül-əllamə", "rüknüddin" kimi elmi titullarla tanınan Xorasan bölgəsinin məşhur alimi əl-İsfərayini (26, c. 13, s. 101; 6, c. 1, s. 170) tələbəsi

və ardıcılı olan Şafii-Əşəri alimi Abdülqahir əl-Bağdadi (v. 429/437) başda olmaqla hədis və fiqh alimi Əhməd ibn Hüseyn əl-Beyhəqi (v. 458/1066), kəlam, təfsir və hədis alimi Əbdülkərim əl-Qüşeyri (v. 465/1072), Şafii fəqihi Əbutteyyib əl-Təbəri (v. 450/1058) və s. məşhur alimin yetişməsində böyük rol oynamışdır. əl-İsfərayininin dövrünün məşhur Mötəzilə alimi Qazı Əbdülcəbbarla apardığı elmi mübahisənin qalibi olduğuna dair məlumatlar (11, c. 21, s. 420), onun fiqhlə yanaşı kəlam elmindəki üstünlüyünü göstərməsi baxımından önəmlidir. əl-İsfərayininin fiqh, kəlam və hədisə dair yazdığı əsərlərin adları mənbələrdə keçənləri bunlardır: "əl-Cami fi üsulid-din vər-rəd əlal-mülhidin", "Əqidə", "Ədəbül-cədəl", "əl-Müxtəsər fir-rədd əla əhlil-itizal vəl-qədər", "Təcizül-mötəzilə", "əl-Vəsf vəs-sifə", "Təliqə fi üsulil-fiqh", "Məsailüd-dövr", "Təhqiqüd-dəavi", "əl-Müxtələf fi üsulil-fiqh", "əl-Vəsf vəs-sifə", "Şərhül-itiqad", "Tərtibül-məzhəb", "Şərhül-tərtib", "Şərhül-füru", "Məalimül-İslam" (2, c. 1, s. 8; 6, c. 1, s. 170-171; 16, c. 1, s. 312-314; 20, c. 6, s. 69-70; 27, c. 9, s. 292-293)

Görüldüyü kimi, klassik mənbələrdə İsfərayinin "Nurul-eyn fi məşhədil-Hüseyn" əsərindən bəhs edilmir. Əsəri İsfərayiniyə aid edən ilk mənbə isə, daha gec dövrə aid olan Osmanlı müəllifi Bağdadlı İsmail Paşanın (1839-1920) "Hədiyyətül-arifin" əsəridir. İsfərayini nisbəsi ilə məşhur Rüknüddin Əbu İshaq İbrahim ibn Məhəmməd ibn İbrahim ibn Mehran əl-Bağdadi əl-Şafiinin 418-ci ildə vəfat etdiyini qeyd edən Bağdadlı İsmail Paşa, müəllifin Ədəbül-Cədəl, Camiül-cəlil vəl-xəfi fi üsulid-din vər-riddə əlal-mülhidin, Əqidə, Şərhu fürui İbnil-Hədid, Məalimül-İslam adlı əsərlərnin adlarını sadaladıqdan sonra "Nurul-eyn fi məşhədil-Hüseyn" adlı risalənin ona aid edildiyini əlavə edir. Belə ehtimal etmək olar ki, Bağdadlı İsmail Paşanın verdiyi məlumatlar üçün İbn Xəllikanın "Vəfəyatül-əyan" əsərinə istinad etməsi (2, c. 1, s. 8), "Nurul-eyn" əsərini İsfərayiniyə aid etmək üçün bəzi tədqiqatçılara əsas vermişdir. Lakin, qeyd etmək lazımdır ki, İbn Xəllikanın "Vəfəyatül-əyan" əsərində əl-İsfərayininin əsərləri arasında "Nurul-eyn"dən bəhs olunmur (17, c. 1, s. 28). Diqqət çəkən məqam ondan ibarətdir ki, Bağdadlı İsmail Paşa özü bir digər əsərində, Katib Çələbinin "Kəşfüz-zünun"una yazdığı "İzahül-məknun" adlı "zeyl"də (əlavədə) müəllifini qeyd etmədən ad bənzərliyi olan bir digər əsərdən, "Nurul-eyn fi zikri məşhədil-Hüseyn"dən bəhs etdiyi halda, özünün "Hədiyyətül-arifin" əsərində "əl-İsfəraniyə nisbət edilir" deyə yazdığı "Nurul-eyn fi məşhədil-Hüseyn" əsərini qeyd etməmişdir (3, c. 2, s. 685).

"Nurul-eyn fi məşhədil-Hüseyn"in dünya kitabxanalarındakı əlyazmalarının kataloqları və ərəbdilli İslam mənbələri ilə əlaqəli biblio-qrafiya əsərlərindəki məlumatlar da əsərin XIX əsrin sonlarından etibarən elmi ictimaiyyətdə səsləndirildiyini göstərir. İngilis şərqşünas Edvard Qranvil Braun (1862-1926) Kembric Universitetinin kitabxanasındakı əlyazma İslam əsərləri üzərinə hazırladığı kataloqun "Şiə teologiyası" qismində "Nurul-eyn fi məşhədil-Hüseyn" əsərini də qeyd edir. Əsərin müəllifinin kimliyinə dair hər hansı şərhə yer verməyən Braun "İmam Hüseyn ibn Əlinin Kərbəlada şəhadətindən danışan "Nurul-eyn fi məşhədil-Hüseyn" əsərinin Əbu İshaq əl-İsfərayini" tərəfindən yazıldığını bildirir (5, s. 13). Braun, Qürrətül-eyn fi şərhi saril-Hüseyn adlı əsərlə bir yerdə 111 səhifəlik bu əlyazmanın 1289/1872-73-ci ildə Seyyid Məhəmməd əli-Xansari tərəfindən Qacar dövrünün məşhur dövlət xadimi Məhəmməd Həsən Xan Səniüddövlə üçün nüsxəsinin çıxarıldığını qeyd edir və əlyazmada Səniüddövlənin möhürünün olduğunu əlavə edir (5, s. 14).

Alman şərqşünas Karl Brokelman ərəbdilli yazma əsərlərə aid məşhur əsərinin birinci nəşrində "Nurul-eyn fi məşhədil-Hüseyn"dən bəhs etməməklə birlikdə, əlavə cildlərdə əsər haqqında məlumata yer verir. Şafii fəqihlər arasında qeyd etdiyi Əbu İshaq əl-İsfərayininin həyatı haqqında qısa məlumat verən Brokelman, son illərdə bir neçə dəfə nəşr olunmuş "Nurul-eyn fi məşhədil-Hüseyn" əsərinin ona aid olması ehtimalının çox az olduğunu bildirir (4, c. 1, s. 667). Maraqlıdır ki, Brokelman əsərinin başqa bir yerində "qeyri-müəyyən tarixli Şiə alimlər" kateqoriyasında kimliyinə dair hər hansı bir məlumat vermədiyi Əbu İshaq əl-İsfərayini tərəfindən yazılmış "Nurul-eyn fi məşhədil-Hüseyn" əsərini də qeyd edir (4, c. 2, s. 842).

Yuxarıda qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, nə İslam alimlərinin həyat və fəaliyyəti haqqında məlumat verən orta əsr mənbələrində, nə də ərəbdilli yazmalarla əlaqəli kataloqlarda məşhur Şafii-Əşəri alimi Əbu İshaq əl-İsfərayininin "Nurul-eyn fi məşhədil-Hüseyn" adlı bir "məqtəl" və yaxud hər hansı bir "məqtəl" yazdığına dair dəqiq məlumat yoxdur. "Nurul-eyn"in Əbu İshaq əl-İsfərayiniyə aid edilməsinə dair ehtiyatlı ifadələr isə ən erkən XIX əsrin ikinci yarısına aiddir.

Digər tərəfdən, Əbu İshaq əl-İsfərayininin müasir dövrə çatmış əsərlərinin “Nurul-eyn fi məşhədil-Hüseyn” əsəri ilə müqayisəli təhlili də bu əsərlərin eyni müəllifin qələmindən çıxma ehtimalının mümkün olmadığını göstərir. əl-İsfərayininin mənbələrdə adları qeyd olunan əsərlərindən müasir dövrə gələn ərəbcə “Əqidə” və farsca “Risalə fil-əqaid” əsərlərinin məzmun və dil-üslub xüsusiyyətlərinə görə “Nurul-eyn fi məşhədil-Hüseyn” əsəri ilə müqayisə edilməsi bu səbəblə böyük əhəmiyyət kəsb edir. İlk növbədə qeyd etmək lazımdır ki, hər ikisi kəlam sahəsinə aid olan bu əsərlərdən ərəbcə yazılmış “Əqidə” həm istifadə olunan elmi dil, həm də üslub baxımından “Nurul-eyn fi məşhədil-Hüseyn” əsərindən kəskin şəkildə fərqlənir. “Əqidə” əsərində X-XI əsr kəlam əsərlərinə məxsus, arqumentlərlə dəstəklənən lakonik ifadə tərzi açıq şəkildə görüldüyü halda (12, s. 65-85) “Nurul-eyn fi məşhədil-Hüseyn” əsərində ənənəvi ravi silsiləsi olmayan və “ravi dedi ki” sözləri ilə müşayiət olunan rəvayətlər Kanazinin də diqqət çəkdiyi kimi (18, s. 29-30) şifahi ədəbiyyata məxsus ifadə tərzi ilə təqdim olunub.

Digər tərəfdən, əl-İsfərayininin müasir dövrə çatmış 789/1386-ci il tarixli əlyazma “Risalə fil-əqaid” əsəri tədqiq edilərkən, “Nurul-eyn”dən həm dil-üslub xüsusiyyətləri, həm də məsələlərə yanaşmalarda fərqliliklər olduğu görülür. Təkcə onu demək kifayətdir ki, “Nurul-eyn”in “məqtəlül-Hüseyn”lər arasındakı “orijinallığı”nı göstərən ideallaşdırılmış bir Müaviyə ibn Əbu Süfyan portretinin əksinə, “Risalə fil-etiqad” əsərində Əbu İshaq əl-İsfərayininin Müaviyə ibn Əbu Süfyana baxışı müsbət deyil (7, 28a).

Yuxarıda qeyd olunanlarla birlikdə, XIX əsrin əvvəllərindən etibarən “Nurul-eyn fi məşhədil-Hüseyn” əsərinin Şafii-Əşəri alimi Əbu İshaq əl-İsfərayiniyə aidiyyəti, xüsusilə Türkdilli elmi ictimaiyyətdə səsləndirilməyə başlanmış və tədricən bu məsələyə elmi tədqiqatlarda şübhəedilməz bir fakt kimi baxılmışdır. Türkcə “məqtəl”lərlə əlaqəli elmi tədqiqatların ilki hesab olunan Abdülkadir Karahanın əsərində bu yanaşmanın əsası qoyulduğunu demək olar. 1939-cu ildə nəşr etdirdiyi məzuniyyət travayında Karahan “Nurul-eyn fi məşhədil-Hüseyn” əsərinin məşhur Şafii alimi Əbu İshaq əl-İsfərayiniyə aid olduğunu açıq şəkildə ifadə etmişdir (19, s. 7). Təxminən yarım əsr sonra, 1985-ci ildə A. Karahanın elmi rəhbərliyində tamamladığı M.Füzulinin Hədiqətüs-süəda əsərinə dair doktorluq dissertasiyasında Şeyma Güngör isə 418/1027-ci ildə vəfat edən Əbu İshaq əl-İsfərayininin yazdığı “Nurul-eyn fi məşhədil-Hüseyn” əsərini ərəbdilli “məqtəl”lərin “sevilən və tanınan” bir nümunəsi kimi təqdim etmişdir (13, s. xxıv).

Tədricən Türkdilli elmi ictimaiyyətdə Əbu İshaq əl-İsfərayiniyə aid olduğuna qəti gözlə baxılan “Nurul-eyn fi məşhədil-Hüseyn”in “hadisələri Sünnilik perspektivindən dəyərləndirən” bir “məqtəl” olduğu irəli sürülmüşdür (12, s. 33-34; 25, c. 22, s. 515-516; 1, s. 14). Beləliklə, “Nurul-eyn fi məşhədil-Hüseyn” əsərinin müəllifinin kimliyinə dair son dövrlərə aid ehtiyatlı yanaşma bir əsrə yaxın zaman kəsiyində tədricən ortadan qalxmış, əsərin X-XI əsrin məşhur Şafii-Əşari alimi Əbu İshaq əl-İsfərayini tərəfindən yazılan, hadisələri Sünnilik nöqteyi-nəzərindən təsvir edən, sevilən və məşhur bir “məqtəl” olduğu fikri tərəddüdsüz qəbul edilmişdir.

**Nəticə**

Bütün bu deyilənlərdən belə nəticə çıxır ki, “Nuru’l-eyn fi məşhədil-Hüseyn əsərinin” Şafii-Əşəri alimi Əbu İshaq əl-İsfərayiniyə aid edilməsinin ciddi bir elmi əsası yoxdur. Məqalədə qeyd olunduğu kimi, sözügedən tədqiqatçıları “Nurul-eyn fi məşhədil-Hüseyn”in müəllifi və məzmunu ilə əlaqəli bu qənaətə aparan səbəb, metodoloji xətalardır. İlk növbədə, mövzuya dair bioqrafiya və biblioqrafiya əsərlərindəki məlumatlar diqqətli şəkildə tədqiq olunmadan, ehtimal səviyyəsindəki ifadələrə dəqiq fakt gözü ilə baxılmışdır. Digər tərəfdən, əsərin müəllifinin dəqiqləşdirilməsi üçün Əbu İshaq əl-İsfərayininin müasir dövrə daha erkən tarixlə çatmış əlyazma əsərləri ilə “Nurul-eyn fi məşhədil-Hüseyn” dil-üslub xüsusiyyətlərinə görə qarşılıqlı analiz edilməmişdir. Bundan əlavə, ərəbdilli “məqtəl”lərlə müqayisəli təhlili aparılaraq əsərin orijinallığı məsələsi aydınlaşdırılmamışdır. Son olaraq, dil, üslub və məzmun cəhətdən “Nurul-eyn fi məşhədil-Hüseyn” bütünlükdə və təfsilatlı tədqiq olunmadan, səthi baxışla görünən məzhəb çalarları tək tərəfli və literal mənada qəbul edilərək, əsərin X-XI əsr alimi əl-İsfərayini tərəfindən Sünnilik perspektivindən yazıldığına qərar verilmişdir.

Yuxarıda təfsilatlı şəkildə izah edildiyi kimi, bütün məlumatlar diqqətli şəkildə nəzərdən keçirildikdə, “Nurul-eyn fi məşhədil-Hüseyn”in, yaşadığı dövrdə fiqh, kəlam və hədis sahəsində məşhur İslam alimi kimi tanınan, tədris fəaliyyəti üçün xüsusi bir mədrəsə tikilən Əbu İshaq əl-

İsfərayiniyə aid edilməsinin mümkün olmadı görülür. Yekun olaraq onu da qeyd etmək lazımdır ki, "Nurul-eyn fi məşhədil-Hüseyn"in məzmun və üslub cəhətdən digər ərəbdilli "məqtəl"lərlə, xüsusilə Vüstenfeldin işarə etdiyi Əbu Mixnəfə aid edilən "Məqtəlül-Hüseyn"lə qarşılıqlı tədqiqinə dair geniş tədqiqatlar nəticəsində, hazırda anonim kateqoriyasında dəyərləndirə biləcəyimiz əsərin "məqtəl" ədəbiyyatındakı orijinallığına dair daha qəti fikir irəli sürmək mümkün olacaq. Bu da öz növbəsində M.Füzulinin "Hədiqətüs-süəda"sı başda olmaqla, türkdilli xalqların tarixi düşüncəsinin formalaşmasında böyük rolu olmuş "məqtəl" əsərlərinin təşəkkül prosesinə dair həllini gözləyən məsələlərin işıqlandırılmasına töhfə verəcək.

**Açar sözlər:** *məqtəl ədəbiyyatı, ərəbdilli məqtəllər, Əbu İshaq əl-İsfərayini, Nurul-eyn fi məşhədil-Hüseyn.*

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Ayğan. Fadıl. Muhammed b. Ca'fer es-Sanhaci'nin "Şehru Akideti Ebî İshak el-İsferayini" Adlı Eserine Göre Ebu İshak el-İsferayini'nin Kelami Görüşleri (MÜSBE yayınlanmamış yüksek lisans tezi), İstanbul, 2006. 241 s.*
2. *Bağdadlı İsmail Paşa. Hədiyyətül-arifin (red. Kilisli Rıfat Bilge və İbnülemin Mahmud Kemal İnal). Ankara: Milli Eğitim Bakanlığı, 1951-1955, 2 c.*
3. *Bağdadlı İsmail Paşa. İzahül-məknun fi zeyli əla Kəşfiz-zünun an əsamil-kütüb vəl-fünun (red. Şerafettin Yaltkaya, Kilisli Rıfat Bilge). Ankara: Milli Eğiti Bakanlığı, 1947, 2 c.*
4. *Brockelmann. Carl. Geschichte der Arabischen Litteratur: Supplementband. Leiden: E.J.Brill, 1937-1942, 3 c.*
5. *Browne. Edward G. A Descriptive Catalogue of the Oriental MSS. Belonging to the Late E.G.Browne. Cambridge: Cabridge University Press, 1932, 325 s.*
6. *Dəməşqi. Əbu Bəkr ibn Əhməd. Təbəqatüş-şafiiyyə. Beyrut: Aləmül-kütüb, 1407, 4 c.*
7. *Əbu İshaq əl-İsfərayini. İbrahim ibn Məhəməd. Risalə fil-əqaid (Farsca əlyazma). Süleymaniyə kitabxanası, Şehid Ali Paşa, 02703-005, 6 s.*
8. *Əbu İshaq əl-İsfərayini. İbrahim ibn Məhəmməd. Nurul-eyn fi məşhədil-Hüseyn, Tunis: Mətbəətül-mənar, 1960, 112 s.*
9. *Əzizova. Elnurə. Əbu Mixnəfin "Məqtəlül-Hüseyn" adlı əsəri tarixi mənbə kimi. Azərbaycan Dövlət Pedaqoji Universiteti Tarix, insan və cəmiyyət, Elmi-nəzəri və elmi-metodik jurnal. 2019, 1 (24), s. 34-47.*
10. *Əzizova. Elnurə. Orta Əsrlər ərəb mənbəşünaslığında "məqtəl" əsərlərinin təşəkkül prosesi və "Məqtəlül-Hüseyn"lər, Odlar Yurdu Universitetinin Elmi və pedaqoji xəbərləri, 2019, N 51, s. 232-238.*
11. *Fəxrəddin ər-Razi. Əbu Abdullah Məhəmməd. Məfatihül-ğeyb: Təfsirül-kəbir. Beyrut: Dar ihyait-turas el-arabi, 1420, 32 c.*
12. *Gündoğdu. Mehmet. Ebû İshâk el-İsferâyini ve akâid risalesi (MÜSBE yayınlanmamış Yüksek lisans tezi), İstanbul, 1990, 85 s.*
13. *Güngör. Şeyma. Fuzulî: Hadikatü's-Sü'eda. Ankara: Kültür ve Turizm Bakanlığı Yayınları, 1987, 504 s.*
14. *Günther. Sebastian. Maqatil Literature in Medieval Islam. Journal of Arabic Literature. XXV. Leiden: E.J.Brill, 1994, pp. 192-212.*
15. *İbn Kəsir. Əbülfida İmadüddin İsmail. Təbəqatül-füqəhaiş-şafiiyyin. Qahirə: Məktəbətüs-səqafətid-diniyyə, 2004, 2 c.*
16. *İbn Səlah. Osman ibn Əbdürrəhman Əbu Amr. Təbəqatül-füqəhaiş-şafiiyyə (red. Mühyiddin Əli Nəcib). Beyrut: Darül-beşâiril-insaniyyə, 1992, 2 c.*
17. *İbn Xəllikan. Əbül-Abbas Şəmsəddin. Vəfəyatül-əyan və ənbau əbnəiz-zəman (red. İhsan Abbas). Beyrut: Darus-sadr, 1994, 7 c.*
18. *Kanazi. George J. "The Massacre of al-Husayn b. Ali: Betəeen History and Folklore". Studies in Canonical and Popular Arabic Literature (ed. Shimon Ballas, R. Snir). Toronto: York Press, 1998, pp. 23-36.*
19. *Karahan. Abdülkadir. Anadolu Türk Edebiyatında Maktel-i Hüseyin'ler. Edebiyat Fakültesi Türkoloji Disiplini Mezuniyet Travayı, 1938-1939. 50 s.*
20. *Səfədi. Səlahüddin Xəlil ibn Aybək. əl-Vafi bil-vəfəyat. Beyrut: Daru ihyait-turas, 2000, 29 c.*
21. *Sezgin. Fuat. Geschichte des arabischen Schrifttums. On cilddə. I cild. Leiden: E.J.Brill, 1967.*
22. *Sezgin. Ursula. Abu Mihnaf: ein beitrag zur historiographie der umaiyadischen zeit. Leiden: E.J.Brill, 1971, 251 s.*
23. *Təbəri. Əbu Cəfər Məhəmməd ibn Cərir. Tarixüt-təbəri: Tarixül-üməm vəl-müluk (red. Məhəmməd Əbül-Fəzl İbrahim). Beyrut: Darü*

*Süveydan, 1967, 11 c.*
*24. Wüstenfeld. Heinrich Ferdinand. Der Tod des Husein ben Ali. Ein historischer Roman aus dem Arabischen. Göttingen, 1882, 213 s.*
*25. Yavuz. Salih Sabri. "İsferâyînî, Ebû İshâk". TDV İslam Ansiklopedisi. c. 22, s. 515-516.*
*26. Zəhəbi. Şəmsəddin Əbu Abdullah. Siyər Əlamin-nübəla. Qahirə: Darül-hədis, 2006, 18 c.*
*27. Zəhəbi. Şəmsəddin Əbu Abdullah. Tarixül-İslam və vəfəyatül-məşahir vəl-əlam (red. Bəşşar Əvvad Məruf). Beyrut: Darül-ğarbil-İslami, 2003, 15 c.*

**SUMMARY**

**Some Notes on "Nur al-Ayn fi Mashhad al-Husayn" Attributed to Abu İshaq al-İsfaraini**

**Assoc. Prof. Elnura Azizova**
**Azerbaijan Institute of Theology,**
**Department of Religious Studies**

In this article the work titled "Nur al-Ayn fi Mashhad al-Husayn" attributed to the famous Shafi-Ashari scholar Abu İshaq al-İsfaraini (d. 418/1027) is analyzed as a lesser known example among the works on "Maqtal al-Husayn", the widest spread of Arabic maqtal version which were written on the assassination of the important political figures of the Caliphate. As a result of the exploration of the biograhpic and bibliographic sources on the subject, it was determined that the attribution of Nur al-'Ayn fi Mashhad al-Husayn to Abu İshaq al-İsfaraini does not go to earlier than the second half of the 19th century. On the other hand, as a result of the mutual analysis of the works written by Abu İshaq al-İsfaraini it is concluded that, Nur al-Ayn fi Mashhad al-Husayn is hardly a paper written by the above-cited famous scholar.

**Keywords:** *Maqtal literature, Arabic maqtals, Abu İshaq al-İsfaraini, Nur al-Ayn fi Mashhad al-Husayn.*

**РЕЗЮМЕ**

**Некоторые заметки о произведении «Нур аль-Айн фи Мешхед аль-Хусайн» приписываемое Абу Исхаку аль-Исфараини**

**Доцент, Ельнура Азизова**
**Азербайджанский Институт Теологии,**
**Кафедра Религиоведения**

В этой статье произведение под названием «Нур аль-Айн фи Мешхед аль-Хусайн», приписываемая известному ученому Шафииту-Ашариту Абу Исхак аль-Исфараини (ум. 418/1027), анализируется как менее известный пример среди работ, посвященных «Макталу-аль-Хусейн », наиболее распространенного типа арабского мактала, написанной об убийствах важных политических деятелей Халифата.
На основании изучения биографических и библиографических источников по данному материалу был сделан вывод о том, что вопрос о приписывании Нур аль-Айн фи Мешхед аль-Хусейна к Абу Исхак аль-Исфараини , жившему в X-XI веках, относится ко второй половине XIX века. С другой стороны, в результате сравнительного анализа современных произведений Абу Исхака аль-Исфараини в статье показано, что Нур аль-Айн фи Мешхед аль-Хусейн далек от того, чтобы быть произведением пера известного ученого-шафиита с точки зрения содержания и стиля.

**Ключевые слова:** *литература Мактал, арабский мактал, Абу Исхак аль-Исфараини, Нур аль-Айн фи Мешхед аль-Хусейн.*

**UOT 336.71; 336.72; 347.732; 336.77; 368**



# AZƏRBAYCANIN SOSİAL SIĞORTA SİSTEMİNDƏ MALİYYƏ NƏZARƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**NOVRUZ HÜSEYNOV**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), doktorant,*
*Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat İdarəsi, məsləhətçi*

*E-mail: novruz_huseynov_92@mail.ru*

Maliyyə resurslarının məhdudluğu şəraitində Nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun qarşısında duran mühüm vəzifələrdən biri büdcə transfertlərinin azaldılması fonunda ona həvalə edilmiş funksiyaları yerinə yetirməkdir. Bu isə sosial sığorta sisteminin idarəedilməsinin maliyyə səmərəliliyinin yüksəldilməsi istiqamətlərinin axtarılıb tapılmasını aktual edir. Səmərəliliyin təmin edilməsinin real və zəruri vasitələrindən biri Dövlət Sosial Müdafiə Fondunun və bütövlükdə sosial sığorta sisteminin fəaliyyətinə dövlət maliyyə nəzarətidir.

Ümumiyyətlə, ictimai prosesləri idarəetmək üçün ilk növbədə fəaliyyətin planlaşdırılması, işlərin təşkili, proseslərin uzlaşdırılması, nəticələrin təhlil edilməsi və nəzarətlə bağlı məsələlərin ardıcıl həll edilməsinə riayət edilməsi zəruridir. İstənilən fəaliyyətin mühüm və əsas ünsürü nəzarətdir. Maliyyə-büdcə sferasına aid edilən belə ünsür maliyyə nəzarətidir və müəyyən pul vəsaitləri fondlarının yaranması, bölgüsü və istifadəsi prosesində yaranan ictimai münasibətlərə özünün təsirini əhatə edir. Maliyyə nəzarətinin həyata keçirilməsi pul vəsaitlərinin hərəkəti baş verəndə yaranır.

Qeyd etdiyimiz kimi Azərbaycan cəmiyyətinin və iqtisadiyyatının inkişafının müasir şəraitində maliyyə vəsaitlərindən və maddi resurslardan istifadəyə nəzarət məsələlərinin həyata keçirilməsi ilə bağlı dövlət həyatının müxtəlif sahələrində idarəetmə vəzifələrinin səmərəli həll edilməsinə ciddi tələblər irəli sürülmüşdür. Səmərəli maliyyə nəzarəti dövlətin maliyyə-iqtisadi və sosial sabitliyinin, onun iqtisadi təhlükəsizliyinin, vətəndaşlarının rifahının yaxşılaşdırılmasının mühüm amillərindən biridir.

Nəzarət istənilən fəaliyyətin ayrılmaz və zəruri ünsürüdür. Dövlət nəzarəti və auditi sahəsində fundamental sənəd olan “Lim” bəyannaməsində nəzarət “... nəzarət məqsəd deyil, məqsədi qəbul edilmiş standartlardan kənarlaşmaları, qanunilik, material resurslarının səmərəli və qənaətlə xərclənməsi prinsiplərini pozulmasını aşkara çıxaran ... tənzimləmə sisteminin ayrılmaz hissəsidir” [4, səh.6].

V.V. Burçevin fikrincə nəzarət aşağıdakı fəaliyyətlərin məcmusudur:

-təşkilatın idarəetmə sisteminin idarəedilən həlqələrinin faktiki vəziyyətini və fəaliyyətini müəyyən etmək,

-faktiki məlumatları baza (normativ yaxud əsas qəbul edilən) məlumatlarla müqayisə etmək,

- tədqiq edilən obyektin fəaliyyətinin müxtəlif tərəflərinə kənarlaşmaların təsirini qiymətləndirmək məqsədilə onları təhlil etmək,

-aşkar edilmiş kənarlaşmaların səbəblərini təhlil etmək və əsaslandırmaq [5].

Onu da qeyd edək ki, maliyyə nəzarətinin vəzifə və funksiyaları, idarəetmə sistemində yeri və rolu kifayət qədər öyrənilməmişdir. Ona görə ki, ölkədə inkişafın bazar yoluna keçidinə qədər bir nəzarət növü-dövlət nəzarəti mövcud olmuşdur.

İ.B.Laqutinin fikrincə maliyyə nəzarətinə nəzarət fəaliyyətinin nəzəriyyəsi, hesablama-təftiş fəaliyyəti institutu, iqtisadi kateqoriya kimi baxmaq lazımdır [8].

Maliyyə nəzarəti təsərrüfatçılıq obyektlərinin

faktiki vəziyyətinin nəzərə almaqla həyata keçirilən təsərrüfat fəaliyyətinin səmərəliliyinin, qanuniliyinin və etibarlılığının kompleks öyrənilməsidir [4]. Deməli, maliyyə nəzarəti baxılan təsərrüfat əməliyyatlarının qanuniliyinin və səmərəliliyinin müəyyən edilməsinə, həmçinin onların qanunvericiliyin, konkret qanunverici aktların, sair reqlamentlərin tələblərinə uyğunluğunun qiymətləndirilməsinə istiqamətlənməlidir. Deməli maliyyə nəzarəti ölkənin səmərəli sosial-iqtiadi inkişafı məqsədilə dövlətin pul fondlarının formalaşması, bölgüsü və istifadəsi sahəsində fəaliyyətin qanuniliyi və məqsədəmüvafiqliyi üzərində nəzarətdir.

Maliyyə nəzarəti mal-material qiymətlilərin, pul vəsaitlərinin mənimsənilməsi və sui-istifadəsi faktlarını aşkar edir, həmçinin təsərrüfatsızlığın və israfçılığın qarşısını alır. Maliyyə nəzarətinin əhəmiyyəti həyata keçirilən maliyyə fəaliyyətinin qanuniliyini və məqsədəmüvafiqliyinin təmin etməkdən ibarətdir. Maliyyə nəzarəti çoxsəviyyəli və çox tərəflidir. Ona görə ki, dövlətin maliyyə sistemi müxtəlif səviyyələrdə pul fondlarının bütün növlərini əhatə edir.

Bazar iqtisadiyyatı şəraitində iqtisadi nəzarətin formalarından biri kimi auditin əhəmiyyəti durmadan artır ki, bu da ilk növbədə onun praktiki vacibliyi ilə şərtlənir. Audit həmin təşkilatda işləməyən ixtisaslı və müstəqil mütəxəsislərin həyata keçirdiyi xarici maliyyə nəzarətidir. Audit maliyyə nəzarəti formalarından biridir. Müasir dövrdə müxtəlif mənbələrdə audit anlayışına çoxsaylı izahlar verilir. Auditin vəzifələrinə auditin aparılmasına razılıq haqqında məktubun tərtibi də daxil olmaqla audit yoxlamalarına hazırlıq, auditin aparılmasına dair müqavilənin bağlanması, audit edilən şəxsin daxili nəzarət və mühasibat uçotu sisteminin öyrənənilməsi və qiymətləndirilməsi, aparılan auditin nəticələrinin yekunlaşdırılması aid edilir. Eyni zamanda xarici təcrübədə audit məqsədlərindən biri də xarici auditin maliyyə hesabatları haqqında rəy verməsidir.

“Səlahiyyətlərin sərhədləndirilməsi” əlamətinə görə audit daxili və xarici auditə ayrılır. Daxili audit mülkiyyətçinin marağı məqsədilə iqtisadi subyektdə təşkil edilir və daxili nəzarət sisteminin etibarlı fəaliyyətinə və mühasibat uçotunun aparılmasının müəyyənləşdirilmiş qaydalarına riyaət etməklə onun nəzarət sisteminin daxili sənədləri ilə reqlamentləşdirilir. Təşkilatın işinin yoxlanması və qiymətləndirilməsi üzrə belə fəaliyyət rəhbərin marağındadır. Daxili auditin məqsədi təşkilatın əməkdaşlarına öz funksiyalarını səmərəli yerinə yetirməkdə kömək etməkdir. Daxili auditi həmin təşkilatda işləyənlər həyata keçirir. Xüsusi auditorları olmayan kiçik təşkilatlar da daxili auditi müqavilə əsasında auditor təşkilatları yaxud təftiş kommisiyaları həyata keçirir.

Xarici auditi müqavilə əsasında müstəqil auditor təşkilatları yaxud fərdi auditorlar həyata keçirir. Belə yoxlamaların məqsədi mühasibat uçotu və hesabatların etibarlılığını obyektiv və kompleks qiymətləndirməkdən və rəhbərliyə məsləhət xidmətləri göstəməkdən ibarətdir.

Bazar iqtisadiyyatının vasitələrinən biri kimi audit təsərrüfat subyektlərinin işinin etibarlılığını, fasiləsizlyini müəyyən etmək və investisiya cəlbediciliyini qiy-mətləndirmək məqsədilə onların fəaliyyətinin şəffaflığını təmin etmək vəzifələrinin həll edilməsində mühüm rol oynayır. “Audit müstəqil təftiş keyfiyyətinə malik olsa da, onun fəaliyyəti yalnız mühasibat və maliyyə hesabatlarının yoxlaması ilə məhdudlaşdırıla bilməz” [3, səh.7]. Audit mülkiyyətçilərin xeyrinə əmlak ehtiyaclarının müdafiəsini təmin edir. Ən mühüm ehtiyaclardan biri Azərbaycan Respublikasının Mülkü Məcəlləsi ilə müəyyənləşdirilmiş sahibkarlıq fəaliyyətinin əmlak məsuliyyətinin həyata keçirilməsi üçün şəraiti (iqtisadi, hüquqi, təşkilati) təmin etməkdən ibarətdir.

1994-cü il 16 sentyabrda qəbul edilmiş “Auditor xidməti haqqında” Azərbaycan Respublikasinin qanuna görə audit-əmtəə istehsalı və satışı, xidmət göstərilməsi və iş görülməsi ilə məşğul olan təsərrüfat subyektlərində mühasibat uçotunun dəqiq və dürüst aparılmasının, mühasibat və maliyyə hesabatlarının müstəqil yoxlanılmasıdır [2]. Qanunun 3-cü maddəsində isə qeyd edilir ki, təsərrüfat subyektlərində müqavilə əsasında maliyyə-təsərrüfat fəaliyyəti sahəsində yoxlama, ekspertiza, təhlil aparmaq və yazılı rəy vermək, mühasibat uçotu qurmaq, hesabat göstəricilərinin dürüstlüyünü təsdiq etmək və auditorun peşə fəaliyyətinə (auditor təşkilatının nizamnamə məqsədlərinə) uyğun olaraq

maliyyə-təsərrüfat münasibətləri sahəsində digər xidmətləri göstərmək auditor xidməti hesab edilir.

Auditor fəaliyyəti- haqqı ödənilməklə xidmətin göstərilməsidir. Auditor fəaliyyətinin xüsusiyyətlərinə aiddir:

- auditor fəaliyyəti sahibkarlıq xarakteri daşıyır,
- auditor fəaliyyətini qanunla müəyyən edilmiş son dərəcə ciddi və xüsusi subyektlər (auditorlar və auditor təşkilatları) həyata keçirir,
- auditor fəaliyyətinə auditin aparılması ilə bərabər audit xidmətinin göstərilməsi də daxildir,
- auditor fəaliyyətinin yerinə yetirilməsi yalnız audit edilən şəxsin deyil, həm də üçüncü şəxsin, o cümlədən dövlətin maraqlarının müdafiəsinə istiqamətlənir.

Audit və auditor fəaliyyəti nəticələrinə görə fərqləndirilir. Belə ki, auditin nəticələri maliyyə hesabatlarının vəziyyəti, yəni balansın maddələrinin reallığı, mühasibat uçotunun etibarlılığı və təsərrüfat əməliyyatlarının qanuniliyi və məqsədəmüvafiqliyi haqqında ola bilər. Eyni zamanda auditor xidmətinin nəticələri obyektin gələcəkdə mümükün vəziyyətləri, yəni proqnozu verilən iqtisadi göstəricilər, idatəetmənin təşkilati strukturunun keyfiyyət xarakteristikası, uçot və nəzarət sistemi ola bilər. Deməli, auditor fəaliyyəti müxtəlif növ auditor xidmətlərinin göstərilməsini nəzərdə tutur.

Azərbaycan Respublikasının Auditorlar Palatası müstəqil maliyyə nəzarəti orqanıdır. Bu qurum mülkiyyət formasından asılı olmayaraq bütün təsərrüfat subyektlərində maliyyə və mühasibat uçotunun dəqiq və dürüst aparılmasını təmin etmək məqsədilə Respublikada auditor xidmətinin işini təşkil edir və mövcud qanunvericiliyə uyğun olaraq onun inkişafı və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər həyata keçirir [13]. Son dövrlərdə auditor fəaliyyətinin inkişafı sahəsində keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsi, beynəlxalq audit standartlarına uyğun olaraq sənədlərin vahid şəklə salınması (uzlaşdırılaması) və auditorların ixtisasının artırılması məsələlərinə xüsusi fikir verilir.

Dövlət maliyyəsinin vəziyyəti cəmiyyətin iqtisadi və sosial inkişafına birbaşa təsir göstərir. Ona görə də dövlət, dövlət vəsaitlərinin formalaşdırılması və istifadəsi ilə birbaşa bağlı bütün proseslərə səmərəli nəzarəti həyata keçirir. O, maliyyə nəzarətinin başlıca sifarişçisi və onun informasiyasının əsas istifadəçisidir.

Dövlət maliyyə nəzarətinin əsas məqsədi ictimai istehsalın istehsalı və bölgüsünün bütün sferalarında maliyyə resurslarının idarəedilməsi təcrübəsinin dövlətin maliyyə siyasəti vəzifələrinə uyğunluğu müəyyən etməkdir. Dövlətin maliyyə nəzarətinin əsas vəzifəsi dövlət hakimiyyət orqanlarını və cəmiyyəti dövlət vəsaitlərinin formalaşması və istifadəsi haqqında təfərrüatlı və etibarlı informasiya ilə təmin etməkdir [6].

Dövlət maliyyə nəzarəti orqanlarının fəaliyyəti bir sıra prinsiplərə əsaslanır. İlk prinsip nəzarət orqanlarının fəaliyyətinin müəyyənləşdirilmiş və göstərilmiş normativlərə uyğunluğunu ifadə edən qanunilikdir. Əldə edilmiş büdcə vəsaitlərindən məqsədli və qanuni xərclənməsini təmin etmək məqsədilə məqsədəmüvafiqlik prinsipi tətbiq edilir. Bu bir sıra normativ aktlardan irəli gəlir. Büdcə vəsaitlərindən səmərəli xərclənməsi prinsipinə uyğun olaraq sərəncamçı real tələbatlara uyğun olaraq əldə etdiyi vəsaitlərlə qanuni və əsaslandırılmış əməliyyatlar həyata keçirməlidir. Qeyd edilən prinsiplər dövlət maliyyə nəzarətinin xüsusiyyətlərini özündə əks etdirir.

Müasir mərhələdə dövlət maliyyəsinin idarəedilməsi sahəsində səmərəlilik prinsipi mühüm əhəmiyyət kəsb edir. Onun əhəmiyyətinin artması dövlət vəsaitləri və əmlakı ilə işləyən dövlət orqanlarının səmərəliliyinin qiymətləndirilməsinə istiqamətlənən səmərəliliyin dövlət auditi fəaliyyətinin ortaya çıxması ilə bağlıdır.

Dövlət maliyyə nəzarəti orqanlarının fəaliyyətinin strateji məqsədi qarşıda duran maliyyə ilində ölkənin sosial-iqtisadi inkişaf parametrlərinin işlənib hazırlanması, dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının, o cümlədən Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin təsdiq edilməsi ilə bağlıdır. Dövlət büdcə vəsaitlərini əldə edənlərin tələbatını tam təmin etmək, ayrı-ayrı təşkilatların real ehtiyaclarını və maliyyə imkanlarını aşkar etmək məqsədilə müxtəlif vasit-ələrdən istifadə edir. Dövlət maliyyə nəzarəti, o cümlədən təftiş, yoxlama və auditin həyata keçirilməsi zamanı ilkin maliyyə hesabatları ilə işləmək və dövlət

vəsaitlərini əldə edən konkret təşkilatların maliyyə vəziyyətinin, onların maliyyələşmə mənbələrinin müstəqilliyinin, pul vəsaitlərinə tələbatının həcminin və büdcədən maliyyələşmədən asılılığının obyektiv qiymətləndirilməsi lazım gəlir. Deməli, nəzarətçilərin işinin nəticəsi dövlət vəsaitlərindən faktiki istifadəni müəyyən etmək, normativ və tələbatlardan kənarlaşmaları aşkar etmək deyil, həm də nəzarət obyektlərinin maliyyə resursları ilə təminatlılığını, bu və ya digər maddənin büdcədən maliyyələşməsi həcmini qiymətləndirməkdir. Dövlət maliyyə nəzarətindən bu istiqamətdə istifadə edilməsi ayrı-ayrı təşkilatlar arasında maliyyə resurslarının daha səmərəli bölgüsünə və istifadəsinə imkan verir, həmçinin gələcəkdə dövlətin maliyyə siysətinə düzəlişlərin edilməsinə kömək edir.

Dövlət və büdcədənknar dövlət fondlarının büdcələrinin icrası üzərində nəzarəti həyata keçirmək üçün Hesablama Palatası yaradılmış, onun tərkibi və fəaliyyət qaydası Hesablama Palatası haqqında Azərbaycan Respublikasinin qanunda (1999-cu il 2 iyul və təkmilləşmiş versiyada 29 iyun 2018-ci il) təsbit edilmişdir [1]. Ali audit orqanı kimi Hesablama Palatası fəaliyyət göstərdiyi dövr ərzində dövlət maliyyə nəzarətinin həyata keçirilməsi sahəsində xeyli işlər görmüş və təcrübə toplamışdır. Dövlət idarəetməsinin bir hissəsi kimi dövlət nəzarəti və onun səmərəliliyi sosial-iqtisadi inkişafın nəticələrinə birbaşa təsir göstərir. Bu planda Hesablama Palatası ölkənin yeni, daha səmərəli və rəqbətqabliyyətli idarəetmə sisteminin dayanıqlığının və uzlaşdırılmasının təmin edilməsində mühüm rol oynayır.

Dövlət maliyyə nəzarəti tədbirləri audit, analitik fəaliyyət və monitorinq formalarında həyata keçirilir (maddə 1.0.4).

Hesablama Palatası haqqında Azərbaycan Respublikası qanunun 22-ci mad-dəsinə görə Hesablama Palatasının audit fəaliyyəti kənar dövlət maliyyə nəzarəti obyektlərinin (dövlət orqanları, büdcədənkənar dövlət fondları, bələdiyyələr, publik hüquqi şəxslər, dövlətin və (və ya) bələdiyyələrin səhmi (payı) olan hüquqi şəxslərdir) gəlirlərinin, xərclərinin, əmlakının, öhdəliklərinin, zəmanətlərinin, digər aktiv və passivlərinin idarə olunmasının, maliyyə əməliyyatlarının, maliyyə, mühasibat, vergi və statistika uçotu hesabatlarının düzgünlüyünün və tamlığının, iqtisadi və maliyyə fəaliyyətinin qənaətliliyinin, səmərəliliyinin və nəticəliliyinin müəyyənləşdirilməsi, daxili nəzarət sistemlərinin qiymətləndirilməsi məqsədilə həyata keçirilir [1].

Hesablama Palatası audit fəaliyyətini maliyyə auditi (maliyyə əməliyyatları və hesabatlarının uyğunluğunun, düzgünlüyünün, dürüstlüyünün və tamlığının müəyyənləşdirilməsi, maliyyə idarəçiliyi, daxili nəzarət və əlaqəli informasiya sistemlərinin qiymətləndirilməsi), səmərəlilik (performans) auditi (proqram, layihə, fəaliyyət, əməliyyat, idarəetmə və informasiya sistemlərinin qənaət-liliyinin, səmərəliliyinin və nəticəliliyinin müəyyənləşdirilməsi), uyğunluq auditi (kənar dövlət maliyyə nəzarətinin obyektləri tərəfindən qüvvədə olan hüquqi aktların tələblərinə əməl olunması vəziyyətinin müəyyənləşdirilməsi) və digər audit növləri əsasında həyata keçirir (maddə 22).

Bu vəzifələrin yerinə yetirilməsi təsərrüfat-iqtisadi fəaliyyətdə daha yüksək nəticələrə nail olmağa, insanların rifahının yüksəldilməsini təmin etməyə, Azər-baycan cəmiyyətinin həyat keyfiyyətlərinin yüksəltməyə imkan verir. Bunlar isə bu gün dövlət siyasətinin prioritet istiqamətləridir.

Müasir dövrdə ölkə iqtisadiyyatına dövlət vəsaitlərindən səmərəli istifadə edilməsi ilə bağlı problemlər xasdır. İnteqral strateji səmərəlilik, yəni kompleks səmərəlilik baxımından dövlət vəsaitlərindən istifadənin idarəedilməsi və qiymətləndirilməsi sisteminin mühüm ünsürlərinin təkmilləşdirilməsinin prioritet istiqaməti səmərəliliyin auditi ola bilər. Səmərəliliyin auditi dövlət nəzarəti orqanlarının iqtisadi və sosial nəticələr üzərində həyata keçirdiyi müxtəlif maliyyə nəzarətidir. Nəticələr büdcə prosesinin müxtəlif subyektlərinin büdcənin icrasının yoxlanmasını həyata keçirmək yolu ilə müəyyən edilir. Səmərəliliyin auditinin vacibliyi Ali Audit Orqanlarının Beynəlxalq Təşkilatı (INTOSAI-International Organization of Supreme Audit Institutions) tərəfindən qəbul edilmiş Lim bəyannaməsində qeyd edilmişdir. Auditin rəhbər prinsiplərinə uyğun olaraq audit “tənzimləmə sisteminin ayrılmaz hissəsidir, məqsədi material

resurslarının xərclənməsində qanunilik, səmərəlilik və qənaətlilik prinsiplərinin pozulmasını və qəbul edilmiş standartlardan kənarlaşmasını aşkar etməkdir" [4, səh. 9].

Ali audit orqanı kim Hesablama Palatası dövlət maliyyə nəzarəti fəaliyyətini həyata keçirərəkən Ali Audit Orqanlarının Beynəlxalq Təşkilatının standartlarına əsaslanır.

Qeyd etmək lazımdır ki, bəzi səbəblərdən dövlət nəzarəti sistemində səmərəliliyin auditinin inkişafı nəzarət orqanlarının strateji vəzifəsidir: dövlət maliyyə nəzarətinin nəticəliliyinin, səmərəliliyinin və fəallığının artırılması, dövlət vəsaitlərindən istifadə edən hakimiyyət orqanlarının və digər təşkilatların fəalliyyətinin əhəmiyyətli şəkildə yaxşılaşdırılması və şəffaflığının gücləndirilməsi zəruriliyi. Lim bəyannaməsinə uyğun olaraq səmərəliliyin auditi dövlət vəsaitlərinin nə dərəcədə səmərəli və qənaətlə xərcləndiyini yoxlamağa istiqamətlənir. Belə nəzarət idarəetmənin yalnız spesifik tərəflərini deyil, həm də idarəetmə fəaliyyətinin təşkilati və inzibati ünsürlərini də əhatə etməlidir.

Hazırda Azərbaycanda nəticəyə yönəlik büdcələşdirmə prosesi həyata keçirilir. Odur ki, Hesablama Palatası büdcə xərclərinin səmərəliliyin auditini fəal tətbiq edir. Bununla yanaşı dövlət maliyyə nəzarəti orqanlarının nəzarət-təftiş və ekspert-analitik fəaliyyəti dairəsinə dünya təcrübəsində geniş tətbiq edilən digər yeni nəzarət formaları da (strateji audit, müqavilə auditi və s.) daxil olmuşdur.

Büdcələşdirmə dedikdə dövlət xidmətlərinin göstərilməsi və dövlət transfert-lərinin verilməsi məqsədilə büdcə resurslarının bölüşdürülməsi və istifadəsini özü-nə daxil edən büdcə prosesi başa düşülür. Büdcələşdirmə aşağıdakı vəzifələrin həll edilməsinə istiqamətlənir:

-əsas büdcə parametrlərindən istifadə edilməsi əsasında büdcə vergi sferasının (borc öhdəliklərinin və kəsirin səviyyəsi üzərində nəzarət də daxil olmaqla) sabitliyini təmin etmək,

-vəsaitlərin xərclənməsinin müəyyənləşdirilmiş prioritetləri əsasında proqramlar və sektorlar üzrə resursların səmərəli bölüşdürülməsini təmin etmək,

-dövlət xidmətlərinin təqdim edilməsi və planlaşdırmanın səmərəli sisteminin formalaşdırılması yolu ilə büdcə xərclərinin səmərəliliyinin və nəticəliliyinin təmin etmək.

Nəticəyə yönəlik büdcələşdirmə dövlət orqanlarının diqqətini ikinci və üçüncü (dövlət prioritetlərinə müvafiq olaraq büdcə resurslarının səmərəliliyini təmin etmək, xərclənən büdcə vəsaitlərinin səmərəliliyinə və nəticəliliyinə nail olmaq) vəzifələrin həll edilməsinə yönəldir.

Dövlət xərclərinin idarəedilməsi büdcə siyasətinin mühüm hissəsdir və əhəmiyyətli dərəcədə büdcə prosesinin vəziyyəti, planlaşdırmanın qaydaları, büdcənin təsdiqi və icrası, həmçinin onun icrası üzərində nəzarətlə müəyynə olunur. Xərclərin idarəedilməsi çərcivəsində büdcənin icrası prosesinin maliyyə menecmentinə transformasiyası xüsusi əhəmiyyət kəsb edir. Həyata keçirilən belə dəyişikliyi iki istiqamətdə davam etdirmək zəruridir. Birincisi, idarəetmə uçotunun tətbiqi yolu ilə diqqəti daxili və xarici nəzarətə yönəltməyə imkan verən risk yönümlü daxili audit xidmətinin təşkili və maliyyə informasiyasının müasir sisteminin inkişafıdır. İkincisi, büdcə xərclərindən istifadənin səmərəli artırılmasına dövlət xidmətçilərini təhrik edən stimullaşdırma sistemini yaratmaqdır. Yeni büdcə prosesinin təşkilinin əsasını dünya təcrübəsində geniş tətbiq edilən ortamüddətli maliyyə planlaşdırılması çərçivəsində nəticəyə yönəlik büdcələşdirmə konsepsiyası (modeli) təşkil etməlidir. Bu yeni idarəetmə texnologiyası dövlət maliyyəsinin, xüsusilə əhalinin sosial müdafiəsinin təmin edilməsində əhəmiyyətli rol oynayan Dövlət Sosial Müdafiə Fondunun büdcədən asılılığının yüksək səviyyədə olduğu şəraitdə xüsusilə aktualdır.

Bu büdcə sisteminin köməyi ilə üç idarəetmə vəzifəsi həll edilir: maliyyə vəziyyətinin proqnozu; planlaşdırılan və faktiki əldə olunan nəticələrin müqayisəli təhlili; aşkar edilən kənarlaşmaların təhlili və qiymətləndirilməsi.

Nəticəyə yönəlik büdcələşdirmə sisteminin ümumi sxemini 1 saylı sxemdəki kimi təsvir etmək olar (sxem 1).




**Sxem 1. Nəticəyə yönəlik büdcələşdirmə sisteminin sxemi**

Strateji idarəetmə vəzifələri digər texnologiyalar, o cümlədən planlaşdırılan nəticələrin əldə edilməsi amillərini və parametrlərini əks etdirən starteji məqsədlər arasındakı səbəb-nəticə əlaqələri əsasında Balanslaşdırılmış Göstəricilər Sistemi (Balanced Scorecard, BSC) vasitəsilə həll edilir. Balanslaşdırılmış göstəricilər sisteminin üstünlüyu konkret texnika və texnologiyalarla starteji idarəetmə bacarığını kökündən dəyişməsi, yerinə yetirilmə göstəricilərinə və naliyyətlərinə görə strateji planları, tədbirləri konkret məqsədlər müstəvisinə keçirməsidir. Strateji təşəbbüslər büdcəsinin tərtibi tədbirlərin dəyərini müəyyən etməyə və zaman etibarilə onlara yönəldilən xərcləri bölüşdürməyə imkan verir. Strateji yönümlü büdcənin tərtibinin son mərhələsi proqnozlaşdırılan maliyyə planının gəlir və xərclərinin balanslaşdırılmasıdır. Ola bilər ki, proqnozlaşdırılan maliyyə mənbələri bütün strateji təşəbbüsləri maliyyələşdirməyə kifayət etməsin. Belə halda ya balanslaşdırılmış göstəricilər sisteminə yenidən baxmaq, ya da ümumiyyətlə məqsədlərin özünü dəyişmək zərurəti yaranır. Bir necə təkrarlanmadan sonra maliyyə baxımından balanslaşdırılmış stratej inkişaf planı tərtib ediləcəkdir. Deməli, balanslaşdırılmış göstəricilər sisteminin qurulması və sonradan onun büdcəyə yayılması (tətbiqi) strateji yönümlü büdcələşdirmə sisteminin formalaşdırılması məsələsini səmərəli həll etməyə imkan verir. Bununla yanaşı strateji auditin və səmərəliliyin auditinin formalaşdırılması məsələləri də həll edilməlidir.

Qeyd edildiyi kimi səmərəliliyin auditi dövlət maliyyə nəzarəti fəaliyyətinin əsas istiqamətlərindən biridir. Ona görə də dövlət maliyyə nəzarəti sistemində səmərəliliyin auditinin subyektləri, obyektləri və həyata keçirilmə formaları dəqiq müəyyənləşdirilməlidir. Belə yanaşma Hesablama Palatası tərəfindən həyata keçirilən dövlət maliyyə nəzarətinin təsirliliyinin artmasına, Ali Audit Orqanlarının Beynəlxalq Təşkilatının tövsiyyələrinə və prioritetlərinə uyğunluğunluğunun təmin edilməsinə gətirib çıxarır. Bu gün Hesablama Palatası təcrübədə beynəlxalq tövsiyyələrə (INTOSAI, EUROSAI, ASOSAI) uyğun olaraq səmərəliliyin auditinin təşkili və həyata keçirilməsinin normativ-metodiki bazasının işləyib hazırlamış və uğurla tətbiq edir.

Səmərəliliyin auditi yalnız aşkar edilmiş pozuntuları və çatışmazlıqları aşkar edib aradan qaldırılmasını deyil, həm də gələcəkdə bir daha yol verilməməsi üçün tövsiyyələrin işləynib hazırlanmasını nəzərdə tutur.

Səmərəliliyin auditinin nəticələrinin təcrübədə tətbiqi sosial-iqtisadi proqramların qənaətliliyini, nəticəliliyini və səmərəliliyini yqksəltməyə, ölkə vətəndaşlarının həyat səviyyələrinin keyfiyyətcə yüksəldilməsi üçün ehtiyatların yaradılmasına və onların təlabatlrının tam ödənilməsinə imkan verir. Maliyyə auditində hesabatlılığın və uyğunluğun auditi fərqləndirilir. Hesabatlılığın auditi dövlət büdcəsinin gəlir və xərclərinin uçotu və hesabatlılığının düzgün aparıldığının və tamlığının, maliyyə sənədlərinə uyğunluğunun müəyyən edilməsini nəzərdə tutur. Uyğunluğun auditinin başlıca vəzifəsi dövlət büdcəsinin gəlir və xərclərinin icrası üzrə yoxlamaları həyata keçirməkdir. Dövlət maliyyə nəzarətinin yeni forması kimi səmərəliliyin auditi dövlət orqanlarının fəaliyyətini müntəzəm, məqsədəmüvafiq, mütəşəkkil və obyektiv öyrənməkdir. Səmərəliliyin auditi onların fəaliyyətini qənaətlilik, səmərəlilik və nəticəlilik baxımından qiymətləndirir, həmçinin ətraf mühitə təsirini, səmərəliliyin qiymətləndirilməsi metodlarını, hesabatlılıq çərcivəsində qarşılıqlı münasibətləri,

dövlət aktivlərinin mühafizəsini və s. təhlil edir. Dövlət vəsaitlərinin xərclənməsi səmərəliliyinin auditit dövlət hakimiyyəti orqanlarının işinin səmərəliliyinin artırılmasının mühüm vasitəsdir.

INTOSAI standartlarına uyğun olaraq səmərəliliyin auditi büdcə vəsaitlərinin xərclənməsinin qənaətlilik, səmərəlilik və nəticəlilik kriteriyalarına uyğunluğunu yoxlamaqdır. Qənaətlilik dedikdə yerinə yetirilən işin zəruri keyfiyyətini təmin etmək üçün bu və ya digər məqsədlərə nail olmağa yönəldilən xərclərin minimumlaşdırılması başa düşülür. Səmərəlilik təşkilatın fəaliyyət nəticələri ilə ona istifadə edilən resursların nisbətidir. Nəticəlilik təşkilatın fəaliyyətinin plan və faktiki nəticələri arasındakı nisbət şəklində müəyyən vəzifələrin yerinə yetirməsi səviyyəsi hesab edilir. Səmərəliliyin auditi əksər dünya ölkələrində geniş yayılmış və inkişaf etmişdir. Bir sıra dünya ölkələrində səmərəliliyin auditi ali maliyyə nəzarəti orqanlarının yoxlamalarının ümumi sayında üstünlük təşkil edir.

Beləliklə, beynəlxalq təcrübə göstərir ki, səmərəliliyin auditi metodologiyasının geniş tətbiqi maliyyə menecmentinin keyfiyyətini əhəmiyyətli şəkildə yüksəltməyə imkan veirir. Fikrimizcə, səmərəliliyin auditinin ölkənin dövlət maliyyə nəzarəti sistemində mühüm mövqeyə malik olması üçün büdcə prosesinin və dövlət idarəetməsinin keyfiyyətinin moderinləşdirilməsi, dövlət auditinin uğurlu fəaliyyətinə və inkişafına zəruri şəraitin yaradılması, qabaqcıl beynəlxalq təcrübəyə uyğunluğunun təmin edilməsi, həmçinin iri həcmli məlunmatlar (big data) şəraitində audit məlumatlarının təhlili metodikasının işlənib hzırlanması, dövlət maliyyəsinin idarəedilməsi səmərəliliyinin artırılması məqsədilə Ali Audit orqanında müəyyən struktur dəyişikliyinin aparılması, nöqsan, korrupsiya hallarının zamanında aşkarlanması ücün Hesablama Palatası tərəfindən hesabatlar 6 aylıq və ya 1 illik olması, aralıq dövrdə ciddi şəkildə monitorinqlərin aparılması, dövlət-ictimai nəzarət sisteminin, DSMF-nun müvəqqəti sərbəst vəasitlərinin investisiyalaşdırılması mexanizminin formalaş-dırılması və onun səmərəliliyinin qiymətləndirilməsi mexanizminin, dövlət idaretmə sektorunda hesabatlılığın beynəlxalq standartlarının, uyğun inteqrasiya edilmiş hesabatlılığın tətbiqi, və s. vacibdir.

**Açar sözlər:** *dövlət maliyyə nəzarəti, dövlət idarəetmə sektoru, sosial sığortanın maliyyəsinin idarəedilməsi səmərəliliyi, sosial sığortanın səmərəliliyi, strarteji idarəetmə, nəticəyə yönəlik büdcələşmə, səmərəliliyin auditi, sosial sığorta sisteminin maliyyə dayanıqlığı.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Hesablama Palatası haqqında Azərbaycan Respublikasinin qanunu, 29 iyun 2018-ci il*

*2. "Auditor xidməti haqqında",Azərbaycan Respublikasinin qanunu, 16 sentyabr 1994-cü il*

*3. Abbasov İ.M. Audit, Dərslik, Bakı 2013, 530 s*

*4.Лимская декларация руководящих принципов контроля принята IX Конгрессом Международной организации высших органов финансового контроля (ИНТОСАИ) в г. Лиме (Республика Перу) в 1977 г.*

*5.Бурцев В.В. Государственный финансовый контроль: методология и организация. М.: Маркетинг, 2015. – 392 с.*

*6.Бурцев, В.В. Внутренний контроль: основные понятия и организация проведения, журнал Менеджмент в России и за рубежом. № 4. 2017. стр. 38 - 50.*

*7.Быстряков А.Я. Государственный финансовый контроль/ А.Я. Быстряков.– М.: РУДН, 2016. – 271 с*

*8.Лагутин И.Б. О становлении института финансового контроля в России: к 200-летию государственного контроля // Финансовое право. – 2017. - №3, стр. 15-17*

*9.Ельцин, А. А. Создание системы государственно-общественного партнерства как механизма совершенствования финансового контроля в Российской Федерации: материалы Международной научно-практической конференции / Ельцин А.А.// Актуальные вопросы экономических наук. – 2017. – стр.175-182.*

*10. EUROSAI: вэб-ресурс. [Электронный ресурс] – Режим доступа: http: //www. eurosai. org /(дата обращения: 10.04.2017).*

*11. INTOSAI: вэб-ресурс. [Электронный ресурс] – Режим доступа: http:// www. intosai.*

*org /(дата обращения: 10.04.2017).*
*12.Asch, D. Strategic control: A problem looking for a solution / D. Asch // Long Range Planning. 1992. - т. 25. - № 2.p.105-110.*
*13. http://www.audit.gov.az/*
*14.http://sspf.gov.az*

**Гусейнов Новруз Гасан оглы, докторант**
**Азербайджанский Государственный Экономический Университет,**
**Управление назначения при особых условиях Государственного фонда социальной защиты при Министерстве труда и социальной защиты населения**
**Азербайджанской Республики, консультант**

**Направления совершенствования финансового контроля в системе социального страхования Азербайджана**

**РЕЗЮМЕ**

Эффективность социального страхования как механизма финансового обеспечения приемлемых условий жизни граждан, временно или полностью утративших трудоспособность, во многом определяется эффективностью системы его финансового контроля, особенно в условиях ограниченности финансовых ресурсов, характерной для социальных систем большинства стран.

В статье выявлены проблемы повышения финансовой эффективности управления системой социального страхования Азербайджанской Республики. Сделан вывод, что повышения эффективности управления финансами социального страхования посредством развития финансового мониторинга и контроля позволяет обеспечить финансовой устойчивости системы социального страхования за счет увеличения страховых и инвес-тиционных доходов Фондом Социального Страхования Азербайджанской Республики.

**Ключевые слова:** *государственного финансового контроля, сектор государственного управления, эффективности управления финансами социального страхования, эффективность социального страхования, стратегическое управление, бюджетирование, ориентированное на результат, аудит эффективности, финансовой устойчивости системы социального страхования.*

**Novruz Hasan Huseynov, Ph.D. student,**
**Azerbaijan State University of Economics (UNEC)**
**Department of Appointment under special conditions of the State Social Protection Fund under the Ministry of Labor and Social Protection of the Population of the Republic of Azerbaijan, consultant**

**Directions of improving financial control in the social insurance system of Azerbaijan**

**SUMMARY**

The effectiveness of social insurance as a mechanism for providing financially acceptable living conditions for citizens who have temporarily or completely lost their ability to work is largely determined by the effectiveness of its financial control system, especially in conditions of limited financial resources that are characteristic of the social systems of most countries.

The article reveals the problems of increasing the financial efficiency of managing the social insurance system of the Republic of Azerbaijan. It is concluded that increasing the efficiency of managing social insurance finances through the development of financial monitoring and control makes it possible to ensure the financial stability of the social insurance system by increasing insurance and investment income by the Social Insurance Fund of the Republic of Azerbaijan.

**Key words:** *state financial control, public administration sector, social insurance financial management efficiency, social insurance efficiency, strategic management, performance audit, result-oriented budgeting, financial stability of the social insurance system.*

UOT 338.43

# MODERNLƏŞMƏ - KƏND TƏSƏRRÜFATININ İNNOVATİV İNKİŞAFININ ƏSASINI TƏŞKİL EDİR

**NURİDƏ QASIMOVA**
*Azərbaycan Koopersiya Universitetinin doktorantı*

*E-mail: nurida.qasimova1971@gmail.com*

Hal-hazırda respublikamızın inkişafının prioritet istiqaməti əsas amili innovasiya olan iqtisadi inkişafın yeni növünə keçiddən ibarət olan iqtisadiyyatın modernləşdirilməsidir. Müasir dövr kənd təsərrüfatı məhsulları idxalından güclü asılılığı, rəqabət qabiliyyətinin artırılmasını və innovativ inkişaf növünə keçidi tələb edir.

Modernləşdirmə iqtisadiyyatda, siyasətdə, mədəniyyətdə və beynəlxalq rəqabətdə ənənəvi cəmiyyətdən müasir cəmiyyətə keçidlə bağlı dəyişikliklər prosesini öz daxilinə alır. Daha dəqiq desək, modernləşdirmə inkişafın, transformasiyanın və sivilizasiyanın rəqabətinin birləşməsindən ibarətdir. Modernləşdirmə ayrı-ayrı insanların şəxsi seçimi və inkişafının xarakterik xüsusiyyətidir.

Modernləşdirilmə tarixi məsələlərinin həllinin və innovasiya iqtisadiyyatının təşkilinin yeganə mənbəyi olan insanın – öz intellekti və vərdişləri hesabına yeni ideyalar, innovasiya sistemləri yaratmaq, öz gələcəyini kreativ əsasda qurmaq və modelləşdirmək qabiliyyətinə malik insanın xeyirinə dəyişir.

Müasir inkişaf dövründə iqtisadiyyatın çevrilməsinin innovasiyaya istiqamətlənmiş proseslərinin reallaşdırılması ölkənin xalq təsərrüfatının rəqabət qabiliyyətinin artımı perspektivində təyin olunan kənd təsərrüfatı sektorunun regional innovativ sistemlərinin formalaşmasını tələb edir. Kənd təsərrüfatı sektorunun innovativ sisteminin optimal fəaliyyət göstərməsi milli innovasiya sisteminin mühüm halqası kimi onun innovasiya potensialının vəziyyətinin və inkişaf səviyyəsinin mövcudluğundan asılıdır, bu da öz növbəsində yalnız ayrıca götürülmüş regionun deyil, bütünlükdə ölkənin iqtisadi artımını təyin edir.

Kənd təsərrüfatı sektorunun ölkə iqtisadiyyatı üçün xüsusi əhəmiyyəti, iqtisadi fəaliyyətin bütün növlərinə birbaşa təsir göstərməsi ilə müəyyən edilir. Belə-liklə, müxtəlif növ kənd təsərrüfatı texnikasına ehtiyac maşınqayırmanın inkişafını stimullaşdırır, mineral gübrələrdən istifadə ehtiyacı kimya sənayesini aktivləşdirir. Bundan əlavə, kənd təsərrüfatı sektoru ölkənin ərzaq təhlükəsizliyinin və ərzaq müstəqilliyinin təmin edilməsində müstəsna rol oynayır

Bununla yanaşı, iqtisadiyyatın kənd təsərrüfatı sektorunun innovativ inkişafına mane olan bir sıra amillər var:

- yerli kənd təsərrüfatının maddi-texniki bazasının yeni iqtisadi və istehsal tələblərinə uyğun olmaması. Bir çox təsisatlarında investisiya proseslərinin həyata keçirilməsi üçün şərait yoxdur. Mənfi iqlim hadisələri səbəbindən istehsalın azalması, dövlət tərəfindən dəstəklənməməsi və innovasiyanın baha olması, innovativ fəaliyyətin aktiv inkişafına imkan vermir;
- əksər kənd təsərrüfatı istehsalçılarının kənd təsərrüfatı texnikası, avadanlıqları, bitki mühafizə məhsulları və s. idxalı yüksək səviyyədə olan yerli və xarici elmi və texnoloji nailiyyətlərə toxunulmazlığı;
- innovasiya prosesləri davamlı yüksək siyasi şəraitdə davam edir.

Nəticədə bir çox kənd təsərrüfatı müəssisələri (xüsusilə çayçılıqda) ənənəvi maliyyələşdirmə mənbələrindən (bank krediti, kapital bazarlarında borc almaq və s.) istifadə edə bilmirlər. Bundan əlavə, məhdud büdcə maliyyəsi şəraitində kənd təsərrüfatı istehsalçılarının innovasiya prosesinin iştirakçıları arasında risklərin bölüşdürülməsini, habelə bu risklərdən qorunma mexanizmlərinin

istifadəsini təmin edən maliyyələşdirmə sxemlərinin həyata keçirilməsi məqsədəuyğun olur;

- innovasiya prosesinin struktur disorqanizasiyası. Hal-hazırda innovasiya-ların istehsalata ötürülməsi üçün təsirli bir sistem yoxdur, çünki yenilikçilər, dövlət orqanları və investorların qarşılıqlı əlaqəsi çox çətindir;

- yenilik məhduddur və bir qayda olaraq böyük və iqtisadi cəhətdən güclü təsərrüfatların yalnız kiçik bir hissəsi mövcuddur. İndiki şəraitdə kənd təsərrü-fatında dövlətin innovativ siyasətinin tədbirlərinin həyata keçirilməsi ilə daha da asanlaşdırılacaq kənd təsərrüfatına innovasiya və investisiyaların artırılması lazımdır. Aqrar-sənaye kompleksində dövlət innovasiya siyasətinin ən vacib məqsədi bütün səviyyələrdə effektiv innovasiya üçün şərait yaratmaqdır.

Aqrar-sənaye kompleksində dövlət innovasi-ya siyasətinin həyata keçirilməsi üzrə tədbirlər məcmusu kənd təsərrüfatı istehsalının xüsusiyyətləri nəzərə alınmaqla innovativ fəaliyyətin yeni mütərəqqi formalarının inkişafını təmin edən trans-formasiyalarla müəyyən edilir.

Əvvəla, kənd təsərrüfatı sektorunda yeniliklərin axışmasına kömək edəcək qanunvericilik və tənzimləmə mexanizmlərinin formalaşmasına xüsu-si diqqət yetirilməlidir. Dövlətin kənd təsərrüfatı sektorundakı innovativ proseslərin inkişafına münasibətini, dövlət dəstəyi istiqamətlərini və tədbirlərini müəyyənləşdirən qanunları və digər normativ sənədləri hazırlamaq, habelə innovativ fəaliyyətə investisiya qoymaq üçün əlverişli şərait yaratmaq lazımdır.

Dövlətin iqtisadi təhlükəsizliyini təmin etmək təhdidlərə çevrilməsinin qarşısını almaq üçün çağırışlara cavabdır. Hal-hazırda bəşəriyyət iqlim dəyişikliyi, əhalinin qocalması, qlobal qida təhlükəsizliyi kimi tədqiqatlar və texnoloji inkişafın müəyyən sahələrinin ("təmiz" enerji, genom dərmanı, kənd təsərrüfatında yeni texnologi-yalar) sürətli inkişafının zəruriliyini diktə edən problemlərlə üzləşir və s.). Bu çətinliklərə cavab vermək üçün Azərbaycanın qlobal innovasiya sisteminə daha dərindən inteqrasiyası lazımdır.

Aqrar-sənaye kompleksinin iki inkişaf variantı - inertial və innovativ təqdim etmək olar (3).

İnertial seçim mövcud iqtisadi mexanizmlərin qorunmasını, dövlət dəstəyinin həcmini, həmçinin investisiya imkanlarını və müvafiq olaraq ümumi kənd təsərrüfatı məhsulunun artım tempini təmin edir.

İnnovativ seçimlə, mövcud istehsal üçün modernləşdirmə imkanlarından istifadə etməklə sürətləndirilmiş sosial-iqtisadi inkişaf böyük dərəcədə həyata keçiriləcək və innovativ inkişafların həyata keçirilməsinə keçid sürətləndirilə-cəkdir.

İki ssenari arasındakı fərqlər bunlardır:

• kənd təsərrüfatına dövlət dəstəyi səviyyəsində investisiyaların həcmi və istiqaməti;

• resurs qənaət edən texnologiyalardan və ya innovativ texnologiyalardan istifadə edilən məhsulların payında;

• iqtisadiyyat və məhsulların daxili bazarda rəqabət qabiliyyəti baxımından;

• ixrac olunan kənd təsərrüfatı məhsulları və ərzaqların payında;

• kənd əhalisinin sosial vəziyyəti və kənd təsərrüfatının inkişafı baxımından.

Kənd təsərrüfatını maliyyələşdirmə mənbələri strukturunun dəyişməsinin əsas səbəbi, iqtisadi-yyatda köklü dəyişikliklərlə əvvəlcədən müəyyən edilmiş bütün sahələrdə dövlət maliyyələşdirmə siyasətində kəskin dəyişiklik olmasıdır.

Kənd təsərrüfatı məhsulları istehsalçıları arasında cüzi bir hissəsini istehsal yeniliyə əsaslanan və sonuncu texnoloji quruluşa aid olan təsərrüfatlar tutur. Bunlar əsasən çayçılığı, stirus meyvələrin yetişdirilməsi, qapalı yerdəki bitkiçilik müəssisələridir. Digər həddə əsasən əl əməyi, ibtidai geridə qalmış texnologiyalardan istifadə edən və ikinci sıradan çıxmayan fərdi yardımçı təsərrüfatlar və kiçik təsərrüfatlar var. Onların arasında müxtəlif kənd təsərrüfatı təşkilatları və əsasən üçüncü və dördüncü quruluşlarla əlaqəli, modernləşdirilməsini tələb edən böyük kəndli (fermer) təsərrüfatları var.

Hal-hazırda, müasir kənd təsərrüfatı maşın və texnologiyalarından, o cümlədən toxumdan istifadə edən böyük kənd təsərrüfatı təşkilatlarının təxminən 1,5% -ində (kəndli) təsərrüfatlarının 0,5% -dən azında qabaqcıl texnika və texnologiyalar mövcuddur. Üstəlik, ölkədəki bütün kənd təsərrüfatı məhsullarının 10% -dən çoxunu səmərəli şəkildə istehsal edirlər.

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı istehsalının modernləşdirilməsi və inno-vativ inkişafa, enerji və resurslara qənaət texnologiyalarına keçid kütləvi iş azadlığı ilə müşayiət edilə bilər. Bu baxımdan şaxələndirməyə,

yeni iş yerlərinin açılmasına, kadrların yenidən hazırlanmasına və kənd yerlərində alternativ fəaliyyətin təşkilinə çox diqqət yetirilməlidir.

İstehsal və sosial infrastrukturun bərpası üçün büdcə vəsaiti ilə yanaşı həm Azərbaycan, həm də xarici sərmayə cəlb etmək lazımdır. Ölkə daxilində əlverişli investisiya mühiti yaratmaq, kənd təsərrüfatına birbaşa büdcə dəstəyi, kənd təsərrüfatına investisiya qoyan şirkətlər üçün əlverişli kredit və vergi şərtləri yaratmaqla, kənd inkişafına böyük sərmayə qoyulması şərtilə gəlir vergisindən müvəqqəti azad olunmaqla investisiya cəlb etmək lazımdır.

Müasir şəraitdə yerli kənd təsərrüfatı istehsalçılarının rəqabətqabiliyyətliliyini və kənd təsərrüfatı sektorunun inkişafına dair strateji göstərişlərə nail olmağı təmin edə biləcək yeganə mümkün ssenari yenidir. Dövlət aqrar siyasəti onun həyata keçirilməsinə yönəldilməlidir.

İqtisadiyyatın kənd təsərrüfatı sektorunun innovasiya inkişafı strategiyasının icrası çərçivəsində sənayenin texniki və texnoloji modernləşdirilməsi həyata keçirilir, bunlar olmadan ölkənin ərzaq təhlükəsizliyini təmin etmək mümkün deyil.

Kənd təsərrüfatının texniki və texnoloji modernləşdirilməsi kənd təsərrüfatı məhsulları istehsalçıları tərəfindən bitkiçilik və yem istehsalı üçün yüksək tex-noloji maşınların alınmasını stimullaşdırmaq məqsədi daşıyır və kənd təsərrüfatının inkişafı və kənd təsərrüfatı məhsulları, xammal və ərzaq bazarlarının tənzimlənməsi Dövlət Proqramı çərçivəsində həyata keçirilməlidir.

Texniki və texnoloji modernləşdirmə tədbirlərinin icrası dövlət dəstəyi fondlarının cəlb edilməsi ilə həyata keçirilir. İnvestisiya kreditləri üzrə faiz ödəməsi dəyərinin bir hissəsinin geri qaytarılması üçün subsidiyalar şəklində həyata keçirilməlidir. Bununla birlikdə, quraqlığın təsiri altında kənd təsərrüfatı istehsalçılarının gəlirliliyinin azalması səbəbindən maşın və traktor parkının yenilənmə sürəti xeyli dərəcədə artırılmalıdır.

Hal-hazırda kənd təsərrüfatının inkişafı və kənd təsərrüfatı məhsulları, xammal və ərzaq bazarlarının tənzimlənməsi üçün dövlət proqramı hazırlanmalıdır ki, bunun da tərkibinə aşağıdakı tədbirləri daxil edən "Texniki və texnoloji modernləşdirmə, innovativ inkişaf " alt proqramı müəyyən edilməlidir:

- kənd təsərrüfatı texnikası parkının yenilənməsi;
- kənd təsərrüfatında enerjiyə qənaət və enerji səmərəliliyinin artırılması;
- maşın sınaq stansiyalarının modernləşdirilməsi;
- bələdiyyələrdə kənd təsərrüfatı konsultasiya sisteminin inkişafı;
- innovasiya mərkəzlərinin yaradılması və fəaliyyətinin inkişafı.

Bu proqramın həyata keçirilməsinin əsas göstəriciləri aşağıdakılar olmalıdır:

- kənd təsərrüfatı təşkilatları tərəfindən əsas avadanlıq növlərinin alın-ması həcmi;
- maşın sınaq stansiyaları tərəfindən kənd təsərrüfatı maşın və avadanlıqlarının sınaq həcmi;
- bərpa olunan enerji mənbələrindən istifadə edən kənd təsərrüfatı təşkilatlarının istehsal etdiyi enerji ehtiyatlarının payı;
- regional kənd təsərrüfatı məsləhət təşkilatlarının və innovasiya mər-kəzlərinin sayı;
- kənd təsərrüfatında və qida istehsalında texnoloji yenilikləri həyata keçirən təşkilatların nisbəti.

Fikrimizcə, aqrar-sənaye kompleksindəki innovasiya siyasəti aşağıdakı problemlərin həllinə yönəldilməlidir.

1. Kənd təsərrüfatına birbaşa xarici investisiya üçün cəlbedici maliyyə və investisiya mühitinin yaradılması. Buna kənd təsərrüfatında milli prioritet olaraq güzəştlərin dövlət tərəfindən maliyyələşdirilməsi, elmə kredit verilməsi, elmi və texnoloji tərəqqinin əsas istiqamətləri kömək edə bilər. Bundan əlavə, əqli mülkiyyətin qorunması haqqında qanunun icrası lazımdır. Patent qanunlarında islahat, əqli mülkiyyətin dövlət qurumlarından özəllərə ötürülməsi mexanizmini daha şəffaf edərdi. Texniki qaydaların, vergi rejiminin təkmilləşdirilməsi, sadələşdirilmiş lisenziyalaşdırma proseduru, sertifikatlaşdırma və əmək qanunvericiliyinin liberallaşdırılması yenilik üçün daha cəlbedici şərait yaradacaqdır.

2. İnnovativ potensialdan istifadə. Bu problemi həll etmək üçün dövlət və özəl sektorların elmə, yüksək texnoloji sahələrə, bazar əsaslı innovativ mexanizmlərin rəqabət qabiliyyətini yaradan və yayan sahələrdə optimal birləşməsini yaratmaq lazımdır.

3. Aqrosənaye kompleksinin prioritet inkişafı üçün şərait yaradılması. İnnovativ infrastruktur müəssisələrinə münasibətdə dövlət proteksionizmini həyata keçirmək, kənd təsərrüfatının hüquqi tənzimlənməsini və stimullaşdırılmasını

təmin etmək, dövlətin innovativ siyasətinin həyata keçirilməsində hökumətin bütün səviyyələrinin rolunu və məsuliyyətini artırmaq lazımdır.

4. Aqrosənaye kompleksinin kadr potensialının inkişafı. Peşə təhsili almaq üçün şərait və proseslərin yaxşılaşdırılması, təhsil müəssisələri məzunlarının müəyyən edilmiş peşə qabiliyyətlərinin innovativ istehsalın ixtisas tələblərinə uyğunlaşdırılması, əmək bazarında tarazlı tələbə nail olunması, kənd təsərrüfatı müəssisələrinin gənc mütəxəssislərlə təminatının yaxşılaşdırılması problemlərini həll etmək lazımdır. Aqrar sahənin spesifikliyi onunla şərtlənir ki, burada bəzən səmərəsi özünü uzun illər göstərən təcrübi tədqiqatları da maliyyələşdirmək zərurəti yaranır. Yəni elmi tədqiqatlara ayrılan vəsaitlər bəzən uzun müddət sonrakı iqtisadi inkişaf üçün zəruri olan elmi-innovativ yenilikləri stimullaşdırır.

Azərbaycana gəlincə, aqrar sahədə elmi-tədqiqat işlərinin maliyyələşdirilməsi mexanizmlərinin dövrün tələblərinə cavab verməməsi hazırda hökumət səviyyəsində də etiraf olunur. Lakin hazırda bu sahədə mövcud olan problemləri “maliyyə çatışmazlığı” kimi ümumi sözlərlə pərdələmək də doğru yanaşma deyildir. Əslində, mövcud imkanlar daxilində də çox iş görmək olar, sadəcə ətalətdən, əyalət ab-havasından çıxıb yeni tədqiqatçılıq metodlarını əxz etmək mümkündür.

Təcrübə göstərir ki, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı sahəsində müasir tələblərə cavab verən kadr potensialının olması həlledici əhəmiyyət kəsb edir. Ali və orta ixtisaslı kənd təsərrüfatı mütəxəssislərinin müasir tələblər baxımından professional hazırlıq səviyyəsi isə hələ aşağıdır. Bu ixtisasların kənd yerlərində cəlbedici olması üçün müvafiq tədbirlərin həyata keçirilməsinə, mütəxəssislərin sosial-məişət problemlərinin həllinə ehtiyac duyulur. Hazırda Azərbaycan Respublikasının ali məktəblərində 30, orta ixtisas məktəblərində 6, texniki peşə məktəblərində 23 ixtisas üzrə kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı, emalı, saxlanılması və iqtisadiyyatı sahəsində mütəxəssis hazırlanır(2).

5. Sosial sahənin dövlət tənzimlənməsi. Dövlətin ən vacib vəzifəsi kənd sakinlərinin yüksək həyat səviyyəsini təmin etmək və sosial gərginliyi azaltmaqdır. Maliyyə, sənaye və sosial sahələrdə balanslaşdırılmış dövlət siyasəti sayəsində əhalinin gəlir səviyyəsi artırılmalıdır.

Son on il ərzində Azərbaycan dünyada ən sürətli templərlə inkişaf edən dövlət kimi tanınır. Bunun başlıca səbəbi elmi əsaslara söykənən iqtisadi islahatların siyasi islahatlarla tamamlanması və uzlaşdırılmasıdır. Azərbaycanın bu təcrubəsi dunyada maraqla qarşılanır və öyrənilir.

Dövlətimizin başçısının qarşıya qoyduğu ən mühüm vəzifələr sırasında social-iqtisadi inkişafın innovativ və kreativ vasitələrlə sürətləndirilməsi mühüm yer tutur. İnnovasiya proseslərinin intensivliyinin artması hazırda qlobal iqtisadi sistemdə baş verən dəyişikliklərin mühüm istiqamətlərindəndir.

“Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezi-dentinin 2014-cü il 16 aprel tarixli 152 nömrəli fərmanının 6.3-cü bəndinin icrasına uyğun olaraq aqrar sahədə “Elektron kənd təsərrüfatı” İnformasiya Sisteminin təşkili, fəaliyyəti və bu sistemin digər dövlət informasiya sistemləri və ehtiyatları ilə inteqrasiyası məsələlərinin tənzimlənməsi məqsədilə Nazirlər Kabinetinin 30 dekabr 2014-cü il tarixli 408 nömrəli qərarı ilə “Elektron kənd təsərrüfatı” İnformasiya Sistemindən istifadə Qaydaları” təsdiq edilmişdir (6).

Bu gün aqrar sahədə həyata keçirilən modernləşmə tədbirləri - Azərbaycanda milli iqtisadiyyatın prioritet sahələrindən biri olan kənd təsərrüfatında həyata keçirilən keyfiyyət yönümlü islahatların dönməzliyinin təmin olunmasında, müasir kəndin sosial-iqtisadi inkişafının yüksəldilməsində, eyni zamanda istehsal və sosial infrastrukturun müasir tələblərə uyğunlaşdırılmasında əhəmiyyətli amil hesab olunur. Belə inkişaf kənd təsərrüfatı və onunla qarşılıqlı əlaqədə olan sahələrdə fasiləsiz iqtisadi artımın təmin edilməsinə yönəldilmiş tədbirlərin məcmusunu özündə əks etdirir.

Beləliklə, kənd təsərrüfatı istehsalının səmərəliliyini artırmaq və ərzaq təhlükəsizliyini yalnız yüksək inkişaf etmiş maddi-texniki bazanın fəaliyyət göstərməsi və onun yenilənməsi, yəni təsərrüfatların yeni mühəndislik məhsulları ilə modernləşdirilməsi və texnikanın yenidən təchiz edilməsi, mexanikləşdirmə və avtomatlaşdırma maşınları kompleksinin yaradılması əsasında təmin etmək mümkündür. Modernləşmə innovativ inkişaf modelinə keçməyə imkan verir, qlobal iqtisadi böhranın mənfi nəticələrini kompensasiya

edir və kənd təsərrüfatı mühəndisliyi, bitkiçilik və heyvandarlıq istehsalı və emal sənayesində qabaqcıl texnologiyaların geniş tətbiqi ilə yerli kənd təsərrüfatının rəqabət qabiliyyətini artırır.

İnnovasiyaya dövlət dəstəyi, investisiya ehtiyatlarını kənd təsərrüfatının prioritet sahələri üzərində cəmləşdirə biləcək effektiv mexanizmin təşkili, kənd təsərrüfatı sektorunda yeniliklərin tətbiqi üçün şərait yaradılması və innovasiya üçün kadr hazırlığı məsələlərinə xüsusi diqqət yetirilməlidir.

**Açar sözlər:** *modernləşmə, innovativ inkişaf, əsas kapitala investisiya, iqtisadiyyatın aqrar sektoru.*

### ƏDƏBİYYAT SİYAHISI:

*1. Alıyev.İ.H "Qloballaşma şəraitində aqrar sahənin dayanıqlı inkişafının təmin olunmasının sosial-iqtisadi problemləri. Bakı, Elm, 2007, 400 s.*

*2. Əhmədov G. Aqrar sahə iqtisadiyyatının innovasiya yönümlü inkişafını təmin edən strategiya// Xalq qəzeti.- 2010.- 16 fevral.- S. 4.*

*3. Козанков А.Г.Государственное регулирование инновационного раз-вития агропромышленного комплекса //Аграрный вестник Урала.2009.№ 6 (60).*

*4. İbrahimov İ.H. Aqrar iqtisadiyyatın aktual problemləri. Bakı: Təhsil EİM, 2002. 190 s*

*5. Quliyev E.A.Aqrar iqtisadiyyat. Dərslik. Bakı. 2015.125 s*

*6. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. Bakı, İqtisad Universiteti, 2009, s. 334.*

*7. http://www.e-qanun.az/framework/27543*

**Нурида Алиш кызы Касимова**
**докторант АУК**

### Модернизация - основа инновационного развития сельского хозяйства

### РЕЗЮМЕ

В статье рассматривается необходимость обеспечения продовольственной безопасности в стране, быстрого развития аграрного сектора экономики, что невозможно без технической и технологи-ческой модернизации, перехода от качественно нового типа развития, факторов, сдерживающих инновационное развитие агропромышленного комплекса. Проанализирован инвестиционный потенциал аграрного сектора экономики и обсуждены основные направления инновационной политики государства.

**Ключевые слова:** *модернизация, инновационное развитие, инвестиции в основной капитал, аграрный сектор экономики.*

**Nurida Alish Gasimova**
**doctoral student of ACU**

### Modernization is the basis of innovative development of agriculture

### SUMMARY

The article considers the need to ensure food security in the country, the factors hindering the rapid development of the agricultural sector of the economy, the transition to a qualitatively new type of development, the innovative development of the agro-industrial complex,which is impossible without technical and technological modernization. The investment potential of the agricultural sector of the economy is analyzed and the main directions of the state's innovative policy are discussed.

**Keywords:** *modernization, innovative development, fixed capital investment, agrarian sector of the economy*

UOT: 332.62

# BİZNESİN (MÜƏSSİSƏNİN) QİYMƏTLƏNDİRİLMƏSİNƏ METODOLOJİ YANAŞMALAR

**MƏMMƏD CABBARLI**
*Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) "Qiymətləndirmə" ixtisası üzrə magistrantı*

*E-mail: cabbarli.mamed@gmail.com*

Respublikamız müstəqillik əldə etdikdən sonra aparılan iqtisadi islahatlar nəticəsində mülkiyyət çoxnövlüyü və təsərrüfat subyektlərinin sərbəst fəaliyyəti təmin olundu. Əvvəllər tamamilə dövlət mülkiyyətində olan müəssisələrin bir hissəsi müxtəlif üsullarla özəlləşdirilərək fiziki və hüquqi şəxslərin sərəncamına keçdi. Daha doğrusu, sonrakı dövrdə baş verən hadisələr müəssisələri və ya onların struktur elementlərini bazar sövdələşmələrinin obyektinə çevirdi. Müəssisələr alqı-satqı, girov, sığorta, investisiya, vergiyə cəlbetmə və s. əməliyyatların predmeti oldu. Təbii ki, yaranmış vəziyyət müəssisənin bazar dəyərinin qiymətləndirilməsi zərurətini ortaya qoydu.

Bir məsələni də qeyd etmək lazımdır ki, qiymətləndirmə fəaliyyəti üzrə xarici təcrübədə müəssisənin dəyərinin müəyyən edilməsi "biznesin", "şirkətlərin" və "biznesin (müəssisənin) qiymətləndirilməsi" adı altında təqdim olunur, aparılır və təkmilləşdirilir. Azərbaycan reallığında hazırki dövrə qədər sonuncu varianta üstünlük verilir. Bunun da özünəməxsus iqtisadi əsasları vardır. Birincisi, müəssisə gəlir gətirmək məqsədilə yaradılan təsərrüfat subyekti yaxud biznes obyektidir. İkincisi, biznes fəaliyyətinin təşkili, idarə olunması və inkişafı hər hansı təşkilati formada müəssisənin yaradılmasından başlanır. Belə nəticəyə gəlmək olar ki, "biznes" və "müəssisə" bir-birini tamamlayan anlayışlardır.

Biznesin (müəssisənin) qiymətləndirilməsi metodologiyasına gəldikdə isə qeyd etmək olar ki, o, çox mürəkkəb və əməktutumlu prosesdir. Ona görə ki, müvafiq prosedur əksər əmlak növlərinin, o cümlədən qeyri-maddi aktivlərin dəyərinin hesablanılması üzrə bütün zəruri əməliyyatları özündə birləşdirir. Ortaq cəhət ondan ibarətdir ki, qiymətləndirmədə tətbiq olunan yanaşmalar eyni olaraq qalır. Lakin biznesin dəyər qiymətləndirilməsində yanaşmalara aid olan metodlar və onların tətbiqi alqoritmi dəyişir. Bunu şərtləndirən ayrıca amillər vardır. Nümunə olaraq qeyd edə bilərik ki, daşınmaz əmlakın qiymətləndirilməsi zamanı qudvillin dəyərinin hesablanılmasına ehtiyac yoxdur. Amma biznesin dəyərinin müəyyən edilməsi üçün bu çox əhəmiyyətli məsələlərdən sayılır.

Biznes qiymətləndirmə obyekti kimi digər əmlak növlərindən fərqli xüsusiyyətləri ilə səciyyəvidir. Həmin xüsusiyyətlər arasında aşağıdakılar üstünlük təşkil edir:

1. Müəssisənin əmlak kompleksdən istifadə etməklə mənfəətin əldə oiunması məqsədi ilə həyata keçirilən fəaliyyət olaraq biznes qiymətləndirmə obyekti kimi qəbul edilir;

2. Biznesin qiymətləndirilməsi prosesində gələcəkdə hüquqi şəxs kimi fəaliyyət göstərəcək müəssisənin həm də təsərrüfat subyekti olması nəzərə alçnmalıdır;

3.Biznesin dəyərləndirilməsi gedişində əmlak kompleksinin dəyəri ilə yanaşı qiymətləndirmə obyekti çərçivəsində dəyərin yaradılması və yüksəldilməsinin səmərəliliyi də müəyyən olunmalıdır;

4.Biznes əmtə olaraq bütün digər əmlak növlərinin xaraterik əlamətlərinə malikdir və bununla da onun qiymətləndirilməsi prinsipləri,yanaşmaları və metodları seçilə bilər.

Biznes qiymətləndirmə obyekyindən əlavə əmtəə kimi də özünün aşağıdakı spesifik xüsusiyyətləri ilə fərqlənir:

- Biznes ilk növbədə investision əmtəədir. Bu o deməkdir ki, ona investisiya qoyuluşu gələcəkdə

mənfəət alınması məqsədinə xidmət edir;

- Biznes elə bir sistemdir ki, o, həm bütövlükdə və həm də ayrı-ayrı alt sistemlər, elementləri şəklində reallaşdırıla bilər. Beləliklə, biznesin altsistemləri və müxtəlif elementləri əmtəə xarakteri daşıyır;

- Müəssisənin daxilində və həm də xarici mühitdə baş verən proseslər əmtəələrdə olduğu kimi biznesə olan tələbata təsir göstərir;

- Biznesin dəyərinin hesablanılması prosesinin tənzimlənməsi zəruriliyi də əmtəə kimi biznesin xüsusiyyətlərindən biri hesab olunur.

Digər mülkiyyət obyektləri kimi, müəssisənin qiymətləndirilməsi də mövcud bazar mühitində verilmiş vaxt kəsiyində onun dəyərinə təsir edən amillərin uçota alınması ilə pul ifadəsində dəyər kəmiyyətinin hesablanması üzrə məqsədyönlü prosesdir. Məqsədin dəqiqləşdirilməsi hesablanacaq dəyər növünün düzgün müəyyən olunmasına və qiymətləndirmə metodlarının seçilməsinə imkan yaradır. Qiymətləndirmənin məqsədləri qarşıdakı vəzifələrdən asılı olaraq bütövlükdə biznesin qiymətləndirilməsi kimi geniş və onun istiqamətlərindən birinin dəyərləndirilməsinə uyğun şəkildə dar ola bilər. Onlar əsas etibarilə qiymətləndirmə subyektlərindən, hesablanılması nəzərdə tutulan dəyər növlərindən və oxşar dəyişənlərə görə fərlənirlər.

Əgər müəssisənin əmlakının hər hansı bir elementi alqı-satqı, kreditləşdirmə, sığortalama, icarə və ya lizinq sövdələşmələrinin obyektidirsə, eyni zamanda həmin əmlak obyekti vergiyə cəlb olunursa, onda zəruri obyektlər məsələn, daşınmaz əmlak, qeyri-maddi aktivlər ayrılıqda qiymətləndirilməlidir..

Əmlakın dəyərinin qiymətləndirilməsi nəticələrinin obyektivliyi müəyyən qədər qiymətləndirmənin tətbiqi sahəsinin, yəni alqı-satqı, kreditləşdirmə, sığortalama, vergitutma və s. düzgün seçıiməsindən də asılıdır.Əks halda əmlak obyektinin eyni bir vaxt anında iki fərqli məqsədlərlə qiymətləndirilməsi müxtəlif nəticələr verəcəkdir.Ona görə ki, dəyər müxtəlif metodlarla və fərqli subyektlər tərəfindən qiymətləndirilmiş olur.

Qiymətləndirmənin məqsədi sifarışçinin maraqlı olduğu dəyər növünün müəyyən olunmasından ibarətdir. Bu məqsəd müəssisənin ayrı-ayrı elementlərinin dəyərinin qiymətləndirilməsi ilə də bağlı ola bilər. Müəssisənin qiymətləndirilməsi iqtisadiyyatın müxtəlif vəziyyətlərində həyata keçirilən zəruri funksiya və fəaliyyət növlərindən biridir. Onun aparılması iflas müəssisənin satışa çıxarılması və qiymətləndirilməsi, normal işləyən səhmdar cəmiyyətin buraxdığı yeni səhmlərin dəyərinin müəyyən edilməsi, açıq və qapalı səhmdar cəmiyyətin səhmdarları, həmçinin təsisçiləri tərəfindən payların qiymətləndirilməsi baxımından zəruridir.

Biznesin qiymətləndirilməsinin predmetinə daha geniş mənada iki mövqedən yanaşmaq olar. Bunlardan birincisi, ölkəmizdə biznesin qiymətləndirilməsinə ənənəvi olaraq hüquqi şəxslərin, o cümlədən firmanın qiymətləndirilməsi kimi baxılmasıdır. Bu mənada formalaşmış iqtisadi ənənələrə görə bizneslə yalnız balansında müəyyən əmlakı olan hüquqi şəxslər məşğuldur və ona görə də biznesin qiymətləndirilməsi müəssisənin əmlakının dəyərinin müəyyən edilməsi ilə eyniləşdirilir (Акулич М.В., 2009).

İkincisi, beynəlxalq təcrübədə biznesin qiymətləndirilməsi daha geniş mənada müəssisənin dəyərinin deyil, ona gəlir gətirən mülkiyyət hüquqlarının, texnologiyanın, rəqabət üstünlüklərinin, qeyri-maddi aktuvlərin dəyərinin müəttən olunması kimi şərh olunur. Qeyd olunan hüquqlar, texnologiya və aktivərə hüquqi şəxslərlə bərabər həm də fiziki şəxslər sahib ola bilərlər. Bu hem də onların bazarda alış-satış obyekti kimi cəlbediciliyini azaltmır və onların qiymətləndirilməsi problemi öz aktuallığını saxlayır.

Qiymətləndirmənin nəzərdən keçirilən məqsədləri biznes sahəsində bir növ məhsul istehsal edən müəssisənin qiymətləndirmənin predmetinə çevrilməsi anında yaranır. Biznes sahələrinin real dəyərinin hesablanması nəticələrindən tətbiqinə yenicə başlanılan investisiya layihələrinin qiymətləndirilməsində daha çox tez-tez istifadə olunur. Bu zaman xüsusi mülkiyyət hüquqlarının reallaşdırılması üçün müqavilə hüquqları, maddi və digər aktivəri çatışmayan layihələrin maliyyələşdirilməsi barədə qərar verənlərə məxsusdur. Qəbul ediləcək qərarla maliyyələşdirmə mənbələrinin axtarılması məsələsi həllini tapır.

Danılmaz faktdır ki, layihənin reallaşdırılması sahəsində rəqabət üstünlüklərinə malik olan müəssisənin müvafiq imtiyazları satmaq, həmçinin layihənin reallaşdırılmasından gözlənilən gəlirləri

əldə etmək hüququ saxlanılır. Bu baxımdan satıcı maksimum qiymət gözləməklə yenicə qurulan biznes üçün əlverişli nəticəyə nail ola bilər. Hələ başlamamış, lakin planlaşdırılan real yüksək imkana malik biznesdə ən səmərəli satış yeni vəə birməhsullu müəssisənin öz hüquqları, üstünlükləri ilə birgə ilkin satışıdır. Bu reallaşdırılmaqda olan investisiya layihəsi üçün artıq təsbit olunur və yeni layihəyə başlamayan müəssisənin qiymətləndirilməsini əhatə edən biznesdir.

Müəssisənin və onun tərkib elementlərinin dəyərləndirilməsi metodoloji cəhətdən biznes sahələrinin qiymətləndirilməsindən kənarlaşması mümkündür. O, bilavasitə müəssisənin əmlak kompleksi üzrə aparıla bilər. Qeyd olunan yanaşmaların ikisinin də müəssisənin qiymətləndirilməsinin predmeti olması məntiqidir. Müəssisə hüquqi baxımdan müxtəlif təyinatlı əmlak növlərinə sahibdir və bu əsasda təsərrüfat fəaliyyətinin icrasından gəlir əldə edir.

Hüquqi şəxs statusuna malik olmayan müəssisə qiymətləndirmənin aralıq predmeti ola bilər. Ona görə də "firma" anlayışından nisbətən az istifadə edilir. Belə müəssisələr əslində bir neçə "biznes-sahəsi"nə malik olurlar və bu da onların bazar gücünü təsdiq edir. Müasir qiymətləndirmə standartlarına əsasən fəaliyyət göstərən müəssisənin qiymətləndirilməsi zamanı gəlir, müqayisə və xərc yanaşmalarıdan istifadə edilir. İlk növbədə hər üç yanaşma nəzərdən keçirilməlidir. Lakin, konkret olaraq bu üç yanaşmadan hansından istifadə olunacağına qiymətləndirici qərar verir. O, qərar qəbul edərkən əmlakın spesifikasını, təhlil və proqnozlar üçün məlumatların kifayət qədər və səhih olmasını nəzərə almalıdır.

Hazırkı qiymətləndirmə sifarişə əsasən kənd təsərrüfatı məhsulları istehsalı və siyuducu anbarda yerləşən maşın və mexanizmlərdir. Bununla yanaşı Beynəlxalq Maliyyə Hesabatı Standartlarına əsasən bu halda maşın və mexanizmlərin istismarda faydalığının azalması üzrə hesablamalarda istismar prosesində olan maşın və mexanizmlərdən müəssisənin əldə edəcəyi faydanın hesablanmasında yuxarıda sadalanan yanaşmaların istifadəsində zərurət vardır.

Müəssisənin bazar dəyərləndirilməsində diqqəti cəlb edən xüsusiyyət ondan ibarətdir ki, onun bəzi tərkib elementlərinin dəyərinin qiymətləndirilməsi gedişində əlavə olaraq ekspert yanaşmasından da istifadəyə ehtiyac yaranır. Göstərilə bilər ki, müəssisənin kadr potensialının qiymətləndirilməsində həmin yanaşmadan istifadə obyektiv xarakter alır.

Qiymətləndirmə fəaliyyətində yanaşmalar öz növbəsində müəyyən metodlardan ibarətdir. Onlar özlərinə məxsus üstünlükləri, çatışmazlıqları, prinsipləri və tətbiqi mərhələləri ilə bir-birindən fərqlənirlər. Başqa əmlak növlərində olduğu kimi, müəssisənin də qiymətləndirilm edir. Başqa sözlə, əgər qiymətləndirilən müəssisənin dəyəri onunla eyni faydalılığa malik olan və təxminən bərabər səviyyədə gəlir gətirən müqyisəli obyektlər bazarında onun əldə olunması məsrəflərini ötüb keçirsə, onda investor həmin obyektii almaq fikrindən kənarlaşır.

Biznesin (müəssisənin) qiymətləndirilməsində daha çox tətbiq olunan yanaşmalardan biri müqayisə yanaşmasıdır. Digər yanaşmalar kimi onun əsasında müəssisənin bazar dəyərinin hesablanmasının özünəməxsus sxemi vardır. Burada qiymətləndirmə obyektinin aid olduğu bazarın yaxud seqmentin təhlili, analoqların seçilməsi, düzəlişlərin aparılması, yekun kəmiyyətin razılaşdırılması kimi mürəkkəb işlər yerinə yetirilməlidir. Qiymətləndirilmənin hər hansı mərhələsində buraxılan cuzi səhv yekun dəyərin yanlış olmasına gətirib çıxara bilər. Ona görə də müvafiq yanaşmanın üstünlüklərini, çatışmazlıqlarını, tətbiqi sferasını əvvəlcədən dəqiq öyrənməklə, tətbiqi texnologiyasının normativ aktlara, milli və beynəlxalq qiymətləndirmə standartlarına uyğun şəkildə yerinə yetirilməsi tətbiq olunur. Göründüyü kimi, bu kifayət qədər geniş nəzəri biliklər, yaradıcılıq və geniş təcrübə tələb edən məsələdir. Bilik və yanaşmaların müəssisələrin təyinatı və profili üzrə dəyişdiyini nəzərə alaraq məsələnin aktuallığını təsəvvür etmək olar. Bütün bunlar tədqiqat mövzusunun mürəkkəb və eyni zamanda aktual olmasını təsdiq edir.

Müqayisə yanaşmasının tətbiqinin ilkin zəruri şərti bazar sövdələşmələri haqqında geniş informasiyanın əldə olunmasıdır. Onun reallaşdırılması imkanları aktiv maliyyə bazarının mövcudluğundan, maliyyə və qiymət informasiyaları təminatı qurumlarının fəaliyyətindən, həmşinin bu informasiyaların əldə olunması şəraitinin mövcudluğundan asılıdır.

Müqayisə yanaşmasının tətbiqində əsas məsələlərdən biri öxşar obyektlərin seçilməsidir. Təcrübədə analoq şirkətlərin seçilməsi bilavasitə aşağıdakı meyarlar üzərində təmin olunur:

- Qiymətləndirmə obyekti və analoqlar eyni sahəyə, regiona məxsus olmalıdır;
- Oniar tərəfindən buraxılan məhsul və ya xidmət növləri həmcins olmalıdır;
- Analoq müəssisələrin məhsul və ya xidmətlərin diversifikasiyası üzrə siyasəti paralelik təşkil etməlidir;

Biznesin (müəssisənin) qiymətləndirilməsində daha çox tətbiq olunan yanaşmalardan biri müqayisə yanaşmasıdır. Digər yanaşmalar kimi onun əsasında müəssisənin bazar dəyərinin hesablanmasının özünəməxsus sxemi vardır. Burada qiymətləndirmə obyektinin aid olduğu bazarın yaxud seqmentin təhlili, analoqların seçilməsi, düzəlişlərin aparılması, yekun kəmiyyətin razılaşdırılması kimi mürəkkəb və məsuliyyətli işlər yerinə yetirilməlidir. Qiymətləndirilmənin hər hansı mərhələsində buraxılan cuzi səhv yekun dəyərin yanlış olmasına gətirib çıxara bilər. Ona görə də müvafiq yanaşmanın üstünlüklərini, çatışmazlıqlarını, tətbiqi sferasını əvvəlcədən dəqiq öyrənməklə, tətbiqi texnologiyasının normativ aktlara, milli və beynəlxalq qiymətləndirmə standartlarına uyğun şəkildə yerinə yetirilməsi tətbiq olunur.

Müqayisə yanaşmasının tətbiqinin ilkin zəruri şərti bazar sövdələşmələri haqqında geniş informasiyanın əldə olunmasıdır. Onun reallaşdırılması imkanları aktiv maliyyə bazarının mövcudluğundan, maliyyə və qiymət informasiyaları təminatı qurumlarının fəaliyyətindən, həmşinin bu informasiyaların əldə olunması şəraitinin mövcudluğundan asılıdır.

Müqayisə yanaşmasının tətbiqində əsas məsələlərdən biri öxşar obyektlərin seçilməsidir. Təcrübədə analoq şirkətlərin seçilməsi bilavasitə aşağıdakı meyarlar üzərində təmin olunur:

- Qiymətləndirmə obyekti və analoqlar eyni sahəyə, regiona məxsus olmalıdır;
- Oniar tərəfindən buraxılan məhsul və ya xidmət növləri həmcins olmalıdır;
- Analoq müəssisələrin məhsul və ya xidmətlərin diversifikasiyası üzrə siyasəti paralelik təşkil etməlidir;
- Seçilmiş analoq şirkətlər təxminən həyat tsiklinin eyni fazasında olmalıdır;
- Analoq şirkətlərin ölçüləri, strategiyası və maliyyə göstəriciləri də uyğunluq təşkil etməlidir.

Biznesin dəyərinin müəyyən edilməsi prosesində müqayisə (bazar) yanaşmasının əsasən üç metoduna üstünlük verilir. Həmin metodlara kapital bazarı, sövdələşmələr və sahəvi əmsallar metodu aiddir. Sahəvi əmsallar metodundan istifadə olunan zaman müəssisənin satışı təcrübəsinin nəticələri təhlil olunur, sonra isə satış qiyməti ilə obyektin digər göstərici arasında asılılıq aşkar edilr. Adı çəkilən metod daha çox kiçik şirkətlərin qiymətləndirilməsində tətbiq edilir və yardımçı xarakter daşıyır. Onun nəticələrinin ümumiləşdirməsi ilə qiymətləndirilən müəssisənin dəyərinin hesablanllmasının müqyisədə daha sadə düsturların işlənilib hazırlanmasına keçmək olar.

Beynəlxalq qiymətləndirmə təcrübəsində müəsisənin dəyəri ilə onun təmin etdiyi gəlirlər arasında təqribi nisbətlər müəyyən olunmuşdur. Onlardan bir neçəsini nəzərdən keçirək.

- reklam agentliklərinin və mühasibat firmalarının dəyəri müvafiq olaraq onların illik gəlirlərinin 0,5 və 0,7 mislinə bərabərdir;
- restorantların orta dəyərinin onların illik gəlirlərinin 0,25-0,5 misli həcmində olması düşünülür;
- turizm agentliklərinin dəyərinin isə onarın il ərzində gətirdiyi gəlirlərin 0,04- 0,1 misli qədər olması iddia olunur;
- yanacaqdoldurma stansiyaları bir qədər yüksək qiymətləndirilir. Onların dəyəri orta hesabla aylıq gəlirlərin 1,2- 2,0 mislinə bərabər qəbul olunur;
- hesab olunur ki, ticarət müəssisələrinin dəyəri onların xalis gəlirləri, avadanlıq və ehtiyatlarının məcmu dəyərinin 0,75- 1,5 misli aralığındadır;
- ardıcıl olaraq maşınqayırma müəssisələri xalis gəlirlərinin və ehtiyatların dəyərinin ümumi kəmiyyətinin 1,5-2,5 mislinə bərabər dəyərə malikdirlər (Ечерев И.А., 2013).

Göründüyü kimi, həmin metodun tətbiqi oxşar şirkətlərin səhmlərinin bazar qiymətlərinə əsaslanır. Bundan sonra multiplikatorlardan istifadə ilə bağlı qərar verilə bilər. Bu sahədə tətbiq olunan interval multiplikatorları qiymətin mənfəətə, pul axınına, dividend ödəmələrinə və həmçinin reallaşdırmadan qazanılan gəlirə nisbətlərini əks etdirirlər.

Hər bir konkret müəssisənin çoxsaylı və müxtəlif təyinatlı əmlak növlərini özündə birləşdirməsi,

maliyyə dayanıqlığı göstəricilərinin və bazar gücünü şərtləndirən amillərin təhlili zəruriliyi onun dəyərinin qiymətləndirilməsinin mürəkkəbliyini, eyni zamanda qiymətləndiricidən kifayət qədər geniş təcrübə, yüksək peşəkarlıq və səriştə tələb edir.Qeyd etmək olar ki, qiymətləndirmə fəaliyyəti müəssisə, region və milli iqtisadiyyat çərçivəsində baş verən proseslərin, daxili və xarici mühit amillərinin təsirindən asılı olaraq daim təkmilləşir. Bu baxımdan göstərilən qəbildən olan amil və qanunauyğunluqların kompleks şəkildə öyrəniməsinə xüsusi diqqət yetirilməlidir.

Hazırkı dövrdə Azərbaycanda torpaq sahələrinin, yaşayış təyinatlı daşınmaz əmlakın, qismən də kommersiya və xidmət yönümlü müəssisələrin qiymətləndirilməsi inkişaf dövrünü yaşayır. Düşünürük ki, bu daha çox bazarın müvafiq seqmentinin genişlənməsindən irəli gəlir. Eyni zamanda qiymətləndirmə standartlarına tez-tez əlavə və düzəlişlərin aparılmasını da qeyd etməliyik. Nəticə etibarilə müəssisənin dəyərinin qiymətləndirilməsi nəticələrinin reallığı yekunda xüsusən Beynəlxalq Qiymətləndirmə Standartlarının ən son variantlarına istinadlar üzərində təmin olunmalıdır. Əks halda milli müəssisələr investisiya qoyuluşu ilə bağlı əlavə problemlər yarana bilər.

**Açar sözlər:** *müəssisə, biznes, dəyər, qiymətləndirmə, xərc, gəlir, maliyyə, investisiya.*

## ƏDƏBİYYAT SİYAHISI:

1. *“Qiymətləndirmə fəaliyyəti haqqında”AR qanunu, Bakı 1998.*
2. *“Qiymətləndirmənin əsasları”, dərslik, Bakı 2008.*
3. *Milli Qiymətləndirmə Standartları Toplusu, Bakı 2010.*
4. *Beynəlxalq Qiymətləndirmə Standartları, Bakı 2017*
5. *Quliyev İ.Q., Hümbətova S.İ. “Biznesin (müəssisənin) qiymətləndirilməsi”, metodik vəsait, Bakı 2015.*
6. *Акулич. М.В. «Оценка стоимости бизнеса», Питер Пресс 2009.*
7. *В.Е. Есипов Г.А.Маховикова «Оценка бизнеса», СПВ: Питер, 2011.*
8. *Ечерев И.А. «Стоимость бизнеса: исскуство управления», М. Дело, 2013.*
9. *Козырь Ю.В. «Стоимость компании: оценка и управленческие решения», М: Альфа-Пресс, 2014.*
10. *Щербакова Н.А «Оценка стоимости предприятия» (бизнеса), Москва 2012.*

## Методологические подходы к оценке бизнеса (предприятия)

### РЕЗЮМЕ

Определение стоимости бизнеса предприятия) является сложной и

сложной областью оценочной деятельности. Его реализация требует

специальных навыков наряду с теоретическими знаниями.В этом случае. важно правильно выбрать методы и алгоритмы для их применения.

В представленной статье кратко разъясняются процедуры применения подходов и методов оценки бизнеса (предприятия).

**Ключевые слова:** *предприятие, бизнес, стоимость, оценка, расходы, доход, финансы, инвестиций.*

## Methodological approaches to business (enterprise) evaluation

### SUMMARY

Determining the value of a business (enterprise) is a complex and complex

area of appraisal activity. Its implementation requires special skills along with theoretical knowledge. In this case, it is important to choose the right methods and algorithms for their application.

The presented article briefly explains the procedures for applying business(enterprise) valuation approaches and methods.

**Keywords:** *enterprise, business, value, valuation, cost, income, finance, investment.*

UOT 1:2; 141.45

# Fəlsəfə

# ŞİMALİ QAFQAZDA İSLAMIN İNKİŞAF MƏRHƏLƏLƏRİNİN TƏSVİRİ İZAHI

**RƏŞAD CABAROV**
*Bakı Dövlət Universitetinin Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının müəllimi, Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının doktorantı*

*E-mail oguz.azercell@mail.ru*

Dünyanın həm etnik, həm dini inanclarının müxtəlifliyinə görə ən mürəkkəb bölgələrindən biri də Qafqaz və əsasən onun şimal hissəsidir. Rusiyanın həmin bölgəni işğalı ərəfəsində islamın Şimali Qafqaz xalqları arasında yayılması bu xalqların milli kimliklərinin formalaşmasına birbaşa təsir etmişdir. Şimali Qafqaz xalqlarının ümumi konsalidasiya prosesi, qarşılıqlı mədəni və siyasi əlaqələri də islamın təsiri ilə formalaşmışdır. Bu baxımından Şimali Qafqaz xalqlarının islamlaşmasına diqqət yetirmək elmi maraq doğrurur və bu günümüzdə də öz aktuallığını saxlamaqdadır.

Şimali Qafqazda yaşayan xalqların mədəni və dini inkişafının özünəməxsus xüsusiyyətləri olmuşdur. Qara dəniz və Xəzər dənizləri arasında Qafqaz dağları yaxınlığında yaşayan Abazin, Çərkəz, Qaraçay-Balkar, Osetin, Çeçen-İnquş və Dağıstan xalqları tarixi boyunca sosial-mədəni cəhətdən yaxın olaraq birliyə sahib olmuşlar, müxtəlif dinlər və dünyagörüşlərindən təsirlənmişlər. Qafqaz xalqlarının sosioloji quruluşları, tarixi inkişaf mərhələləri Qafqaza daxil olan müxtəlif qəbilələr və sivilizasiyalarla münasibətlərdə formalaşmışdır. Qədim zamanlardan orta əsrlərə qədər qədim Anadolu və Mesopotamiya tayfaları ticarət və müharibələr yolu ilə Qafqaza öz təsirini göstərmişlər. Yunanlar, romalılar və digər qədim mədəniyyətlərin nümayəndələri, hunlar, balkarlar, xəzərlər və qıpçaqlar kimi türk qəbilələri də Şimali Qafqazı diqqət mərkəzlərində saxlamışlar. Bütün bu qəbilələr Şimal Qafqazın sosial-mədəni strukturunun təməlini təşkil edən və Şimali Qafqaz xalqlarının etnik və sosial-mədəni strukturlarının formalaşmasında mühüm rol oynayan mədəniyyət elementlərini birləşdirmişlər.

VIII əsrdə ərəblər Xəzər türklərinə hücum edərək və bölgənin bir hissəsini fəth edərək Qafqaza daxil oldular. Ancaq ərəb qoşunlarına qarşı çıxan və onlara qarşı müqavimət göstərən xəzərlər İslamın Qafqaz vasitəsilə Şərqi Avropaya yayılmasına icazə vermədilər. Bəzi müsəlman ərəb tayfaları Dağıstanda qalıb burada məskunlaşdıqdan sonra islam Dağıstanda yayılmağa başladı. Dağıstan xalqının bir qismi VIII əsrdə, X-XI əsrlərdə isə çeçenlərin bir hissəsi müsəlmanlığı qəbul etdi. XIV əsrdə Darginlər arasında İslamın yayılması prosesi başladı. Dağıstanda yeni bir dinin qəbulundan sonra bəzi Dağıstan xalqlarının müsəlman şəriətinə riayət edilməsi üçün ciddi yanaşmadıqlarının şahidi oluruq. X əsrin əvvəllərində, Dərbəndin şimalındakı Kaytaq əyalətinin hökmdarının bir anda üç dinə etiqad etdiyinə dair xəbərlərə rast gəlinir.

Dağıstanın sahil bölgələrində İslam ilk olaraq VII əsrin ortalarında ərəblər tərəfindən yayılmağa başlamışdır. Cənubi Dağıstanda X əsrdə, dağlıq mərkəzi və şimal-qərb bölgələrində XV-XVI əsrlərdə islam dininin tədricən köhnə dini inancları əvəz etdiyi nəzərə çarpır. Dağıstanda XIX əsrin əvvəllərində nəqşibəndilik təriqəti önəmli rol oynamışdır. Dağıstanda İslam on bir əsrdən çox tarixə malikdir. Dağıstanda İslam tarixini və islamlaşdırma prosesini bir neçə mərhələyə ayırd edə bilərik: VII - X əsrin birinci yarısı; XVI-XVI əsrin ikinci yarısı; XVIII əsr; XIX-XX əsrin əvvəlləri. Qeyd olunan xronoloji dövrlərin hər biri özünəməxsus xüsusiyyətlərə malikdir. İlk iki mərhələdə Islamın yayılması əhəmiyyət daşıyırsa, növbəti iki mərhələdə daha dərin proseslər, xüsusilə ailə, vərəsəlik, şəriət və islam hüququnun gücləndirilməsini əhatə etmişdir. İslam Dağıstan

xalqlarının milli dirçəlişi və milli mədəni dəyərlərin formalaşmasına da təsir etmişdir.

Təbii ki, Dağıstanın islami tarixinin mühüm hissəsi İmam Şamil ilə bağlıdır. Burada onun adı ilə yanaşı müridizmi qeyd etmək lazımdır. Müridizmin dini kökləri İslamın 3 əsası – şəriət, təriqət və həqiqət üzərində bərqərar olurdu. Şəriət bu dünyanın həqiqətlərinin, təriqət və həqiqət isə yüksək mənəvi dünyanın – ruhumuzu qəbul edəcək dünyanın insanlara təlqin olunması idi. Quranın kəlamları üzərində formalaşan, şəriətə yiyələnən müsəlman, Allahı tam qəbul etmək yoluna çıxıb təriqətə sahib olmalı və bundan sonra Peyğəmbərimizin (s) həyat tərzi və əməlləri əsasında həqiqətə yüksəlməlidir. Müridizm bu əsaslar üzərində intişar taparaq, insanlara gələn bütün bəlaların səbəbini Allahın göstərdiyi müqəddəs yoldan azmaqda görürdü. Şəriəti mənimsəyən müsəlman Allaha qovuşmaq üçün müqəddəs yola çıxıb təriqətə sahib olur və bununla da vəlilik dərəcəsinə yüksəlir. Buna nail olan mürid tam kamala yetmiş müsəlman kimi təqdim olunur və o, mürşid adına layiq görülür. Müridizm meydana çıxan zaman siyasi və xüsusən hərbi məna daşımamışdı. Lakin Qafqazda milli azadlıq mübarizəsi şəraitində Molla Məhəmmədin təbliğ etdiyi və şagirdi birinci imam Qazi Məhəmmədin bütün varlığı ilə qoşulduğu müridizm "qazavata", yəni müqəddəs müharibəyə çağırış kimi qəbul olunmuşdu. O zaman bütün Dağıstanın Rusiya tərəfindən istila olunması qorxusu yaranmışdı. Rus komandanlığı öz mövqelərini gündən-günə möhkəmləndirirdi. Molla Məhəmməd hiss edirdi ki, artıq vaxt itirmək olmaz və beləliklə, Rusiya işğalı əleyhinə Qazavat meydana gəldi.

İmam Şamil 1797-ci ildə Dağıstanın Gimri kəndində anadan olmuşdur. Atası Qafqazın qədim xalqlarından olan avarlara mənsub Məhəmməddir. XIX əsrin 40-cı illərində Şamil rus qoşunları üzərində ardıcıl olaraq möhtəşəm qələbələr qazanırdı. Lakin əsrin 50-ci illərində onun hərəkatı zəiflədi. Krım müharibəsi (Şərq müharibəsi – R.C.) ərəfəsində Şamil Böyük Britaniya və Türkiyənin köməyi hesabına öz fəaliyyətini aktivləşdirə bilsə də, uğur qazana bilmədi. 1859-cu ildə Şamil 400 müqavimətçi ilə birlikdə Qunibdə mühasirəyə alındı və 7 sentyabrda (26 avqustda) fəxri şərtlərinin qəbul edilməsi müqabilində özünü təslim etdi. 16 fevral 1869-cu il tarixdə II Aleksandr ona Məkkəyə ziyarətə getmək icazəsi verdi. 12 mayda Şamil ailəvi olaraq Kiyevdən çıxaraq 19 mayda İstanbula yetişdi. 16 noyabrda Süveyş kanalından keçərək 20 noyabrda Məkkəyə gəldi. 1870-ci il martın sonlarında — həcc ziyarətinin başa çatmasından sonra, Şamil Mədinədə yaşamağa başladı və 16 (4) fevral 1871-ci il tarixində elə orada vəfat etdi. O, Mədinədəki Bəqi qəbiristanlığında (indiki Səudiyyə Ərəbistanı) dəfn edildi.

İslamın Çeçenistanda yayılması tarixi bir çox xüsusiyyətlərə malikdir. Lakin bu proses təəssüf ki, islamşünasların araşdırmalarında aydın şəkildə əks olunmamışdır. İndiyə qədər İslamın Çeçenistana daxil olmasının sosial-mədəni tarixi və zamanı haqqında birmənalı cavab yoxdur. Dağıstanda İslamın daxil olma dövrünü dəqiq müəyyənləşdirmək mümkün olduğu halda, Çeçenistan haqqında bunu demək çətinlik yaradır. Y.Z. Əhmədov yazır ki, "ən azı IV-V əsrlərdə, Çeçenlər və İnquşlar arasında xristianlığın erkən formalarını, VII əsrdən isə İslamı qəbul etmə hallarını müşahidə etmək olur. Bununla bərabər, İslamın məhz hansı müəyyən dövrdə Çeçenlər və İnquşların mühitinə daxil olmasına dair heç bir mötəbər mənbə yoxdur (1, 208).

Məlumdur ki, Qafqaza ərəb qoşunlarının VIII-IX əsrlərdə həyata keçirdiyi yürüşləri Daryalın dərələrində yerləşən kistin və sanarların müqaviməti ilə qarşılamışdır. Sanar tayfası, Şimali Qafqazın cənub yamaclarında məskunlaşmışdır, ərəblər onlara "as-sannaryya" demişlər (2, 13).

XIV əsrin sonunda, Teymurun fəthləri zamanı Şimali Qafqazda, Şərqi Çeçenistanda dağıstanlı din qardaşları ilə iqtisadi, mədəni və mənəvi təmaslara malik olan yerli müsəlman icmaları mövcud olmuşdu. Çeçenlərin tarixi xatirəsi, İslamın yerli təbliğatçısı Termaolanın adını tarixə həkk etmişdir. İslamın bu qətiyyətli təbliğatçısı haqqında məlumat çeçenistanlı etnoqraf U.Laudaev tərəfindən verilmişdir. Termaolun Çeçenlərin islamlaşması uğrunda fəaliyyəti XVII əsrin əvvəllərinə aid idi. U.Laudaevin sözlərinə görə, Termaol "fövqəladə və qəddar bir şəxs idi". İslamı təbliğ edən bu şəxs, cənnətin cazibədarlığını çeçenlərə ətraflı təsvir edərdi. Onun fikirləri çeçenləri valeh edirdi, hətta şübhə içində olan çeçenlər dərhal müsəlman olurdu-

lar (11, 54).

S. Umarova görə Çeçen-İnquşetiyada İslam dini XVI əsrin ilk yarısında bərqərar oldu (12,280). Çeçenlərin islamlaşmasında təbii ki, Osmanlı İmperiyasının da təsiri az deyildi. Osmanlı imperiyasının dəstəyi ilə Dağıstanlı müsəlman din xadimləri qonşu Çeçenlər arasında islamın tam yayılmasına çalışırdılar. Çeçenistanın böyük bir hissəsində İslamı fəal şəkildə təbliğ edən Bersa adlı çeçen gənc oldu.

Bersa XVI əsrin sonlarında indiki Vedeno rayonunun Kujarşal kəndində anadan olmuşdur və kurçal taypına məxsusdur. Atası Timarbulat və babası Tembolt xarici düşmənlərə qarşı mübarizə aparmaq üçün xalqı birləşdirən ümumi milli maraqlara xidmət edən tanınmış bir çeçen ailəsinə mənsub idilər. U.Laudaev və A.Süleymanovun sözlərinə görə, Termaol və Bersa Şeyx 1591-ci ildə İslamı çeçenlər arasında eyni vaxtda təbliğ etməyə başlamışdılar. Onlar öz ana dilində islamı tayfalar arasında yayan ilk etnik Çeçenlərdir. Çeçenistanda Termaola və Bersa Şeyxlərinin qəbir yerlərinin izləri də mövcuddur. A. Süleymanovun sözlərinə görə, Termaola türbəsi Nozhai-Yurt rayonunda yerləşən Aitxalla kəndində yerləşir. Bersa Şeyxin türbəsi Kurçali kəndindədir və 2006-cı ildə Çeçenistanın prezidenti Ramzan Kadırov tərəfindən yenidən qurulmuşdur.

İnquşetiyanın islamlaşmasında Türklərin təsiri danılmazdır. XIII əsrdə Moğollar, Şimali Qafqazın ərazisini işğal etmişlər. Moğolların nəzarəti altına alınan ərazilərdə Türk elementi daha da möhkəmlənmiş, çünki bu moğol ordusunun əhəmiyyətli bir hissəsini təşkil edirdi. 1295-ci ildə Hulaqidilər dövləti və 1312-ci ildə Qızıl Orda İslamı qəbul etmiş və onu fəth edilmiş xalqlar arasında yaymağa çalışmışlar. Yaxın Şərq ölkələri ilə ticarət və siyasi əlaqələri gücləndirmək yollarını axtararkən Qızıl Orda xanları Şərqi Qafqaza böyük əhəmiyyət verirdilər. Bu siyasətdə dini faktor böyük rol oynamışdır. Bu baxımdan, Qızıl Orda İnquşetiya ərazisinə daxil olmaqla nəzarət edilən bütün ərazidə müsəlman elementlərini aktiv şəkildə dəstəkləməyə başladı. Moğolların hakimiyyəti altında inguş torpaqlarının böyük hissəsi vardı. İnquşetiyada hələ də ərəbcə yazılmış Qızıl Orda tipli abidələr mövcuddur. Moğol xanları burada bütpərəstlik təzahürləri ilə döyüşürdülər. XVI-XVII əsrlərdə İnquşların islamlaşması prosesinə kabardin feodalları müəyyən təsir göstərmişlər (3, 136).

Şübhəsiz ki, XVIII əsrin ikinci yarısında inguşların islamlaşmasında Şeyx Mansurun fəaliyyəti danılmazdır (5, 62). O özünü imam elan edərək bütün müsəlmanları şəriətə qaytarmaq üçün müqəddəs bir müharibə şüarı altında üsyan təşkil etmişdi. Onun ətrafında Osmanlıların aktiv dəstəyi ilə Çeçenlər, İnquşlar, Dağıstanlılar, Kabardinlər və Vladiqavqazın ətrafında yaşayan Osetinlərin bir hissəsi birləşdi. Bir neçə qələbədən sonra Mansur 1791-ci ildə rus əsgərləri tərəfindən məğlub edilərək əsir alındı və Peterburqa göndərildi. O,1794-cü ildə Şlisselburq qalasında vəfat etdi.

Dağıstan və Çeçenistandan fərqli olaraq İslam çərkəzlərə Osmanlı İmperiyası və Krım xanlığı vasitəsilə daxil olmuşdur. Çərkəzlər VI əsrdə Bizansın təsiri altında xristianlığı qəbul etmişdilər (6, 11). Lakin sonrakı əsrlərdə, Şimali Qafqazın digər hissələrində olduğu kimi, xristianlığın təsiri Çərkəzlər arasında zəiflədi və onların əksəriyyəti köhnə bütpərəst inanclarına dönmüşlər. XIX əsrdə səyyah K.Kochun qeyd etdiyinə görə, onların öz dini var idi. "Çərkəzlərin bütün dini baxışlarının əsası daha yüksək bir varlığa olan inancıdır" (7, 625).

Osmanlı arxivlərində XVI əsrdə Çərkəzlərin dini quruluşları haqqında məlumatlar kifayət qədər genişdir. Arxiv qeydlərində 1581-ci ilin avqustunda qeydə alınır ki, Besley və Temirqoy şahzadələri xristian dininə, Kabardey şahzadələri isə müsəlman dininə inanırdılar. 1584-cü ildə Mehmed Aşiki yazırdı ki, Bedeuev, Xatukaev və Kabardeylilərin qəbilələri çərkəzlər və Temurqo qəbiləsi xristian idi. XVII əsrin ortalarında Qafqazdakı çərkəzlərin arasında olan Evliya Çələbi onlar haqqında aşağıdakı məlumatları vermişdir: "Onlar müsəlmanlar da deyil, kafir də deyil, əgər onlara kafir desən inkar edərlər. Lakin onlar donuz əti yeyir, oruc tutmur və namaz qılmırlar " (8, 268).

Osmanlı qubernatoru Fera Ali Paşa, çərkəzlərin İslama daxil olmasında mühüm rol oynamışdır. Fera Ali Paşa qərargahını Anapada yerləşdirərək Çərkəz və Abxaz arasında İslamı yaymaqdan məsul oldu. Kırım xanlığı Kuban bölgəsinin çərkəzlərin arasında islamın yayılmasında mühüm rol oynadı. Lakin, çərkəz tayfalarının sosial strukturlarından irəli gələrək İslam çərkəzlər tərəfindən asanlıqla qəbul

edilmədi. Müxtəlif qəbilələrdə çərkəzlərin sosial strukturları şahzadələr, zadəganlar, azad kəndlilər və qul kimi sosial təbəqələrə bölünürdü. Qəbilələrdə, Kabardey, Beduq, Besleneydə "pşi" adı altında knyazlar vardı. Bu qəbilələr aristokratik bir quruluşa sahib idilər. Abzeh, Şapsuq, Natuxay kimi tayfalarda heç bir knyaz təbəqəsi yox idi və onlar xalqın üzərində inzibati hakimiyyətə malik deyildilər. Buna görə, bu tayfalarda demokratik bir quruluş olduğunu demək mümkündür.

İslam XVII-XVIII əsrlərdə Çərkəzlər arasında hələ tam yayılmamışdı. XVI əsrdə insanlar arasında çıxan mübahisələr ənənəvi qanunlara və ənənələrə uyğun olaraq həll edilirdi. Sosial təbəqələr arasında qeyri-bərabərlik var idi. Anapada Osmanlı hökumətinin qubernatoru Hüsnü-Paşanın səyləri ilə çərkəzlər şəriət qarşısında bərabər olmuşdular (4, 138) .

XIX əsrdə Kabardeylilər istisna olmaqla, İslam Çərkəz tayfaları arasında yayılmamışdı. Çərkəz cəmiyyətində müsəlman üləmalar sinfi hələ də formalaşmamışdı. Ruhanilər sosial təsir baxımından Çərkəzlər arasında mühüm bir təbəqə deyildilər və həmin dövrdə Dağıstan və Çeçenistanda olduğu kimi sosial qüvvələr yox idi. Çərkəzlərin əksəriyyəti şəriət qaydalarından və ibadətlərdən uzaq idi. Çərkəzlər islam dininə mənsub olsalar da, lakin dini ibadətlərin icrasına çox diqqət yetirmirdilər. Şəriət qanunlarının tətbiqində maraqlı deyildilər. İslam XVIII əsrin sonlarında aristokrat çərkəz tayfalarının ən qabaqcılları hesab olunan kabardinlər arasında yayılmağa başladı. Demokratik quruluşa malik olan Çərkəz tayfaları arasında XIX əsrin ikinci yarısında İslam dini hakim din olmağa başladı. Xüsusilə 1840-50-ci illərində, İmam Şamilin təbliğatçıları İslamı çərkəzlər arasında yaymaqda mühüm rol oynadılar.

XIX əsrdə çərkəzlərin köhnə dini inancları yeni sosial struktura bir din kimi uyğun gəlmirdi. Çərkəz sosial strukturu üçün yeni din kimi İslam münasibətlərini inkişaf etdirmək baxımından daha uyğun idi. Kabardin knyaz və onun zadəganları Osmanlı imperiyasına və Krım xanlığına siyasi yaxınlıq etməyi üstün hesab edirdilər. Rusiyanın Şimali Qafqazdakı kampaniyaları da çərkəzlərdə İslam dövlətlərinə yaxınlaşmağa üstünlük vermək zərurəti yaratmış oldu.

İslamın ictimai qaydaya təsiri və şəriət hökmlərinə münasibəti qəbilələrdən asılı olaraq fərqlənirdi. Aristokratik quruluş hökm sürən kabardinlər arasında şəriət hökmləri Rusiya qanunlarının tətbiqinə qədər mövcud oldu. Demokratik bir ictimai quruluşa malik Çərkəz qəbilələrində, zadəganlar köhnə ənənəvi hüququ müdafiə edib itirdikləri imtiyazlarını qoruyub saxlamağa çalışırdılar. Buna baxmayaraq, zəngin kəndli təbəqələri islamı dəstəkləyib şahzadələrin və zadəganların hakimiyyətini zəiflətməyə ümid edirdilər. Bu ikili quruluş və sosial balansın pozulması cəmiyyətin həmrəylik və milli inteqrasiya fikrini qazanmasına mane olurdu.

1804-cü ildə Kabardinlər Kislovodsk qalasını məhv etmək istədilər və Rusiyaya qarşı qiyam bayrağını qaldırdılar. Qaraçay-Balkar və Çeçen-İnquşlar da buna qatıldılar. 14 may 1804-cü ildə Rus qüvvələri Qafqazlıları məğlub etdi. Rusiya regionda bir sıra məhkəmə və inzibati təcrübələrə başladı. Xüsusi məhkəmələri ləğv edərək 1807-ci ildə dini məhkəmələr qurdu. Dini məhkəmələrin yaradılması ilə feodal və ruhanilərin mövqeyi yaxşılaşdı və müsəlman ruhanilərinin səlahiyyətləri artdı. Şəriət prinsipləri Kabardin cəmiyyətində yeni və inteqrativ rol oynamağa başladı.

1807-1809-cu illər arasında İslamın təsiri altında bərabərlik və milli birlik tendensiyaları Kabardin kəndlərində özünü göstərməyə başladı. Bundan başqa, müsəlman kəndlilər İslam prinsiplərinə görə şahzadələr və zadəganlara qarşı mübarizə aparırdılar. Kölə və qul ticarətinə qarşı çıxan kəndlilər, şəriət prinsiplərinə uyğun olaraq bərabərlik prinsipinin müşahidə edilməsinə dair fikirlərini ifadə edirdilər. Rusiya müstəmləkə imperiyası siyasətində şahzadələr və zadəganlarla kəndli kütlələri arasındakı ziddiyyətlərdən istifadə edirdi.

Amma tezliklə Rusiyanın siyasəti dəyişdi. Rusiya üçün iİslam Qafqazda ona qarşı mübarizəni gücləndirən bir faktor idi. Çünki din və şəriət rus təbliğatına qarşı əsas müqavimət ideologiyası kimi istifadə olunurdu. Daha sonralar Rusiya İslam faktoruna qarşı mübarizə üçün ənənədən istifadə etdi. 1858-ci ildə qurulan Kabarda Rayon Məhkəməsi Şəriət hökmlərinə uyğun olaraq, adət-ənənələri tətbiq etməyə qərar verdi. XIX əsrin ortalarında şəriət və ənənələr qarışıq vəziyyətdə idi.

Kabardada sosial təbəqələrdən başqa, cəmiyyətdə din vəzifələri də mövcud idi. Ayrı bir təbəqə sayılan

din adamlarının gəlirləri, azad kəndli təbəqələrindən gəlirdi. Ruhanilər bütün növ vergilərdən və öhdəliklərdən azad edilmişdilər, lakin onlar zadəgan və torpaq sahibləri kimi imtiyazlı olmadılar. Kabardada kəndlilərin gəlirləri üləma üçün əsas gəlir mənbəyidir. Digər sakinlər tərəfindən ödənilən xüsusi xərclər də olmuşdur. Kabarda ailələri, qaziyə illik ailə başına 50 qəpik ödəyirdi (9, 40). Rusiya Şimali Qafqazda azadlıq mübarizəsində dini faktorun vacibliyini nəzərə alaraq, ruhanilərə qarşı çox ehtiyatlı davranırdı. Rusiya XVI əsrdə çərkəzləri pravoslav xristianlığa çevirməyə cəhd etməyə başladı, lakin İslamın bu bölgədə yayılmasının qarşısını ala bilmədi. Yalnız Mozdok rayonunda Kabardinlər xristianlığı qəbul etdilər.

XIX əsrdə Rusiya pravoslavlığı yaymaq və ya müharibə aparmaq yerinə yeni bir siyasət tətbiq etmək istəyirdi. Bu məqsədlə Rusiya hökuməti İslamı anti-rus mühitindən çıxarmağa çalışdı. Bu səbəbdən də, din adamlarının sosial-iqtisadi və mənəvi hakimiyyətlərinin aradan qaldırılmasına yönəlmiş siyasətə başladı. Bu məqsədlə bölgədə ruhanilərin rəhbərliyi altında mühüm rol oynayan məhkəmələr ləğv edildi. Rusiya məhkəmələri bütün mülki işlərə baxırdı. Şəriətə görə mühakimənin ləğv edilməsi ruhanilərin cəmiyyətdəki roluna zərbə vurdu və Rusiyaya qarşı düşmənçilik artmağa başladı. Rusiyaya qarşı çıxan imam və mollalar sayəsində, İslam imperiyaya qarşı mübarizədə əhəmiyyətli bir müvəffəqiyyət əldə etdi və müqavimətin əsas amillərindən birinə çevrildi.

Qafqaz dağlarının ən yüksək zirvəsi olan Elbrus dağının ətrafında dağlıq ərazidə yaşayan Qaraçaylar XVIII əsrdə İslamı qəbul etdilər. XVIII əsrin sonunda Qaraçaylar Kabardinlər vasitəsilə İslamı qəbul etdilər. 1782-ci ildə Abuqdan olan İshaq Əfəndi adlı Kabardin təbliğçi Qaraçayları islama çağırmağa başladı (10, 294). XVII əsrin əvvəlində qaraçaylar dərin dağ vadilərində bütpərəst kimi yaşamışdılar. Krım xanı Qafqazda İslamı yaymaq üçün iki qoşun göndərdi. Onlar Zelençuk çayının sahilində olan Çərkəz kəndlərini İslama dəvət etdilər. Kuban çayının başında, heç kimə itaət etməyən qaraçaylarla üzləşdilər. Özlərini qorumaq üçün Marça adlanan bütün arxasında düşmənlərinə qarşı mübarizə aparmaq üçün çalışdılar. Krım xanının qoşunları nəticəsiz qayıtdı. İslam yalnız XVIII əsrin sonunda Qaraçaya daxil oldu.

Qaraçay-Balkarların sosial strukturu Kabardeylilərin fərqli sosial təbəqələrə, şahzadələrə, zadəganlara (azad), azad kəndlilərə və qullara bölünürdü. Qaraçay-balkarların arasında İslamın yayılması ilə bir molla sinfi ortaya çıxdı. Mollalar şahzadələrin himayəsi altında idi. Kabardada olduğu kimi, insanlar mollalara yaşayış üçün maaş ödəməli idilər. Hər bir ev mollalara məhsullarının onda birini və heyvanlarının beşdə ikisini verməli idi. Bu vergi İslam öhdəliyi olmasa da, qaraçaylar onu "zəkat" adlandırdı. Qışda hər ev mollaya bir qoyun verirdi. Bundan əlavə, heyvanları quru ot ilə qidalandırmaq üçün, mollalara istilik üçün odun verirdi. XIX əsrə qədər Qaraçay-Balkar xalqları Kabardin knyazları tərəfindən idarə olunurdu. Kabardin knyazları Qaraçay-Balkarda İslami həyatı nəzarətdə saxladılar. Kəndlər və dağlıq ərazilər arasında yarı göçəri həyatından ötəri qaraçaylar tez-tez evlərindən uzaqlaşıb dağlarda yaşayır və buna görə də dini vəzifələrini yerinə yetirə bilmirdilər. Buna səbəbdən, Kabardin knyazlarına vergi ödəmək məcburiyyətində idilər. 1848-ci ildə qaraçaylarda şəriət və ənənələrin müddəalarına uyğun olaraq hüquqi məsələlər tənzim edilirdi.

İslamın Şimali Qafqazda, Çeçen-İnqus və Dağıstanda yayılması ilə çərkəzlər və qaraçaylara təsiri fərqli idi. VIII əsrdə ərəblər vasitəsilə İslamla tanış olan və son əsrlərdə İslamı qəbul edən Dağıstan və Çeçen-İnquş xalqları şafii idi. türkmənşəli digər xalqlar isə hənəfi idi. Beləliklə, demək olar ki, İslamın Qafqaz xalqlarının sosioloji quruluşlarına təsiri xalqlara görə fərqlənirdi. Lakin xarici təhlükəyə qarşı mübarizə İslamın təsirini gücləndirdi və bu din Qafqaz xalqlarının simvollarının ayrılmaz bir hissəsi oldu.

Beləliklə, görürük ki, Rusiya işğalı ərəfəsində Şimali Qafqaz xalqları arasında İslamın yayılması prosesi mərhələlərlə baş vermişdir. Bu zaman İslam getdikcə Şimali Qafqaz xalqlarının həyatında aparıcı ictimai-siyasi amilə çevrilmişdi. Məhz buna görə də Şimali Qafqazın Rusiya işğalı zamanı xalqların müqavimət hərəkatı məhz islami şüarlar altında həyata keçirilmişdi.

**Açar sözlər:** *İslam, Şimali Qafqaz, Müridizm, Çeçenistan, Dağıstan, İnquşetiya, mərhələ.*

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Ахмадов Я.З. История Чечни с древнейших времен до конца XVIII века. – М., 2001, 424 с.*

*2. Акаев В.Х. Ислам в Чеченской Республике. – М.: Логос, 2008. 88 с.*

*3. Албогачиева М. С.-Г. Этнография и история ингушского народа в письменных источниках конца XVIII — первой трети XX в. СПб.: Наука, 2011, 179 с.*

*4. Baj, Jabagi. Çerkesya'da sosyal yaşayış-adetler. - Ankara, 1969.*

*5. Ислам на Северном Кавказе: история и современность под редакцией Ислама Текушева и Кирилла Шевченко Прага, Medium Orient, 2011.*

*6.Kusko, Mahmut. Kafkas milletleri. Kafkasya Kültürel Dergi, 2 (7), 1965, 6- 11.*

*7.Koch K. Journey through Russia to the Caucasian lands// The Circassians, the Balkars and the Karachais in the proceedings of European authors. Nalchik, 1974.*

*8.Kırzıoğlu, Fahrettin. Osmanlıların Kafkas ellerini fethi (1451-1590). - Ankara, 1993.*

*9. Kasumov, Ali-Hasan Kasumov. Çerkes soykırımı. - Ankara, 1995.*

*10.Klaproth, J. Voyage au Caucase et en Georgie. - Paris, 1823.*

*11. Лаудаев У. Чеченское племя // Сборниê сведений о kавказсkих qорцах. – Тифлис, 1879. Вып. IV, 428 с.*

*12. Умаров С.Ц. Эволюция основных течений ислама в Чечено-Инqушетии. – Грозный, 1985.*



**РЕЗЮМЕ**

**Рашад Джабаров**

**Описание эволюции исламского развития на Северном Кавказе**

В статье дается описание этапов распространения и развития ислама на Северном Кавказе. Было отмечено, что на Северном Кавказе ислам впервые начал распространяться в Дагестане. Исламизация Дагестана стала неотъемлемой частью процесса формирования общего пространства исламского мира. В статье также были освещены множество особенностей распространения Ислама в Чечне. Особенно была подчеркнута роль дагестанцев, которые получали поддержку от Османской империи в исламизации чеченцев. В исламизации Ингушетии также была учтена важная роль турецкого элемента и не отрицается некоторое влияние кабардинских феодалов. Все эти вопросы были отражены в статье.



**Ключевые слова:** *Ислам, Северный Кавказ, Мюридизм, Чечня, Дагестан, Ингушетия,этап*



**SUMMARY**

**Rashad Cabarov**

**Description of the evolution of Islamic development in the North Caucasus**

İn article was described the stages of the propagation and development of Islam in the North Caucasus and also was noted that at first Islam began to spread in the North Caucasus in Dagestan. The Islamization of Dagestan has become an integral part of the formation process a common space of the Islamic world. The article was covered also the many features of the spread of Islam in Chechnya. The role of Dagestanis who received support from the Ottoman Empire in the Islamization of the Chechens was especially emphasized. In the Islamization of Ingushetia, also, the important role of the Turkish element was taken into account and some influence of Kabardian feudal lords is not denied. All these questions were reflected in the article.



**Keywords:** *Islam, Northern Caucasus, Muridism, Chechnya, Dagestan, Ingushetia, stage*

UOT 37:001.12/18



# TƏHSİLİN MODELLƏŞDİRİLMƏSİ KONSTEKTİNDƏ PEDAQOJİ TEXNOLOGİYALAR

**MÜSLÜM NƏZƏROV**
*Pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

*E-mail: muslimnazarov@mail.ru*

Müasir dövrün sosial-iqtisadi, ictimai-siyasi, mədəni proseslərinin fəlsəfi təhlili onların tarixi köklərinin, o cümlədən fəlsəfi araşdırmalarını əhatə edir. Daim dəyişən dünyada cəmiyyət üçün qeyri-standart çətinliklər yaradan vəziyyəti nəzərə alaraq effektiv təhsil strategiyalarının hazırlanmasının mümkün olduğu rasional əsasların mənasını aydınlaşdırmaq lazımdır. Hal-hazırda, bir tərəfdən cəmiyyətin müasir inkişafının ehtiyaclarını qarşılayacaq, digər tərəfdən insan varlığının mənəvi ölçüsünü nəzərə alacaq yeni təhsil strategiyalarının hazırlanması və həyata keçirilməsi üçün real imkanlar mövcuddur. Bu proseslər həm mövcud təhsil sistemlərinin və doktrinaların təhlili, həm də mövcud təcrübəni nəzərə alan yeni yolların axtarışı ilə əlaqəli olan bir çox problemə təsir göstərir.

Təhsil sistemi sayəsində qarşıya qoyulan məqsədlərə əsaslanaraq son nəticəni əldə etmək mümkün olur. Təhsil sistemi, insanın dəyişməz təbiətinin konsepsiyasını insan inkişafının məqsədyönlü şəkildə qurulmuş prosesi əsasında, təhsiln modelləşdirilməsi vasitəsi ilə həyata keçirə bilər.

Göstərilənlərdən aydın olur ki, sürətlə dəyişən həyat şəraitində müasir təhsilin əsas vəzifələrindən biri uşaqların zehni fəaliyyətinin gizli ehtiyatlarından istifadə etmək imkanlarının səmərəli öyrənmə yollarının aşkar edilməsidir. Uşaqların biliklərini intensiv inkişaf etdirən belə yollardan biri modelləşdirmədir.

**Modelləşdirmə** həqiqi obyektlərin şərti görüntüləri, analoqları ilə əvəz edilməsinə əsaslanan ictimai fenomen və proseslərin öyrənilməsi metodudur. Modelləşdirmə prosesimdə tədqiq olunan sistemlərin və proseslərin xüsusiyyətləri, əlaqələri və istiqamətləri əks olunur, bu da onların vəziyyətini qiymətləndirməyə, proqnoz verməyə və məlumatlı qərar verməyə imkan verir.

Təhsilin modelləşdirməsi müasir didaktikanın ziddiyyətlərinin, problemlərinin və dilemmalarının formalaşması və həllini təyin edən müstəqil iş mədəniyyətinin formalaşdırılması və inkişaf etdirilməsi vasitələrindən biridir.

Təhsilin modelləşdirmə anlayışı birmənalı deyil. İdrak metodu olaraq modelləşdirmə tədqiqat obyekti modelinin qurulması və öyrənilməsi ilə əlaqələndirilir. Modelləşdirmə vasitələrini iş prosesində kömək edən və orijinal obyekt haqqında bilik əldə edən vasitələr kimi təyin edilir. Modelləşdirmə vasitələrinin təsnifatını bilmək onlardan hər hansı bir fəaliyyətdə əsaslandırılmış və effektiv istifadəsinə kömək edir (9).

Təhsili modelləşdirmə pedaqogikada yalnız dərslərə hazırlıqda deyil, həm də kadr hazırlığı sistemində çox uğurla istifadə olunur. Sadəcə olaraq burada gələcək mütəxəssisin hazırladığı təklif olunan fəaliyyət modellərini tərtib etmək lazımdır.

Təhsilin modelləşdirməsinin məqsədi təlim prosesinin modelləri, xüsusiyyətləri, quruluşu və şagirdlərin biliklərinin uğurlu inkişafını təmin etməkdir.

**Təhsilin modelləşdirməsi**, yeni təlim modellərin yaradılması və öyrənilməsindən ibarət olan ətraf aləmi tanıma metodudur. Bu metod, öyrənilən yeni obyektin, hadisənin və ya prosesin əsas xüsusiyyətlərini əks etdirən pedaqoji texnologiyaların optimal modelləşdirilməsinin obyektdir.

Bu baxımdan pedaqoji texnologiyaların optimal modelləşdirilməsi prinsipi fasiləsiz təhsil sisteminə daxil edilmiş müəllimin işində pedaqoji texnologiyaların modelləşdirilməsinin imkanlarını müəyyən edən, fərdlərə və cəmiyyətə yüksək səviyyəli intellektual və peşə seçiminin

formalaşmasına zəmanət verən müəllimin peşə göstəricilərinin nəticələrinə əsaslanan prinsiplər toplusudur

**Pedaqoji texnologiyaların optimal modelləşdirilməsi prinsiplərinə** aşağıdakı sistemli təhsil texnologiyaları daxildir:

**1. Davamlı təhsil sisteminə daxil olan müəllimin pedaqoji fəaliyyətində modelləşdirmə və onlardan istifadə probleminin elmi forması prinsipi:** Bu prinsip öz növəbəsində aşağıdakı müddəaları özündə əks etdirir:

- qurulmuş modelin imkanları ilə pedaqoji model və qərarların qəbul olmasında pedaqoji modelləşdirmənin əsaslarından istifadənin ardıcıllığı, dəqiqliyi, obyektivliyi, etibarlılığı, bütövlüyü;
- pedaqoji texnologiyaların modelinin, funksiyalarının, nəzəriyyəsinin və təcrübəsinin saflaşdırılması strukturunda pedaqoji modelləşdirmə və pedaqoji dizayn vasitəsi ilə pedaqoji fəaliyyətin müəyyən edilmiş və həll edilmiş vəzifələrinin keyfiyyətinin qiymətləndirilməsində ardıcıllıq, adekvatlıq, çoxölçülülüyü;
- təsvir olunan konstruksiyaların və pedaqoji texnologiyaların keyfiyyətinin detallaşdırılması strukturunda pedaqoji fəaliyyətin vəzifələrinin məqsədəuyğunluğu.

**2.Pedaqoji modelləşdirmə vasitəsi ilə həyata keçirilən pedaqoji texnologiyanın imkanlarını aydınlaşdırma prinsipi:** Bu prinsipə aşağıdakı müddəalar daxildir:

- pedaqoji texnologiyanın seçilmiş komponentləri və vahidlərinin iyerarxiyasında pedaqoji modelləşdirmə probleminin həlli dövrünün təkrarlanması (problem, məqsəd, vəzifələr, obyekt, mövzu, metod, vasitə);
- pedaqoji texnologiyalardan və modelləşdirmədən istifadənin determinist praktikasında, problemin həlli quruluşunda təsvir və tətbiq olunan imkanların müqayisəsi;
- pedaqoji modelləşdirmə və pedaqoji texnologiyaların vasitələri və metodları ilə aydınlaşdırılan obyektiv yüksək nəticələrə inteqrativ yaxınlaşma.

**3. Pedaqoji fəaliyyətin əsaslarını və imkanlarını detallaşdırmaqda pedaqoji texnologiyadan istifadə probleminin həllinin çevik düzəldici və dəyişdirici prinsipi:** Bu prinsip aşağıdakıları əhatə edir:

- pedaqoji modelləşdirmə vasitələri və metodları ilə şagirdin inkişaf problemlərinin həllində nosfer təfəkkürünün formalaşdırılması;
- formalaşan dəyərlər, məqsədlər, fəaliyyət və ünsiyyət məhsullarının iyerarxiyasında tələbə şəxsiyyətinin çox sistemli inkişaf potensialının müəyyən edilməsi;
- tədris fəaliyyətinin keyfiyyətinin optimallaşdırılmasında problemin elmi cəhətdən əsaslandırılmış həllinin alınmasına zəmanət verən pedaqoji texnologiyadan istifadə şərtləri və imkanları.

Təhsili modelləşdirmənin ən aktual vəzifəsi pedaqoji texnologiyanın modelləşdirilməsi vəzifəsidir. Ümumi təhsil sisteminin modelləşdirilməsinin əsas vəzifələriini aşağıdakı kimi göstərmək olar:

- müəllimlərin əməyinin stimullaşdırılması, onların yaradıcı və peşə potensialının inkişafı əsasında ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi;
- müəllimlərin və yüksək səviyyəli təhsil işçilərinin ixtisasartırma hazırlığı;
- səmərəli fəaliyyət göstərən təhsil müəssisələrinin şəbəkəsinin yaradılması;
- müasir təhsil infrastrukturunun yaradılması;
- təhsil müəssisələrinin tədris, laboratoriya, idman və kompüter avadanlıqlarının modernləşdirilməsi;
- distant təhsil texnologiyasından istifadə etməklə yeni təhsil keyfiyyətinə nail olmaq.

Pedaqoji texnologiyaların modelləşdirilməsində ən populyar vəzifələr müəyyən mövzunun öyrənilməsi səviyyəsi, tələbə şəxsiyyətinin, özünü-reallaşdırma texnologiyasını modelləşdirməkdir. Modelləşdirmə həm təhsilin nəticəsi, həm də pedaqoji fəaliyyətdə tələbələrin yaradıcılıq fəaliyyətinin inkişafı üçün səmərəli istifadə olunan bir vasitə kimi qəbul edilir. Təlimdə modelləşdirmədən istifadə etmək üçün əsas rolu modelin və eksperimentin oynadığı modelləşdirmə vasitələrinin təsnifatını nəzərə almaq lazımdır. Modellərdən istifadə təcrübəni düzgün qurmağa imkan verir və bu da öz növbəsində modeli yeniləşdirir və modellərin köməyi ilə yeni biliklər verir.

Bu baxımdan pedaqoji texnologiyanın modelləşdirilməsində potensial əhəmiyyətli **konstruksiyalarını** aşağıdakı kimi müəyyən etmək olar:

• bir kateqoriya kimi pedaqoji texnologiya ilə birbaşa əlaqəli anlayışların və pedaqoji fəaliyyətin qurulması;

• pedaqoji texnologiyanın bir kateqoriya kimi

və pedaqoji fəaliyyətin qurulması ilə bilavasitə əlaqəli anlayışların xətti və çox səviyyəli təriflərinin qurulması;

• pedaqoji problemlərin həlli yolu kimi pedaqoji texnologiyanın əsaslarını müəyyən edən struktur-məntiqi modellərin qurulması;

• pedaqoji texnologiyanın əsaslarının həyata keçirilməsi üçün funksional, fəaliyyət, konseptual, sistem-akmeoloji və digər modellərin qurulması və s.(4, s.43).

Pedaqoji texnologiyalardan istifadə etməklə pedaqoji fəaliyyət problemlərinin həllində pedaqoji modelləşdirmədən istifadənin keyfiyyətinin yüksəldilməsi zəminində müasir təhsil və peşə - iş münasibətlərinin qurulmasında modelləşdirmədən istifadə problemlərinin həlli meyllərini və komponentlərini aşağıdakı kimi ayırmaq olar:

- pedaqoji modelləşdirmə üsulu ilə müxtəlif pedaqoji konstruksiyalara, o cümlədən nəzəriyyələrə, texnologiyalara və modellərə verilən fenomenin elmi xarakteri;

-müəllim işində pedaqoji modelləşdirmə vasitələrinin mövcudluğu;

- elmi tədqiqat işlərinin nəticələrinin pedaqoji tədqiqatda obyektivləşdirilməsi.

Fərdin nosfer sisteminə daxil edilməsi, cəmiyyətin, mədəniyyətin fəaliyyətində istifadə olunan pedaqoji texnologiyalar müəllim və tələbə üçün aşağıdakı uğurlara zəmanət verir:

- insanın sosillaşması və şəxsiyyət kimi formalaşması (özünüifadə etmə və psixokorreksiyanın kütləvi ünsiyyət üsulları texnologiyaları);

- uyğunlaşma (müxtəlif fəaliyyət sahələrində xüsusi ehtiyacı olan insanlarla pedaqoji dəstək);

- klassik mənbələrdə - kitablar, dərsliklər, lüğətlər və s. ilə işləmək (ənənəvi tədris texnologiyaları);

- tələbənin informasiya və proqram-informasiyasının inkişafı (informasiya və rabitə texnologiyası növü);

- müxtəlif sosial və peşəkarlıq tələb olunan axtarış sahələrində təlim layihələri (məhsuldar təlim texnologiyası, layihə təlimi texnologiyası və s.);

- sağlamlığın qorunması və fərdin rəqabət qabiliyyəti (bədən tərbiyəsi və idman texnologiyası, əməkdaşlıq texnologiyası, özünütəsdiqləmə);

- antropoloji cəhətdən müəyyən edilmiş münasibətlər sistemində istiqamətləndirmə (monitorinq və diaqnostik texnologiyalar, keyfiyyətə təminat texnologiyası və şəxsiyyətin özünüinkişaf etdirmə ) və s. (4,s.36).

Pedaqoji texnologiyalarda təsnifat parametrləri, əsasları müxtəlif mövcud elmi və tədris ədəbiyyatının (6; 7; 8) mənbələrində təsvir edilmişdir. Bu mənbələrdə göstərilən təsnifata əsaslanaraq **pedaqoji modelləşdirmənin xüsusiyyətlərini** aşağıdakı kimi göstərmək məqsədəuyğun olar:

**1. Fəlsəfi əsaslarla pedaqoji texnologiyalar** aşağıdakı kimi ayırd edilir:

- elmi və qeyri-elmi (ezoterik, kvazi elmi, dini-dogmatik və s.);
- materialist, idealist, dualist;
- dinamik və statik;
- sərt şəkildə sabit və özünü təşkili;
- humanist və anti-humanist;
- antroposofik və teosofik;
- praqmatik və irrasional;
- azadlıq və məcburiyyət və s.;

**2. Tətbiqetmə səviyyəsinə görə pedaqoji texnologiyalar** fərqləndirir:

- ümumi pedaqoji, xüsusi metodiki (mövzu), yerli (modul);
- münasibətlər tərzinə görə, idarəetmə, qarşılıqlı əlaqə, pedaqoji texnologiyalar ayırd edilir: avtoritar, demokratik, liberal (liberal- əvəzedici);
- aparıcı inkişaf amilinə görə pedaqoji texnologiyalar ayırd edilir: biogen, sosiogen, psixogen;
- təcrübənin mənimsənilməsinin elmi konsepsiyasına görə pedaqoji texnologiyalar fərqləndirir: assosiativ-refleks, davranış, inkişaf edən, təklifedici, adaptiv;
- ənənəvi texnologiyalar - fənlər üzrə bilik, bacarıqların formalaşdırılması;
- əməliyyat texnologiyası - zehni hərəkətlərin yollarının formalaşması;
- emosional - bədii və emosional-mənəvi texnologiyalar - estetik və mənəvi münasibətlər sahəsinin formalaşması;
- özünüinkişaf etdirmə texnologiyaları - şəxsiyyətin özünüidarəetmə mexanizmlərinin formalaşdırılması;
- evristik texnologiya - yaradıcı qabiliyyətlərin formalaşması və inkişafı;
- tətbiq olunan texnologiya - effektiv praktik sahənin formalaşması və s.

**3. Məzmun və quruluş xarakterinə görə pedaqoji texnologiyalara** aşağıdakılar aiddir:

- dünyəvi və dini;
- təlim, tərbiyə, inkişaf, uyğunlaşma, sosiallaşma;
- ümumi və peşəkar;

- humanist və texnokratik;
- humanitar, təbii-elmi və mədəni texnologiyalar;
-monotexnologiyalar, politexnologiyalar (kompleks) və nüfuz edən texnologiyalar.

Təhsiln modelləşdirilməsi strukturunda tətbiq olunan adaptiv təlim texnologiyasının səviyyələri:
- tələbə nailiyyətlərinin keyfiyyətini və xüsusiyyətlərini (portfel, söhbət, müşahidə və s.) müəyyənləşdirmək və tədqiq etmək səviyyəsi;
- fərdi təhsil alma modelinin inkişafı, tənzimlənməsi və tətbiqetmə səviyyəsi;
- qabiliyyətlərinin reallaşdırılması strukturunda şəxsiyyətin formalaşmasının mümkünlüyünü və keyfiyyətini təyin edən uyğunlaşma təlimindən başqa tədris növünə keçid səviyyəsi.

Pedaqoji texnologiyanın qiymətləndirmə modelinin istiqaməti müəyyən edilmiş ziddiyyətin və ya seçilmiş pedaqoji vəziyyətin obyektiv yoxlanılması imkanını müəyyənləşdirən pedaqoji fəaliyyət problemlərinin həlli keyfiyyətinin ideal şəkildə bərpası üçün vahid sistemin yaradılmasından ibarətdir. **Pedaqoji texnologiyanın modelləri aşağıdakı mənalarda** işlədilir:

Pedaqoji texnologiyanın modeli (**geniş mənada**), inkişaf səviyyəsi iddia olunan pedaqoji texnologiyanın didaktik proqramı - pedaqoji dəstəyə, şagirdin qabiliyyətinin inkişaf keyfiyyətinin idrak metoduna uyğun gələn, vahid baxışı təmin edən və həyata keçirilən pedaqoji sistemdir.

Pedaqoji texnologiyanın modeli (**dar mənada**), xüsusiyyətləri pedaqoji texnologiya tərəfindən fəaliyyət yolu kimi çoxaldılan, pedaqoji fəaliyyət problemlərinin müəyyənləşdirilməsi və həlli strukturunda həqiqətən müəyyən edilmiş şərtlərin, ziddiyyətlərin ideal şəkildə həyata keçirilməsidir.

Pedaqoji texnologiyanın modeli (**birləşdirilmiş mənada**) birlikdə mütəşəkkil pedaqoji texnologiyanın məlumatlarını müəyyənləşdirici və struktur məntiqi sxemlər sistemində vahid şəkildə (işıqlandırmaq, saflaşdırmaq, sistemləşdirmək, dəyişdirmək, yoxlamaq, araşdırmaq, optimallaşdırmaq, nəzəriyyə şərtlərini, imkanlarını, yollarını və s. iddia edilən pedaqoji texnologiyanın üsulları, vasitələrini) həyata keçirməkdir.

**Pedaqoji texnologiyaların aşağıdakı modelləri fərqləndirilir:**
- pedaqoji texnologiyanın **funksional modeli** - müəllim işində təsvir olunan texnologiyanın imkanlarının nəzərə alınmasını təmin edən pedaqoji texnologiyanın bütün müəyyən vahidlərin birliyində fəaliyyət və imkanlarını müəyyənləşdirir;
- pedaqoji texnologiyanın **prosessual modeli** – bu model pedaqoji texnologiyanın istifadəsi strukturunda həyata keçirilən pedaqoji prosesi müəyyənləşdirir;
- pedaqoji texnologiyanın **dəyər-semantik modeli** - bu model pedaqoji texnologiyanın istifadəsinin bütün komponent imkanlarının vəhdətindəki dəyərləri və mənaları müəyyənləşdirir;
- pedaqoji texnologiyanın təsviri quruluşunda **hədəf təyinetmə modeli** - məqsəd və vəzifələrin müəyyənləşdiricilərinin birləşməsi ilə müəyyən edilir, bu modelin həyata keçirilməsinin keyfiyyəti pedaqoji texnologiyanı tərtib edən müəllimin səviyyəsindən və imkanlarından asılıdır.

Pedaqoji texnologiya həyata keçirilən fəaliyyətin keyfiyyəti barədə obyektiv məlumatların göstərilməsi yolu kimi, problemin, məqsədin, vasitələrin, metodların və təşkil olunmuş işin nəticələrinin axtarışı xüsusiyyətlərini müəyyənləşdirir (4,s.22).

Müəllimin peşə inkişafı strukturunda pedaqoji modelləşdirmə və onun davamlı təhsil sisteminə daxil edilməsi mütəşəkkil fəaliyyətin bütün tərkib hissələrinin məhsuldar təyini üçün prioritetləri və imkanları müəyyənləşdirir.

Beləliklə təhsiln modelləşdirilməsi konteksti bizə tədris vasitələrinin səmərəli təşkil etməklə, onların əsasında təhsil prosesinin mühüm tərkib hissəsi olan, digər komponentlərinə əhəmiyyətli dərəcədə təsir göstərən müxtəlif təlim vasitələrindən (məqsədlər, məzmun, formalar, metodlar, səmərəli tədris və pedaqoji ünsiyyət) istifadə etməklə yeni pedaqoji texnologiyalar yaratmağa imkan verir.

Təhsil sistemində modelləşdirmə texnologiyalarının məqsədyönlü istifadəsi, fikrimizcə, yeni keyfiyyətli biliklərin formalaşmasına kömək edəcəkdir.

**Açar sözlər:** *təhsil, modelləşdirmə, model yanaşma, fəaliyyət, pedaqoji texnologiya, prinsip.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan Respublikasının Təhsil haqqında qanunu (2009), Bakı,"Bakı Çap Evi" 2012. 64 s.*

*2. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası". "Azərbaycan müəllimi" qəzeti, 25.10.2013-cü il, №41.*

*3. Məmmədzadə R. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı: "Müəllim", 2010. – 170 s.*

*4. Nəzərov M.H., Quliyev N.Z., Nəzərova X.M. Pedaqoji texnologiyalar. (Dərs vəsaiti) Bakı. ADPU-2020. ADPU-nun nəşriyyatı. 496 s.*

*5. Nəzərov M.H.Təhsilin sosiomədəni əsasları. Monoqrafiya. Bakı: 2017, 256 s.*

*Rus dilində*

*6. Афанасьев, В.В. Педагогические технологии управления учебно-познавательной деятельностью студентов: Монография. М. Педагогические общество России, 2002. 272с.*

*7. Волков В.Л. Моделирование процессов и систем в приборостроении. - Арзамас: АПИ НГТУ, 2008. - 143 с.*

*8. Факторович А.А. Сущность педагогической технологии // Педагогика. – 2008. – №2. – С.19-27.*

*9. Ядровская М.В. Средства моделирования в обучении // Вестник ЯГУ. – 2010. – Т. 7, № 1. – С. 89-95.*

**Муслим Назаров**

**Педагогические технологии в контексте моделирования образования**

**РЕЗЮМЕ**

В статье анализируются возможности выявления моделей, функций, принципов, тенденций педагогических технологий в источниках педагогического моделирования и педагогической деятельности. Для повышения качества решения проблем будущим учителям предлагаются модели для построения тех или иных наиболее популярных педагогических технологий. Определены принципы оптимального моделирования педагогических технологий, перспективы их использования в модели непрерывного образования в сферах образования и продуктах деятельности. Качество педагогического моделирования условий и структур в структуре продуктивного поиска учителя в модели построения и детализации педагогической технологии определяется сочетанием профессиональных педагогических способностей и умений.

**Ключевые слова:** *образование, моделирование, модельный подход, деятельность, педагогическая технология, принцип.*

**Muslim Nazarov**

**Pedagogical technologies in the context of education modeling**

**SUMMARY**

The article analyzes the possibilities of identifying models, functions, principles, tendencies of pedagogical technologies in the sources of pedagogical modeling and pedagogical activity. In order to improve the quality of problem solving, future teachers are offered some models for the construction of one or another of the most popular pedagogical technologies. The principles of optimal modeling of pedagogical technologies, perspectives of their use in the model of continuing education in the fields of education and products of activity are defined. The quality of pedagogical modeling conditions and structures in the structure of the teacher's productive search in the model of construction and detailing of pedagogical technology is determined by the combination of professional pedagogical abilities and skills.

**Keywords:** *education, modeling, model approach, activity, pedagogical technology, principle.*

# MÜNDƏRİCAT

## SİYASİ ELMLƏR

XƏYYAM İSMAYILZADƏ: MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ LİBERALİZMİN XARAKTERİK ƏLAMƏTLƏRİ.................................................................. 5

ЭЛЬДАР АМИРОВ: ВАЖНОСТЬ ИСЛАМСКОГО ПРОСВЕЩЕНИЯ В АЗЕРБАЙДЖАНЕ В КОНТЕКСТЕ ВНУТРЕННИХ И ВНЕШНИХ ИДЕОЛОГИЧЕСКИХ УГРОЗ РЕЛИГИОЗНОГО ХАРАКТЕРА: НАСЛЕДИЕ И РЕАЛИИ СОВРЕМЕННОСТИ (К ВОПРОСУ ИДЕОЛОГИЧЕСКОЙ БЕЗОПАСНОСТИ)....................................................... 8

ŞƏBNƏM HƏSƏNOVA: AVROPA İTTİFAQI VƏ AZƏRBAYCAN RESPUBLİKASI MÜNASİBƏTLƏRİNDƏ ENERJİ AMİLİNİN YERİ VƏ ROLU............................................ 15

RAMİL ALLAHVERDİYEV: STRATEGİYA ANLAYIŞI......................................................... 20

ЭЛЬВИН ТАЛЫШИНСКИЙ: ИНФОРМАЦИОННОЕ ПРОТИВОБОРСТВО КАК ЦЕЛЬ ДОСТИЖЕНИЯ ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКИ........................................................ 29

NİHAD YAQUBLU: YAXIN ŞƏRQDƏ DEMOKRATİYA NİYƏ UĞURSUZLUQLA NƏTİCƏLƏNİR?: SƏBƏBLƏR VƏ AMİLLƏR........................................................................ 34

ZÜRİYƏ QARAYEVA: QLOBALLAŞMANIN TÜRKİYƏDƏ MİLLİ DÖVLƏTƏ TƏSİRİ.. 43

CEYHUN ƏHMƏDLİ: YENİ NƏSİL MÜHARİBƏLƏRƏ NƏZƏRİ-KONSEPTUAL BAXIŞ VƏ RUSİYA YANAŞMASI............................................................................................ 48

LEYLA NƏBİYEVA: KİPR PROBLEMİNDƏ TÜRKİYƏ-YUNANISTAN MÜNASIBƏTLƏRİ. ENOZİS, QANLI MİLAD...................................................................... 54

HƏMDULLA MƏMMƏDOV: AZƏRBAYCAN RESPUBLİKASINDA İNNOVATİV DÖVLƏT QULLUĞU SİSTEMİNƏ KEÇİD PROSESİNİN XÜSUSİYYƏTLƏRİ................. 59

CEYRAN RƏHMƏTULLAYEVA: SOSİAL XİDMƏTİN FORMALARI VƏ NÖVLƏRİ.......... 65

## SOSİOLOGİYA

OSMAN HACIYEV: REGİONAL İNKİŞAF – DEMOQRAFİYADA STİMULLAŞDIRICI TENDENSİYA KİMİ....................................................................................................... 74

MƏFTUNƏ İSMAYILOVA: GENDER ZƏMİNİNDƏ MƏİŞƏT ZORAKILIĞI...................... 79

## TARİX

ASƏF HACIYEV: QARADONLU ƏHALİSİ............................................................................ 84

MƏHBUBƏ HACIYEVA: RUSİYA İMPERATOR TEXNİKİ CƏMİYYƏTİN BAKI BÖLMƏSİNİN MƏKTƏBLƏRİ.................................................................................................. 88

ELNURƏ ƏZİZOVA: ƏBU İSHAQ ƏL-İSFƏRAYİNİYƏ AID EDİLƏN "NURUL-EYN Fİ MƏŞHƏDİL-HÜSEYN" ƏSƏRİ HAQQINDA BƏZİ QEYDLƏR........................................... 94

**İQTİSADİYYAT**

NOVRUZ HÜSEYNOV: AZƏRBAYCANIN SOSİAL SIĞORTA SİSTEMİNDƏ MALİYYƏ NƏZARƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ......................... 100

NURİDƏ QASIMOVA: MODERNLƏŞMƏ - KƏND TƏSƏRRÜFATININ İNNOVATİV İNKİŞAFININ ƏSASINI TƏŞKİL EDİR......................................................................... 108

MƏMMƏD CABBARLI: BİZNESİN (MÜƏSSİSƏNİN) QİYMƏTLƏNDİRİLMƏSİNƏ METODOLOJİ YANAŞMALAR............................................................................................ 113

**FƏLSƏFƏ**

RƏŞAD CABAROV: ŞİMALİ QAFQAZDA İSLAMIN İNKİŞAF MƏRHƏLƏLƏRİNİN TƏSVİRİ İZAHI................................................................................................................ 118

**PEDAQOGİKA**

MÜSLÜM NƏZƏROV: TƏHSİLİN MODELLƏŞDİRİLMƏSİ KONSTEKTİNDƏ PEDAQOJİ TEXNOLOGİYALAR.............................................................................................. 124

**Təsisiçi:**
**“Kaspi MY” MMC**

**Korrektor:**
**Leyla Binyatova**

**Dizayner:**
**İman Hüseynov**

**Redaksiyanın ünvanı:**
**Mətbuat pr. 23M. Beynəlxalq Mətbuat Mərkəzi**
**Tel: (+994 12) 537 16 05**
**Faks: (+994 12) 537 16 05**
**E-poçt: strategiya.az@mail.ru**

**Tiraj: 500**
**Sifariş № 494**

**“Elm və təhsil” nəşriyyat-poliqrafiya**
**müəssisəsində çap olunub**

**Founder:**
**“Kaspi PD” MMC**

**Corrector:**
**Leyla Binyatova**

**Designer:**
**Iman Huseynov**

**Address of the editorial office:**
**Matbuat ave. 23M. International Press Centre**

**Tel: (+994 12) 537 16 05**
**Fax: (+994 12) 537 16 05**
**E-mail: strategiya.az@mail.ru**

**Number of copies printed: 500**
**Order № 494**

**Published by**
**“Science and Education” publishing house**